Nəriman Həsənzadə

Seçilmiş əsərləri

III

NƏRİMAN HƏSƏNZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

III CİLD

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

NƏRİMAN HƏSƏNZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## III CİLD

ASPOLİQRAF



*Yaxşı adamları daim qoruyun,*
*yaxşı adamlara halaldı hörmət.*
*Yaxşı adamlara keşikçi qoyun,*
*dağılar, çürüyər yoxsa cəmiyyət".*

NƏRİMAN HƏSƏNZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

III CİLD

BAKI–2022

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 1 aprel 2021-ci il tarixli 33-f nömrəli əmri ilə təsdiq olunmuş Nəşr Planının Tərtibi və Nəşriyyat Məhsullarının Satınalınması üzrə Komissiyanın qərarına əsasən çap olunub.

**H59 Həsənzadə Nəriman.** Seçilmiş əsərləri. III cild.
Bakı, "Aspoliqraf", 2022, 576 səh.

Azərbaycan ədəbiyyatının XX əsr poeziyasının görkəmli nümayəndələrindən olan Nəriman Həsənzadənin müxtəlif illərdə qələmə aldığı qəlboxşayan, ruha sığalçəkən, Vətən məhəbbətini tərənnüm edən, dövrün siyasi ab-havasını əks etdirən əsərləri yenidən oxucuların ixtiyarına verilib. 60 ildən artıq böyük bir oxucu ordusunun dilinin əzbərinə çevrilən, yaddaşına həkk olunan bu poeziya nümunələri inanırıq ki, yeni nəslin də zövqünü oxşayacaq, doğma poeziyamızı onlara sevdirəcək.

$H\frac{4702060202}{053}2022$

**ISBN:** 978-9952-564-54-9

**© Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2022**

## AY HARAY

İllərim arxada qaldı,
arxada qan-qada qaldı.
Əkdim-biçdim, yada qaldı,
doğma torpaqlar, ay haray!

Kol dibində bənövşələr,
dağlara qalxan meşələr!
Gedən oğullar, kişilər,
sönən ocaqlar, ay haray!

Düşmən aldı solu-sağı,
kar olsun yerin qulağı.
Şuşada İsa bulağı,
yenəmi qaynar, ay haray.

Ay Qubadlım, Kəlbəcərim,
hardasan, Nəbim, Həcərim!
Dindirmə çölüm, içərim
od tutub yanar, ay haray!

Füzulidən Cəbrayıla,
şəhid oğullar ayıla.
Qışqıram, səsim yayıla,
bata qulaqlar, ay haray!

Yandı Ağdamın ağ daşı,
köhnə yurdun ocaq daşı.
Ağdamın Qarabağ yaşı,
o köklər, soylar, ay haray!

Müsibət oldu Xocalı,
hacıleyləklər uçalı.
Yandı cavanlı, qocalı,
mərdlər, qoçaqlar, ay haray!

Zəngilanda zəngi tutun,
at minin, üzəngi tutun.
Bir Koroğlu cəngi tutun,
tərpənsin dağlar, ay haray!

Tovuz, Qazax, Ağstafa,
Sədərək çox çəkdi cəfa.
Ermənini qova-qova,
ölümlə oynar, ay haray!

Od içindən keçə-keçə,
Laçını da verdik heçə.
Bir gözüm baxar beləcə,
bir gözüm ağlar, ay haray!

*20 aprel, 1997*

## SİRR DEYİL

Mənim sağlığıma içdilər dünən,
dedi arzuna çat bir nəfər, dünən.
Siz çatın, mən amma çatmayacağam,
mən heç vaxt arzuma çatmayacağam.

Mənim arzum hara, daha mən hara,
xatirə söyləsəm... bu bir yığındı.
Mən arzuma çatsam, bədbəxt olaram,
bəlkə, xoşbəxtliyim çatmamağımdı.

Kim isə, bəlkə də, burda susacaq,
nə deyim,
yox, o da müqəssir deyil...
Xoşbəxt olmaq ilə – arzuya çatmaq,
mən sizi bilmirəm, məncə, bir deyil.
Bu da sirr deyil.

## 29 GÜLLƏNİN YİYƏSİ

Atəş!
Şəmkirdə atəş!
havada, yerdə atəş!
Vurdular Aslanovu,
bir icra başçısını,
ailə başçısını.
Yarıda saxladılar
atasının yasını.

Millət, qır millətini,
göstər tayfa üzünü,
kölə xasiyyətini,
qəbilə niyyətini.
Arzu dolu ürəyi,
həyat dolu gülüşü,
məhəbbət dolu gözü
atəşə, atəşə tut,
bir az hikkəni soyut.
Nəfəs al, toxta bir az
sənin tərəfindədi
dediyin haqq da bir az.
Haqqa, vicdana and iç,
tökdüyün qana and iç.

And içirlər başına,
burda maya qoyurlar:
Aslanın başdaşına,
ananın göz yaşına,
gəlinin göz yaşına.
Yaxşılıq, mehribanlıq,
mərdlik, cəsarət, hünər!

Tikir, qurur, yaradır,
öldürün onu, yetər!
Millətə nə deyəcək
xəbər tutsa, gürcülər?!
Şəhid ailələri,
onu xəbər alanlar,
ehtiyacda qalanlar,
orda soydaşlarımız,
düşünən başlarımız,
səkkizmilyonluq ölkə?
Biz köçüb gedəcəyik,
getməyəcək bu ləkə.

Bir para vəzifəli,
bir para vəzifəsiz,
qərəzli, ya qərəzsiz
qısqanır nüfuzuna,
adına, ünvanına.
Süfrəsində "Tost" deyən
susayıbdı qanına.
Şıxəlinin dalınca
göndərin, getsin o da.
Maqsud Əlizadənin,
ya Qəşəm Aslanovun
dalınca... Aslanı da!

...Yol boyu tanış edir
sözarası o məni.
O günü yada salır
bu gün əsən sərt külək.
Maşında yeri qalıb
29 güllənin
pencəyindən kəsilən
düymələrin yeritək.

Yenə yardım aparır,
yenə haraya gedir?
Burdan buraya qaçır,
ordan oraya gedir.
Qəlbində İstiqlalın
odu, eşqi, həvəsi.
29 güllənin –
mükafatın yiyəsi.

*Şəmkir, iyun, 1999*

## TALE

Yanında baldızı, nəzarətçisi,
boynunda, qolunda qiymətli daşlar!
Tale görüşdürdü qəfildən bizi,
yaxşı ki dünyada taleyimiz var.

Tanıyan o idi, tanımayan mən,
ah, onun həyata sualı nəydi?!
Bir şeyi bilmədim, nəzarət hökmən
üstəki daş-qaşa, ya özünəydi.

Zəncir biləyində xalis qızıldan,
üzük barmağında başqa bir ovsun.
Qandal eşitmişdim,
amma heç zaman
qandal görməmişdim, qızıldan olsun.

Soruşmaq istədim mən onu ondan,
gördüm ki, özü də məəttəl qalıb.
Mənim əzizimdən, mehribanımdan
yad baxış,
yorğun səs,
soyuq əl qalıb...

Budurmu xoşbəxtlik, yaxud səadət,
budurmu dünyanın ağız ləzzəti?!
Almazın, yaqutun içində, fəqət
mən ağlayan gördüm bir məhəbbəti.

Əzizdir hər kəsin eşqi, niyyəti,
Hər qəlbin ilk sözü bir ünsiyyətdi.
Kişinin ən böyük mədəniyyəti,
bəlkə də, qadına münasibətdi.

Bir müdrik misalı gətirdim yada,
sən də ər evində bir az ayıq ol.
Qızıl basdırılır, çıxarılır da,
insan basdırılır torpağa bir yol.
Bir az ayıq ol.

# MİR CƏLAL MİSAL ÇƏKƏRDİ

İş axtarma, adam axtar,
Mir Cəlal misal çəkərdi.
Sonra bildim, ustadımın
gözü niyə yol çəkərdi.

Tələbənin atasıydı,
yerdə Tanrı sədasıydı.
"Məqbul" vaxtı qaydasıydı,
soruşmamış qol çəkərdi.

Sayardı onu sayanda,
hörmətə hörmət qoyanda.
Ürəyinə yatmayanda
əl verməzdi, əl çəkərdi.

Gah xeyiri şər olubdu,
gah balı zəhər olubdu,
Amma zəri zər olubdu,
o zəhərdən bal çəkərdi.

"Hal-əhli" kef eləyəndə,
özünü məhv eləyəndə,
Nəriman səhv eləyəndə
dərdi Mir Cəlal çəkərdi.

*May, 2003*

# TƏLƏBƏLİK

*Bacım qızı Fəridəyə*

Durur ayrıldığım kölgəli çinar,
durur Gəncədəki bizim institut.
Xəyalım bir yerdə tutmadı qərar,
illəri andırdı biranlıq sükut.

Neyləyim, unutmur insan ürəyi,
yaşadım dünyada könlüyanıqlı.
Düz dörd il geyindim köhnə pencəyi,
qolu gödək oldu, boynu yamaqlı.

O pencək saxladı məni soyuqdan,
doğru danışmağı çoxu ar bilir.
Əynindən çıxardıb vermişdi atan,
heç kəs bilməsə də, qonşular bilir.

Bəzən ac da qaldım, daha nə danmaq,
danışıb-gülməyə könlüm olmadı.
Şeirim qəzetlərdə çap oldu, ancaq
bir qəzet almağa pulum olmadı.

Lakin bu dərdimi bilmədi heç kim,
mən bildim qədrini sevincin, qəmin.
Arabir xəlvəti baxıb sevindim
təzə yamağına köhnə çəkməmin.

Gülmə, görməmisən o sevinci sən,
xoşbəxt böyümüsən, xoşbəxt ol, anam.
Bir də, bilirsənmi, mən o sevincdən,
dünyada heç kəsə arzulamıram.

Oldu sevincim də, oldu qəmim də,
bir tələbə qıza könlümü verdim.
Onun hər sözünü öz aləmimdə
seminar dərsitək əzbərləyirdim.

Deyirdim, nə qədər baha olsa da,
gərək üzük alım, bu bir adətdi.
Ancaq avtobusun keçib yanından,
piyada gedirdim dərsə arabir.

Qoy indi ağrısın, vicdanı varsa,
girdi aramıza onda bir nəfər.
Bir gəncin taleyi alt-üst olursa,
ağırdı dağılan ailə qədər.

Fikir ver hökmünə sən misalların,
deyir, su quyunun dibində olur.
Hayıf ki, ürəyi bəzi qızların
başqa oğlanların cibində olur.

Qoy bir söz də deyim, çıxartma yaddan,
bu da, necə deyər, bir məsləhətdi.
Çalış ki, əvvəlcə yanılmayasan,
təəssüf ikinci məğlubiyyətdi.

Ömrün yolları da pilləkan kimi,
gendən ucalara lap çox baxmışam.
Mən o pillələrlə bir insan kimi
gör ki necə gəlib, necə qalxmışam.

*1964*

## MƏNDƏN
## YAMAN RAHATDILAR

Soyuq sökür kürəyimi,
ağrı didir ürəyimi.
Yatıram, buz xörəyimi
qızdırıb gətirən yoxdu.

Evdə özüm, çöldə özüm,
təkliyə öyrənib gözüm.
Andıra qal, belə dözüm,
üzümə bir gülən yoxdu.

Hərdən Gülüş yada salır,
hərdən Xətiş xəbər alır.
Hərdən Nazim bir zəng çalır,
Gələn varmı?
Gələn yoxdu.

Soruşmağa babatdılar,
şükür, sağ-salamatdılar.
Məndən yaman rahatdılar,
hələ ki bir ölən yoxdu.

*2000*

# DAİM GÖZ ÖNÜNDƏ

Həyatın qəribə məqamları var,
kim isə sağlamdı, nasaz görünür.
Dərinə bənzəyir bulanlıq sular,
duru su dərindi, dayaz görünür.

Baxma bu dünyaya belə könülsüz,
dünyada nə var ki, o xoşa gəlsin.
Səadət qəm ilə şərikdi, sözsüz,
görmədim –
qış ilə yaz qoşa gəlsin.

Sən elə gözəlsən, sən elə həssas –
könlündən könlümə bir işıq düşüb.
Səni hər tanıyan yaxşı tanımaz,
yaxşılar pislərlə qarışıq düşüb.

Göyərçin kimisən – daima səssiz,
dümağsan, elə bil səni qar tutub.
Geyimin gözəldi, zövqün əvəzsiz,
niyə gözlərində qəm qərar tutub?!

Vermə od sinəni hər əsən yelə,
dünya od sinənə bir inci qoyub.
Bir ömür nədir ki,
onu da belə;
qəmə həsr edəsən, sevinci qoyub?!

Ömürlük qalacaq amma bu duyğu;
bu ildən o ilə sirri daşımaq.
Nə qədər çətindi, bir ömür boyu
daim göz önündə
gizli yaşamaq.

## DÜNYA YAŞAMAQ YERİYMİŞ

Yol içində gül bitibdi,
bu yer köhnə bağ yeriymiş.
Dünya bir pəncərə deyil,
dünya yaşamaq yeriymiş.

Sən ey gözəllik tanrısı,
nə xoşdu ömrün mənası.
Sənin qolların arası –
küsüb-barışmaq yeriymiş.

Gəlib çıxmırsan xeyli var,
demirsən, bir gileyli var.
Əhmədlidən gələn yollar
nə yaman uzaq yeriymiş…

# ƏLİ BALA

*Kürəkənim Əliyə*

Uğuruma gəlib çıxdın,
sənə qurban, Əli bala.
Səni görüb xoşbəxt olsun
Atan-anan, Əli bala.

Dar günümdə çatdın dada,
qoymadın əl açım yada.
Görməmişdim mən dünyada
belə tufan, Əli bala.

Bir həkimdən uzaq qaçdım,
o birinə ağız açdım.
Elə yandım, elə çaşdım,
əsdi xəzan, Əli bala.

Tale məni saldı dala,
yaman düşdüm haldan-hala.
Bu yaşda bu qeyli-qala
dözmür insan, Əli bala.

## BU DA BİR
## "NƏRDİVAN"DI

*Əminə Yusifqızına*

"Nərdivan" dedikcə, qalx nərdivanla,
"Nərdivan" yaşasın xeyir-duanla.
Varaqla sinəni,
ey sinədəftər,
qaymağa bal qatdı Dədə Ələsgər.
Sən qaymaq səsini sözə qatansan,
ürək tərpədənsən,
ruh oynadansan.
Bilmirəm mənəmmi, sənsənmi yazan,
şeir oxuyanda ovsunlayırsan.
Çaşır ağlım bir az, xəyalım bir az,
ovsun da oxu ki,
ayılım
bir az.





# AYAQQABILAR

Qapımızın ağzında
Əvvəl ancaq ikiydi.
Onlar da mənimkiydi.
Dörd oldu sonra bir gün.
Üç il keçdi sərasər,
Gah axşam, gah da səhər
Hey açılıb örtüldü
Bizim doğma qapılar.
Bir gün də altı oldu
Həmin ayaqqabılar.
İkisi bər-bəzəkli,
Dördü bəzəksiz oldu.
Artdı ayaqqabılar,
Sonra da səkkiz oldu.
Keçir günlər, həftələr,
Yaş üstünə gəlir yaş.
Kiçik ayaqqabılar
böyüyür yavaş-yavaş.

# GÜL

İllər gəlib keçib... qəbir itibdi,
illərə nə var ki, gəlib keçəcək.
Üstündə ən gözəl bir gül bitibdi
Ətri var, elə bil öz nəfəsintək.
Gülün xatirinə
deyirəm, – çoban
neçə yol sürünü qaytarıb, yəqin.
O gül qoymayıbdı ayaqlanasan,
Cığır salmayıblar üstündən sənin.
Bu gülün rəngində vardı bir donun,
həyatı sevirdin, axı sən, ana.
Nə deyim, bəlkə də, geyinib onu
Təzədən dünyaya gəlmisən, ana?..

# İKİMİZ

*"İstedad əsl-nəcabətdən artıqdır"*

**Volter**

Sən mənim üstümdə söz götürübsən
nadan kəkələyib lovğalananda.
Sən o kirpiyinlə köz götürübsən,
yəqin, zərifliyin itib o anda.

O duya bilməzdi nəydi bu ülfət,
bələdçi cildində nabələdiydi.
Həqiqi ləyaqət, yalançı şöhrət
üz-üzə gəlmişdi, bir qələtiydi.

Döyər sinəsinə bəzi adamlar,
coşar arsız-arsız namus-ar deyə.
Vətəni başına çətirtək tutar,
bir yaz yağışında islanar deyə.

Səni üşüdürdü soyuq nəfəsi,
gör o, ürəyini harda qırırdı.
Qadın qüruruna qəsdi-qərəzi
"kişi qeyrətinə" sığışdırırdı.

Üzr istəyəydi səndən o gərək,
nə üz lazım idi, nə də cəsarət;
Qadın qarşısında səcdə eləmək
qadın nəzərində qalxmaqdı, fəqət.

Allahın say-seçmə bir bəndəsiydi:
əsli, nəcabəti, nələr və nələr.
Eh, o da mikrofon "xanəndəsiydi",
üzdə əl çalırlar, dalda söyürlər.

# İKİNCİ ADDIM

Hər şey bu dünyada başqaydı bir vaxt,
hər şey zarafatdan başladı bir vaxt.

Həyatda ikinci addım atırsan,
yeri ehtiyatla, get ehtiyatla.
Yolu cüt gəlmişdik, tək qayıdırsan.
Zarafat eləmə sən bu həyatla.

Kömək istəyirsən darıxıb hərdən,
günahkar, bəlkə də, ancaq mən oldum.
Təsəlli verən də mənəm, sənə mən,
səni çaşdıran da bir vaxt mən oldum.

Düşmənəm həyatda təsəlliyə mən,
getmir təsəllinin vurduğu yara.
"Sənsiz yaşamaram" – deyə-deyə mən,
sənlə də yaşadım,
                sənsiz də sonra.

Daha özünündü xeyirin, şərin,
yadında bir sözüm qalacaqdımı,
gedirsən,
      ikinci addımın sənin
birinci taleyin olacaqdımı?..

## GÖRƏSƏN

Yoldaş yolda sınanır,
qardaş yolda sınanır.
Övlad harda, görəsən?
Kim tapdı,
          kim itirdi
bu yollarda, görəsən?

## İMTAHAN

Sənə imtahan verib
getdi tələbələrin,
mənası “dərin imiş”
mübtədanın, xəbərin.
Sənin təhlil etdiyin
o sadə cümlələrin.
Var olsun, sənə qurban,
“dörd”, “beş” yazan əllərin.
Xoş halına, deyirəm,
qiymət alan gənclərin.
Nə vaxtdı gözləyirəm,
sənə imtahan verim,
mənə qiymət düşürsə,
can deyirsən,
can verim.

*26.06.03*

## SEVİNCİM ÜÇÜN

Məni bağışlayın, balalarım, siz,
bəzən nə dincəlir, nə yatıram mən.
Gecələr oyanıb vaxtsız-vədəsiz
vaxt olur...
sizi də oyadıram mən.

Kimsə oyan deyir mənə, elə bil,
sinəmin qapısı səssiz döyülür.
Bəzən vərəq üstə şeir-zad deyil,
gözümdən yarımçıq yuxu tökülür.

Bəlkə də, şairlik başlanır o dəm,
başlanır axını sözün, döyüşün.
Sizdən
səhər-səhər üzr istəyirəm –
gecəki bir şeir sevincim üçün.

## QORXURAM "ANAMA" MƏN ANA DEYİM

*Qızım Xatirəyə*

– Bir qadın anama oxşayır, ata,
üzü, görünüşü, boyu-qaməti.
Gülüşü ürəkdən, yerişi asta,
bir əl yaradıbdı iki xilqəti.

Anamda görmüşdüm o baxışları,
onundu o gözlər, o qaşlar, ata.
Yuyub daramışam mən o saçları,
o ətrə bələnib bu saçlar, ata.

O necə özgədir? – deyirəm hərdən,
özgələr yanında doğmamdı, ata.
Gedənlər qayıdır, bəlkə, yenidən?
o da qayıdıbdı, anamdı, ata.

Dünyanı bir qadın gözəli gəzir,
dünyada yaşayır özündən ayrı.
Get barış, o, bəlkə, küsülü gəzir?
bizdən də yan keçir, o səndən ayrı.

Qadınlar köyrəkdi, qəm yeyə bilər,
İlahi söz deyir o baxış, ata.
Qadınlar hər şeydən inciyə bilər,
nəvaziş gözləyir, get barış, ata.

Nə qədər həsrətdi dilim bir sözə,
nə deyim, soruşma o nədir, ata.
Yəqin, hansı qızın anası varsa,
Allahı göydə yox, yerdədir, ata.

Həyat gözlərimdə təzə don geyir,
arzumu, sirrimi qoy ona deyim.
Məni hər görəndə o, “qızım”, deyir,
qorxuram, “anama” mən ana – deyim.

## YAZIQ FİL

Nə qədər yaşayırsan...
Fərqi yox uzun ömrün.
Yalnız
öləndən sonra
qiymətlidi sümüyün.

*1969*

## TÜFƏNG

Hələ bir çiyindən o asılmayıb,
lüləsi alovlar saçmayıb hələ.
Çöllərdə
bir ceyran hələ sağ qalıb,
ağacda
        bir yuva uçmayıb hələ...

## PAYIZ ETÜDLƏRİ

Deyirəm,
saralıb solduqca bağlar,
niyə qan qaynayıb-qarışmayır heç?
Dünən ağaclara bəzək yarpaqlar
indi budaqlara yaraşmayır heç.

Buludlu, çiskinli açılır səhər,
günəş şüasını yeridə bilmir.
Sular buz bağlayır, –
salxım söyüdlər
yuyub saçlarını quruda bilmir.

Kimsə xəbər verir:
qar yağacaq, qar...
yozur dekabrın havalarını.
Bir az kip bağlayır bizim qonşular
eyvana açılan qapılarını.

İstisi getdikcə candan baharın,
isti paltarını geyir camaat.
Nəinki özünü,
gözəl qızların
palto –
yaşını da dəyişir, heyhat!

Hava görürsən ki, xeyli sərindi,
başqadı ürəyin əhvalı indi.
Qocalar sahildən azalır
bir-bir,
gənclər iki-iki çoxalır indi.

Gecələr parlayır sular – gümüşü,
işıqdı sahildən Xəzərə kimi.
Bakıda
dənizlə ayın görüşü
uzanır axşamdan səhərə kimi.

Hər rəng min ürəyə, min qəlbə sirdaş,
hər fəsil – ən gözəl bir duyğu kimi.
Hər şey öz vaxtında dəyişəydi kaş,
hər şey...
təbiətdə olduğu kimi.

*1968*

# SƏRHƏD

Səhərdi...
gül-çiçək ətrini yayır,
Arazın üstündən – çən, duman keçir.
Gün çıxır, sərhədi kölgəm addayır
sərhəd
yanımdan yox, ortamdan keçir...

*1968*

## UŞAQ...

Uşaq
gəldi nagahan,
bir xəbisin önündə
durub güldü, mehriban.
Sevindi körpə üzü.
Uşağa yox, İlahi,
uşaqlığa ilk dəfə
heyran qaldım mən, düzü.

*1968*

# DEYİLMİŞ

Gəlib çatdım yetmiş beşə,
düşdüm neçə keşməkeşə.
Heyf dedim mən yetmişə,
bu yaş o yaşdan deyilmiş.

Açılan gördüm, bükülür,
tikilən gördüm, sökülür.
Dağlar ələnir, tökülür,
daş özü daşdan deyilmiş.

Deyirlər, insan kölgədir,
gün batanda kölgə itir.
Qalan ya sözdü, ya fikir,
yaşayan ad-san deyilmiş.

Adəmdən, Həvvadan bəri
aldadır bəşər-bəşəri.
Gözümlə gördüm məhşəri,
insan heç insan deyilmiş.

Gəlib bu yaşa çatmışam,
ağır yuxuda yatmışam.
Yatan divi oyatmışam
o da Nəriman deyilmiş.

*17.02.2007*

# XALQ ARTİSTİ ƏMİNƏ YUSİFQIZINA

Gör necə qarışıb qəmim qəminə,
ixtiyar sahibi, biixtiyarsan.
Mənim yazdığımı oxu, Əminə,
mənim yandığımı demə, yanarsan.

Mənə demişdilər, dünya işıqdı,
yenə yolum uzaq, səbrim az oldu.
Mənim ki bu qədər alnım açıqdı,
niyə alın yazım oxunmaz oldu?!

Sənin pıçıltında bir etiraz var,
bir göy gurultusu, bir leysan bulud.
Sözü sükutla da anlatmaq olar,
təki söz söz olsun,
sükut da sükut.

Bir sevda yoludu könül təsəllim,
kimə tanıdırsan divanə məni?!
Külə döndüyümü görəndə bildim,
necə yandırıblar, Əminə, məni.

*23.01.2001*

# DOĞMALIQLA ÜZ-ÜZƏ

Ürəyim düşərdi bəzən qorxuya,
gecələr tək qalsam,
oyaq mən idim.
Elə ki, yay gəldi, düşərdim suya,
Kürdəki ən iri balıq mən idim.

Sərin kölgəliklər
süfrələr kimi,
açılıb qarşımda qızanda torpaq.
Günəş divarlara çəkib şəklimi,
fotoqrafdan qabaq, rəssamdan qabaq.

Danlağın rəngini yanaqlarımda,
tikanın özünü ayaqlarımda,
tikanlı sözləri qəlbimdə
bəzən
bu yaydan o yaya gəzdirmişəm mən.

Yaşadım, donmadım soyuqda, qarda
şəkilim güzgülü göllərdə qaldı.
Mənim ayaqqabım
mağazalarda,
ayaq ləpirlərim çöllərdə qaldı.

Elə bil sağıma qar ələnir, qar
elə bil solumu gün yandırır, gün.
Xəfif bir fərəhlə
kədərlənmişəm,
xəfif bir kədərlə sevinirəm mən.

# VYETNAMLI YAŞIDIMA

Daşkənddəyəm xeyli var,
hava bu gün istidi.
Mən dənizə gedirəm
çimmək üçün,
istidi.
Sən döyüşə gedirsən –
kölgən dərədə, düzdə.
Sən səngərdə yatırsan,
mən isti qumun üstə.
Demə, mən dincəlirəm,
ürəyim narahatdı.
Bunu doğru deyiblər:
mübarizə həyatdı.
Sən atdığın silahı
Mən atmaq istəyirəm.
Sən qalxdığın səngərdə
mən yatmaq istəyirəm.
Səninkidi səadət,
bir millət ki vuruşur, –
demək, öz əlindədi
vətənin qurtuluşu.

Məni günəş yandırır,
səni qəzəb, bir də kin.
Mənim bədənim yanır,
sənin qaynar ürəyin!
Mən qızlara baxıram!
zont, lifçik, qara eynək,
könlümdən öpüş keçir.

Sən vəhşi yankilərə
baxırsan,
ürəyindən
ölüm, qan, döyüş keçir.
Sahildəki daş kimi
qum üstündə yanıram.
Fikrimin təsbehini
çəkib xumarlanıram.
Qum üstə barmağımla
yüz cürə xətt çəkirəm.
Ölümlərə, qanlara
qəlbimdə sədd çəkirəm.
Düşmən,
nə qədər desən...

*1965*

# İSA MUĞANNA

Gördük, dediyindən dönmədiyini,
"İdeal" olunca,
sən "Məhşər" oldun.
Dedin Plutarxın demədiyini,
mənim soykökümdə xoşxəbər oldun.

Candan can ayrıldı, sığdı bir cana,
İsa Hüseynovdan
İsa Muğanna!
Yazdığın əsərlər dursun bir yana,
özün yazılmamış şah əsər oldun.

Özünü dananlar ucaldı, İsa,
özündən deyənlər puç oldu, İsa.
Bilmədim tez oldu, gec oldu, İsa,
mən Odlar yurduydum,
sən Od Ər oldun.

Hansı planetdə qalxdın ayağa?
Necə bağban idin, girdin o bağa?
Mən ki səninkiyəm, ay İsa qağa,
orda nə gördün ki, birtəhər oldun,
belə əziz oldun, mötəbər oldun?!

Yazıldı alnına haqdan taleyin,
haqqın dərgahına qalxan taleyin.
Qaçan özün oldun, qovan taleyin,
axırda özünə bərabər oldun.

*İyun, 2008*

## CAMAL MÜƏLLİM

*80 illiyinə*

Allah bir ömürü bir babat verir,
verəndə yüzü də mükafat verir.
Adını çəkəndə ağzım dad verir,
ağzın şirin olsun, Camal müəllim.

Səni hər görəndə göz də sevinir,
üz ki gülümsəyir, üz də sevinir.
Sizə gedən yol da, iz də sevinir,
eviniz şən olsun, Camal müəllim.

Yaş gedir, dünyanın çarxıdı, – demə,
dəryalar keçibsən, arx idi, – demə.
Yüz il yaşa desəm, yuxudu, – demə,
yuxumuz çin olsun, Camal müəllim.

*2009*

# QARATOYUQ

Yenə səhər erkən durub,
tək başına məclis qurub,
oxuyursan cəh-cəh vurub,
sənə əhsən, Qaratoyuq.

Hardan aldın bu nəfəsi?
gah səsində bülbül səsi,
gah sığırçın zənguləsi,
amma təksən, Qaratoyuq.

Qanadın var, çalar çəpik,
quyruğun var, açar yelpik,
qaçmağın var, neçə verstlik,
möcüzəsən, Qaratoyuq.

Nə incə qədəm basırsan?
dimdiyinlə yer qazırsan,
nə deyirsən, nə yazırsan,
nə yeyirsən, Qaratoyuq?

Toyuqların şahımısan?
həyatmısan, yuxumusan,
yar gələndə oxumasan,
nə mən, nə sən, Qaratoyuq?!

*26.06.97*

## GƏNCƏ DƏFTƏRİ*

*Gəncə mənim ilk məhəbbət beşiyim oldu,*
*soruşmayın, tələbə qız onda kim oldu.*
*Bəlkə, mənim alın yazım, taleyim oldu?*
*O, qızlara dediyini mənə demirdi,*
*can verirdim, canıyanmış can istəmirdi.*

**Müəllif**

Gəncədə institut tələbəsiydim,
qardaşəvəziydim, dostəvəziydim.
Sevirdim,
                bir əlim Haqqın əlində,
amma tək qalmışdım baxtın əlində.

Tələbə yoldaşım deyib ki, yəqin,
Məcnun şairiydi tələbələrin.
O da bir gözəldən ilham alardı,
o zülm verərdi, bu kam alardı.
Elə ki qız sinfə ayaq basardı,
bu, dərsi unudub şeir yazardı.

* Şair Ramin Qurban Gədəbəydə keçmiş tələbə dostum Həsən müəllimlə görüşüb, o da Gəncədə oxuduğumuz illərdə yazdığım və heç yerdə çap olunmayan şeirlərimi – vaxtilə öz xətti ilə köçürdüyü 73 səhifəlik dəftəri mənə göndərib. Hər ikisinə minnətdaram.

Deyirlər, şairlər dözümsüzdülər,
bəzən ayıq olur, bəzən süstdülər.
Bizim içimizdə bizə bənzəməz,
onunku ilhamdı,
bizimki mərəz.

Şairlər özündən xəbərsiz olur,
ağıl ikincidi, əvvəl hiss olur.
Bir gün zarafatla mən belə dedim,
mən deyəndən sonra
bildim – nə dedim.
Bir az ehtiyatsız deyilən sözlər,
gördüm, ürəyinə toxuna bilər.

Bir dəfə gördülər, o yenə yazır,
müəllim hirsləndi:
– Görün, nə yazır?
Şairi sinifdən kənar elədi,
guya yerimizi o dar elədi.

Qız gözə dəymirdi utandığından,
bir az həyalıydı qızlar o zaman.
Məndən soruşurdu amma yerini,
bir də soruşurdu təzə şeirini.

Əsl sözlərini qızlar düz demir,
qızları sevəni qızlar istəmir.
Kim sevmir,
ölürlər ondan ötəri,
bəlkə, cavanların yoxdu xəbəri?!

Bir yazı taxtası, bir ağ təbaşir,
şeir dəftəriydi,
yazardı şair.
Mən də arxasınca sinifbəsinif,
gedib köçürərdim... yaş ötdü, heyf.
Nə deyim, bəlkə də iki dəliydik,
bir böyük sözünü eşitməliydik.

Düşür o illərim yadıma hərdən,
yoxdu – nə o qızdan, nə o şairdən.
Bizim tələbəlik illəri yoxdu,
Gəncə var, Gəncədə gəncəli yoxdu.

Bu, həmin dəftərdi,
gizli saxladım,
nəydi ki, on doqquz, ya iyirmi yaş.
Qırx il bu dəftəri tək varaqladım,
varaqla, bir gün də sən oxu, paklaş.

*2006*

# EŞQ DƏ QAN AĞLAYIR YETİMLƏR KİMİ

Yaram təzələndi görəndə səni,
soruşma, bilmədim heç niyə, Ceyran.
Gəncə, tələbəlik illəri hanı,
qaytara biləydim geriyə, Ceyran.

Bir az kökəlibsən, saça dən düşüb,
gözlərin gözəldi eləcə, Ceyran.
Bir az elə bil ki, səs kökdən düşüb,
çoxmu dəyişmişəm, mən necə, Ceyran?

Göndər köynəyini yuyum deyirsən,
qalmadı nə bacı, nə ana, Ceyran?
Öz bəxti xəyanət elədi qəsdən,
mənim köynəyimi yuyana, Ceyran.

Əl-ələ həsrətdi, nəfəs-nəfəsə,
dünyada köhnədən təzəsi yoxdu!
Köynəyə adicə ütü çəkirsə,
qadın əllərinin əvəzi yoxdu.

Sonradan kəşf etdim mən o varlığı,
mənə bəxş etmişdi onu Yaradan.
Bir evə dəymirsə qadın ayağı,
hörümçək tor qurur o evdə, Ceyran.

Sən də bir gözəlin rəfiqəsiydin,
nə desən, o sənə keçərdi, Ceyran.
Nə bilim, bəlkə də, sən istəsəydin,
işlər qaydasına düşərdi, Ceyran.

Kürə şəkillidi dünya – deyirlər,
büdrəyən yıxılır, yoxsa tutanı.
Mən sənin yanında yıxıldım yerə,
nə tutanım oldu, nə qaldıranım.

Mən onda kim idim?! – bir eşq dəlisi,
niyyətim qəsd idi bir cana, Ceyran.
Yanında Gəncənin ilham pərisi,
qoşulub gəzirdin ceyrana, Ceyran.

Hardan keçsəydiniz, ordaydı yerim,
tale səadəti qısa verirdi.
Sinifdə əllərdə gəzirdi şeirim,
müəllim qaldırıb cəza verirdi.

Hədiyyə almışdım adına qızın,
qaldım yol üstündə halı pərişan.
Tələbə yoldaşım,
verdim aparsın,
o da öz adına çıxmışdı, Ceyran.

Şəkil çəkdirmişdik gedib bir axşam,
tələbə dostlarım çıxmaz yadımdan.
Şəkildə mən bir az yaxın durmuşam,
tək orda çatmışam arzuma, Ceyran.

Qoruya bilməsən eşqi ər kimi,
bu yolda keçməsən alovdan-oddan;
Eşq də qan ağlayır yetimlər kimi,
qapılarda qalır o da sonradan.

*1993*

## UÇUN, UÇUN...

*Görkəmli təyyarəçi, professor Rauf Cəfərzadəyə və təyyarəçi oğlanlarına*

**Müəllif**

Rauf uçur, Toğrul uçur, Tural da uçur,
qartal uçuş öyrədirdi balalarına.
Üfüqlərdən üfüqlərə xəyal da uçur,
sağ-salamat qayıtsınlar yuvalarına.

Ataların, oğulların yolu düzdü, düz,
yollarınız əyilməsin, dönməsin, oğlum!
Bayrağımız üç rəngdədi, siz də üçsünüz,
qoy bir kərə qalxan bayraq enməsin, oğlum!

Tanrım özü hifz eləsin qoy sizi gözdən,
Uçun! Uçun! Yaxın bizim, uzaq bizimdi.
Xocalının üstən uçun, Şuşanın üstən,
sərhəd bizim olmasa da, torpaq bizimdi.

Hansı millət yaşayıbdı yurdundan ayrı?!
Ya müqəddəs qəm deyirik, –
o nədən oldu?!

“Mən yerə enməm də!” –
                    dedi səma şairi,
deyin, Cavid, gözün aydın,
                    yer – Vətən oldu.

Yer altından üzə çıxdı nizələr, oxlar,
yer altının çox pozuldu şirin yuxusu.
İmzasını daşa yazdı tarix babalar,
siz tarixi göyə yazın, dünya oxusun.

Rauf uçur, Toğrul uçur, Tural da uçur,
qartal uçuş öyrədirdi balalarına.
Üfüqlərdən üfüqlərə xəyal da uçur,
sağ-salamat qayıtsınlar yuvalarına.

*2008*

# DARIXMA

*Harda müsəlman görürəm, qorxuram.*

**Sabir**

Dost-düşmən yanında sıxılma, şair,
odlara atdılar, mən ki yanmadım.
Dövran istedadla yola getməyir, –
Füzuli deyəndə mən inanmadım.

Bacarsa, dizimi iki qatdayar,
qan alar,
qanımı içəndən ötrü.
İnfarkt eləməsə bağrı çatdayar,
zalım, təsəllidi bu, səndən ötrü.

Əyrini düzəldib, düzü əyirlər,
aylı gecələrə gündüz deyənlər.
Yanımda sərçəyə "Qartal" deyirlər,
yoluq sərçə kimi cikkildəyənlər.

Gərək Cavid kimi mən də gedəydim,
üzüm o tərəfə, gözüm arxada.
Sibir çöllərində qəbrim itəydi,
yerim görünəydi bu xarabada.
Məni özgələrlə üz-üzə qoyma,
astar üzlülər var, üzündən iraq.
Şeirimi söyləsən, onda darıxma,
arpanı buğdayla seçən olacaq.

*1996*

# AY TAPDIQ QAĞA

*Tapdıq Osmanova*

("Xəstəxana gündəliyi"ndən)

Söhbətin nə duzlu, nə şirin oldu,
yatmışdım, oyatdın, ay Tapdıq qağa.
Can dedim, canımdan bir isti keçdi,
yaramı qanatdın, ay Tapdıq qağa.

Hələ yazılmamış bir əsər dedin,
niyə az danışdın, müxtəsər dedin?
Bizim o tərəflər, o yerlər dedin,
yerimdən oynatdın, ay Tapdıq qağa.

Poylu beşiyimdi, orda doğuldum,
Kürün sahilində ilk yuva qurdum.
Köküm Kəsəməndi, ilk ata yurdum,
var olsun soyadın, ay Tapdıq qağa.

Damcılı bulağı, Kürün qırağı,
gözəl Göyçə gölü, Dilcan yaylağı.
Gör necə bölündü qədim torpağı
bir elin-elatın, ay Tapdıq qağa.

Əvvəl süfrəmizdə gəlib yedilər,
sonra evinizdən çıxın dedilər.
Bizdən yer qopartdı bizim kirvələr,
bundan nə anladın, ay Tapdıq qağa?

Vurğunun ətrini Mehdidən aldım,
meylimi Osmana, Hüseynə saldım.
İsmayıl da getdi, mən də qocaldım,
hökmüdür həyatın, ay Tapdıq qağa.

Qoy yenə Ədalət "Kərəmi" çalsın,
eləmi yandırsın, eləmi çalsın!
Simləri ağladıb, "Dilqəmi" çalsın,
xoş keçsin saatın, ay Tapdıq qağa.

Nəydi göndərdiyin o şor, o ayran?
Dadı damağımda qalıb o vaxtdan.
Hərəkət özündən, bərəkət Haqdan,
mələkmiş o qadın, ay Tapdıq qağa?

Nəriman, özün də bir az sərinsən,
ellərdən əl üzmə, sən o yerinsən.
Sən də bulaq kimi suyu şirinsən,
yerdənmi qaynadın, ay Tapdıq qağa?!

*May, 1997*

## SÖZGƏLİŞİ...

Yaxşılıq əkirsən,
lovğalıq bitir,
lovğalıq yaşayır,
yaxşılıq itir.

* * *

Bir çənəsöhbətim,
bir həyanım yox,
danlayanım çoxdu,
anlayanım yox.

* * *

Ömür müvəqqətidir,
deyincə,
vaxtın bitir.

* * *

Bir dostum
özünü tərifləyirdi,
"Mən yox,
Akif Səməd belə deyirdi".

* * *

Bal kimi şirin ol,
həyatda, amma,
çalış ki, bal kimi
yapışqan olma.

* * *

Əsir eləsə də
gözəl qadınlar,
sevəndə,
özləri əsir olurlar.

* * *

Ürək milyonerdi,
cib pensioner,
ürək "xərclə" deyir,
cib "qazan" deyir.

* * *

Gəncədə zəmiydi
Rəfibəylilər,
çəkicli oraqla
biçib getdilər.

* * *

Şütüyən maşının
pəncərəsindən,
vətənə boylanma,
görünmür vətən.

* * *

Biri ya üzdüdü,
ya tərbiyəsiz,
ona da deyirik:
əsl mübariz.

* * *

Himnin sözlərini
bilmirsə, məmur,
türklər,
Türkiyədə məhkəmə qurur.

* * *

Çöllərdə qanqal da
yazda gül açır,
amma nə ruh verir,
nə könül açır.

* * *

Qız mənə gül verdi
könül yerinə,
mən könül istədim
o gül yerinə.

* * *

Osman Sarıvəlli
sərbəst yazırdı,
"Bənövşə" şeirinə
o qəsd yazırdı.

* * *

Tanrım, mənim gündüzüm var,
gecəm yoxdu,
yaşayıram – göz yuxulu,
baş oyaqdı.

* * *

Adam axtarırlar
adam yerinə,
adamı qoyurlar
avam yerinə.

* * *

Göz nəyi görürsə,
onu da deyir,
qulağa inanma –
eşitdiyidir.

* * *

Görsə ki, sadəsən,
alicənabsan,
təhqir eləməyə
hazırdı nadan.

## GÜNDÜZLƏR OLSAM DA HARDA, HARDA MƏN...

Gündüzlər olsam da harda,
harda mən,
Poyluya dönürəm
yuxularda mən.
Təzədən analı uşaq oluram,
fikirdən, qayğıdan uzaq oluram.
Qaçıram,
uşaqlar baxıb gülüşür,
kəmərim belimdən açılıb düşür;
Təzədən başlanır dirədöymələr,
aşıq, çilikağac...
nələr, ay nələr.
Bir qoca var idi, o, cavanlaşır,
Ağstafa çayı təzədən daşır.
Kür axır,
məcrası dolmur ki, dolmur,
yuxuda gün çıxır,
heç axşam olmur.
Hamıyla əl tutub görüşürəm mən,
babamla, nənəmlə öpüşürəm mən.
Anamı tapmıram,
ay haray... anam!
Axtara-axtara mən ayılıram.

## MƏNİM GÖLLƏR KİMİ BULANMAĞIM VAR

Mənim göllər kimi bulanmağım var,
mən bulaqlar kimi duruluram da.
Büllur şüşə kimi qəlbim bərk olar,
amma büllur kimi qırılıram da.

Nə tam müqəddəsəm, nə tam günahkar,
olar təriflərdə adımı yazmaq.
Bəlkə də, səhvimi hesablasalar,
mənə cəza düşər
təltifdən qabaq.

Elə hey yanılır, hey sevir ürək,
dünyada sevincim, qəmim bərabər.
Yalandı –
daima tərif eşitmək,
yalandı –
daima pislənmək qədər.

## MƏNƏ OXŞASAN...

Mən səndən narazıyam,
sən məndən inciyirsən,
aramızda söz olur.
Sən gülmək istəyirsən,
oynamaq istəyirsən,
qışqırmaq istəyirsən,
görürəm ki, səs olur.
Mən sükut istəyirəm,
sən fışqırıq, haray, səs.
Mənim beynimdə fikir,
sənin qəlbində həvəs.
Mən səndən inciyirəm
sənin uşaqlığınla
yola gedə bilmirəm.
Sənsə, oğlum, görünür,
mənim böyüklüyümlə.
Oxşamaq istəmirsən,
görürəm, sən heç kimə.
Mən səni, istəyirəm
salım öz qəlibimə:
yeri mən yeriyəntək,
dayan, mən dayanantək.
Özün olma, mən ol, mən.

Demirəm, belə çıxır
mənim istədiyimdən.
Lakin bilirəm, oğlum,
yalnız mənə oxşasan,
dünya yerində sayar,
istedadlar, şüurlar
bir-birinə oxşayar,
bəşər yerində sayar.
Beləcə yaşayırıq:
bu “ziddiyyət” içində,
bu məhəbbət içində.

# HƏYAT

Körpə gilas ağacı
böyüdü gündən-günə
Budaqları töküldü
çəpərin bu üzünə,
çəpərin o üzünə.
Qaldırdılar çəpəri,
günlər ötüşdü... ancaq
yenə böyüdü ağac.
Gilasın boyu qədər
bir az da qalxdı çəpər.
Ağac bar gətirəndə
aşdı çəpər üstünü.
Doğradılar bu dəfə
budaqların birini,
sonra ikincisini,
sonra üçüncüsünü.
Beləcə, hər il gilas,
kəsildi bir az – bir az,
darandı bir az – bir az.
Boy atırdı o, yenə,
bilirdi kəsiləcək,
sonra çəpərlənəcək.
Yenə puçurlayırdı,
çiçək açırdı, çiçək!

## YAŞA, KİRPİ

Kirpi tutdu bir ilanı quyruğundan,
qalxdı ilan,
bərk burulmuş bir yay kimi
hey yığıldı, düyünləndi.
Sonra möhkəm iynələndi.
Yay qırıldı,
yay töküldü.
Ceyranların,
quzuların,
insanların
axdı qanı.
Yaşa kirpi, bizim çöllər qəhrəmanı.

# MƏN GÜCSÜZ OLDUM

Özgəyə hirslənib danladım sizi,
qırdımmı o şüşə ürəyinizi?
Məndən inciməyin, gül balalarım,
özüm öz səhvimi sonra anladım.
Baxın, baxışınız cavanlığımdı,
gülün, gülüşünüz yavanlığımdı.
Quru çörəyimi şirin yeyim mən,
gəlin, şeir deyim, nağıl deyim mən.
Silin gözünüzün yaşını, gəlin,
qorxmayın,
yığılın, başıma, gəlin.
Əllərim sizinçin yelpik olubdu,
qollarım sizinçin beşik olubdu.
Sinəmdə yeriniz salınıb sizin,
gözümdə yuxunuz alınıb sizin.
Dilimlə mən sizə dil açdırmışam,
çiynim yəhər olub,
yol açdırmışam.
Mənim qolumsunuz, qanadımsınız,
kim qolsuz, qanadsız yaşayıb, qızım?!
İndi qaçırsınız...
ilk addımınız
sinəmdən, çiynimdən başlayıb, qızım.
Mənim gözəl qızım, mənim gül oğlum,
gücüm sizə çatdı,
mən gücsüz oldum.

# DƏRD

*"O ilahi anı xatırlayıram"*
**A.S.Puşkin**

Qarşılaşdıq...
heç bilmirəm, harda oldu,
göydə oldu, yerdə oldu.
Necə oldu gülüşümüz,
ülfətimiz,
xiffətimiz...
Mən gördüm ki,
yaşca bir az fərqimiz var,
amma birgə çəkiləsi
dərdimiz var, sərimiz var.
Eyniləşdik biz bu anda,
mən elə bil – mən deyildim.
Eşq, məhəbbət olan yerdə
yaş yox imiş,
fərq yox imiş,
dərd var imiş –
indi bildim.

## OĞLUMA

Sən qalxdın çiynimə,
bu dəmdə mənim,
sinəm genişləndi yer üzü kimi.
Balaca köksünə dayaqdı çiynim,
ən uca xitabət kürsüsü kimi.

Gülürsən səadət qonub üzünə,
de, hansı sözünü alqışlayıblar?
Körpə qollarını açıbsan yenə,
sənə gül-çiçəkmi bağışlayıblar?

Hələ alışmayıb ürəyin oda,
döyüş görməyibsən,
qurbanın olum.
Ata qollarıdı ayağın altda,
səni büdrəməyə qoymaram, oğlum.

Fəqət, eyni olmur gələn hər səhər,
vaxt olur, soyuyur isti bir ocaq.
Çiynim kürsülərə bənzəyə bilər,
kürsülər çiynimə bənzəmir ancaq...

*1965*

## HƏYAT

Şeir sorağında keçir ömür-gün,
bəzən qəmlənsəm də, bəzən gülmüşəm.
Dünyada, bəlkə də, ən ağır yükün,
fikir olduğunu sonra bilmişəm.

Yaşayır ürəkdə min-min arzular,
xəstənin sağalmaq həsrəti kimi.
Yaxşı insanlara çox hörmətim var,
sağ əlin,
        sol ələ hörməti kimi.

Mətləb var,
       doğrusu, maraqlanmıram,
bir qəlbi oxşamaz şoranlıq kimi.
Düz sözün gözünə bəzən,
danmıram,
yalan da qatmışam yavanlıq kimi.

Elə ki eşq ilə ürəyim dolub,
işıq paylamağa mən nur olmuşam.
Dilimin sözünü,
                  elə yer olub,
gözümlə deməyə məcbur olmuşam.

Düzü, demişəm ki, bəlkə ayıbdı,
olmur hər şeyi də açıq söyləmək.
Məni bəzi dostlar tanımayıbdı,
şeir oxumayan
                    yazıçılartək.

Bu dünya əlimdən alıb illəri,
bəzən yanmışam da nahaq yerə mən.
Piyada qalxmışam mərtəbələri,
liftlə qalxanları görə-görə mən.

Görsək yıxılanı bizim birimiz,
dostlarım, deyirəm, əylənməliyik.
Bəlkə də,
          ipəkdən zərifliyi,
                                        biz
poladdan
          sərtliyi öyrənməliyik...

## SAZI ZƏLİMXAN KÖKLƏDİ

Ürəyim haqdan köklənib,
sazı Zəlimxan köklədi.
Leylini verdi Məcnuna
bir əhd-peyman köklədi.

Üz-üzə, qol-qola çaldı,
haqq dediyim yola çaldı.
Sağolmuş sağola çaldı,
kökü sağoldan köklədi.

Əlini çəkdi bığına,
girdi sazın qılığına.
Bir oğlumun sağlığına
pirlərdən dastan köklədi.

Yunus İmrədən başladı,
sözü sözlə naxışladı.
Can dedim, can bağışladı,
can üstündə can köklədi.

Papağı ozan töhfəsi,
döşündə sazın təhnəsi.
Tut ağacı, dost süfrəsi,
tut sazı tutdan köklədi.

Borçalıda gecələdi,
Damcılını incələdi.
Şuşa dedi, saz mələdi,
yas tutdu, ehsan köklədi.

Gəraylıya pərdə seçdi,
hecadan-hecaya keçdi.
Gecə keçib, gördü gecdi,
ulduzdan, Aydan köklədi.

Xan Arazı keçdiyini,
zəmzəm suyu içdiyini,
Çində bir qız seçdiyini
arada pünhan köklədi.

Yaş ötüb, saça dən düşüb,
dağlara duman, çən düşüb.
Sarasız ev kökdən düşüb,
sazda bir kaman köklədi.

Zəlimxan Nəriman dedi,
mən can dedim, o can dedi.
İki Azərbaycan dedi,
bir Azərbaycan köklədi.

*2001*

## GÖRƏYDİM SİZİ

Yenə yolum düşdü Kür qırağına,
mən orda oxudum öz ilk şeirimi.
Sən onda sağ idin ana,
ay ana,
dolandın başıma pərvanə kimi.

Düşdü yanağına iki damla yaş,
sıxan ürəyini bilmədim nəydi.
Baxıb gözlərimə söylədin ki, kaş
sənin bu gününü atan görəydi...

Yolum bir də düşdü Kür qırağına,
söyüdlər başını üstümə əydi.
Sən daha yox idin, canım, ay ana,
dedilər, kaş anan indi görəydi.

Yetimlik!
Yadımdan çıxmır bu dərdim,
daddım həyatımda yaxşını, pisi.
Həsrətlə ay ata, ay ana, – dedim
kaş bir yol yanımda görəydim sizi.

## SALAM

Mən elə bilirdim unudub o vaxt,
dediyim o sözlər yadında deyil.
Mən bir həqiqəti öyrəndim, ancaq
günah kişidədi, qadında deyil.

Mən elə bilirdim, ötəri hissdi,
Çox şeyi dəyişir, döndərir həyat.
Mən sonra gördüm ki, bir az qəlizdi,
ürəklə oynamaq, gözlə zarafat.

Susdum mən o zaman səhv eləyərək,
ah, o vaxt, bəlkə də, xətrinə dəydim?!
İcazə istəyə-istəyə, gərək
gedib icazəsiz salam verərdim.

Doğmadır hər sözü, hər hərəkəti,
mənə nələr deyir indi bu hörmət?
Gərək mən duyaydım o nəzakəti,
o insaf edəydi, mən də cəsarət.
Mənə nələr deyir indiki hörmət?!

# QADIN ƏLLƏRİ

Əllərin var olsun, ay dayı qızı,
arada yas düşdü, başım qarışdı.
Nə zaman açdınsa sən qapımızı,
evimdə işığa işıq qarışdı.

Gözümdən düşmüşdü ipək pərdələr,
təmiz güzgüdə də toz gizlənərmiş.
Adi bir ağ əski, qadın əlləri...
otaq təmizlənər, ev bəzənərmiş.

Çəkdim həsrətini mən o gözlərin,
gəlsin, qürurumu əyim o evdə.
Mənə özgə yerdə bir ev göstərin,
qadın var, ya yoxdu? – deyim o evdə.

Quru sığal görüb nazlanan evi,
naşı əl hörüyə daş düzə bilməz.
Qadın nəfəsiylə qızınan evi,
od salsan, ev yanar, ev qıza bilməz.

Türklər qadınına "həyatım" deyir,
mənim "can" deməyim can əvəziymiş.
Tapan itirənə təsəlli verir,
bu da ömür-günün son töhfəsiymiş.

Kişi sınıq olar, səbirsiz olar,
bu qəm ağrısını daşıyan kişi.
Evində evindən xəbərsiz olar
qadınsız bir evdə yaşayan kişi.

*18 oktyabr, 1993*

## BİR TƏSƏLLİM QALIRDI

Uçurdular bir evi,
bir ağacı kəsdilər.
Uçurmağa, kəsməyə
gör necə tələsdilər.
Görmədilər budaqda
uçan quş yuvasını.
Dağıtdılar içimdə
xatirə dünyasını.
Buldozerin ağzına
verildi canlı həyat.
Balaca bir kainat,
bizim görüş yerimiz:
ən tarixi yerlərin
çoxundan daha əziz.
Qədəm basdığın o yol,
daşdan hörülmüş hasar.
Günəş, sənin şəklini
çəkmişdi, bax o divar.
Bir təsəllim qalırdı,
silindi yer üzündən.
Bax, beləcə itirdim
səndən sonra səni mən.

## DÜNYA

Çağırıram cavab vermir,
bu daş heykəl, bu daş dünya.
Ləngi desəm, uçub gedir,
tələs desəm, yavaş dünya.

Yıxılana gendən baxır,
yananı yandırıb-yaxır.
Nədir bu çağırhaçağır,
qovhaqov, qaçhaqaç, dünya?

Əvvəl özünü öydürər,
sonra tutdurub döydürər.
Öldün, goruna söydürər,
edər özünü faş dünya.

Düşməninə macal verər,
dərdləri dalbadal verər.
Gün görəndə, acal verər,
doya bilmir bu ac dünya.

Barış dedim, barışmadı,
xeyir işə qarışmadı.
Şair, sənə yaraşmadı,
öz-özünə yaraş, dünya.

## XƏBƏR YOXDU

*İsmayıl Mikayılovun xatirəsinə*

Sükut edir Göylər kəndi,
İsmayıldan xəbər yoxdu.
Qar ağappaq kəfən kimi.
kəfənsiz dərbədər yoxdu.

Durur taxta bir nişangah,
daş yığıblar qalaq-qalaq.
Ətrafı qar, üstü torpaq,
hasar yoxdu, çəpər yoxdu.

Ayrılıq var, bir də ölüm!
biri həsrət, biri zülüm.
Ayrıları ayır görüm,
bundan artıq kədər yoxdu.

# УТРЕННИЕ СТИХИ

В словах одобрения нуждаются даже самые сильные. И Бетховен в них нуждался. Эти строки продиктованы моим дружеским располежением к азербайджанскому поэту Нариману Гасанзаде. Его стихи и сам он понравились мне. Это побудило меня написать о нем несколько слов и, не поучил его, (боже, упаси!) просто представить его читателям. Мне приятно это сделать. Сказано же: "Поэт поэту есть кунак"!

Поэты Востока и в их числе азербайджанский, создали большую поэзию. В ней целый ряд крупнейших имен от Навои и Фязули до Габдуллы. Туная и Назима Хикмета. Но мне кажется, чаще всего выручают не традиции, как бы они ни были велики и хороши, а талант. А он включает в себя чутье, без которого не бывает художника. Если пишущий человек повторят тех, кто работал до него, значит он лишен таланта, он эпигон. Этим грешит и в тюркоязычных наших литературах немало людей. Они поэзию подменяют красноречием, необходимую новизну – повторением докучливых банальностей, мысль – мишурой, образность – ветхим украшительством.

И в то же время новизна в поэзии не есть новеркание родного языка, заумь или отказ от формы, как полагают иные. Она в наполненности новым большим содержанием, в значительности сказанного. Быть поэзии современной – значит быть очень содержательной, близкой людям. Ей важен черный хлеб ровседневности.

Мне показались, что Нариман Гасанзаде не только понимает это. Ему, человеку закончившему Литературный институт, молодому ученому, кандидату филологических наук, легко и естественно дышится в сегодняшнем воздухе поэзии. Мне думается, что ему уже удалось отбросить те приемы и средства, которые пришли в ветхость от слишком частых посторений эпигонами. Великие поэти Востока делали открытия, а эпигоны столетиями повторяли их.

Я обрадовался стихам Наримана Гасанзаде именно потому, что в них почувствовал человеческий голос и чистоту, стремление к раскованности, отказ от риторики, велеречивности, декломации, красивостu. Мне хочется пожелать ему успеха на этом пути. И смелости, без которой нет творчества.

**Кайсын КУЛИЕВ**
*Balkar Xalq şairi*

*"Drujba narodov" jurnalı.*
*Moskva, 1970, №1*

***...Nəriman Həsənzadə dünyası dərin, mənalı, sevincli, kədərli bir aləmdi. Xalqın taleyini düşünən şairin əsərləri bütöv bir mərhələni təşkil edir. Cənubda uşaqdan tutmuş böyüyə qədər hamının onu sevdiyini və yeni əsərlərini səbirsizliklə gözlədiklərini deyə bilərəm.***

***Nəriman Həsənzadənin xarakteri onun keşməkeşli həyatında güneyli, quzeyli hər bir azərbaycanlıya canlı örnəkdir.***

***İlk dəfə onun "Söyüd ağacı" adı altında seçilmiş əsərlərini Cənubi Azərbaycanda çap etdirmək mənim üçün böyük səadətdir. ..***

***...Xalqının ürəyini ürəyində daşıyan bu sənətkar öz hissini, istisini obyektiv bir şəkildə bəyan edir. Buna görə də bu ecazkar şair, yazıçını tanıtmaq bir o qədər çətin deyil...***

***Aqşin Ağkəmərli***

*N.Həsənzadənin Tehranda çap olunan*
*seçilmiş əsərlərinə ("Söyüd ağacı")*
*yazılmış ön sözdən.*

*Tehran, 1990*

*Vətən, vətən deyən şair ürəyi,*
*vətənin ən böyük ərazisidir.*

*Nəriman Həsənzadə*



Rəssam: *Ədalət*

# Ellərdən-ellərə

*Azərbaycan  naləsidi Arazın,*
*sərhəd olduq özümüzə özümüz.*
*Tale bizi bədnəzərdən saxlasın,*
*dayaq olsun sözümüzə sözümüz.*

*"Nazim Hikmətlə söhbət"*
*silsiləsindən*

## NAZİM HİKMƏT[1]

Ölkələr dolaşıb, ellər gəzibdi,
yolu dağdan düşüb, dərədən düşüb.
Başından qara yel, ağ yel əsibdi...
sarışın saçlara daha dən düşüb.

Yenə sağ əlini döşünə qoyar,
açar ürəyini söhbətdə, sözdə.
Görərsən sakitcə şeir oxuyar,
amma bir tufan var o mavi gözdə.

Vətən, Vətən! – deyib həsrətlə yaşar,
Ana! Ana! – deyən körpələr kimi.
Bəzən danışanda hirslənib coşar,
bəzən pıçıldayar ləpələr kimi.

Var öz tayı-tuşu, öz dostu-yarı;
öz sakit duruşu, öz dinməyi var.
Onun bir güldürən zarafatları,
bir də düşündürən qəmlənməyi var.

Neçə ki sən onun öz yanındasan,
adicə görünür sənə bu adam.
Ondan ayrılanda başqadır tamam,
ən böyük insanı xatırlayırsan!

*Moskva, 1958*

[1] Şairin Moskvada oxuduğu illərdə yaxından tanış olduğu böyük türk şairi Nazim Hikmət (*red.*)

## SABAH GƏLƏSİYDİ

İri, mavi gözlərində çəhrayı eynək,
sarıtüklü əllərində yazı var idi.
Sinəsində sağlamruhlu xəstə bir ürək,
bir ürəkdə
min ürəyin sözü var idi.

Bir də dümağ həb var idi dilinin altda,
gərək o nə danışaydı, nə də dinəydi.
Gərək bir az uzanaydı o, susmuş halda,
gərək o nə qəmlənəydi, nə sevinəydi.

Divan üstə süfrə kimi açıq sərilən,
"Humanite" qəzetinin bir nömrəsiydi.
Masa üstə makinanın türk əlifbası,
bir də çoxlu ağ vərəqlər gözümə dəydi.

Biz görüşüb-qucaqlaşdıq ata-balatək,
o üzündən, bu üzündən doyunca öpdüm.
O da öpdü saçlarıma sığal çəkərək,
yanağında seyrəktüklü bir xal da gördüm.

–Şəkərim, nə yapıyorsan, de, yakşımısan?
–Mən yaxşıyam, çox sağ olun, – dedim, –
Nazim can!
İşlərim də yaxşı gedir, ev-eşik də var!
Hələ evdə necə deyər... bir beşik də var.

Sənin bircə xahişinlə Bakı Soveti
mənə gözəl bir ev verdi... ata evidi.
Nazim güldü, mən utandım.
–Ha, bir bana bak!
Niyə susdun? –
sevincimdən susmuşdum ancaq.

Nə deyəydim,
        heç özüm də bilmirdim, düzü,
ah, necə də doğma idi
                        onun dost üzü!

–Evinə bən gələcəyəm... qonaq kibi yok,
öz evimə gələn kibi...
– Gəl, – dedim Nazim.
Gəl ki səndən yadigardı o ev, o otaq,
gəl ki bir yol mən səninlə duz-çörək kəsim.

Qulaq asdı ürəyində başqa bir maraq,
duydu mənim sevincimi, mənim qəmimi.
Nazim sabah gələsiydi... mən evdə ancaq
Nazim ilə danışırdım səhərə kimi.

*1960*

## SİZ XOŞBƏXTSİNİZ...

Ən böyük görüş oldu
bu adicə qonaqlıq.
Kəlamı dərin idi,
söhbəti çox maraqlı.
Söz şeirdən düşəndə
dindi bir əziz qonaq:
“Nazim şeir oxusun”.
Nazim tutuldu ancaq,
məclisə göz gəzdirib
köks ötürdü dərindən,
(Danışanda arabir
o,
    qalxardı yerindən.
Gözləri süzülərdi.
Uzun-gödək sətirlər
onun tələffüzündə
nizamla düzülərdi!)
Vərəqlər sol əlində,
havadaydı sağ əli.
Gözlərimlə görürdüm
mən bu canlı heykəli!
Bəli, tutuldu Nazim,
– Əziz arkadaşlarım!
Kommunist yoldaşlarım!

Şeirim gah rusca çıxır,
gah fransız dilində.
Polyak mənim şeirimi
oxuyur öz dilində.
Almanlar da oxuyur,
ingilis də çap edir.
Özüm radiolarda
dinləyirəm arabir.
Hamısına ürəkdən
minnətdaram,
ürəkdən!
Amma öz Türkiyəmdə,
öz doğma türk dilimdə
oxunmaq istərəm mən!
Elə ki ilk şeirimi
yazıb tamamlayıram;
Mən də öz oxucumu,
türkü haraylayıram.
Əkbərə oxuyuram*
ilk şeirimi,
Əkbərə!
Bəzən bir-iki dəfə,
bəzən də lap on kərə.
Bu dərdi bir sinədə
daşımaq da çətindi.
El deyib,
eldən ayrı
yaşamaq da çətindi.
Əziz arkadaşlarım,
Kommunist yoldaşlarım!

* Nazim Hikmətin tərcüməçisi olub *(red.)*

Sözümə inanın siz, –
desəm ki, xoşbəxtsiniz!
Dünyanın ən xoşbəxti,
dünyanın ən bəxtlisi,
vallah, öpürəm sizi!

Töküb narzan suyundan
içdi bir-iki udum.
Mən məclisə göz qoydum:
kədərliydi baxışlar.
–Bunu qəmlənmək üçün
demədim, arkadaşlar!
İnsaf edin, bir gülün,
nədir bu qəm, bu kədər?..
Nazimin sağlığına
qaldırıldı qədəhlər!

*1960*

# NAZİM ŞEİR DEYİRDİ

Fikrə getmişdi yenə,
gözündəydi eynəyi.
Yaxası açıq idi
dama-dama köynəyin.
Saçlar, dalğalı saçlar...
kiprik sarı, qaş sarı!
Şerinin hər sətiri
fikrinin daş hasarı!
Buludlarda uçuşan
qanadlı mərmilərdən,
Marsdan, Aydan, Günəşdən,
bir də anamız yerdən
Nazim şeir deyirdi.
Dağda dağ keçisindən,
bizim "Kür balığından",
Mərakeşli əsgərin
bir "qanlı sarığından"
Nazim şeir deyirdi.
Anadolu elindən,
bahardan da, yazdan da,
"Saman sarısı kimi
saçı olan" qızdan da
Nazim şeir deyirdi.
Memedinin həsrəti
dilindəydi Nazimin.
Ürəyi elə bil ki,
əlindəydi Nazimin.
Oxuyurdu arabir
baxışında qəzəb, kin.
Arabir də gülürdü
mülayim müəllifi
qəzəbli şeirlərin...

*1960*

## MƏN BİLSƏYDİM

Şəklimizi qoydum bu gün qabağıma,
gülüşlərin gəldi yenə qulağıma,
sənin şeir deməyini xatırladım,
“Eniyor kayık, çıkıyor kayık”
sandım biz də qayıqdayıq.

Şeir dedin sən o gecə
aram-aram,
heç bilməzdim
ölümünə
bu gün şeir yazacağam.
İstəyirdim,
    məktub yazam üç-dörd günə,
sən gələsən
barı beş-ongünlüyünə.
Azərbaycan dağlarını gəzəsən bir,
görəsən bir,
duz-çörək də kəsəsən bir.

Biz son dəfə görüşmədik,
qucaqlaşıb öpüşmədik.
Mən bilsəydim,
son gedişin olacaqdı,
çox saxlardım o gün səni.

Mən bilsəydim,
biz əbədi ayrılırıq,
qucaqlardım o gün səni.
Qollarımın arasında saxlayardım,
gözlərimin –
mən ağında, qarasında saxlayardım.

Aman, Nazim!
Ata, – deyib mənə baxır körpə qızım.
İlk dəfədi gözlərimdə o yaş görür,
doluxsunub bərk hönkürür.
O hələ lap körpə ikən,
qucağına almısan sən.
Şəkliniz var.
Saçınızı qarışdırıb əsən külək,
gülürsünüz ən bəxtəvər adamlartək.
İndi mənim qucağıma qısılmışdı
bu körpə quş.
İndi bildim,
            bu yazıya pozu yoxmuş.

“Mən yanmasam,
sən yanmasan,
biz yanmasaq,
necə çıxar
qaranlıqlar aydınlığa?”
Yandın, Nazim!
Yana-yana bağırdın sən,
bütün Şərqi çağırdın sən.
Qulaqlarda qalıb səsin,
düz deyiblər:

ölüm çox da sevinməsin!
Sən ölmədin,
yer dəyişdin
ulduz kimi şütüyərək.
Səndən dedi
yağan yağış,
qopan tufan,
əsən külək.
Sönəndə də sən parladın.
Oğlum olsa, qoyulacaq sənin adın.
Qoy eşqini
min millətin ürəyində arasınlar.
Nəfəsini bu dağların
küləyində arasınlar.
Sən ölmədin...
Aman, Nazim! –
gör dilimə nələr gəlir.
Boğazımı qəhər boğur,
şeirin sonu kədər gəlir.

*1963*

# TÜRK MİSRASI

Kimə zəng eləyim, kimə nə deyim?
Suallar, nisgillər keçir ürəkdən.
Ana vətənində doğuldun,
Nazim,
          öldün məsləkiyin vətənində sən.

Bir sözü bilmirəm heç necə yazım,
mən necə deyim ki, itirdik səni.
Səni çiynimizdə apardıq, Nazim,
yenə qəlbimizdə gətirdik səni.

Bir təşbeh işlətsəm, burda yeridir,
eşitsin deyirəm yaxın dostların.
Qəbiristan – yambalı[1] bir rus şeiridir,
sərbəst türk misrası – sənin məzarın...

*1965*

[1] Yamba – rus şeir forması *(red.)*

# QARA DƏNİZ SAHİLİ,
# NAZİM HİKMƏT HEKAYƏTİ

Bu sahildən
o sahili
hey səslədi, Nazim Hikmət.
"Hey... Türkiyəm,
məmləkətim!" –
deyib getdi, Nazim Hikmət.
Sən yaşa, millətim! – dedi,
Türkiyəm, Mehmedim! – dedi,
Gedirəm, görmədim! – dedi,
səsində bir kədər getdi
Nazim Hikmət.
Bir səs deyir: hədər getdi
Nazim Hikmət.
Bir Türkiyə gəzdirirdi
ürəyində Türkiyəsiz.
İnanıram, o dönəcək
bu gün, sabah,
məzarını aparacaq
məmləkəti.
Bitməyəcək
Nazim Hikmət hekayəti...

*1960*

# ANKARADA MƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏZARI

*Daş üstə yazı: "İnsanlara hürriyyət,*
*millətlərə istiqlal!".*
*Son nəfəsində o, üç dəfə "Azərbaycan!" – dedi,*
*gözlərini əbədi yumdu.*

**Məmməd Kəngərlinin dediklərindən.**

*Fərdlər ölür, lakin ölməz "Cəmiyyət".*

**Ç.Göyalp**

Qarşımda bir məzar, məzarda kişi!
qəbiristan daimi bir heyrətimdi.
Əsrin ən talesiz bir əzabkeşi, –
mənim Türkiyədə ziyarətimdi.

Yerə də zinətdi düşünən bir baş,
o yatır bir ana köksündə belə.
Qəbiristan – hər yerdə qürbətdi, qardaş,
qürbətdi vətənin özündə belə.

Bəs niyə doğmadı mənə bu günbəz?
pak vicdan sahibi, üstə şər yatır.
"Bir yol qalxan bayraq, bir daha enməz!"
bayrağı qaldıran bir rəhbər yatır.

Türkiyə vətəndi türkəm deyənə,
namərdin ürəyi partlasın gərək.
Vətəndən qovdular, qaçdı vətənə,
qaçdı beşiyindən məzarınadək.

İlahi, nə qədər böhtan yazdılar,
mənə nələr deyir bu kiçik məzar.
Hayana döndüksə, şüar asdılar,
hanı kommunizm, o "şanlı" şüar?!

Nə qədər yubiley oldu Bakıda,
təriflər, təltiflər yapdıq, Əfəndim.
Sənin yubileyin düşmədi yada,
biz səni itirib tapdıq, Əfəndim.

Hanı bu beşiyin ana laylası?!
Hanı Azərbaycan...
                    yat, quzum, laylay.
Yerin behişt olsun, daş ağrıtmasın,
mənim "xalq düşmənim", "məhbusum" laylay.

Ağırdı millətdən üzr istəmək,
yalanlar əbədi puç olmalıydı.
Heykəl var – məzara gömülsün gərək,
məzar var – heykəli ucalmalıydı.

*Ankara, 13 may, 1990*

# TÜRK QARDAŞIM

*İstanbulda çıxan "Xəzər" qəzetinin sahibi Nihat bəy Çətinqaya qəzetin ilk nömrəsində gedəcək Azərbaycana aid materialları əvvəlcədən mənə göstərirdi, mən də məmnun qaldığımı bildirirdim. Bu şeir də ürəyimdə o vaxt yarandı.*

Çətinqaya, qayalara gər sinə,
dərdimizi torpağa yaz, daşa yaz.
Sən səs verdin
Azərbaycan səsinə,
Çətinqaya, Azərbaycan unutmaz.

Azərbaycan – naləsidi Arazın,
sərhəd olduq özümüzə özümüz.
Tale bizi bədnəzərdən saxlasın,
dayaq olsun sözümüzə sözümüz

Ərzurumun dağlarına qar yağır,
Əsli deyə Kərəm düşüb yollara.
Çətinqaya, sən harayla, sən çağır,
İstiqlala, səadətə, bahara.

İltifatdı, ünsiyyətdi bu körpü,
bir sənəddən söz uludu, Nihat bəy.
Qələm tutan əllərini ver öpüm,
təşəkkürüm hələ budur, Nihat bəy.

Heç bilmirəm, xeyir nədi, şər nədi,
halım yaman pərişandı, Nihat bəy.
Şəhidlərin qızıl qanı yerdədi,
torpağımız xınalandı, Nihat bəy.

Gözümüzə üfürdülər tüstünü,
həsrət qaldıq yurd oduna, Nihat bəy.
Namərd tutdu yerimizin üstünü,
mərdlər köçdü yer altına, Nihat bəy.

Əhd eləsən, əhdə peyman bağlaram,
qoy el eli yada salsın, Nihat bəy.
Çox dindirmə, köyrəlmişəm, ağlaram,
ağlar qoyan ağlar qalsın, Nihat bəy.

Etibarın sorağında qalmışam,
bir möcüzə marağında qalmışam.
Kür çayının qırağında qalmışam,
sən Mərmərə sahilində, Nihat bəy.

Ürəyimdən bir söz axıb gəliyor,
dərd əhlini dərdi olan biliyor.
Mən yanıram, düşmən baxıb gülüyor,
türk ağlayır türk elində, Nihat bəy.

*İstanbul, 6 may 1990*




Назимсевəрлəр бизим јени
мəһəллəмиздə онун бағына
јығышыблар
1958.

***"YUXULARDA YANAN ŞƏHƏR"***

## MƏNDƏ BİR BELORUS QIŞQIRIR İNDİ

Siz elə bilməyin məndə səbir var,
deməyin, bilirəm hardan şər keçib.
Harda qəbiristan var, harda qəbir var,
torpaq özü deyir –
düşmənlər keçib.

Burda mən susuram, torpaq dillənir,
torpaq görməmişdim bu torpaq kimi.
Yer altdan yer üstə qalxıb yellənir,
hər məşəl – qırmızı bir yaylıq kimi.

Məşəl kainatı nura qərq edir,
yeri yandıracaq atəş elə bil.
Bir bax... elə bil ki, üfüq yerdədi,
burda yerdən çıxır günəş elə bil.

Qəm soyuq əl kimi keçir sinəmdən,
hardasa bir ürək hıçqırır indi.
Bəli, Azərbaycan şairiyəm mən,
məndə bir belorus qışqırır indi.

## XATIN HARAYI

Xəfif bir meh dəyir üzümə hərdən,
burda hər ürəyin bir ahı qalıb.
Dağılan hər evdən,
                    hər ailədən
mərmər lövhə üstə siyahı qalıb.

Kədər şüalanır burda elə bil,
burda Xatın boyda çəmən var – ot yox.
Otaq var – insan yox,
                    ocaq var – od yox!
Qəbir var – bu daşlar başdaşı deyil,
torpaq var – bu torpaq o torpaq deyil.

Qırx üçdən bu yana dəyişdi daha,
göbələk yığmağa, çiçək yığmağa
meşəyə çıxmadı Xatın qızları,
qızların Xatında qaldı məzarı.

Keçdim ürəyimdə kədər ilə kin,
Xatını bu başdan o başa kimi.
Ömrü çox uzandı dəqiqələrin,
uzandı qırx birdən qırx beşə kimi.

Zənglər soraqlaşdı dilə gələrək;
– Sağ... san... mı?!
Burda zəng, –
– Bəs sən... sən... sən... sən... sən?..
– Mən yan... dım...
– Biz yan... dıq...
– Biz də...

Yenə zəng!
Burda insan susub lakin o gündən,
danışan rəqəm var,
        daş var,
                dəmir var.
Nə natiq görünür, nə səs-səmir var.
Bir heykəl dayanıb əlində uşaq,
üsyan nəğməsidi burdakı yasa.
O deyir: bu dünya bir də yanacaq,
Xatın yanğınını əgər unutsa.

## DOQQUZ MİLYON VƏ YARALI AĞACLAR

*Belorus şairi Y.Losa*

Mənim ürəyimdə min duyğu, min hiss,
onun ürəyində başqa bir həvəs.
Mən  xəbər aldım ki,
                nə qədərsiniz? –
Doqquz milyon dedi o mehriban səs.

Mən yenə soruşdum: ağaclar necə?
Neçədir meşədə sayı onların?
Baxdı,
        gülümsədi, güldü xəfifcə,
üzündə oxundu hüsnü baharın.

Asıldı çiynimdən o ağır illər,
mənim ürəyimə bir şey dammışdı:
Burda partizandan keçən güllələr,
dəyib, ağacları yaralamışdı.

Pöhrələr boy atıb indi bu yerdə,
yer sanki hamilə vədəsindədi.
Deyirlər, ağac var bu meşələrdə,
qəlpəsi hələ də gövdəsindədi.

Üstünə nə dava, nə dərman gəlib,
günəş məlhəm olub hər yarasına.
Gah axşam, gah səhər bir duman gəlib,
mavi tənzif kimi sarınıb ona.

Siz doqquz milyonun
                    üstünə gəlin
döyüş günlərini salın bir yada.
Siz doqquz milyonun
                    üstünə gəlin
yaralı, partizan ağacları da.

# YUXULARDA YANAN ŞƏHƏR

*L.Davidoviskiyə*

Bir qız deyirdi ki, anam köyrəkdi,
elə hey yadına qanlı il düşür.
Burda hər oğula dünya şöhrəti,
burda hər qadına bir heykəl düşür.

O qız danışdıqca yanırdı oda,
üzündə təbəssüm, səsində qəhər.
Deyirdi, anamın yuxularında
Minsk hələ yanır... indiyə qədər.

Qızın gözlərində gözəllik və qəm,
şirin gülüşündə şuxluq və hüzn.
Gördüyüm bu idi, dana bilmərəm,
belorus gözəli qoy inciməsin.

Nəsillər yer üstə görüşəcəkdi,
yerdəki qanları sellər yusa da.
Bu qəmdən, qəzəbdən pay düşəcəkdi,
Sabah doğulacaq belorusa da.

Məhəbbət, sədaqət salamat qalıb,
çıxıb sınağından ağır illərin.
Bayaqdan hüsnünə ağlım mat qalıb
hələ yuxularda yanan şəhərin.

# YERİN TARİXİ

*Bunu mənə Belorusda,*
*Lida şəhərində danışdılar.*
**Müəllif**

Bir qocaya deyiblər ki,
bir yer göstər bizə, ancaq
döyüş olsun,
qan tökülsün
orda bir vaxt.
Ordan torpaq götürək biz,
qardaş qəbri Kurqan üçün,
elə bu gün.
Qoca deyib: çox gəzməyin
yer üstünü,
yer altını.
Qaldırın siz yerin yalnız
üst qatını.
Sonra hardan istəsəniz,
ordan torpaq götürün ki,
hər əsrdə yer qan olub.
Amma yerdə nə başdaşı,
nə bir təpə – Kurqan olub.

Qoca susub,
əsrləri xatırlayıb qəmli gözlə,
qoca yerin tarixini
vərəqləyib bircə sözlə.

# ŞAİR

*Şairi, nəğməkarı olubdu hər diyarın,*
*xalqının şərəfinə söz deyibdi hər biri.*
*Şairi olmayıbdı amma belorusların*
*Yanka Kupala olsun barı qoy ilk şairi.*

**Y.Kupala**

Laylamı çalıblar məhəbbət ilə,
bayatı deyiblər beşik başında.
Mən şeir görmüşəm neçə xətt ilə,
xəncər tiyəsində,
yəhər qaşında.

Şeirimiz güc alıb alovdan, oddan,
səs salıb ən uzaq yola, izədək.
Yer altda tapılan saxsı qabından,
yer üstə salınan gəbəmizədək.

Şairə, şeirə qulaq asmışıq,
əsrlər görüşüb, qəlblər səsləşib.
Biz şeiri torpağa, daşa yazmışıq,
şeir torpaq qədər müqəddəsləşib.

Mən indi gördüm ki, bu qismət nədir,
könlümü qızdıran həmin hiss imiş.
Quru bir səsdisə vətənsiz şair,
şairsiz vətən də
şöhrətsiz imiş.

*Minsk, 1972*

# RƏŞİD BRÜSSELDƏ

*"...Qocalmışam... saçım-saqqalım tamamilə ağarmışdır... Bircə arzum vardır ki, 2 il də yaşayım və hal-hazırda Avropada, Belçika ölkəsinin paytaxtı olan Brüssel şəhərində mühəndislik elmini öyrənən yeganə oğlum Mirzə Rəşidin təhsildən qayıtmasını görərək, ona özüm toy eləyim".*

**M.F.Axundov**

Nə xatirə lövhəsi var, nə tanış yazı,
qapılarda göz oxşayır hər qədim naxış.
Görən hansı tərəfdəymiş onun partası,
görən hansı pəncərədə durub baxarmış?!.

Gözlərində atasının odu, alovu,
Brüsseldə institut tələbəsiydi.
Rəşid – Mirzə Fətəlinin yeganə oğlu
ozamankı Rusiyanın təbəəsiydi.

Ürəyimi qızdırırdı bir yeni duyğu,
kimsə gəlib əllərimi sıxacaq indi;
yüz il əvvəl bu sinifdə o dərs oxudu,
yüz il sonra qabağıma çıxacaq indi.

Tələbələr etinasız, soyuq, qayğısız,
amma mənə doğma idi bu daş pillələr.
Cins şalvar geyinmişdi belçikalı qız,
topasaqqal bir cavanla gülüşürdülər.

Belçikaya ilk dəfəydi mənim səfərim,
(xəritədə mən nə qədər baxdım bu ada).
Tək şeirlə bitən deyil xatirələrim,
danışdıqca açılıram duyan yanında.

Yəqin, Həsən Əzizoğlu unutmayacaq,
bu görüşlər qalacaqdır onun yadında.
O, Rəşiddən danışırdı neçə il qabaq
bir jurnalda oxuduğum tədqiqatında.

Durur həmin institut,
qaynayır həyat,
nə Rəşid var, nə Rəşiddən bir xəbərimiz.
Daş binaya salam verdik, görüşdük,
ustad,
sənin əziz xatirənə
Brüsseldə biz.

# NİZAMİ AVROPADA

*Lüksemburq hersoqluğunda, Sovet səfirliyi olan yerdə Azərbaycan nümayəndə heyəti dahi şairimiz Nizaminin heykəlini ucaltmışdır.*

**Müəllif**

Bir heykəl qaldırdıq biz yer üzündə,
insana, torpağa bu hörmət idi.
Nizami dayandı söz kürsüsündə,
ucalmaq, mən gördüm, səadət idi.

Əcnəbi soruşdu: kimdi bu heykəl?
– "Romeo-Cülyetta!" – dedim mən ona.
Böyük Şekspirdən dörd yüz il əvvəl
Nizami can verdi Leyli Məcnuna.

Arada məhəbbət körpüsü oldu,
hər qəlb öz dünyası, öz aləmilə.
Şərqdə Məcnun sevdi, Qərbdə Romeo,
iki sənətkarın bir qələmilə.

Gəlsin qulağıma səsin Gəncədən,
sən qoyub getdiyin dünyada, şair!
Lüksemburq hardadı,
sən harda, vətən,
Gəncəni gör harda tanıtdı şair.

"Xəmsə" əlindədi, çalma başında,
adı, təxəllüsü daşa can verir.
Bizimlə səkkiz yüz qırx bir yaşında
Şair - Avropada imtahan verir.

## ANAMIN TOXUDUĞU XALI

Kral sarayında qədim xalılar
toxunub anamın öz əllərilə.
Burda yallı gedir igid oğullar
qədim Kür üstünün gözəllərilə.

Bizim gəlinlərin cehiz payıdı,
bizim çəməndədi burdakı güllər.
Ərişi-arğacı necə sayadı,
necə təsvir edir sevən könüllər!

Xalılar yanından soyuq ötməyin,
o qürbət diyarda ab-havamızdı.
Mənə tərcüməçi təqdim etməyin,
naxışlar ən ulu əlifbamızdı.

Adi görünməsin orda ilmələr,
gör necə qovuşub qışı baharla.
Yoxsul daxmalarda üşüyən əllər
saraylar bəzədi bu xalılarla.

Analar nə qədər təvazökardı,
nə qədər xalı var qədimdən bəri.
Yalnız müəllifin bir adı vardı, –
yalnız Azərbaycan! –
onun əsəri!

Bir gənc eynəyini düzəldir hərdən,
yenə çatılırdı arada qaşı.
İstədim, götürüm xalçanı yerdən,
ən məşhur əsərlə asım yanaşı.

Bir dünya salona sığışa bilməz,
bu rənglər çoxdumu məgər dünyada?!
Divarda Rubensə heyran olan kəs,
xalçaya mat qalıb ayağı altda.

## MEHR-ÜLFƏT

Belçikada,
kilsədə,
bir keşişin səsində
mən hərarət duyurdum
flamand ləhcəsində.
Yanımda tərcüməçi
pıçıldayıb arada,
– Mehr-ülfət istəyir
deyirdi o, dünyada.
– Gərək fikirləşəydi
dedim ülfət istəyən,
NATO-nun qərargahı
uzaq deyil kilsədən.
Yüz addım aralıda
pozulur mehr-ülfət,
ölümlə hədələnir
dünyada bəşəriyyət.
Nədir onun günahı?
Raketlər,
generallar
tanımırlar Allahı.
Brüssel bahalıqdı,
xanım, deyin keşişə,
o xeyir-duasını
bəlkə bir az dəyişə.

Şəxsi mehmanxanada
biz ütü istədik: pul!
stəkan istədik: pul!
(pul əl çirki deyilmiş,
burda gördüm, ay oğul).

Köynəyimiz ütüsüz,
özümüz çaysız, yetər.
Bizlərdə belə deyil,
xanım, pul istəmirlər.
Qərbin gözündən gəlsin
Şərqin mehr-ülfəti,
ya Şərqin səxavəti.
Bir əcnəbi görəndə,
ya xarici bir qonaq,
Beynəlmiləl oxuduq,
salam-kəlamdan qabaq.
Xanım, deyin keşişə:
dininə hörmətim var,
sizə də çox hörmətim.
Mən Qafqaz adamıyam,
sizdə ülfət görmədim.

*Brüssel, 1983*

## AYNUR

Tərlan[1] ürəyində həyəcan duyur,
yuxusuz qalıbdı Qaxda bir ana.
Aynur[2] "şah!" – söyləyib meydan oxuyur,
Belçika mat olur
Azərbaycana.

Açsın qucağını vətən torpağı,
nəğməm ləpələnsin Kürün səsində.
Şərqin çadrası yox, Aynur bayrağı,
qalxır Avropanın tən mərkəzində.

Yeridi mehriban, dayandı məğrur,
gül tutan əlləri əllər içində.
Öz ətrin güllərdən təzəydi, Aynur,
gül kimi açmışdın güllər içində.

Burda cəbhə yarıb, təmiz ad qoyur
mənim millətimin bu sadə qızı.
Kral ölkəsində "Şah"ı mat qoyur,
şahsız bir ölkənin şahzadə qızı.

*Brüssel, 1983*

[1] Tərlan Musayeva *(red.)*
[2] Məşhur şahmatçı *(red.)*


TV
kampüs



Türkiyə.
Kayseri
Şeir günləri.
Türk arkadaşlarımla
mart 2009

# REKLAM

Qadın gördüm vitrində,
Başdan-ayağa çılpaq.
Müştəri gözləyirdi
saatı – əlli frank!

Reklam – isti bir nəfəs,
uca qamət, ağ bədən.
Gözəllik himni imiş
qadında çılpaq bədən!

Surəti köçürülüb
elə bildim əsərdən.
Döşləri titrəyirdi,
çiyini əsirdi hərdən.

Göbəyini, yanını
göstərirdi əliylə.
Bir şərqli üz-üzəydi
Avropa gözəliylə!

Bu, axşam bazarıydı,
çəkilmişdi əl-ayaq.
Qadın gördüm vitrində
başdan-ayağa çılpaq.

Eşqə, ülfətə layiq
bir can gördüm mən orda.
Eşqini, ülfətini
satan gördüm mən orda.

*Brüssel, 1983*

## BİR QOCA TƏR TÖKÜRDÜ

Bir qoca tər tökürdü,
daş qoyurdu daş üstə.
Dedim yorulmayasan,
avand olsun, ay usta.
Ona deyə bilmədim
nədir səndə bu həvəs.
Dünyada raketləri
yerləşdirir filankəs.
Səni prezidentliyə,
ya baş nazir yerinə
namizəd göstərərdim,
məqam düşsəydi mənə.
Daşyonana verərdim
vəzifəni mən hətta, –
ev yıxmaq yox,
ev tikmək
dəb düşərdi həyatda.

*Belçika, 1983*





Türkiyə.
Kayseri
Şeir günləri.
Türk arkadaşlarımla
mart 2009

# AĞCAQAYIN AĞACLARI

Düzülüblər sadə, səssiz.
Bir az doğma,
bir az qərib,
bir az əziz.
Dunay, Sava çaylarının
kənarında.
Eh, kimləri saldım yada.
Görən hansı ailənin
balasıymış,
ürəyinin parasıymış.
Görən hansı bir gəlinin
nişanlısı, ya əriymiş?
Əziziymiş,
doğmasıymış,
sərvəriymiş!
Ağcaqayın olub burda,
ağac olub.
Zaman burda ağsaç olub.
Səngərlərdə yıxılanlar
qalxıbdılar ayaq üstə.
Onların boy-buxunuydu
elə bildim torpaq üstə.
Xəbər verin analara,
bacılara,
bütün uzunsaçlılara,
ağcaqayın ünvanlı bu
qəbirləri.
Mən onlara həsr edirəm
qəlbiköyrək sətirləri.

*Sarayevo, 1975*

## BAKI, SARAYEVO

O deyirdi: Sarayevo cənnətidi yer üzünün,
mavi Dunay güzgüsüdü gecəsinin,
gündüzünün.
Mən deyirdim: cənnət Bakı torpağıdı,
Abşeronun qoynu ana qucağıdı.
O deyirdi: bu yerdədi gözəl hava, təmiz
su da,
gəncin zərif, qızın uca boylusu da...
Mən deyirdim: axşamüstü bizim sahil,
bir gözəllik sərgisidi lap elə bil.
O deyirdi: hər məscidin, hər məbədin
Naxışında tarixi var yüz adətin.
O, mən idim, Sarayevo... gözəl şəhər!
Səni görüb vurulmuşdum səhər-səhər.
Darıxmışdım Bakı üçün, bu halıma demə, nəydi,
bir ürəkdə iki hissim üz-üzəydi.

*Sarayevo, 1975*

# FƏLƏSTİN NƏĞMƏLƏRİ

*Fələstinli şair Mahmud Dərvişə*

Vətənsizdi Mahmud Dərviş,
ürəyində bu dağ gəlib.
Şair uzaq bir diyardan
qonaq gəlib.
Gəlib şeir günlərinə,
Sarayevo şəhərinə.
Dünya onun nəzərində
Fələstindi,
şəhər – kürsü,
gözlərində –
taleyindən umu-küsü.
Fələstinin faciəsi, –
Hiss etməyə, ya duymağa
nə var, Dərviş,
vətəni yad tapdağında
olan kəsi.
Ondan ünvan istəyirlər,
yaz – deyirlər.
Elə bil ki,
toxunurlar yarasına,
bulud gəlir
ilhamının səmasına.

Durub baxır,
gülümsəyir həzin-həzin,
eh, neyləsin.
Sığal çəkir
qara, şəvə saçlarına,
şeir deyir gülümsəyə-gülümsəyə,
yana-yana.
Ürəyimə tufan salır
od nəfəsi,
sevincin nə tərcüməsi,
Mahmud Dərviş,
ya dərdin nə tərcüməsi...

*Sarayevo, 1975*

# TƏBRİK, QARDAŞ!..

*Fidel Kastroya*

Qəzetlərdə oxudum mən nitqini,
ürəyimin tellərinə toxundun.
Sən səngərdə yazdın həmən nitqini,
təbrik, qardaş! BMT-də oxudun.

Nəm səngərdə bir içim su içəndə,
torpağa da, suya da and içirdin.
BMT-nin kürsüsünə keçəndə,
o səngərdən, bu səngərə keçirdin.

Bir ölkənin baş naziri olsan da,
igid kimi düşdün dildən-dilə sən.
Şəhidlərin qisasını alsan da,
saqqal qoyub yas tutursan hələ sən.

Kürsüdə də şax dayandın sən o gün,
sinəndəki, bildim, böyük ürəkdi.
Hər xalqa öz zəncirini qırmaqçün,
sənin kimi mərd oğullar gərəkdi...

* * *

Varadero[1] kurortdu
okean sahilində.
Bir qitə daxilində.
Gömgöy zümrüdə çalır
sular duruluğundan.
Dünyanı su basardı
yer çıxsaydı oxundan.

[1] Kuba Respublikasında okean sahilində sanatoriya *(red.)*

* * *

Hava nəmdi, hava nəm,
havadan su içirəm.
Su damcılar havadan
havanı sıxsa bir əl.
Yağış yağar, yer doyar,
gün qızar, qumu qızmaz.
Heyf deyilmi Xəzər,
başqadı, oxşasa da
bu qum o quma az-maz.

Hind qozunun budağı
bir qırqovul lələyi.
Yel əsir, isti bir yel.
Canım Azərbaycanım!
Hanı Bakı küləyi?!
Böyükağa – nağara,
Faiq – qarmon,
Yaqub – səs.
Sizin nəfəsinizi,
sizi o duya bilməz.
Sizi oxuda bilər,
sizi oxuya bilməz,
Ramiz bəyin "Yallı"sı.
Deyin, Yaqub oxusun,
çataq biz arzumuza.
Hardadı Bəhmən, Musa,
Fəxrəddin, Arif Şamo...[1]
Tək bircə el havası,
şair xeyir-duası!
Biz harda, harda olsaq,
Azərbaycan, yaşa sən
Azərbaycandan uzaq.

*Kuba, 1989*

[1] Şairin səfər yoldaşları

* * *

Nazik bir xətt uzanır –
bir zolaq – xəritədə!
Kubalılar – qitədə.
məşhur Karip dənizi,
Atlantik okeanı,
su basıbdı dünyanı.
Şalvarlı kök qadınlar –
qalın dodaqlarıyla,
günəşdən yanmış üzlər,
qollar,
açıq sinələr.
Siqarlı, şlyapalı
və saqqallı kişilər.
Köhnə evlər, villalar
tikilib illər ilə.
Yollarda "Moskviç"lər
Kuba nömrələriylə.
Bir də SSRİ-dən
turist saysız-hesabsız.
Gitarada oxuyur
dişi ağ,
qara bir qız.

*Kuba, 1989*

# PİKASSONUN GÖYƏRÇİNİ

Qırx ikidə doğuldu,
ölümlər pəncəsində
bir həyat rəmzi oldu.
O, səngərsiz yerlərdə
göründü axşam-səhər.
Tüfənglərin süngüsü,
topların od lüləsi
tuşlandı sinəsinə,
öldürə bilmədilər.
Əllidə qanad açdı,
uçdu varaqlar üstə,
köynəklərin döşündə,
şüarlarda
dolaşdı
havanı yara-yara,
Konqreslər zamanı
qondu plakatlara.
Uçur, uçur indi də,
yuvası neçə torpaq,
məskəni neçə ölkə,
göyərçinlərlə birgə,
süni peyklərlə birgə.
Ağır raket daşıyan
təyyarələrlə birgə.
Uçur belədən-belə
Göyərçinin dalınca,
raketlərin dalınca
baxırıq, boylanırıq
Pikasso ümidilə...

***HİNDİSTAN.***
***YADİGAR GÜNLƏRİM***

## 1. TƏYYARƏDƏ

Sağımda hindlidi, solumda alman,
körpə uşaq da var, yaşlı qadın da.
Arxamda ingilis,
önümdə ispan,
uçuruq göylərin yeddi qatında.

Ayrıdı baxışlar, dünyagörüşlər,
ayrıdı eyhamlar,
dillər,
gülüşlər,
duruşlar,
təmaslar,
məqamlar ayrı.
Ədalar ayrıdı, salamlar ayrı.
Kişi var don geyir, şala bürünür,
qadın var xalatı yerlə sürünür.
Biri məxmərdədi,
biri sətində,
hər kəs öz dəbində, öz adətində.
Uçuruq üstündən Əfqanıstanın,
uçuruq üstündən biz Pakistanın
Yerdə toqquşmalar, yerdə qan-qada,
hardasa baş yarır daş da, kəsək də.

Biz burda –
yer ilə göy arasında,
dil tapıb uçuruq dil bilməsək də.
Başqadı irqimiz, təriqətimiz,
mən ona, o mənə gərək oluruq.
Bir uşaq ağlasa, "can" deyirik biz,
bir ürək ağrısa, həmrəy oluruq.
Dehliyə uçuruq...
bu da bir qismət,
mehr-ülfət göstərir insan insana.
Təyyarə dolusu insana rəğbət,
hörmət aparırıq biz Hindistana.

## 2. GÖYƏRÇİN

Necə gözəldi, Allah,
            "sari"də[1] hind gəlini.
Beləcə yaradıbdı
Özü-öz heykəlini:
            tül örpəyin içində,
gözəllik – bu rənglərin,
bu ipəyin içində.
Baxdım,
            baxdı o gülüb.
Bel açıq,
göbək açıq,
            ayaq, boyun örtülüb.
Sərv yeriyir elə bil,
            amma sərv o sərv deyil.
Alnında qırmızı xal,
            burnun böyründə tana.
Sevinc bağışlayırdı
mənə
   və Hindistana.

Burda dedim ilk dəfə
            tərcüməçi nə gərək.

[1] Qadın geyimi *(red.)*

Mənim nəyimə gərək,
onun nəyinə gərək.
Dedim şair, yaxşı bax,
gəlin də uşaq deyil.
Pakistandan,
ya Çindən
sərhəd çox uzaq deyil.
Onun kirpiklərilə
raketlər üz-üzədi.
Raketlər möcüzədi.
Dedim: "Sülh göyərçini",
gördüm sülhdü niyyəti,
qadın səmimiyyəti.
"Dünyaya sülh" şüarı
yeriyirdi elə bil
gözümün qabağında,
Hindistan torpağında.

## 3. FİLLƏR VƏ TULALAR

Xarici turistlər,
qəşəng qadınlar...
bəli, okeanın o tərəfindən.
Məhəbbət, əyləncə axtarır onlar,
ya burda Hindistan,
ya orda vətən!
Biri asılıbdı fil xortumundan,
birinin boynuna sarılıb ilan.
Biri mavisaçdı,
biri sarısaç,
birinin bərq vurur sinəsində xaç!

Toxdular, aclara baxıb gülürlər,
gülüşün zərbəsi arxadan imiş.
Tulalar fillərə qorxub hürürlər,
tula cəsarəti –
qorxudan imiş.

Ədayla danışıb,
asta dinirlər,
(görən nə deyirlər dodaqlar altda?!)
Tulalar yerimir, diyirlənirlər
futbol topu kimi –
ayaqlar altda.

Xanımlar bilmirəm nə niyyətdədi,
bayaqdan ürəyim od tutub yanır.
Tulalar xarici səyahətdədi,
fillər vətənində
əsir saxlanır.

Əyilib tulaya xanım dil verir,
fillərin üstünə o, hürsün deyə.
Tulalar sonradan
şəkil çəkdirir,
fillərin yanında görünsün deyə.

Dağ kimi durmuşdu meydanda fillər,
bu da təbiətin möcüzəsiydi.
Tulalar fillərlə əylənirdilər,
bu da
cəmiyyətin möcüzəsiydi.

## 4. GƏZMƏYƏ QÜRBƏT

Xeyli maraqlıdı xaric doğrudan,
insanlar yaşayır bu yer üzündə.
Lakin birinci gün sevinən insan,
darıxır qürbətdə
sonuncu gündə.

Adəti-filanı yadırğayırsan,
dəyişir elə bil hər şey dünyada.
İnsanlar içində tək qalır insan,
süfrələr başında
yeri olsa da.

Müqəddəs bir yerə vətən deyirik,
əbədi bağlıdı ürək bu ada.
Beşikdən
qəbirə vətən deyirik,
bəzi vətənsizlər inanmasa da.

Beləcə dəyişdim Nazim,[1] deyəsən,
Yanmasın halıma qoy heç kim mənim.
Yeddi yüz milyonun içində sənsən,
yeganə oxucum,
həmyerlim mənim.

[1]Şairin səfər yoldaşı *(red.)*

Şairi bir nəfər duyursa, demək
məhəbbət sarıdan o, kasıb olmur.
Məncə,
ucalmaqdı bir qəlbə enmək,
bəzi məşhurlara bu, nəsib olmur.

Qışın buz nəfəsi üşüdə bilməz
bir qəlbin oduna qızınan kəsi.
Ürəklə duyulan sözlə deyilməz,
başqadı
qürbətdə vətən nəğməsi.

Vətən nəğməsini kimsə, deyirlər,
ruhi xəstəliyə bərabər tutub.
Harda yaşayıbdı vətənsiz bəşər,
ya vətən –
bəşərsiz bir qərar tutub?!

Doğma dilimizdə danış, bir az da
hüsnün gözəlliyi bir yerdə olsun.
Bir həftə
Muğan da,
Kür də,
Araz da
qoy burda bizimlə səfərdə olsun.

Hardasa görünür indi yerimiz,
biz yada düşürük axşam, ya səhər.
Biz burdan çağıraq:
ay ellərimiz! –
eybi yox, qoy bizi eşitməsinlər.

Var ol bu dünyada, ey ulu diyar,
var olsun bu hissi kim şöhrət bilib.
Gəzməyə qürbəti deyib babalar,
ölməyə
vətəni məsləhət bilib.

*Dehli, 1980*

## 5. GÖZLƏR, TALELƏR

Yer üzünün mən ən uzaq yerindəyəm,
nələr deyir gördüyüm kənd, keçdiyim yol.
Azərbaycan, anam, sənin fikrindəyəm,
burda məni tək qoymursan, səni var ol.

Sahiliylə, limanıyla, necə deyim,
bir az oxşar şəhərlərdi Bombey, Bakı.
Tək qalanda görürəm ki, tək deyiləm,
tək qalanda yenə sənsən yanımdakı.

Mən küçədə
        yatan gördüm, üstüaçıq,
insan gördüm, ev-eşiyi bir alaçıq.
Hava yanır, od ələnir göydən yerə,
torpaq yanır elə bil ki, illər boyu.
Göz qoyurdum ağpaltarlı kişilərə,
sanki badam gül açmışdı yollar boyu.

İnək gördüm, dolaşırdı veyil-veyil,
ilan gördüm, dəymirlər ki, müqəddəsdi.
İlan çalır, ilan bunu qanan deyil,
"müqəddəsin" çalması da bir mərəzdi.

Uşaq gördüm, qadın gördüm, kömək dilər,
bir söz dedim mən çağırıb bələdçini:
əl açanın əlinə göz dikibdilər,
varlı gördüm Hindistanda dilənçini.

Gəlib bir an görəydilər burda durub,
ömrü boyu giley-güzar söyləyənlər.
Qarınını vətənində doyuzdurub,
ürəyində xaric üçün baş əyənlər.

Qadın gördüm, nəfəsində yanıqlı ah,
o, rikşaya[1] qoşulmuşdu öz əriylə.
Taleyini görürdülər, gözünü yox,
o, Hindistan gözəliydi – gözləriylə.

Odu, suyu təbiiydi o gözlərin,
yanaşıydı fəlakəti məhəbbətlə.
Gözlərinə vurulmuşdum o gözəlin,
taleyinə acıyırdım sədaqətlə.
O, yanaşı yeriyirdi öz əriylə,
yanaşıydı taleyi də gözləriylə.

Mən boyalı, mən bəzəkli
hüsnə yadam,
bəzəyiydi gördüyüm qəm o gözlərin.
Hindistanı görən gündən narahatam,
taleyini düşünürəm o gözəlin.

*Bombey, 1980*

---

[1] İkitəkərli araba *(red.)*

## 6. RƏNGLƏR, ODLAR

Tonqallar başına yığışmışdılar,
nəğmələr oxuyub hey gülürdülər.
Qol-qola, əl-ələ sıxışmışdılar,
qarmontək
            açılıb-bükülürdülər.

Böyüklər başqaydı,
Hələ uşaqlar,
            üzləri, saçları qıpqırmızıydı.
Rənglər içindəydi əllər, ayaqlar
qapqara qaşları qıpqırmızıydı.

Bir xalqın ən qədim ənənəsiydi,
başa səpilirdi gül də, çiçək də.
Xeyirin şər üstə qələbəsiydi,
qırmızı rənglənib rəqs eləmək də.

Saxladı bizim də maşınımızı,
yolun ortasında hindli cavanlar.
Rəngləmək istədi üst-başımızı,
birbaşa vedrədən
                istədi onlar.

Mən səfər dostuma baxdım, gerçəyi,
özüm də istidən elə bişirdim.
Geydiyi qəttəzə qara pencəyi
necə olacaqdı? –
                    fikirləşirdim.

Biz ev yiyəsinin bu adətindən
inciyə bilməzdik,
                    biz də bəşərik.
Deyirdim, hərəmiz bir ağ sətindən
salıb çiynimizə hindliləşərik.

Oxşayır, oxşayır dedim hər kəsə,
Novruz bayramını xatırlayıb mən.
Hindlilər gör harda oxşayır bizə,
biz də atılırıq tonqallar üstdən.

Xəyanət hər yerdə odda yanaydı,
biz də sözümüzü onda deyəydik.
İnsanlar qol-boyun sıralanaydı,
ocaqlar başında rəqs eləyəydik.
Paxılı, əclafı, qarnı qurddunu
ocağın içinə itələyəydik.
Beləcə gözümlə gördüm mən şəri,
uzaq Hindistanda odda yanırdı.
Məhəbbət bəşəri,
nifrət, – bəşəri,
          kainat gözümdə işıqlanırdı.

*Hindistan, 1980*

## 7. MİNARƏ

Nə gözəl yaranıb məscid, minarə,
elə bil tağlara əl dəyməyibdi.
Elə bil raketlər sancılıb yerə,
tufanlar dağıdıb, yel əyməyibdi.

Bir hindli gördüm mən nəğmə dilində,
bir gözəl gördüm mən aralı keçdi.
Müsəlman kişisi – təsbeh əlində,
müsəlman qadını – çadralı keçdi.

Bir ömrüm olaydı
məscid qədər kaş,
kimsə məndən sonra yada salaydı.
Məscidtək səcdəmə gələydilər kaş,
mən də minarətək kaş ucalaydım.

## 8. YEDDİ YÜZ MİLYON VƏ İKİ NƏFƏR

Okean sahilində,
Bombeydə, bir görüşdə,
sadəcə
hind dilində
soruşdu tərcüməçi,
hansı dildə danışaq?
–İngiliscə, – dedilər.
–Yox, hind dilində, ancaq!

Bir salonda elə bil
iki böləndü vətən,
hakim, müstəmləkəçi
baş qaldırdı yenidən.
Nə ingilis var idi,
nə ingilisin xəbəri,
salonda Hindistanın
ingilispərəstləri.
İngiliscə! – deyirdi
təkid ilə üç nəfər, –
"mədəni" geyinənlər,
(Mən orda xariciydim) –
özünü xariciyə
göstərmək istəyənlər.

Bir an nə səmir, nə səs,
gözlərdə şübhə, qərəz.
Nehrunun silueti,
ağsaçlı İndiranın
qərəzsiz portreti,
"Cənab 420".
Rac Kapurun nəğməsi,
nəğmə dedim, naləsi!
Mən cavab gözləmədim.
Mən Vurğunun dilində
qalxıb bir şeir dedim.
Mən bir az istehzalı,
bir az qəzəbli, gülər, –
dediyimi səsimdən,
yəqin, başa düşdülər.

Çiçək bağışladılar,
yerdən alqışladılar.
Birləşdi ayrılanlar,
yatanlar,
ayılanlar.
Şeirimin ünvanına
qoy ölsün daş atanlar.
Minlərə, milyonlara
qoşulduq – iki nəfər.
İki nəfər çox oldu
Hindistanda
hindlilər.





# 9. TACMAHAL

Ağ mərmərdi, ağappaq,
təptəzə, qar kimi ağ.
Nazik cuna kimi ağ!
üstündə əl işləri:
qırmızı,
          yaşıl,
                    qara,
Güllər öz ətri ilə
köçürülüb divara. –
Divarda bir dalğa var,
əl vurursan, hamardı,
divar elə divardı.
Lalələrin saplağı
divar üstə damardı.
O divar da hamardı.
Övladıdır bu əsər
ən müqəddəs bir hissin.
Tac kimi qoyulubdu
üstə
  yer kürəmizin.
Burda xatırlayıram
          ən qədim rəvayəti, –
qadınına həsr edib
                    hökmdar bu sənəti.
Ölən şan-şöhrətidi,
                    yaşayan məhəbbəti.
Gör gəlib harda gördüm
                    gücünü etibarın.
Özünə yox,
          qəlbinə
baş əydim hökmdarın.

## 10. ZİYAFƏT

Ziyafət verirdi bizə hindlilər,
Odlar diyarından –
biz, iki nəfər,
bir də iki nəfər tərcüməçimiz, –
burda səfirliyin diplomatları.
Lakin biz diplomat dililə deyil,
ürəklə sevmişdik bu dost diyarı.

Süfrə söhbətini hörmət sayırdıq,
mehr-ülfət duyurduq hər tanış üzdə.
Biz də əlimizi qoşalayırdıq, –
Hindli adətilə
sinəmiz üstə.

Boğazdan yuxarı təriflər deyib,
qərəzlə baxmırdıq durub göz-gözə.
Əksinə, hörmətlə bəzən baş əyib,
salam göndərirdik bir-birimizə.
Bizim adamlara oxşayırdılar,
yalnız danışanda hindliydi onlar.

Ürək bu aləmdə sehrlənirdi,
bir səs deyirdi ki, gözünüz aydın.
Bizim verdiyimiz val hərlənirdi.
Zeynəb oxuyurdu:
“Sən bağışladın”.

Restoran hörmətlə qulaq asırdı,
hörmət də duyurdu onun səsində.
Zeynəb Hindistana qədəm basırdı
öz milli,
mehriban qiyafəsində.

Ürək min istəkdə, minbir arzuda,
gülüşü, eyhamı alqışlayırdıq.
Kəsilən çörəkdə, içilən suda,
deyilən sağlıqda biz yaşayırdıq.

*Dehli, Bombey, Aqra. Surət,*
*Baroda, Bakı, 1980.*

## BERLİN YOLU

Qatarda gedirəm: “Moskva – Berlin”,
Yanımda dostlarım deyib-gülüşür.
Mənim yadımasa, can ay Firudin,
Piyada getdiyin bu yollar düşür.

Səngər qaza-qaza keçdin bu yolu,
Gah silah götürdün, gah bel, gah kürək.
Yerini-yurdunu, ay dayım oğlu,
Nə uçan quş bildi, nə əsən külək.

Düşdün orduların axan selinə,
Gündüz dincəlmədin, gecə yatmadın.
Berlin torpağına, alman elinə
Səsin gəlib çatdı, özün çatmadın.

Susub burda dinən o top, o tüfəng,
Onun əvəzinə, onun yerinə;
Gəlin elə gülək, top atəşitək,
Əvvəl gülüşümüz çatsın Berlinə.

*1962*

## ALMANİYA

Hələ Almaniya torpağındayam,
Sağımda bir kənd var, solum meşədi.
Mən hələ çox şeyin marağındayam,
Ancaq heç bilmirəm bu maraq nədir.

Burda da oxuyur quşlar arabir,
Şeh düşüb, çəməndə üşüyür çiçək.
Eh, bir də, kim bilir, bir də kim bilir
Nə vaxt bu yerlərə yönüm düşəcək.

Buhenvald yoludu getdiyim bu yol,
İndi ot basıbdı qıraqlarını.
Dostuma deyirəm, ehtiyatlı ol,
Bir azca asta bas ayaqlarını.

Qoy əli belində burdan keçməsin,
Turist sifətiylə gələn qonaqlar.
Paltarı Bakıda saxlanan kəsin,
Beymar meşəsində, bəlkə, qəbri var?

Hər lalə bir ovuc tökülən qandı,
Yağışda çimməyib hələ bu torpaq.
Buralar qəbirsiz qəbiristandı,
Dayan... qəbirləri ayaqlamayaq.

*Veymar, 1962*

# LALƏ

Hanı bizim qayalıqlar,
Bizim torpaq, bizim diyar?
Harda gəlib bitmisən sən?
Çöllər qızı, barı dillən!

Lalə, lalə, burda mənim
cavan yaşlı həmvətənim,
həlak oldu son baharda,
gedən qanlı vuruşlarda.
Qucaqladı yad torpağı,
Lalə, onun al bayrağı
dalğalandı başqa əldə,
həlak oldu qürbət eldə.
İllər keçdi... onun üstən,
Bu baharda sən bitdin, sən.
Cəbhələrdə qaldı səsi,
ey tək qəbrin al laləsi!
Od vurdular, yandım yenə,
andım vətən torpağını.
Mən laləmi deyim sənə,
o əsgərin bayrağımı?

*Berlin, Podstam, iyul, 1962*

# RƏHİM

Yollar yolumuza bənzəməsə də,
çöllər çölümüzə bənzəməsə də,
bir gül gülümüzə bənzəyir bizim.
Qərənfil gülünə oxşayan gülü
qoy gedim iyləyim, üzüm, ay Rəhim!

Kölgələr uzanır meşə boyunca,
ağaclar ucadı, budaqlar haça,
yarpaqlar gah uzun, gah dilim-dilim.
Bu çəmən qoynunda, bu sərinlikdə
Dayan, bir balaca gəzim, ay Rəhim!

Balalar de, hardan aşıb-daşdılar?
Körpə kəklik kimi qaqqıldaşdılar.
Qızım Xatirəni andı ürəyim,
onun dili düşdü yenə yadıma,
onsuz burda necə dözüm, ay Rəhim!

Köhnə iz üstündən təzə iz keçir,
baxıram, könlümdən neçə söz keçir.
Ağzımda od tutub alışır dilim,
gəl sənə təzə bir şeir oxuyum,
sənindi bu şeirim, sözüm, ay Rəhim!

*Podstam, Sansusi parkı, 1962*

## PƏNCƏRƏ ÖNÜNDƏ

Keçdim Buq çayından, Visla çayından,
Deyirlər burdadı yayın sərini.
Üşüdüm bir azca, düzü, obaşdan,
Bağladım köynəyin düymələrini.

Zəmili, kartoflu, meşəli çöllər
Uzanır ən uzaq üfüqə qədər.
Məni ətri vurur gülün, çiçəyin,
Görürəm yanaşı bağçanı, bağı.
Dayanıb yanında ala inəyin,
Qatara əl edir bir qız uşağı.
İkimərtəbəli bir ev görünür,
Qapqara yanmışdı daşı, kərpici.
O qara geyinib yasa bürünür,
Qırx birinci ildən boş qalıb içi.
Uzanan düzlərə nəzər salıram,
Ağaclar bitibdi beşbir, altıbir.
Elə sanırsan ki, beş-altı adam
Yığılıb baş-başa söhbət eləyir.
Çölləri, düzləri seyr elədikcə,
Sulara qarışıb sanki axırdım.
Elə bil qatarın pəncərəsindən,
Bir genişekranlı filmə baxırdım.

*Polşa, Pereskop, iyul, 1962*

# QUSTA

*Yulins Fuçikin qadını Q.Fuçikovaya*

Qarışıb ağ saçlar qara saçlara,
artıb qırışların dərinliyi də.
Sən o gözlərə bax, bir də qaşlara,
durur qızlığı da,
gəlinliyi də.

Qusta!
Asya adlı bacım var mənim,
sinəmdə ağrım var, acım var mənim.
Gördüm Reyxstağı bir həftə qabaq,
yenidən qövr etdi qəlbimdə qubar.
İndi sükut edir yas saxlayaraq
o bayquş yuvası,
o xarabazar!

Siz, ey ərsiz qalan gəlin bacılar!
Siz, ey anam olan uzunsaçlılar!
Gəlin, sizi bir də bağrıma basım,
danışın, qoy bir də mən qulaq asım.

Məndən gizləməyin göz yaşınızı,
bir az uca tutun ağ başınızı.
Nə olar, a bacım, bir az ağlayın,
ölən ərinizə yas da saxlayın.
İnsan ömrü boyu daş ola bilməz,

ürək ağlayanda gözlər də gülməz.
Sizi düz yazmadı bəzi şairlər,
dedilər,
olmayır sizdə qəm, kədər.
Yonulmuş daş kimi baxdılar sizə,
üstəlik dəydilər ürəyinizə.
Kövrəltdin məni də danışıb
inan,
hardadı dözümüm o qədər mənim.
Gözündən nöqtələr tökülür, dayan,
şeirimə bir nöqtə bəs elər mənim.

*Praqa, 1 avqust, 1962*

# İNKVİZİSİYA QƏHRƏMANI

Biz gərək bir şeyi heç unutmayaq,
Həqiqət gəlməsin birtəhər sənə.
Ayaqlar altında tapdanan torpaq,
Yüyürmək istəsən, güc verər sənə.

Yan Qus yandırıldı odlarda bir vaxt,
bir qarı yüyürdü bu səsə-küyə.
Çırpı tulladı ki, bərk yansın ocaq,
o güldü "müqəddəs sadəlövhlüyə."

Qarı qəzəbindən odlanırdı ki,
o xain çıxıbdı, tez yansın gərək.
Yan Qus da yanırdı...
"o yanırdı ki,"
vətəni qəflətdən oyansın gərək.

Bu söhbət tək qarı söhbəti deyil,
bəlkə də, bir istək, bir heysiyyətdi.
Yaşamaq – insanın şöhrəti deyil,
bəzən qələbə var –
məğlubiyyətdi.

Nə bilim, bəlkə, mən ömrüm uzunu,
sənə minnətdaram hamıdan qabaq.
Yıxılan – bərkiyir, unutma bunu,
uçurum – ehtiyat öyrədir ancaq...

## YADA DÜŞDÜ

Qəribsədim qürbət eldə,
Elim-obam yada düşdü.
Bakı, Xəzər, Kür sahili
səhər-axşam yada düşdü.

Qoşa ördək üzür göldə,
yağış yağır, əsir yel də.
Ağ lalələr gördüm çöldə,
qızıl laləm yada düşdü.

Mehribandı dost torpağı,
Vltavanın solu-sağı.
Güldü bir şux qız uşağı,
Xətiş balam yada düşdü.

*Çexoslovakiya, Klatova,*
*1962*

## BERLİN

Səhər-səhər,
muzeyləri gəzdirirlər.
Yas donunu dəyişməmiş hələ şəhər.
Hələ azdı təzə, nurlu aynabəndlər.
Bədənində güllə yeri durur hələ
heykəllərin.
Barıt iyi, qan iyi var nəfəsində
hələ yerin.
Düşünürəm daş səkinin qırağında,
Almaniya görsün məni.
Berlin boyda muzey durur qabağımda,
muzeylərə aparmayın bu gün məni.

*Berlin, 1962*

# ALMAN ƏSGƏRİNƏ

Tikanlı məftilləri
görəndən
kirpiklərim
tikan olub hər yerdə
gözümə batır mənim,
bu yumşaq kirpiklərim.
Harda sərhəd görürəm,
təzələnir bu yaram.
Ah, adı bir, adı bir,
özü iki Astaram.

Astara
Astarada,
məftillər gözümdədi,
hələ narın şumlanan
oləklər gözümdədi.
Yağışlar, tozanaqlar,
küləklər gözümdədi.
Avtomatı çiynində
o əsgər
gözümdədi.

Bu dirəkli, məftilli,
avtomatlı gözümlə
gördüm, Berlin, səni də.
Gördüm Almaniyanı,
bu keşik çəkəni də.
Çiynində avtomatı,
bir də mavi paqonu.
Brandenburq qapısının
ağzında gördüm onu.

* * *

Astara əsgərinin
Berlindəki yaşıdı,
o daş hansı binanın
uçan özül daşıdı?
O kərpic hardan düşüb?
O küçəylə kim keçib?
Kim o susuz bulaqdan
sulu vaxtı su içib?
Mən cavab istəmirəm
bunların heç birinə.
Ancaq Almaniyanın
gələcək şairinə
cavab hazırla barı,
onun gözü görməsin:
sənin avtomatını,
tikanlı məftilləri,
bir də
bu daş hasarı.

Mənim kimi o yazıq
gəzdirməsin gözündə
dirəkləri, milləri,
tikanlı məftilləri,
mən nə bilim, nələri...
Qoy Berlinin şeirini
yazdığı zaman yalnız,
sənsiz yazsın o şair –
məftilsiz, avtomatsız...

*Berlin, 1962*

# KOMENDANT ARVADI

Nə qədər ağırdı bu şeiri yazmaq,
gözümdə qəzəb var, ürəyimdə qəm.
Elə bil ikiqat zəncirlənmişəm,
lakin qəlb dindimi, çətindi susmaq.

Qığılcım parlayır ocaq gözümdən,
söhbət uzandıqca qulaq asıram.
Qışqırmaq, bağırmaq istəyirəm mən,
yox, hələ susuram, hələ susuram.

Susuram mən bizim toplar sayağı,
xəbəri varmı heç bundan bir kəsin?
Berlinin, Veymarın daşı, torpağı
mənim nifrinimdən gərək titrəsin.

Tikanlı məftillər, paslı dirəklər,
dəmir pəncərələr, bellər, kürəklər,
krematoriya... ölüm kürsüsü,
hansı əsirinsə qırıq güzgüsü.

Yarı yazılmamış qanlı varaqlar,
sümüklər, kəllələr, başlar, ayaqlar.
Kiminsə döşünün qurumuş tükü...
Baxıram çiynimdə dünyanın yükü.
Özüm də bilmirəm heç hayandayam,
"Buhenvald" adlanan qəbiristandayam.

Hanı avtomatı döşünə sıxan,
"Hayl Hitler!" deyən "SS" soldatı?!
Burda tulasıyla gəzməyə çıxan
cəllad komendantın çil-çil arvadı?

Ürəklər diksindi onun səsindən,
qısaldı mənzili neçə yüz ömrün.
Komendant evinin pəncərəsindən
ölən əsirlərə baxdı zövq üçün.

Biri ad günündə dibçək gətirdi,
başqa bir "SS" də öz adı üçün
insan dərisindən əlcək gətirdi
rəisin bu şortu arvadı üçün.

Stollar üstündə bir-bir düzüldü,
o dibçək, o əlcək, sonra abajur.
Mənim ayağımsa yerdən üzüldü,
dedim danışana bəsdi, daha dur.

Hirsimdən əlimdə titrədi qələm,
görənlər oldu ki, yerimdə əsdim.
İstədim ucadan qışqırıb deyəm
sizin... yox, demədim, deyə bilməzdim.

Durdu göz önümdə ölənlərimiz,
"Qara kağız"ları gələnlərimiz,
təzə nişanlanıb gedənlərimiz,
adsız və ünvansız itənlərimiz.
Gəldi göz önümə sonsuz analar,
atasız böyüyən yetim balalar.

Bizim qonşuluqda ağbirçək qarı.
hələ də gözləyir yazıq yolları.
Hələ də gecələr o, yuxu görür,
hələ də yolçuya o, nəzir verir.
Hələ də qurbanlıq saxlayır qarı,
xəlvətə düşəndə ağlayır qarı.
Elə ki, qulağı bir səsə düşür,
ürəyi min yerdən həvəsə düşür.
Gözü səyriyəndə sevinir yazıq,
deyir mütləq, mütləq qovuşasıyıq.

Qovuş, ey müqəddəs, mehriban ana,
qovuş ayrıldığın bircə oğluna.
Kəsmə ümidini, sən yaşa bir az,
Heç kəs bundan ötrü səni qınamaz.
Səndən bu dəhşəti danmalıyam mən,
odlara gizlicə yanmalıyam mən.
Yox, deyə bilmirəm, deyə bilmərəm,
könlün qapısını döyə bilmərəm.
O ev də, eşik də uçar başıma,
ürəyim, hələlik sən də danışma.
Hələlik bu dərdi burda saxlayaq,
varaqlar üstündə gizli ağlayaq.
Gələn göz yaşını qaytarmayaq biz,
vətənə göz yaşı aparmayaq biz.

*Veymar, 1962*

## ALMAN QIZI RENATE

Gülüm, sənin vətənin
parçalanıb ikiyə.
Qoymurlar bu səkidən
keçəsən o səkiyə.

Demə mən az görmüşəm,
sözüm çoxdu, Renate.
Berlinin adı qalıb
özü yoxdu, Renate.

Bu ağrını hiss edən
səma oldu, yer oldu.
Xarabazar Berlinin
bayquşu Hitler oldu.

O burda uladıqca
bizim eldə körpələr
axşam atalı yatıb,
atasız qalxdı səhər.

Renate, sən yaşında
yüz qızımız ağladı.
Dörd qışımız ağladı,
dörd yazımız ağladı.

Əkin qaldı yarıda,
biçin qaldı yarıda.
Biz davaya göndərdik
xəstə qocaları da.

Renate, ancaq burda
sizin faşist nənələr
cəllad Adolf Hitlerə
oğlunu verdi əsgər.

Zorla soyunduruldu
gəlinlərin paltarı,
Onu Berlində geydi
yetmiş yaşında qarı.

Bacıların üzüyü
taxıldı barmağına,
Anaların başmağı
geyildi ayağına.

Fəqət, dözə bilməzdi
bu dərdə böyük Vətən,
çıxartdı o kaftarın
başmağı ayağından,
paltarı da əynindən.

Berlinin qız gözəli!
Yəqin, qəmləndin bir az.
Berlində o günləri
yada salmamaq olmaz.

Gözəlliyin önündə
çaşdım, düzü, neyləmək,
ürək yaralıdırsa,
ağrıyacaq o, demək.

Yanan kəndlərimizi
yenidən tikmək üçün,
Uçan bəndlərinizi
təzədən çəkmək üçün,
hələ əllər gərəkdi,
neçə illər gərəkdi.

Qoy sənin nəvələrin,
sənin nəticələrin
quran, yaradan olsun,
başqa cür alman olsun.

Berlin deyilən zaman
qorxardım mən əzəllər.
Gül, Berlin gözəli, gül,
gülsün üzündə səhər.
Sənə baxıb dünyanın
yaz çağını görürəm.
Alman nənələrinin
qız çağını görürəm...

*Berlin, iyul, 1962*

## MƏFTİLLƏR, MİSRALAR

Ölüm yuvasını gördüm gözümlə,
uzanır qəbirsiz bu qəbiristan.
Bir kədər gəzdirdim burda özümlə
qanlı Buhenvaldı gördüyüm zaman.

Dirəklər, məftillər indi də durur,
sizə çəpər oldu bir vaxt bu tellər.
İndi çəpərlənib özü qorunur,
gör necə,
gör necə dəyişdi illər!

Mirdaməd,[1] şeirini yazım mən, dayan,
odlu gözlərində buza döndü yaş.
Məftillər ardından baxdın bir zaman,
misralar ardından bax indi, qardaş.

*Veymar, 1962*

[1] Mirdaməd Seyidov – Yuqoslaviyanın Milli qəhrəmanı *(red.)*

# BUHENVALD SÜKUTU

Dünyanın
ən səssiz, ən uzaq bir ucu.
Özü cansıxıcı, yorucu.
Tikanlı məftillər, dirəklər,
bir muzey sərgisi –
əsirin tüklü döş dərisi:
abajur,
əlcəklər,
əsirin saçı – boz parçalar,
nə qədər xatirə lövhəsi,
kitabda imzalar,
kitabda ünvansız yazılar...
Fikrimdə: Listin öz simfonik qəzəbi,
Faustun kədəri,
bir nəslin naləsi.
Yanımda: suallı baxışlar,
dodaqlar üstündə soyumuş gülüşlər,
təzadlar içində bir aləm.
Sevincə,
kədərə biganə deyiləm.
Susmayın, amandı, a dostlar!
Burda bir Buhenvald kədəri,
bir sükut himni var.
Bura bir məzardı.
Bethoven dursaydı mənimlə yanaşı,
Bəlkə, bu sükutdan qulağı açılar,
o milyon qulağı batıran
bir üsyan nəğməsi yazardı.

*Veymar. 1962*

## DANIŞ, ELBA

Elə axır,
deyirsən ki, nə dərdi var,
nə səri var.
Pıçıldaşan ləpələrin
    dilləri var, dilləri var,
Elba, səndən kimlər axdı,
kimlər batdı, kimlər çıxdı?!
Danış mənə öz dilində.
Xeyli vaxtdı dayanmışam
bu söyüdlü sahilində.
Üstün meşə,
    yamyaşıldır ətəklərin.
Yel əsdikcə,
        xumarlanır çiçəklərin.
Uçuq körpü sükut edir, –
    qaşqabağı
        tökülmüşdür,
    kərpicləri sökülmüşdü.
Nə özü var,
        nə əvvəlki əzəməti.
Danış, Elba,
        özün başla bu söhbəti.

Mən gəlmişəm
            qədim Bakı torpağından.
Ayrıldığım bir həftədi
    Dəli Kürün
            Xan Arazın qırağından.
Danış, Elba,
            qoy oxuyum ləpələri
            sətir-sətir, varaq-varaq.
Neçə paqon axdı səndə,
            neçə şinel, neçə papaq?
Neçə dildə
    burda vətən deyən oldu?
Neçə dildə
            de, Hitleri söyən oldu?
Neçə ana deyən oldu,
            neçə bacı deyən oldu?
Neçə eldə
            o gün qara geyən oldu?
O tay ölüm, bu tay uzaq!
Yandı insan, yandı torpaq.
Havada od, sularda qan.
Batdı səndə: neçə subay,
            neçə evli,
            neçə təzə nişanlanan?
Qardaş batdı,
            oğul batdı, ata batdı.
Od içindən çıxan kəslər,
su içində oda batdı.
Aman, Elba, aman, Elba!
bir az axma, dayan, Elba!

Dikilmişdi gözüm sənə,
yanır bədən, yanır sinə.
Batanların əvəzinə
bağırıram, oyan, Elba!
bir az axma, dayan, Elba!

Fikirdəyəm, heyrətdəyəm,
vətən uzaq, qürbətdəyəm.
Ölənlərlə söhbətdəyəm,
qoy danışım, aman, Elba!
bir az axma, dayan, Elba!

*Drezden, Elba çayı sahili, 1962*



Cənublu
Şair qardaşım
Ağşin Ağkəmərli.
Tehran,
1990

# ROMA

Roma – paytaxtların paytaxtı olub,
meydan oxuyubdu dünyaya Senat.
Romanın qədimdə bir vaxtı olub, –
burda çiçəklənib sönən bu həyat.

Daş atlar üstündə daş sərkərdələr,
sinələr zirehli, atlar yəhərsiz.
Əbədi lal qalıb "əbədi şəhər",
binalar köhnədi, meydanlar səssiz.

Uçub Kolizeyin daşı-hasarı,
Yolları ot basıb, divarı yosun.
Burda yaraladı Brut Sezarı,
qoymadı dünyaya o hakim olsun.

Sayı çoxaldıqca burda yeyənin,
axdı yer üzünün dövləti-varı.
Başını kəsdilər baş əyməyənin,
misalmı? –
Mitridat, Pont hökmdarı!

“Dostluq, bərabərlik, qardaşlıq...” – şüar;
gözə kül üfürdü gözsüz görənlər.
– Birinci rum xalqı! –
                    şərt də qoydular
xalqlara “bərabər” hüquq verənlər.

Pompey pul xərclədi legionlara,
bizim Kür üstündə qan tökdü onlar.
Bayron yas saxladı sonra onlara,
burda himn oxudu böyük sənətkar.

Heyranam sənətə və sənətkara,
gəlsin qoca Pompey burda rastlaşaq.
Burda baş əyirəm dahi memara,
ona... başsağlığı verirəm ancaq!

*Roma, dekabr, 1986*

## BRUT[1]

O, Rimdə,
            ən qədim İtaliyada
Sezarın ən yaxın silahdaşıydı,
məsləhət istəsə, məhək daşıydı,
Senatın üzvüydü... gətirin yada,
o, Rimdə, ən qədim İtaliyada.

Qəlbinə girmişdi o hökmdarın,
günəşi bürüyən o qara bulud,
Sonuncu xəncəri Yuli Sezarın
köksünə sancan da o idi – Brut!

İnsan mürəkkəbdi, tarix maraqlı,
günəş diləyirsən, yola qar düşür.
Bu dünya bir sirdi, qıfılı bağlı,
nə bir sahibi var, nə açar düşür.

Deyirlər, Sezarın vəsiyyəti var,
açıb oxuyurlar – o bir əhd edib.
Brutdan xəbərsiz böyük hökmdar
yerinə Brutu vəliəhd edib.

[1] Mark Yuniy Brut. Sezara sui-qəsddə iştirak edən Roma senatının üzvü. Bir rəvayətə görə, Sezar gəncliyində Brutun anasını sevmişdi *(Müəllif).*

Sənmi qəsd elədin ulu Sezara?!
Bəlkə, onunkuydu həyatın, Brut.
Bir qadın qəlbinə dəydi o yara, –
sənin anan idi o qadın, Brut.

Dərindi bu sirrin adi mənası,
ürəkdə hələ də bu ağrı durur.
Brutun vurduğu xəncər yarası,
Sezarı yaşadır,
                    bizi öldürür.

*İtaliya, 1979*

## ETNA

Etna – qədim bir möcüzə,
yanar dağdı.
Təbiətin qaladığı
od-ocaqdı.
Çiçək açıb yazda-yayda
yaşıl geyməz.
Oddu-közdü zirvəsindən
yerə kimi.
Siciliyada adamlara
"soyuq dəyməz",
hər fəsildə yanır Etna
kürə kimi.

*İtaliya, 1986*

# QƏDİM AVTOQRAF

Budur İtaliya...
                    Pompeydən bəri,
gözəl Cokondanın Roma vətəni.
Kolizey – dünyanın antik əsəri,
suala, sorğuya çəkmə sən məni.

Sezar, Antonio, Kleopatra,
bir ərəb gözəli, iki hökmdar!
Zaman məhəbbətə yol açdı, ya Rəb, –
Misir torpağında əsir oldular.

O taxtdan ucaydı bu eşq, bu ülfət,
utansın məhəbbət yoxdu deyənlər.
Yalnız ürəksizdə yoxdu məhəbbət,
bir qadın eşqinə baş əysin bəşər.

Spartak vulkantək püskürdü yerdən,
qalxdı Siciliya, bu yarımada.
Qədim avtoqraf qalır o gündən,
əhsən yazana da, saxlayana da!

Qərbi, yadımdadı, pisləyərdilər,
bəzən danardılar şan-şərəfini.
Yaxşı tərəfini gizləyərdilər,
açıb tökürdilər pis tərəfini.

Gərək kapitalist ölkələrini
söyəydik dost ilə yad məclisində.
Kimsə öz içinin ləkələrini
gedib axtaraydı özgə üzündə.

Siyasi iqtisad müəllimimiz,
şeirimiz, sözümüz, hətta himnimiz.
Deyirdi: dağılır Qərbdə kapital,
orda fəlakətdi, bizdə cah-cəlal!

Amma dağılmırdı... biz deməliydik,
sözümüz zamanın minik atıydı.
Ölümüz düşsə də, sevinməliydik, –
Stalin dövrünün təbliğatıydı.

Niyə?! –
      səbəbini soruşanların
dərsini verdilər otuz yeddidə.
Burda görüşdüyüm bu insanların
gözəl qəlbi də var, nəzakəti də.

Burda da həyat var, torpaq var, el var,
qurulu ev gördüm, ailə gördüm.
Burda da işləyən zəhmətkeş əl var, –
bu əli hər yerdə mən belə gördüm.

Gözüm gördüyünü danışım gərək,
bu hissi yaşayır can da, ürək də.
Çətindi düz yolda əyri yerimək,
düşüb əyri yolda – düz yerimək də.

*İtaliya, Roma, 1986*

***ODESSA, QARA DƏNİZ***

## 1. MAVİLİK

Burda dəniz mavi, göylər mavidi,
bir duman dənizi qalxır dənizdən.
Səhər elə mavi, elə mavidi,
dünyaya
        mavilik axır dənizdən.

Dolaşır bayaqdan dilimdə bir söz,
ürəyim bir səsin marağındadı.
Hələ oyanmayıb bir cüt mavi göz,
Hələ kayutada mavilik yatır.

Günəş qıpqırmızı alışıb-yanır,
İşıq səpələyir hissə, duyğuya.
Sahildən gəmiyə bir xətt uzanır,
qızıl zəncir düşüb elə bil suya.

Eh, sahil deyirəm,
                hardadı sahil,
Qışqırsam, yetişməz heç səsim-ünüm.
Dünya başdan-başa sudur, elə bil,
fikirim sularda islanır mənim.

Dənizə tökülür işə bax, işə,
günəşin, işığın, istinin çoxu.
Dənizdən doğurdu günəş həmişə,
yox, günəş bu dəfə
                sahildən doğur.

*Odessa, Qara dəniz, 1971*

## 2. UÇAN LƏPƏLƏR

Burda bir quş səsi var –
yalnız qağayı səsi,
onun harayı, səsi.
Açıb qanadlarını
dayanarlar havada,
eh, bu dəmdə nə qədər
göyə yelpik səpilər!
Hey uçarlar, uçarlar,
gəminin arxasıyla,
dənizin sahiliylə.
Tanış sərnişin tapıb
bir az çörək dilərlər
sonra da quş diliylə...
Göy dənizə qonarlar –
yelləncəkmiş ləpələr.
Dağüstü parkındakı
yelləncəkdə yellənər
elə bil, bəxtəvərlər,
Qalxdılarmı, deyərsən,
ləpə qopdu ləpədən.
Uçan qağayı deyil,
ləpələrdi elə bil.
Elə ki axşam oldu;
qayıdarlar təzədən,
ləpələrə dönərlər,
dənizdə uyuyarlar,
dənizdə dincələrlər...

## 3. "ADMİRAL NAXİMOV" GƏMİSİ

Hər əsər bir qəlbin "yandım" səsidi,
ürəkdən su içir eşq ilə arzu.
Gəmi də bir sənət abidəsidi,
qülləsi buluddu,
                    bünövrəsi su.

Üzür sular üstə yol aça-aça,
dalğalar yarılır boz dağlar kimi.
Uçub qağayılar gəlir dalınca
faytona yüyürən uşaqlar kimi.

Baxıram, yolumuz hələ yarıymış,
suyun öz rəngləri, öz boyaları.
Qağayı  dənizin matroslarıymış,
matroslar  gəminin qağayıları.

Gah qalxır, gah enir arabir sinəm,
Şair, necə olsa, dəniz dənizdi.
Elə bil dənizin dalğası mənəm,
gəmi məndə üzür...
                              qəribə hissdi.

Üzür öz sürəti, öz saatıyla,
mənə bir dənizçi, gör nə deyibdi:
qırx birdən qırx beşə "Berlin" adıyla
bu gəmi dünyanı hədələyibdi.

Sahillər düşübdü alova-oda
güllələr yağdıqca yüz millət üstə.
Lakin batırıldı bu "Berlin" suda,
o Berlin quruda –
                    bəd niyyət üstə...

# 4. HƏMİD

Odessa elə bil açıq muzeydi,
dayanıb baxıram pillələr üstə.
Elə bil heykəllər sərgisi bir-bir
düzülmüş
divarlar, qüllələr üstə.

Yazılar nə vaxtsa yazılıb durur,
alı al kimidir, zəri zər kimi.
Qədim divarlardan asılıb durur
Eyvanlar
yamyaşıl dibçəklər kimi.

Şəhər qalib çıxıb müharibədən,
heç kəs unutmayır o illəri də.
Burda vuruşubdu
dilində vətən,
Həmid Qəmbər oğlu adlı biri də.

O, mənə deyir ki, yazma, istəməz,
O öz hünərini demir ki, demir.
Odlara düşən kəs,
közə düşən kəs
kitaba, dəftərə düşmək istəmir.

Yaşa vuruşduğun dost torpağında,
bir gör nə deyirəm, qulaq as, Həmid.
Sənin doğulduğun Kür qırağında
adını çəksələr, pis olmaz, Həmid.

Uzağa düşdünüz öz evinizdən,
Harda ilə döndü, o anlar, Həmid?
Qocalar danışır indi də sizdən,
sizi tanımayır
                    cavanlar, Həmid.

Atan həsrət qaldı sənə o yerdə,
qohumun, qardaşın nə qədər, Həmid.
Niyə görünmədin xeyirdə, şərdə, –
barı səbəbini
                    bilsinlər, Həmid?!

*Odessa, 1970*

# 5. DNEPR PROSPEKTLƏRİ

Bütün şəhər mavi meşə,
bütün meşə mavi şəhər.
Axır dərin, axır dayaz
prospektlər –
                    göy küçələr.

Səpələnib...
deyərsən ki, mavi zərdi.
Aman Allah, nə qədərdi
                    mavi axın.
Elə bil ki,
külək vurub dağıdıbdı
yüz top ipək parçasını
Kiyevdəki
                    bir mərkəzi univermağın.

Hər burulan prospektin
                    öz günəşi,
                    öz buludu, öz ayı var.
Onlar burda qayıqlara,
insanlara,
                    balıqlara qarışıblar.
Prospektlə:
körpülərin,
                    ucaboylu ağacların,
velosiped sürənlərin, əksi keçir.
Avtoların, qatarların
                    əksi keçir,
                    səsi keçir.

Yarpaqların rəngi axır
qarışaraq
bir zəncinin gülüşünə.
Yerin-göyün axır neçə
parçası da.
Axır qoca Pikassonun
burda mavi fırçası da.
Axır İqor Svyatoslav
ordusunun ardı ilə,
Dnepr öz adı ilə,
bizim 416-nın izi ilə.
Kür üstəki, gözəllərin
sevgisini dəfn elədi
neçə əsgər
dünən burda özü ilə.
Qəbiristanlıq axır burda,
axır qardaş qəbirləri.
Ah, onların
beşiyi var, qəbiri yox, –
dediyimiz oğlanların.
Axır gündüz, axır gecə,
Kiyevdən bir Kiyev axır,
axır yenə Kiyevəcən.

*Kiyev, 1970*

# UKRAYNALI QIZ

*(Olmuş əhvalat)*

Ukraynada bir faciə danışdılar
şeiriyyətlə dolu bir qəm,
qəmlə dolu bir şeiriyyət.
Mən də bunu rəvayətə bənzətmişəm,
həqiqətmiş bu rəvayət.

Bir küçənin ortasında iki alman
əsir alır bir qadını,
qışqırırlar, bağırırlar,
Soruşurlar ünvanını və adını,
Pasportunu çıxarırlar.

Vərəqlərə diqqət ilə baxır alman,
öz dilində nə deyir o?
Baxışı qan, sifəti qan!
Ukraynanı qorumaqmı istəyir o
ukraynalı adamlardan?

Faşist baxır... qadın əsir yarpaq kimi,
üstündədi odun, közün.
Niyə susur görən alman?
Şəklinəmi gözü düşüb o şorgözün,
necə baxır, aman... aman!..

Qadın susur, torpaq susur, çöllər susur,
sükut çökmüş bu aləmə
dağılmışdı bütün şəhər.
O, pasportu verərdi lap, cəhənnəmə,
kaş ondan əl çəkəydilər.

Alman sıxır avtomatı yaxasına,
gözlərini bürüyür çən,
hirslənir də hələ qansız.
– Sən özgənin
pasportunu gəzdirirsən?!
Şəklə baxır: – Kimdi bu qız?!
– O qız mənəm, o pasport da özümündü...
– Kömək etməz göz yaşların, –
deyir alman gülə-gülə.
– Sən qocasan, sən qocasan... ağ saçların
yaraşmayır bu şəkilə.

– Yox, yox mənəm... on yeddidi mənim yaşım,
qız hirslənir:
– Yox o mənəm!
Güzgü verir ona alman.
–Ala, qorxma, dəlilərə mən dəymərəm,
bu da güzgü, al bax, inan,

Alıb baxır o, güzgüyə nifrət ilə,
ürəyi al qanla dolmuş.
İnanmayır, necə işdi?
Saç ağarmış, üz qırışmış, yanaq solmuş,
görkəm necə dəyişmişdi.

Qız inanmır o güzgüyə... bəlkə elə
o güzgülər düzü əyri,
əyrini də düz göstərir?
Bu güzgülər, bəlkə, elə qızı qarı,
qarını da qız göstərir?

Daşa vurur qəzəbindən, çiliklənir
cəlladların daş güzgüsü.
Köyrək bədən məğrur durur.
Güzgünü yox, o ağ saçı, solğun üzü,
yad görkəmi daşa vurur.

Gözlərinin qabağına gəlir bu an,
bir faşistin vəhşi səsi,
        hələ vəhşi gülüşü də.
Yad əlində bakirə bir qız məməsi...
onun murdar öpüşü də!

Anasının, qardaşının vurulması,
huşu itən bir günahsız,
qan içində yazıq ana.
Faşist onu sığalladı... bilmədi qız...
ağ rəng çəkdi saçlarına.

Alman sıxır avtomatı yaxasına,
əsərlənir sərxoş bədən,
hirslənir də hələ qansız.
–Sən özgənin pasportunu gəzdirirsən! –
Şəklə baxır: – Kimdı bu qız?!

Bu sualı təkrar edir ana torpaq,
yerlər-göylər gəlir dilə,
        asta-asta ələnir qar.
Qız pasportu tələb edir nifrət ilə,
qızdan qızı soruşurlar.

*Kiyev, 1964*

## AQAVA

Lvovda görmüşdüm ilk dəfə
o çiçək açmışdı, ağ çiçək.
Bir qoca dedi ki, yaxşı bax,
soluxub, quruyub gedəcək.
Qəribətaleli ağacdı,
bu dəfə ağ açdı.
Yaşayır,
on yaşda gül açsa, onunda,
yüzündə gül açsa,
quruyur yüzündə.
Aqava çox deyil,
azdı yer üzündə.
Eh, qoca...
dedim mən sonradan,
biz necə? Çoxuqmu?
O xoşbəxt ağacdı, sən inan.
Bu tale,
kaş elə
hamının qisməti olaydı,
gül açıb sonradan solaydı.

*Lvov, 1960*

# MEHMANXANADA SÖHBƏT

Yanımda Xersondan bir qoca kişi,
durur dəftərimdə ünvanı, adı.
Davadan başladı o, sözgəlişi,
heç kim sual verib danışdırmadı.

Kürsüdən o, belə deyə bilməzdi,
bir az bəzəyəydi sözünü gərək.
Kürsüsü balaca bir yastıq idi,
deyirdi rahatca dirsəklənərək.

Danışdı gözüylə gördüklərindən,
başımın tükləri dik durdu, biz-biz!
Ancaq indi bildim, indi bildim mən,
niyə qayıtmadı gedənlərimiz.

Döşünü yandırdı aldığı yara,
qəzəbi çaylartək daşası oldu.
O qızıl əsgərin gülləsi "Ura!",
silahı filankəs "Yaşasın!" oldu.

Gözümüz getdiyi tərəfdə qaldı,
qış keçdi gəlmədi, bahar gözlədik.
O, atdı özünü tankların altda,
biz də "gələr" deyə yollar gözlədik.

Gəldi qara kağız, o "üzağlığı",
yazdılar gəlinin, ya qızın üstə.
Amma üççə kəlmə bir başsağlığı
yazmadılar qara kağızın üstə.

Ordular üz-üzə gəlib dayandı,
dayandı qarşıda bəzən sual da.
Birinin ordeni döşündə yandı,
yüzünün ürəyi döşünün altda.

De, qoca, de gəlsin...
yox, mən yatmıram,
bu söhbət aparmaz yuxuya məni.
Sən danış, mətləbi çox uzatmıram,
oyaqkən çulğamış bir röya məni,
bu söhbət aparmaz yuxuya məni...

*Kiyev, 1964*

## TAQANROQ AĞRISI

Taqanroqda nəfəs alıb durdu qatar,
o ayları, o illəri saldı yada.
Qulağımda
          qırxdörddəki atışmalar,
haray saldı yetmişinci il olsa da.

Elə bildim torpaq yanır, səma yanır,
alov qalxır vaqonların arasından.
Elə bildim, Əmrah hələ ufuldanır,
başındakı yarasının ağrısından.

Şöhrət olsun anaların vüqarına
bu şeirimdə verəcəyim bir şad xəbər.
Azadlığı Taqanroq diyarına
Azərbaycan oğulları gətirdilər.

Lülələrin od ağzına sinə gərdi
qara bığlar, uca boylar, od-alovlar.
Elə bildim ozamankı səngərlərdi
vağzal boyu gül əkilmiş sement qablar.

Bu torpaqda oğullaşdıq, atalaşdıq,
sözümüzü, andımızı yuduq qanla.
Hələ dünən Məcidovla vidalaşdıq,
Taqanroq qəhrəmanı bir insanla.

Hər ürəyin öz sözü var, öz nəğməsi,
hər ürəyin yeri də var, səması da.
Unudulmaz Taqanroq qələbəsi,
unudulmur Taqanroq ağrısı da.

*Taqanroq, 1968*

## 1. GÜRCÜSTAN ÇİÇƏYİ MAKA

Bir məclisdə görüşdük,
rəqs elədik mehriban.
– Adın nədir? – soruşdu.
Mən də dedim:
– Nə...ri...man.
– Ad günün?
– Fevral ayı.
– Neçəsi?
– On səkkizi.
Bizdən əl çəkmədilər,
oynatdılar ha, bizi.
Maka çiçək gətirdi,
Sənə gətirdim buyur,
Gürcüstan çiçəyidir,
qoxla, gör nə qoxuyur.
Sənə verdiyim çiçək,
Rustaveli dövründən
bitir düz bu günədək.
Sağ ol, Maka, bu çiçək,
Azərbaycan şeirində
öz adınla bitəcək–
Maka.

## 2. ASƏF İDİ, PÜSTƏ İDİ, BİR DƏ MƏN

Çayçılara salam verdik
neftçilərin dilindən –
Asəf idi, Püstə idi, bir də mən.
Dostlarımız gülümsədi,
işıqlandı üzləri,
Tamaz idi, Nuqzar idi,
bir də Maka, Eteri.
Dəli Kürdən su içirik
siz də, biz də qədimdən,
Asəf dedi, Püstə dedi, bir də mən.
Durur gürcü şairinin
qədim Gəncə dəftəri,
Tamaz dedi, Nuqzar dedi,
bir də Maka, Eteri.
Operada qulaq asdıq
nəğmələrə ürəkdən,
Asəf idi, Püstə idi, bir də mən.
Sağımızda, solumuzda –
əlimizdə əlləri,
Tamaz idi, Nuqzar idi,
bir də Maka, Eteri.
Axşamüstü yola düşdük...
qatar həmən, biz həmən,
Asəf idi, Püstə idi, bir də mən.
Qəlbimizdə ruhumuzda
qaldı Tiflis şəhəri,
Tamaz qaldı, Nuqzar qaldı,
bir də Maka, Eteri.

*Tbilisi, 1972*

## 3. ƏN YAXŞI QADIN

*Mənim ərim Tiflisin ən gözəl kişisidir.*

**Medeya Kaxidze**[1]

O bir ziyafətdə dedi bu sözü,
içdiyi sadəcə gül şirəsiydi.
Tək gürcü qadını deyildi özü,
üstəlik o, gürcü şairəsiydi.

Şeirlər deyirdi dilində vətən,
qəlbinə, ruhuna hopmuşdu bahar.
Amma o məclisdə bir az, deyəsən,
gürcü kişiləri pərt olmuşdular.

Deyirdi Gürcüstan çölləri haqda,
alışıb-yanırdı üfüqdə bahar.
Beləcə, hər qadın öz əri haqda
desəydi,
dərdimiz nəydi, kişilər?...

[1] Gürcü şairəsi *(red.)*

# 4. HİMN

Dağ başında bir heykəl var,
ağ geyimdə,
ağ örpəkdə,
durub şəstlə,
durub başqa nəzakətlə.
Gözlərində
qığılcım var,
bir əlində şərab tutub,
o birində qılıncı var.
Heykəl olub dümağ qadın cilidində
dosta – hörmət,
yada – nifrət.
Bu da qeyrət!
o da qeyrət!
Bir qulaq as,
yerlər, göylər gəlib dilə.
Gürcüstanda himn oxunur
bir qadının sükutilə...

## 5. MƏHƏBBƏT

Kür çayından, Araqvadan ötürdülər,
Bizi qədim Mitsxetiyə gətirdilər.
Gül verdilər, gül içində itirdilər.
Can bir oldu, dil bir oldu, söz bir oldu,
Səhər idi.. axşam saat düz bir oldu.

Məbəd gördük – dağ yanında bir dağ idi,
Yazı gördük – eramızdan qabaq idi.
Gözümüzdə maraq başqa maraq idi,
Şəkillərdə birləşəndə göz bir oldu,
Sinələrdə od bir oldu, köz bir oldu.

Qədim qanlı davaları xatırladıq,
Səbuhitək babaları xatırladıq.
Neçə doğma havaları xatırladıq,
kaman dindi, çonqur dindi, saz bir oldu,
elə bildim, hamısında səs bir oldu.

Kinto gəldi qarmonunu çala-çala,
şərab gəldi, buynuz vurduq, bala-bala.
Gürcülərə meylimizi sala-sala,
sağlıq dedik, süfrələrdə tost bir oldu,
mən bir deyim, siz deyin ki, yüz bir oldu.

Yola düşdük, yol bir oldu, iz bir oldu,
tək şeirimdə imzam ayrı...
Hiss bir oldu.

*Tbilisi, 1972*

# ABXAZİYA

*Dmitri Qulia–100*

Yenə ətir yayıb dünyaya bahar,
uşaqlar yüyürüb yolu çaşırlar.
Uca evkaliptlər, şamlar, palmalar
onlara qarışıb abxazlaşırlar.

Şairə, sənətə, şeirə hörməti
yaradan, yaşadan gör kimdi burda.
Oxumaq, oynamaq, gülmək adəti
bütün adətlərdən qədimdi burda.

Kim deyir, dünyadan hər gələn gedir,
qalır, insan var ki, bu torpaq üçün.
Sadəcə əl çalmaq kifayət edər
yüz yaşlı qocanı oynatmaq üçün.

Ürəkdən-ürəyə keçir bu ülfət,
mənim dediklərim, demə, qətiymiş.
Sənətə ehtiram, şairə hörmət
qədim millətlərin ləyaqətiymiş.

Ruhum təzələnir bu yolda, izdə,
ürək nəfəs alır yaz havasıyla.
Torpaq güzgülənir Qara dənizdə:
Soçisi,
          Qaqrası,
                    Pitsundasıyla.

Köçüb yer üzündən elə bil kədər,
dünyaya baxıram, enib sahilə.
Şəhər – bir şairin evinə bənzər,
qonaq qarşılamaq adəti ilə.

Dmitri Qulia... möhtərəm insan,
şərəfin, şöhrətin uca dağ imiş.
Şairdən danışmaq – eldən-obadan,
vətəndən, torpaqdan danışmaq imiş.

*Qaqra, 1974*

## YELENA ANDREYEVNA

*Abxaziyanın Xalq şairi Dmitri Qulianın yüzillik yubileyində iştirak edən ömür-gün yoldaşına*

Əzizim Yelena Andreyevna,
var ol yaşatdığın bu ürək üçün.
Gəl, girim qoluna,
qalxım eyvana
şairin ruhuyla görüşmək üçün.

Danış iki kəlmə onun yerinə,
salaq söhbətini, sözünü yada.
Daşa, tunca dönən şair ərinə
baxıb qurumuşdun bayaq yanında.
O sənin yanında
sənin deyildi,
başqa sənətkarın əsəri idi.
Yaradan o beyin, o ürək, o əl
tarixə dönmüşdü...
belədir insan.
Onun Quliası – mərmər bir heykəl,
şirin xatirəydi – sənin Qulian.

Burda, yerlilərin üzündə qürur,
oğul yetirmişlər Qulia kimi.
Səninsə gözündə həsrət oxunur,
həqiqət görünür bir röya kimi.

Dünən o burdaydı... hardadı bu gün?
Barışa bilməzsən sən bu xəbərlə.
Hamı fəxr eləyir sənətkar üçün,
sən də fəxr edirsən...
                    amma kədərlə.

Deyirəm, nə ola gücüm çataydı,
mən nəfəs verəydim o daşa bir an.
Təzədən səninlə söhbət açaydı,
tamaşa edəydim
                    sizə kənardan.

Danışıb-güləydi barı bircə gün,
sevinc paylayaydı gözündəki yaş.
Şairdi, –
          yaşayır o, Vətən üçün,
bir gün... sənin üçün yaşayaydı kaş.

## SAĞLIQ

Mavi səma, süfrə geniş, bağ gül-çiçək.
Abxaz qardaş, qaldır, içək –
el-obanın şərəfinə.
Sizin Baqrat Şinkubanın
şərəfinə.
O, yubiley gecəsində
nitq elədi,
ürəyimi fəth elədi.
Qocalarla bu tərəfdə “xor” oxuyan,
bu torpağı sevən, duyan
həm ağsaçlı qələm dostu,
həm oğludu Qulianın.
Divarda, bir çərçivədə
şəkli qalıb,
yanımızda elə bil ki,
özü durur Qulianın.
Bir üzdəki bu “təkrarın”
şərəfinə!
Təbiətdə bu fərmanın,
bu qərarın şərəfinə!
Sahildə bir gözəl gördüm,
içək onun şərəfinə!

Gözəlləşdi şəhər onun
                    səbəbinə,
içək onun şərəfinə!
Şərt o deyil biz məst olaq,
                    ana torpaq!
Hər sözümdə bir arzu var,
          bir xoş dilək,
                    qaldır, içək...

*Suxumi, 1974*

# DƏRBƏND YOLU

Burda qalalar qədər
başdaşı var,
qəbir var.
Bu torpaqda səbir var.
Elə bil gələ-gələ
buza dönüb bir ordu, –
"farağat!" əmri ilə.
Min ildi, bu sükutda
keşik çəkir daş daşa.
Dilsiz şahidlər kimi
bu daşlaşa-daşlaşa
ömür eləyən hünərdi.
Mən çağırsam:
oğuzlar,
səlcuqlar
hay verərdi.
Ya qıpçaqlar dinərdi,
nəsillər eşidərdi.
Allah, Allah, nə qədər
tanış ad, tanış ünvan.
Tarix qələmlə deyil,
tarix başdaşlarıyla
yazılıb zaman-zaman.
Keçirəm yol boyunca,
baş əyirəm daşlara,
baxıram diqqət ilə.
Torpağa hömət ilə,
tarixə hörmət ilə.

# JELEZNOVODSKDA "GÖZƏLLİK" BULAĞI

Bir qarı dayanıb dizləri köyrək,
bir dolça doldurub tutur əlində.
Yuyur üz-gözünü gülümsəyərək
zəif bir qoca da, təzə gəlin də.

Gözlərdə işıq var, ürəkdə həvəs,
ülfət bağlayıbdı insan dağ ilə.
Gözəllik istəyir bulaqdan hər kəs, –
bir dəfə
        üzünə su vurmaq ilə.

*1968*

## YENƏ YAVAŞ-YAVAŞ HAVALAR DÜŞÜR

Yenə yavaş-yavaş havalar düşür,
Yerə narın-narın təzə qar düşür.
Yenə ağ geyinir çayın körpüsü,
Yenə buz bağlayır suların üzü.
Küknar ağacları yamyaşıl qalır,
Çiyninə ağ qardan yapıncı salır.
Meşələr nə qədər açıq görünür,
İsti nəfəsimiz dumana dönür...

Deyirəm, qar yağsın lap dizə kimi,
yollar da ağ geysin qoy sizə kimi.
Mən gəlim yenə də səni görməyə,
deyim ki, dur gedək xizək sürməyə...

*Moskva,*
*28 sentyabr, 1961*


VI съезд Писателей СССР, Москва, июнь. 1976 г.



Moskva.
tələbəlik
illəri
1959-cu
illər

# ƏZİZ[1]

Bir dostum var, adı Əziz,
mənə xoca Nəsrəddindən
lətifələr deyər hərdən,
eh, gülməkdən ölərsiniz!

Qoy yenə də özü desin,
gülüşü göz-qaşındadı.
Araxçını var Əzizin,
yatanda da başındadı.

Stul üstə tərs oturar,
yaşıl çaydan içə-içə.
Əziz
  birdən bardaş qurar
o stulun üstündəcə.

Qoy deyim bir həqiqəti:
bəzən yavan çörəyə biz
qatıb şirin söz-söhbəti
yavanlıqtək yedik,
                    Əziz.

[1] Şairin Moskvada Qorki institutunda tələbəlik dostu (özbək) Əziz Əbdürrazakov

İsinişdik get-gedə biz,
pozularmı heç bu ülfət?
Ayrı pencək geydik,
Əziz,
  cibimiz bir oldu fəqət.

Bilirdilər, necə deyər,
yataqxana yoldaşımsan.
Bilmirdilər amma,
Əziz, mənim
özbək qardaşımsan.

*Moskva, 30 may, 1961*

# NİKOLAY

Heykəli önündə donub qaldım mən,
hirsimdən beynimə sıçradı qanım.
Asıldı daş kimi
        iki çiynimdən
        ikiyə bölünmüş Azərbaycanım.

Başında qızıldan dövlət quşu var,
oturub,
        bir qızıl yəhər üstdədi.
Əlidəyənəkli, əliqanlı çar
yenə də başqa bir səfər üstdədi.

O gedir...
        qaralıb gözlərində kin,
necə də tanışdır o qaş, o qabaq.
Görəsən, yenə də hansı millətin,
        taleyi silahla həll olunacaq?!.

*Lelinqrad,(Sankt-Peterburq), 1962*

# XARİCİLƏR

Daşkənd mehmanxanası...
gəlir növbətçi rəis:
–Xaricilər gələcək,
boşaldın otağı siz.
Boşaldın...
–Mən, axı mən...
Sözüm ağzımda qalır,
gedir növbətçi rəis,
bir başqası zəng çalır.
–Boşaldın otağı siz...
Xaricilər...

Boşaldaq,
bəli, qonaqpərvərik,
onların olsun otaq.
Bəs biz?
Biz özümüzük,
keçinərik birtəhər.
"Boşaldın xaricilər..."
Ən gözəl otağımız,
ən isti yatağımız,
çörəyimiz, yerimiz,
xaricilər üçünmüş,
demək ki, yoldaş rəis!

Mən dünən cəbhələrdə
tökəndə al qanımı,
səngərdən səngərlərə
sürüyəndə canımı
bilməzdim heç, doğrusu,
xaricilər üçün sən,
mənə çıx deyəcəksən,
öz pulumla qaldığım
üçnəfərlik otaqdan...
Bilməzdim mən o zaman.
Mən xarici olsaydım,
qalardım, demək... nə var,
təzim, hörmət, əyilmək
və nələr...
  eh, yazıqlar!”
Qorxuram sabah səni,
ya başqa bir rəisi,
göndərib deyələr ki,
xaricilər gəlibdi,
boşaldın
            evinizi....

*1965*

# BƏXTİYAR VAHABZADƏ İLƏ DAŞKƏNDDƏ QONAQ EVİNDƏ SÖHBƏT

Neçə gündü, bir otaqda, bir yerdəyik,
təqvim üstdə may ayıdı, səksəndi il.
Biz getmişik, on dördüncü əsrdəyik,
qalmaq olmur, qayıtmaq da mümkün deyil.

Ürəyində bir əsər var, deyir qısa,
susub baxır, mən fikrimi deyim gərək.

"Nəsiminin tələbəsi asılırsa,
o özü də qəhrəmandı Nəsimitək".

Tarixləri çeviririk varaq-varaq,
"Dar ağacı qəhrəmanın nəsibidir".

"Qoy tələbə asılmazdan bir az qabaq,
sübut etsin Nəsimiyə – Nəsimidi".

"Nəsimini sarsıdacaq bu qəm, qubar,
yanacaq ki, bir gənc getdi ona əvəz"–

"Tələbənin anasından soruşsalar,
Nəsimiydi desin o da – asılan kəs".

"Ana özü Nəsimiyəm desin gərək,
ölümünə fərman versin qoy hökmdar".

"Yox..."
"Nöşün ki, bu lazımdı".
"Getsin gərək...
ana getdi, bəs Nəsimi, bəs son qərar?!".

"Zaman adlı bir hakimin üzü sərtdi,
o tələsmir, susur bəzən o elə bil".

"Ölü ikən yaşayanlar həqiqətdi,
dirilər var, qalacaqmı? – bəlli deyil".

*Daşkənd, 1980*

# KƏRKÜK YAYLIĞI

*"Oyadar xəlqi əfqanım,*
*qara bəxtim oyanmazmı?"*
**Füzuli**

İraqdan bir ovuc torpaq gətirin,
Kərkük yaylığına bükün onu siz.
İraqdan bir ovuc torpaq gətirin, –
Kərbəla çölünə düşsə səmtiniz.

Taleyin qürbətə düşüb güzarı,
ayrılıb yollarda duman, sis qalıb.
Burda bir heykəl var, yoxdu məzarı,
orda bir məzar var – heykəlsiz qalıb.

Yandı eşq oduna o dil, o dodaq,
nə nəğmələr dedi bir qərib ilham.
Yaylığı sıxmayın,
bir ovuc torpaq –
bir ovuc göz yaşı olar, qorxuram.

Bir kitab nəğmədi – bir ovuc torpaq,
söhbəti səhradan səhraya düşdü.
O, bir nalə çəkdi dörd yüz il qabaq,
sədası dörd yüz il sonraya düşdü.

Onun məqbərəsi – qalın kitablar!
Orda duyğu yatır, orda hiss yatır.
Dərin bir sükuta qərq olub məzar,
oyanan bəxtindən xəbərsiz yatır.

*1973*

*Şairlə bir görüş, ya adi söhbət*
*Allaha xidmətdi, bəndəyə hörmət.*

***Nəriman Həsənzadə***

## SƏN SEVDİN MƏNDƏN BETƏR

Danışıram, gülürəm
Yadımdan çıxmır bu qəm.
Soruşma heç,
            bilmirəm.
Olsaq da hansı yaşda,
Hansı rütbədə, oğlum,
İstər bu evdə yaşa,
İstər Kəbədə, oğlum.
Bir candan törəmişdin,
Bir beşikdə – iki can.
İki canda – bir ünvan.
Bir cığırda – iki iz,
Ananla sən – ikiniz.

Mən sevmişdim ananı,
Sən sevdin, məndən betər.
Mənimiydi
            sonradan
Sənin oldu bəxtəvər.
Mən adıyla çağırdım,
Sən dəyişdin adını.
Sənin "Ana" sözünə
Həsr etdi həyatını.

Hissini, duyğusunu,
Gündüzlər qayğısını,
Gecələr yuxusunu.
Sən onda ağlayırdın,
Sən qucaq istəyirdin.
Özün oyuncaq idin,
Oyuncaq istəyirdin.
İndi mən ağlayıram,
Dost-düşmən baxır, oğlum.
Ataların göz yaşı
İçinə axır, oğlum.
Birimizi böyütdü,
Birimizi yaşatdı.
Tanrı –
Yerə püşk atdı,
İkimizi qoydu tək.
Bir qadın ömrünü də
Yaşayaydı
O gərək.

## YERİ GƏLMİŞKƏN

Tarix hesabatdı, ömür hesabdı,
Canı bəsləmirəm, can qoyuram mən.
Sinəm – stolüstü qalın kitabdı,
Hər gün varaqlayıb oxuyuram mən.

* * *

Həyat, səndən ötrü bəlkə təzəyəm,
Hər qəmin adını sən təzə qoyma.
Tanrım, taleyimlə mən üz-üzəyəm,
Sən məni özümlə üz-üzə qoyma.

* * *

Vətən oddan keçib, alovdan keçib,
Dönmə, vətən oğlu, bu yoldan, and iç.
İstiqlal yolunda millət and içib,
And içən millətə, Nəriman,
And iç!

* * *

Ədalətdən danışırdı
Hər gələndə o,
    işə.
Ədalətsiz iş görürdü
    Gələndə də
    Həmişə.

* * *

Nə soruşan varıydı,
Nə də gedib dindirən.
Öz-özünə deyirdi:
    Rüşvətə
    Düşmənəm mən!

# BAYATI

Poyludan qatar keçər,
Yatanı yatar keçər.
Mənim sərnişin könlüm,
Gedər, qayıdar keçər.

## AZƏRBAYCAN!..

Sən əbədi bir ocaqsan, Azərbaycan!
Yaşadıqca yanacaqsan, Azərbaycan!
Beşiyin bir ana qoynu,
Doğma, isti bir qucaqsan, Azərbaycan!

Ruhum mənim, laylam mənim, Azərbaycan!
Bu dünyada dünyam mənim, Azərbaycan!

Bu dağ mənim, o dağ mənim vətənimdi,
Tüstülənən ocaq mənim vətənimdi.
Sərhəd-sərhəd bölübdülər,
Bölünməyən torpaq mənim vətənimdi.

Sən mənimsən, mən də sənin, Azərbaycan!
Övladıyıq bir vətənin, Azərbaycan!

Zaman! Səs ver, bu günlərin harayına,
Xan Arazın, Ana Kürün harayına.
Biz çatmasaq, kim çatacaq
Qaçqınların, köçkünlərin harayına?!

Sən arxasan, sən dayaqsan, Azərbaycan!
“Qalx”! – deyəndə, qalxacaqsan, Azərbaycan!

Gəmilərin göy Xəzərdə üzər keçər,
Şahinlərin səmalarda süzər keçər.
Körpülərin, binaların
Paytaxtımı yollar boyu bəzər keçər.

Keçmək olmaz amma səndən, Azərbaycan!
İşıq alır dünya səndən, Azərbaycan!

Bir nəğməsən, oxuyuram bu torpaqda,
"Can!" – dedikcə can duyuram bu torpaqda –
Ey ilhamlı səhərlərim,
Sən ki varsan, mən də varam bu torpaqda.

Yellənəcək bayrağımız, Azərbaycan!..
Müqəddəsdi torpağımız, Azərbaycan!..

## BİLMƏDİM

*Müəllimim Mir Cəlalın 60 illiyinə*

Deyirlər, kamala yetdikcə insan
şirin acı olur, acılar şirin.
Niyə könlün gözü doyur dünyadan,
niyə gözün könlü ac qalır, görən?
Günə bir ümid var, aya, ilə bir…
bəlkə, buna görə əzizdir həyat.
Əvvəl arzularla qızınan qəlbi
sonra xatirələr üşüdür, heyhat.

Dərk edə bilmədim hələ bir şeyi,
bilmədim, dünyanın bu sirri nədir –
bədən bərk olanda qan olur beyin,
Beyin bərkidikcə bədən köyrəlir…

Yox, həyat çoxuna gəlməsin asan,
böyüdün sadələr cərgəsində sən.
Oturub tərini soyutmamısan,
təriflər,
            təltiflər kölgəsində sən.

Sənin öz səsini eşitdi aləm,
"Manifest" söyləyən gəncin səsindən.
Dünyaya mən bir də baxmaq istərəm
sənin gözləriyin pəncərəsindən.

*1968*

# HÜSEYN CAVİD

*Hüseyn Cavidin cənazəsi İrkutsk vilayətindən vətənə gətirilmişdir.*

**Qəzetlərdən**

Nə yaxşı, qalmadı gözü yollarda,
gördü atasını qızı Cavidin.
Tabut ortadaydı,
            şəkli – divarda,
bayrama dönmüşdü yası Cavidin.

Xalılar üstündə güllər-çiçəklər,
güllərin mənası başqaydı artıq.
Tabutu uzaqdan gətirmişdilər,
məzardan məzara yola salırdıq.

Canlı şahid idi duyan hər ürək,
gərək biz yanaydıq, biz alışaydıq.
Cavid sağ deyildi gedib görüşək,
ölü də deyildi, vidalaşaydıq.

Qırx birdə ölmədi, o, qayıb oldu,
altmış yaşını görmədi vətən.
Yüzündə, evindən qalxdı tabutu,
Cavid qisas aldı öz taleyindən.

Məzar var – şöhrətdi bir torpaq üçün,
Cavidin üstündə amma əsməyin.
Məzardan doğulub, –
yaşamaq üçün,
məzara qoymağa siz tələsməyin.

Bu da axırıncı faciəsiydi,
bu da tamaşaydı əslinə baxsan.
Bu dəfə Cavidin son səhnəsiydi:
qəhrəman özüydü, müəllif – zaman!

## ŞƏHİDLƏR XİYABANI

Dayanın, Şəhidlər xiyabanıdı,
yas toya qarışıb, toy yasa burda.
Qızıl qumaşlarda qara xonçalar, –
nişan gətiriblər bir qıza burda.

Nigaran gedənlər yatır xəbərsiz,
yatağı boş qalıb, atı yəhərsiz.
Analar oğulsuz, gəlinlər ərsiz,
nəydi bu müsibət, bu cəza burda?

Qızıl qan ləkəsi qalır gül üstə,
bir qurğu qurdular fitnə-fel üstə.
İl təhvil olubdu qərənfil üstə,
verib öz yerini qış yaza burda.

Kim bilir, nə qədər ölən-qalan var,
Vətəndə bir vətən şəhid olan var.
Hələ bir-birini xəbər alan var, –
dil yox, sual verir göz gözə burda.

Çağırın Babəki bu yasa gəlsin,
Şəhriyar əlində bir əsa gəlsin,
qisas istəyəni qisasa gəlsin,
Yer özü çağırır qisasa burda.

Kim belə qarğadı bu bağça-bağa,
qaralar bağlandı min bir budağa.
Sürtüb ağ saçını qara torpağa,
Dəyməyin, Nəriman ağlasa burda.

*Fevral, 1990*

# MƏNİM TARİXİM

Mən öz tariximi varaqlayıram
Romanın ən qədim kitablarında.
İgid oğullara yas saxlayıram
beş yüz il, ya min il sonra olsa da.

Onların adını yanlış yazıblar
hələ Herodotun vaxtından bəri.
Burda hakimlərə qulaq asıblar
dünyanın ən böyük tarixçiləri.

Nə qədər knyazlıq, şahlıq və xanlıq…
gəlib soxuldular ərazimizə.
"Dostluq", "bərabərlik", "əmin-amanlıq",
"sülh" təklif eləyib fatehlər bizə.

Bizə "vəhşi" deyib qoca Plutarx,
Pompeyə sərkərdə…
            de, haqqı varmı, –
Doğma torpağında vuruşan bir xalq
beşiyi başında vəhşi olarmı?!

Dağıldı babamın ulu vətəni,
divanlar quruldu burda xalq üçün.
Qafqaz "vəhşi" oldu, Roma "mədəni",
bu öldü, o qaldı,
            yaşamaq üçün.

Talandı el-oba xəyanət ilə,
suları lal axdı Kürün, Arazın.
Gərək əsr-əsr ədalət ilə
borcunu qaytarsın Roma Qafqazın.

# LƏYAQƏT

Nə qədər ağırdı səndən ayrılıb,
başqa bir iqlimə səfər eləmək.
Sonra da hardasa könlünü alıb
bir qəlb ağrısıyla "darıxma" demək.

Ayrılıq qəm verir, görüş səadət,
qəmi də sən verdin səadət kimi.
Yaraşır insana, məncə, ey afət,
qəm də bir mənəvi ləyaqət kimi.

Üşüdür ruhumu nəfəsi qışın,
bəzən bir paxılın buz baxışı da.
Bəzən bir həyasız geriqalmışın
təkidlə özünə çağırışı da.

Sirli, maraqlıdı bu dünya, gülüm,
mənim ömrümdə də qışım-yazım var.
Bəzən bu dünyaya min təşəkkürüm,
bəzən bu dünyaya etirazım var.

O sənin hüsnünə yaraşıq verir, –
mənim ürəyimə od salmaq üçün.
Gülü də tikanla qarışıq verir, –
Hüsnə, xasiyyətə mat qalmaq üçün.

Susuram yanında, gör nə zamandı,
ayrılıq dəmində şikayətə bax.
Yanında qalmağım guya asandı,
sən mənə səbr ver, ey ana torpaq!

# MƏNƏ YETİM DEMƏYİN

Dost bağında seyr edərkən,
Tanış bir səs eşitdim mən:
“Anasızdı, o yetimdi!”
Mən bilmədim o kəs kimdi,
Bərk tutuldum bu sözündən.
Evə döndüm lap ürəksiz,
Mənə yetim deməyin siz!

Bu sevincim gec oldu, gec!
Mən demirəm, üstündən keç.
Ata üzü görmədim mən,
Bir yaşımda yetim ikən
Anam yetim demədi heç.
Məgər bunu bilmirsiniz?
Mənə yetim deməyin siz!

Bu tək eyvan, bu daş otaq
Sevinərdi üç il qabaq.
İndi hər şey solub gedib…
Nə desəniz, deyin, ancaq
Qapıda da tək görsəniz,
Mənə yetim deməyin siz!

Yenə çöllər əlvan geyir,
Mən yazdığım beş-on şeir
Yavaş-yavaş dil açdıqca,
Oymaq-oymaq dolaşdıqca
Vətən mənə oğul deyir.

Qoy dil açsın hər nəğməmiz,
Mənə yetim deməyin siz!

*Poylu stansiyası, 1957*

# QƏDİM DÜNYA XALQLARININ BİRİ DƏ BİZ

Bir dissertant yana-yana
sitatları səpələdi
Azərbaycan torpağına.
“Namizədlik” adı üçün
adı batmış
adımızı dandı o gün.
Böhtan atdı
Həcərimin şöhrətinə,
qadınların
qəhrəmanlıq adətinə,
“Vətənimdir”, –
deyən qoca Füzuliyə
o sus! – dedi.
“Beynəlmiləl” şeirimizə
duzsuz dedi.
Nüşabəni, Natəvanı
tamam dandı.
Sındı qəlbim, oxalandı.
O güldü də bir fənd ilə, –
nənələrin laylasına
rişxənd ilə.
Kənd qızının həyasını,
öz ağbirçək anasını,
bizim ellər dünyasını
qoydu lağa.
Özü boyda ləkə oldu
bu torpağa.

Bütün bir xalq qalıq oldu,
Azərbaycan torpağına
mənsub olmaq qalıq oldu.
Bağışlasın
        məni Şura üzvləri,
        yaşadığı bir torpağın
yoxluğunu "sübut edir"
        bəziləri.
Ola bilməz qalıq olsun
yaşaması el-obanın,
        ya vətəni
        neçə-neçə qəhrəmanın.
Kitablara, yazılara
        baxmalıyıq.
Biz millətlər qabağına,
        filosoflar qabağına
        çıxmalıyıq.
Biz bir para sitatları
        pozmalıyıq.
Təzəsini yazmalıyıq,
        əsasını yazmalıyıq.
Bu diyarda qərar tutub
bizim qədim tariximiz,
        bizim yeni taleyimiz.
Qədim dünya xalqlarının
        biri də biz!

*1969*

## O VAXT YAŞID İDİK

Biz nə vaxt ayrıldıq?.. o vaxtdan bəri
səni yuxularda görürəm yalnız.
Yenə eşidirəm o gülüşləri,
qalıb o əvvəlki baxışlarımız.

Yenə başındakı o örpək durur,
mən də hey dururam sənin yanında.
Yaxanda sancaqlı kəpənək durur,
durur əynindəki ipək donun da.

Əlində təzəcə yonulmuş qələm,
o boy, o buxun da necə var, elə.
Mən də filoloji fakültədəyəm,
iyirmi ildir ki, dərs gedir hələ.

Yenə eşidirəm tanış bir səsi,
doğma da deyildi, yad da deyildi.
Bitmir müəllimin mühazirəsi,
eşiyə zəng olmur iyirmi ildi.

Dəftərlər içində bir dəftər durur,
o daha açılmır, yazılmır ancaq.
Durur o çinarlar, o şəhər durur[1],
necə görmüşdümsə, iyirmi il qabaq.

O vaxtdan elə bil dayanıbdı vaxt,
daha dövr eləmir bu aləm indi.
O vaxt yaşıd idik… sən işə bir bax
səndən iyirmi yaş böyüyəm indi.

*1978*

[1]Şairin oxuduğu Gəncə şəhəri nəzərdə tutulur *(red.)*

# SƏNİN AD GÜNÜN

*Bu gün klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlalın ailəsində dünyaya göz açan akademik Arif Paşayevin doğum günüdür. Arif müəllimin yaxın dostu, Xalq şairi Nəriman Həsənzadə "Şərq"ə bir şeir təqdim edib. Uzun illərin dostluğunun təcəssümü olan bu şeir Arif müəllimin ad gününə bir töhfədir. Hörmətli akademik Arif Paşayevi ad günü münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı arzulayır və şeiri oxuculara çatdırırıq:*

**Əzizim akademik Arif Paşayevə**

Sağlıq deyəndə də Şəmsəddin deyə
dəyişə məclisin abı-havası,
Allahım, nə ola heç əksilməyə
insanın insana xeyir-duası.

Ən gözəl məlhəmdi söz ürək üçün,
yerə nazil olur elə ki, haqdan.
Xoş sözü doyunca eşitmək üçün
bir insan ömrü də çatmır, ey insan!

Nədir bu məhəbbət, bu eşq aləmi?
Mən necə deyim ki, dünya sualdı.
İnsan sevinirsə, bir insan kimi
ana südü kimi ona halaldı.

Bu sözü deyən də ilk – Mir Cəlaldı.
Uçur, qanadlanır sinəmdə ürək,
bu axşam nə dəftər, nə qələm, şair!
Bu axşam taleyin hüzurundayam!

Özüm də özümə deyiləm, şair,
Arif deyiriksə, Arifləşək biz,
Sən ki mənə verdin bu ada, Tanrım!
Arif olmasaq da, bizim birimiz,
Arifsiz olmayaq dünyada, Tanrım!

*Şərq, 15 fevral 2018-ci il*

## YAŞAYIR

Poyluda mən doğulmuşam,
Poyluda Nazim yaşayır.
Könüldə sevgi-məhəbbət,
sazda sarı sim yaşayır.

Ağstafa, Poylu, salam!
Alməhəmməd oğlu, salam!
Ata payım, oğul balam,
mənim əvəzim yaşayır.

Atamın çırağı yanır,
anamın ocağı yanır.
Səni anır, məni anır –
eşqim, həvəsim yaşayır.

Poyluda bir ünvan qalıb,
O, məndən nigaran qalıb.
Gedən gedib, qalan qalıb,
tanış-bilişim yaşayır.

Əyilməsin uca başın,
sevinsin torpağın, daşın.
A qızım, sənin qardaşın,
mənim ləléşim yaşayır.

# YERDƏ YER HƏSRƏTİ

*Əzizim akademik Arif Paşayevə ithaf*

Ayağım yerə dəydi,
sənə şükür, İlahi!
Nə əziz, nə müqəddəs
yer imiş – Yer, İlahi!
Mən haqqın dərgahında,
dilimdə dualarım.
Yerdə yerdən savayı
bir tanrım yoxdu, Tanrım.
Mənə addım atmağı
sən öyrətdin, İlahi!
İməkləmək istədim,
– Yeri! – dedin, İlahi!
Ayaq üstə qaldırıb,
qolumdan tutdun ki: – Qalx!
"Yüyür!" – dedin, yüyürdüm,
"Qaç!" – dedin, qaçdım, Allah!
Mən beşik dünyamızdan
endim Yer dünyasına.

O gündən düşdüm elə
insan iddiasına,
böyüklük xülyasına,
İsgəndər Zülqərneyin,
Promotey sevdasına.
Yer, sənə yıxılanı
qaldırırsan əlüstü,
dağılır qara tüstü.
Deyirsən: – Ey insan, qalx!
Sən mənə arxalan, qalx!
Qalx, heykəl ol, şıx ol, qalx!
Ayağın altda yerəm,
yerə yaraşıq ol, qalx!
Gedən-gələn yerimiz
sənsən! Əskik olma, Yer!
Həyatın əzəli Yer,
özəli Yer, doğma Yer!

*Bilgəh,*
*18.03.2015*

# GƏNCƏLİ QIZI, YAXUD BİR ŞƏHƏR İTDİ

Gəncə mənim ilk məhəbbət beşiyim oldu,
Soruşmayın tələbə qız onda kim oldu,
Bəlkə, mənim alın yazım, taleyim oldu.
O qızlara dediyini mənə demirdi,
Can verirdim, canıyanmış can istəmirdi.

Gəncənin adını ötəri çəkmə,
Eşidib inciyər o pəri, çəkmə.
O mənim olmadı,
            mən onunkuyam.
Allahım, ayrılıq çəpəri çəkmə.
Ayılıb gördüm ki, o bir yuxuymuş,
Eşqin əvvəli var, sonu yoxuymuş.

Sökdülər, tikdilər bütün şəhəri,
İtdi o gözəlin ayaq izləri.
Silindi mənim də xatirələrim,
Bu hansı küçədir,
            yoxdu xəbərim.
Bəlkə, unutmayıb xan çinar məni,
Dursam kölgəsində, tanıyar məni.

Kəhrizə gedən yol, tanışdır, desin,
Susub Gəncə çayı, danışdır, desin,
Tikilən Gəncədi, sökülən mənəm,
Orda arsız-arsız o gülən mənəm.
Şəhəri sökənin insafı yoxdu,
Gözümdə o axşam, o səhər itdi.
Mən gedib döydüyüm o qapı yoxdu,
Bir şəhər tikildi, bir şəhər itdi.

## KEÇDİ BELƏ

Bir gözələ dönüb baxdım,
Gün vurdu, əridim-axdım.
Əldən kəkliyi buraxdım,
Salam verib keçdi belə.

Sən demə, qonşunun qızı
Dönüb olub ay parası.
Özüm-özümdən narazı,
Dedim, daha gecdi belə.

Od içində elə yandım,
Yandığımı sonra dandım.
O güləndə, mən utandım,
Gördüm, ömür keçdi belə.

## ÇÖLLƏRƏMİ TAPŞIRDIN MƏNİ?

Gözlədə-gözlədə qocaltdın məni,
Mən ki yuxudaydım, ayıltdın məni.
Nə tutdun əlində, nə atdın məni,
Özgə əllərəmi tapşırdın məni?

Ətrimi gül aldı, çiçək apardı,
Üzümün rəngini bir rəng apardı.
Çağırdım, səsimi külək apardı,
Əsən yellərəmi tapşırdın məni?

Bu günü gözlədim, sabaha qaldı,
Sevincin axırı bir aha qaldı.
Ümidim etdiyim günaha qaldı,
Gələn illərəmi tapşırdın məni?

Dağlara çən düşdü xəbər tutmadın,
Saçıma dən düşdü, xəbər tutmadın.
Ayrıldıq, gen düşdük, xəbər tutmadın,
Yaman dillərəmi tapşırdın məni?

Könlümü alanda, könlüm deyərdin,
Məni iyləyərdin, gülüm deyərdin,
Adımı deməzdin, Leylim deyərdin,
Məcnun, çöllərəmi tapşırdın məni?

# BİZİM ŞEİR GECƏMİZ

*Xalq şairi Söhrab Tahirə*

Yuxuda gördüm ki, yenə görüşdü,
yığılıb el gəlir yanıma səssiz.
Bakı elə böyük, elə genişdi;
Söhrab,
bildirişsiz, dəvətnaməsiz
Təbrizdən, Səlmasdan, Gəncə tərəfdən
gəlib şeirimizi dinləyir Vətən.

Anan Nəsibəni görürəm, Söhrab,
Al! – deyib, çörəyi batırır duza.
Baş əyib, mən salam verirəm, Söhrab,
bizim o taydakı oxucumuza.

Uşaqlar görürəm sonra arada,
şeir gecəmizə gənc, qoca gəlib.
Sonra Pişəvəri… qabaq sırada,
deyirlər, səngərdən birbaşa gəlib.

Uzanır qarşımda bir qumlu səhra,
durub gözləyirəm Günəşi – doğsun.
Sən niyə susursan qarşımda, Söhrab,
Niyə demirsən ki, yuxun çin olsun?!

* * *

Sən olsan yanımda
qürbət Vətəndi,
Sənsiz qürbət olur
Vətən,
nədəndi?

# TARİX TÖKÜR TUNCDAN MƏNİ

Gözüm toxdu, könlüm acdı,
Könlüm könlünə möhtacdı.
Sən dedin, bu, ehtiyacdı,
Çıxar ehtiyacdan məni.

İçimdədi acım, ağrım,
Atəşlərə yandı bağrım.
Özün qurtar, ulu Tanrım,
Möhtaca möhtacdan məni.

Mən kiməmsə, haqdan soruş,
Xalq içində xalqdan soruş.
Acdan soruş, toxdan soruş,
Bu karvandan, köçdən məni.

Şimşəkdimi yenə çaxan,
Dağları üstümə yıxan.
Qisas alan, hayıf çıxan,
Nişan alma küncdən məni.

Girdim bir tale oynuna,
Düşdüm tufanlar qoynuna.
Şair, lent taxır boynuna,
Tarix tökür tuncdan məni…

# MƏNİM MUĞAMATIM

Anam – kələğayılı bir muğamıydı,
muğam da doğmaca öz anamıydı.
Anam cəmiyyəti anlatdı mənə,
muğam da Üzeyiri tanıtdı mənə.
Gördüm, bu yollarda yol göstərən var,
harda muğam varsa,
orda Vətən var.

Xana toxuyardın, ay Nabat anam,
mənim xalı anam, muğamat anam.
Dilin yox,
ürəyin dilə gələrdi,
xınalı barmaqlar naxış ələrdi,
orda ceyran gəzər, cüyür mələrdi.
İpləri kəsərdi, calardı anam,
sapları sim kimi çalardı anam.
Muğam toxuyardı –
muğam özüydü,
bəstəkar özüydü, rəssam özüydü.
Səsi eşidərdi, rəngi duyardı,
anama qoşulub rəng oxuyardı.
Fırçasız, boyasız səs rənglənərdi,
on bir heca kimi əzbərlənərdi.
O nota yazırdı şah əsərini,
seçib sayırdı ilmələrini.
Anam Üzeyirin tələbəsiydi,
hələ oxuyurdu, hələ səsiydi.
"Segah"a, "Şahnaz"a keçərdi anam,
"Hicaz"dan "Məcaz"a keçərdi anam.
Məcazı – xalıydı, xalısı – muğam,
o, bu dünyamıydı,
indi o dünyam.

## HARDADI?

Yaşım səksəni haqladı,
keçdiyim yollar hardadı?
Haraya gedirəm, Tanrım,
görünən dağlar hardadı?

Gəzib torpaqlar görmüşəm,
qaralar, ağlar görmüşəm,
ölkələr, xalqlar görmüşəm,
hanı o xalqlar, hardadı?

Kimin üstündə əsirəm,
nəyim itib, nə gəzirəm?
Hara belə tələsirəm,
bizim yaylaqlar hardadı?

Çiynimdən uçdu şah quşum,
yerindədi ağlım, huşum.
Ələndi, getdi tay-tuşum,
tək-tük o sağlar hardadı?

Bulanıram, duruluram,
öz içimdə qovruluram.
Yeriyirəm, yoruluram,
dəmir ayaqlar hardadı?

Ağsaqqal olmaq buydumu?
Gördüklərim yuxuydumu?
Varıydımı, yoxuydumu,
Ötən o çağlar hardadı?!

Dost qocalıb, yar qocalıb,
Can alan canlar qocalıb.
Məndən cavanlar qocalıb,
Məndən ahıllar hardadı?

# KİMİ DİNDİRİRƏM, "QIFILBƏND" DEYİR

*"Mən Qazaxın tarixini yazıram."*
Akademik **Teymur Bünyadov**

Səsində gizli bir can yanğısı var,
O səsdən od düşüb bu cana, yanır.
Demə, bu sevdanın nə mənası var,
Mənası budur ki, bu məna yanır.

Biz dünya görmüşük, biz nə deyirik,
Yüz cana borcludu bir canda ürək.
Ayrı görünsək də, ayrı deyilik,
Sən məndə, mən səndə yaşaya bilsək.

Gedək, Kür üstündə bir çəmən seçək,
Onsuz da hər ürək bir niyyət eylər.
Demirəm, hamımız tarixə düşək,
Orda yada düşsək, kifayət eylər.

Orda xalq şairdi, Tanrı şairdi,
Vurğun möcüzəydi, zaman möcüzə.
Qazaxdan çıxanın yarı şairdi,
Amma Nizaminin dediyi sözə.

Yazdığı bir rəyə ehtiyacı var,
Çünki şerimizə bir duaçı var,
Çünki səni duyan, məni duyan var,
Çünki səni, məni bir oxuyan var.

Kaş məndə olaydı evin açarı,
Kaş sağ olaydılar, kəndə gedəydik.
Üstü sarımsaqlı dağ qulançarı
Anam bişirəydi, biz də yeyəydik.

Bir ömür nədir ki,
            əllidi, yüzdü,
Yaşaya bilmirik, kimsə pər vurur.
Xain də iblisin astar üzüdü,
Mən cığır salıram, o çəpər vurur.

Nəyi soruşum ki, Strabondan,
Kimi dindirirəm, "qıfılbənd" deyir.
Millətin tarixi çıxarıb yaddan, –
Mən Dərbənd deyirəm, rus sərhəd deyir.

Zalım, neylədinsə, tək sən eylədin,
Tarixdə
            tarixi qəsd səninkidi.
Sibiri sən mənə vətən eylədin,
Vətən axtarıram vətəndə indi.

Orda Təbrizim var, burda Borçalım,
Mənim Dağ Ayrımım, Şuşam, Xocalım,
Mənim bir hecalım, iki hecalım.
Mənim tariximi bu tarix demir,
Mən, "Varıq!" deyirəm, bu, "varıq" demir.

Teymur boğazından asdı tarixi,
Türkün qılıncıyla yazdı tarixi.
Sən türk tarixini türk qanınla yaz,
Teymurdan Teymura ilahi miras.

Tarixə hörmətdi sənin hünərin,
Zəmanə əyməsin şax qəddimizi.
Elə yaz,
qoy pozsun "Qazax" əsərin
Qazaxdan başlayan sərhədimizi.

## YANAR ÜRƏK

*Əziz Ülkər Xanıma*

Bir gün yerə qoymadı:
nə gözündən – eynəyi,
nə əlindən – qələmi.
Görənlər, belə gördü
Şirməmməd müəllimi.

Qalxdı –
şax baxa-baxa,
tay-tuşunun üzünə, –
Müəllim kürsüsündən
Şirməmməd kürsüsünə.

Qızlarının atası,
xanımının əriydi.
"Cümhuriyyət" –
sonuncu
şahanə əsəriydi.

Sinədəftər deyirdi
varaq-varaq tarixi.
Ya Qədim tarix olsun,
ya Qarabağ tarixi.

İstiqlal deyirdisə,
o söz –
          şüar deyildi.
Millətin özüydü o.
Ona oxşar deyildi.

Türkün qardaşlığından,
Nuru Paşadan dedi.
"Azərbaycan, sən oldun,
məni yaşadan" – dedi.
Azərbaycan deyəndə
Bir az ucadan dedi.

Bir çağırış səsiydi
himnin bir nəqəratı.
Bir hünər dünyasıdı
bir müəllim həyatı.

Oyaq qaldın, indi yat
sevdiyin torpaq altda.
Vətən döyüşlərdədi,
Üçrəngli bayraq altda.

*Ədəbiyyat qəzeti, 6 iyul 2019-cu il*

## EY VƏTƏN!

Qoca tarix, daha susma, millət qalxıb ayağa,
And içibdi ululların yaşadığı torpağa.
Mən yazıram bu günləri sinəmdəki varağa,
Daha "qaçqın", daha "köçkün" olmayacaq, ey Vətən!

Gəl, gəl deyir burda Ağdam, orda Laçın, Kəlbəcər,
Bizim qalib ordumuzu alqışlasın qoy bəşər.
Sevinəndə bir ürəyə bütün dünya yerləşər,
Hər meydanda alovlanır bir od-ocaq, ey Vətən!

Tufanlara sinə gərir şimşək kimi hər cavan,
Hərəsi bir el gücüdür, hərəsi bir qəhrəman,
Dədə Qorqud ərlərinin sədasıdır bu dastan,
"Bir millətik, iki dövlət", – deyib bu xalq, ey Vətən!

Yerin qədir-qiymətidir şəhidlərin məzarı,
Bir qaladır, səninkidir, qoru bu şah hasarı.
Yadellinin, ermənin burda nədir azarı?!
Yaxın qoyma, yaxın gəlsə, yaxın-uzaq, ey Vətən!

Kəsə bilməz qabağını nə bir hiylə, nə hədə,
Hünər göstər igid əsgər, yanındayıq – cəbhədə.
Nəsil-nəsil biz and içdik bu müqəddəs Məbədə,
Azərbaycan, ey üçrəngli şanlı bayraq, ey Vətən!

*29 sentyabr 2020*

# GÖZÜNƏ MƏRD BAXAN GÖZDƏN "UTANIR"...

Hörmətli Bəxtiyar müəllim!

Bu günlərdə qəzet səhifələrində gördüm ki, növbəti görüşləri zamanı Ermənistan prezidenti əlini üzünə tutub Azərbaycan Prezidentindən "gizlənmək" istəyir.

Çox təsirləndim.

Kişi olan heç bir Allah bəndəsi (düşmən olsa belə) bu vəziyyəti özünə rəva görməzdi, xüsusən də Qafqaz adamı ola. Daha bir ölkə prezidentini demirəm.

Söhbət adicə insani ləyaqət hissindən gedir.

Cənab Prezidentimiz İlham Əliyevi mənim yaş nəslim çox yaxşı tanıyır. Bizim gözümüzün qabağında böyüyüb boya-başa çatmışdır.

O, bizim fəxrimizdir.

Onun ziyalılarımızla, ölkəmizə gələn yüksəksəviyyəli qonaqlarla, regionlara səfərləri zamanı adi adamlarla, eləcə də xarici dövlət başçıları ilə, prezidentlərlə görüşlərini çox görmüşük və indi də görürük.

Dediklərimi bu münasibətlə yazdığım şeirimlə ifadə edirəm.

Hörmətlə,

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

Cənab Prezident, fikir verməyin,
Üzüqara olmuş, sizdən "utanır".
Günahı, taqsırı o qədərdi ki,
Üzü üzlər görüb, üzdən utanır.

Səsini alıblar, qalıbdı səssiz,
Bir iş görə bilmir qəsdsiz-qərəzsiz.
– Gəl əyri oturaq, düz danışaq biz! –
O əyri oturur, "düzdən" utanır.

Burdan onu görüb tanıyacaqlar,
Qucağı boş qalan beşik qucaqlar.
Odda yandıracaq sönən ocaqlar,
Oddan bərk çəkinir, közdən "utanır".

Niyə, nə deyiblər, o, dilxor olmuş,
Gözünün pərdəsi belə tor olmuş.
Nə qədər göz görüb gözü kor olmuş,
Gözünə mərd baxan gözdən "utanır"?!

*26.10.2017*

# BİZ ORDA GÖRÜŞDÜK…

*Əziz Aydın Heydərova*

Biz orda görüşdük,
            Aydın, biz orda, –
onda da beləydin, bu qədər həssas.
İşıqlar yanırdı Aeroportda,
çöldə ağarırdı dan yeri, az-az.

Heydər qayıdırdı haqqın gücünə,
Arxada qalmışdı Kreml ünvanı.
Xilaskar gəlirdi,
            xalqın içinə,
verib tufanlara öz həyatını.

Biz orda görüşdük,
Aydın, biz orda,
Şübhəli dəstələr nəydi… "gəzirdi".
Eynəkli gözlər də Aeroportda
gah elə, gah belə bərk tələsirdi.

Sən də, yadımdadı, qəsdsiz-qərəzsiz,
gah sola baxırdın, gah sağa, Aydın.
Bizim dostluğumuz, sədaqətimiz
orda çəkilirdi
            sınağa, Aydın.

Səbirli olsa da, zaman sərt idi,
cədvəli sirliydi təyyarələrin.
Biz mülki paltarda ilk əsgəriydik
səngərə qayıdan
Ulu Öndərin.

Gəldiyi o yollar qorxu, hədəydi,
yalan da, böhtan da bir cəbhədəydi.
Deməyə gəlirdi haqqı haqq üçün,
yaşamaq üçün yox,
          yaşatmaq üçün.

Məramı başqaydı bu həqiqətin,
ona verməliydi onun yerini.
Tarixdə
          tarixi bir şəxsiyyətin,
Aydın, orda sıxdıq biz əllərini.

Bilmirəm, neçədir dünyanın yaşı,
hansı pillədədir bizim yerimiz;
səniydin,
          məniydim,
          Cəlal qardaşı,
bir də Vahabzadə – xalq şairimiz.

Həyat çoxlarına şirin yuxudu,
biz orda görüşdük,
          Aydın, biz orda.
Çəkdiyi adların üçü yoxuydu,
üçü gəlməmişdi Aeroporta.

Aydın, səni sevən, məni duyan var,
Həyatda biz bizik, onlar da onlar.
Yəqin, sədaqətdən dərs oxuyurlar
adı çəkiləndə
          yoxa çıxanlar?!

# ÇİNARLI

Dünən Ali Baş Komandan
ad verdi "Van" kəndinə,
dünən burda yaddan çıxan,
unudulan kəndinə.
Bu gün burda yol gözləyən
Azərbaycan kəndinə,
mübarəkdi doğum günün,
gözün aydın, Çinarlı.

Bir millətin gülər üzü
qadağaydı bu kənddə,
"ata" sözü, "ana" sözü
qadağaydı bu kənddə.
Vətən dedim, vətən özü
qadağaydı bu kənddə,
Daşqalaq elədilər, sən yaşadın, Çinarlı.

Əkin yerin, biçin yerin qaldı başlı-başına,
baş çəkməyə qoymadılar torpağına-daşına.
Qurban getdin burda hansı
erməni əyyaşına? –
kəndim mənim!
Buydumu bu kənd həyatın, Çinarlı?

Anaların duasıdı yerdə səsin, İlahi!
Qaranquşlar yuvasına köç eyləsin, İlahi!
İşğalçını – yer yarılsın, yerə girsin, İlahi!
Tamaşana çağır gəlsin, dostun-yadın, Çinarlı.

Çəmənlərə, çiçəklərə
xəbər verin bu gündən,
baxtına bir gün doğubdu
burda yerin, bu gündən.
Çinarlıda bayramıdı sözün-şeirin bu gündən,
Gözün aydın, gözün aydın,
gözün aydın, Çinarlı.

## RƏVAYƏT

Deyirlər, Mərkəzdə bir yay günündə
tədbir keçirirmiş şəhər sarayı.
Heydər nitq eləyir məclis önündə,
o da xatırlayır,
bir isti yayı.
– Bizim tərəflərdə bir dağ çayı var,
isti yay günüydü, çimdim bir qədər.
Gördüm, paltarımı oğurlayıblar,
kimlər, ermənilər…
orda dedilər.
Yerdən bir əl qalxdı,
– Cənab, ayıbdı,
susdu hikkəsindən, boğuldu səsi.
– Orda ermənilər yaşamayıbdı,
mən də bir erməni nümayəndəsi!
– Heç nə istəmirəm mən indi sizdən,
Heydər unutmadı bu "haqq-hesabı".
– Çoxdan istəyirdim, öz dilinizdən,
eşidim, nəhayət,
bax bu cavabı.

# LENİN "BABA"

"Əziz yoldaşım Şaumyan!

Biz sizin sərt və qətiyyətli siyasətinizə heyranıq, çalışın bunu ən ehtiyatlı diplomatiya ilə birləşdirin. Kim birinci atəş açacaq, mənası yoxdur. Əsas odur ki, axşam saat 6-da 1918-ci ilin martın 31-də Bakı döyüş meydanına çevriləcək. Tranşeylər qazın, barrikadalar düzəldin, əsl döyüşlərə hazırlaşın. Biz qalib gələcəyik".

***(1918-ci ilin mart qırğınları ərəfəsində, martın 5-də V.İ.Leninin Bakı Sovetinin sədri S.Şaumyana göndərdiyi teleqramı)***

(… bütün bu günlər ərzində şəhərin müsəlman əhalisini bombardman edir, güllələyir, diri-diri yandırırdılar.

…12 mindən çox müsəlman martın 18–21-də, üç gün davam edən qanlı cinayətlərin qurbanı olmuşdu…".

***(Azərbaycan Demokratik Respublikası" kitabından. Bakı, 1992).***

"Lenin baba, can baba…[1]
ay Lenin – şeytan baba!
Şeytana papış tikən,
adam aldadan baba!"

[1] Sovet dövrünün məşhur uşaq mahnısı

Bir qətl gecəsində
On-on iki min nəfər!
Kimləriydi? – fəhlələr,
beşikdəki körpələr.
Ağsaqqallar, qocalar,
o analar, bacılar…
O çəkic götürənlər,
o oraq gəzdirənlər,
o bayraq gəzdirənlər.
Evdə bir ağsaqqalı,
qocası olmayanlar,
anası olmayanlar,
bacısı olmayanlar
Barrikada qurdular,
müsəlmanı qırdılar.
Bakıdan – bakılını
silib təmizlədilər.
Qovluğu gizlətdilər,
arxivdə saxladılar.
Yüz il sonra təzədən
açıb varaqladılar.
Nəydi bu dəhşət, "baba"?
Ayıldı millət, "baba"!
Ay sənə lənət, "baba"!
Nuru Paşa gələndə
Türkiyədən köməyə, –
Onda da yandır, – dedin,
Bakını ver küləyə!
Kimiydi Qabrielyan,
göndərdin Moskvadan?
İlahi, nə qədər "yan!".

Alış "baba", yan "baba",
Orda Lenin "babaydın",
burda Şaumyan ("…"!)
Millət öz sərvətini
niyə oddasın, "baba"!
Gorun çatdasın, "baba"!

Mavzoleyi dolaşdıq,
uzununa-eninə.
Yetmiş il də Leninsiz,
sinə döydük, Leninə.
Bilmədinmi, vaxt gələr,
məktubun ələ düşər.
Adın pis siyahıya,
başın əngələ düşər?!
Lenin "baba", can "baba"…
ay Lenin – "Şeytan baba"!
Şeytana papış tikən,
adam aldadan "baba!"
Tarix – tarix önündə
haqq verir,
hesab verir.
Aldanan yox,
            aldadan
bax belə cavab verir.
Nəydi bu soyqırımı,
Ağıl kəsərdimi heç?!
Üçrəngli bayrağına
and iç,
ey millət,
            and iç!

# DOQQUZ ÖLKƏ ABİDƏSİ

*"...Rəfibəylilərin doqquz ölkədə qəbri qalıb"*

**Akif Rəfibəyli**

Danış, Akif, nəydi suçu?
Heç olmasa, indi danış
bir dilucu,
nəydi suçu?!
Bu dərd ki köhnələn deyil,
ölən bir də ölən deyil!
Mən Gəncədə eşitmişdim
buna bənzər bir söhbəti.
Sən dediyin – qədim Yunan
müsibəti!
Sofoklun,
Evripidin faciəsi,
göz yaşıdı, qışqırırdı
hər səhnəsi.
Qəbir demə,
doqquz ölkə abidəsi!
Kimin canı yanasıydı
ağlayanın bu yasına? –
Onda xalqlar məşğuluydu, –
əl çalırdı,
hələ Ellər atasına!
Cümhuriyyət
və Hürriyyət,
dəryada tək bir adaydı.
Sürgünlərdə hallanırdı,
mürəkkəb bir
mübtədaydı.
"Gedər-gəlməz" dedikləri
bir də Nargin adasıydı.

İlahi, bu qəm karvanı
harda sona
çatasıydı?!
O hansı yolayrıcıydı,
ya yolun
astanasıydı!
Bu qədər zülüm, həqarət,
sonda,
            sonda da bəraət.
Astarı üzündən baha,
Ümid yenə bir Allaha.
Yəni yaxşıdı, ya pisdi,
səhv də bizim səhfimizdi.
Siz razı qalmalıydınız,
minnətdar olmalıydınız
ölənlərin əvəzinə,
taleyin bu "töhfəsinə".
Bu ağrı, bu qəsd, bu qərəz!
Akif, necə oldu ki, bəs,
üstünüzdə bu adınız,
siz yenə unutmadınız:
bunca mehriban olmağı,
insana həyan olmağı,
sədaqəti, ya ülfəti,
ya bu qədər ünsiyyəti,
bir də bu gözütoxluğu…
Görüm, yox olsun yoxluğu!
Ayağın heç toxunmasın
daşa, Akif!
Həyata sualın başqa,
tərcümeyi-halın başqa,
özün başqa… yaşa, Akif.

## SƏN MƏNƏ ZƏNG ELƏYƏNDƏ

Gözüm yenə varaqdaydı,
başım səsdə-soraqdaydı,
Səsin bir az uzaqdaydı
sən mənə zəng eləyəndə.

Fikirliydim, qayğılıydım,
"tilsim" açıb-bağlayırdım,
səndən ötrü ağlayırdım
sən mənə zəng eləyəndə.

Soruşursan, pis deyiləm,
Mən burda sənsiz deyiləm.
Gördüm, kimsəsiz deyiləm
sən mənə zəng eləyəndə.

# FİKİR ELƏMƏ

*Təbrizli şairəmiz Tədəyyül Zeynəb*
*telefonla yeni yazdığı şeirləri mənə oxumuşdur.*

Bir anam Təbrizdi, bir anam Bakı,
bir laylam Təbrizdi, bir laylam Bakı,
Zeynəbim Təbrizdi, Vüsaləm Bakı,
candan can ayrılmaz, fikir eləmə.

Əlifba ayırdı, sərhəd ayırdı,
orda şah, burda çar…
bu şərt ayırdı.
Bu dərd birləşdirdi, bu dərd ayırdı,
bu dərd belə qalmaz, fikir eləmə.

Nə qədər bu tay var, o tay var, bu xalq
sərhəddən – sərhədi haraylayacaq.
Millət bir-birinə qohum çıxacaq,
oxu, sinəndə saz, fikir eləmə.

"Türkmənçay" küləyi əsdi, üşüdüm,
o tayda gül, bu tayda mən eşidim.
Mən tarixəm, sən mənim gənc yaşıdım,
mən yazdım, sən də yaz, fikir eləmə.
Orda Təbriz qızı, "Səni deyirlər",
səni deyə-deyə, məni deyirlər.
Səngərlərdə deyiləni deyirlər,
qulaq as, qulaq as, fikir eləmə.

Səsim bu Taydadı, nəğməm o Tayda,
Danışıb-gülərik gəlləm, o Tayda.
Bir gün ucalacaq türbəm o tayda,
ax, Araz, ax, Araz, fikir eləmə.

# MƏNƏ "CAN" DEYİBSƏN

Mən də sənə "can" deyirəm,
o can, bu can birdi, qızım.
Yüz desinlər o Tay, bu Tay
Azərbaycan birdi, qızım.

Pozan pozdu, yazan yazdı,
içim, çölüm etirazdı.
Ayıran bizi Arazdı,
millətdə qan birdi, qızım.

Şəhriyarı oxu bir də,
əyir bir də, toxu bir də.
Gedən gəlmir axı bir də, –
bu imtahan birdi, qızım.

İki sahil üz-üzədi,
hərəsi bir möcüzədi.
Çayın suyu bir kürədi,
dərya-filan birdi, qızım.

Mən burda, sən orda, Zeynəb,
gözümüz yollarda, Zeynəb!
Bir Nəriman, bir də Zeynəb,
ürəyimiz birdi, qızım.

# PANDEMİYA

(Məktub)

Dünyanı ölüm haqlayır,
qalanı – Allah saxlayır.
İndi ağlayan ağlayır,
gülən gülür, sənə qurban.

Bu da belə bir həyatdı,
insan necə amanatdı!
Evdə qalan salamatdı,
çıxan – ölür, sənə qurban.

Nə özü var, nə bir səsi,
nə tüfəngi, nə gülləsi,
nə arxası, nə kimsəsi,
nə dil bilir, sənə qurban.

O vaxt sənsiz, bu vaxt sənsiz,
yaxın sənsiz, uzaq sənsiz.
Şair yaşamır ha sənsiz,
günü sayır, sənə qurban.

# BUDAQ MÜƏLLİM

*(Akademik Budaq Budaqovun xatirəsi)*

*Avstriyada yaşayan qələm dostum*
*Qaraxan Yaqubova*

Haqdan qulağıma tanış səs gəlir,
bir an yorğun gəlir, təngnəfəs gəlir.
Adını çəkirəm, sonu nəhs gəlir,
dünya birtəhərmiş, Budaq müəllim.

Biz həyat deyirdik, demə, yuxuymuş,
o bu gün varıymış, sabah yoxuymuş.
Sevinci nəymişsə, kədəri buymuş,
Şərbəti zəhərmiş, Budaq müəllim.

Şəklimi qoyubsan, stolun üstə,
öz imzan üstədi, öz qolun üstə.
Dünya qərar tutub bir yolun üstə, –
gələn gedəriymiş, Budaq müəllim.

Çağırsam, uzaqdı, səsim yetişməz,
yaram qaysaqlanar, amma bitişməz.
Hanı dost gülüşün, o isti nəfəs? –
yaşamaq sirriymiş, Budaq müəllim.

Ruhunmu toxunub bu şeirin üstə? –
nə göyün altdayam, nə yerin üstə.
Dünən yağış yağıb qəbirin üstə,
göy otlar göyərmiş, Budaq müəllim.

*2015*

# SON SÖHBƏT

*(Qara Namazovun xatirəsi)*

*Qələm dostum Teymur Əhmədova*

O yay günü, çay süfrəsi, o eyvan,
Qaragilin gül-çiçəkli həyəti.
Mən bilirəm, çıxmayıbdı yadından
dostumuzun o sonuncu söhbəti.

Mən sonuncu gülüşünü demirəm,
o sonuncu həyat eşqi nəydi bəs?
Sənin-mənim orda əhval-ruhiyyəm,
eləydi ki,
söz ifadə eləməz.

Sənin zirək olmağını deyirdi,
"Uluxanlı – erməninin içiydi".
Qızıl medal almağını deyirdi,
deyirdi ki,
Teymurun öz gücüydü.

Varaq-varaq oxunurdu sinəsi,
xatirələr dil açırdı səsində.
O yaşında insanda bu həvəsi,
nə özümdə görmüşdüm mən,
nə səndə.

Görürdüm ki, hərdən gözü yaşarır,
həyat bir az qəribədi, – deyirdi.
Özü gedir,
            səni mənə tapşırır,
şair, Teymur əmanəti, – deyirdi?!

Keçib-gedir ömür bizdən gizlicə,
bəlkə, budur elə bu möcüzə də?!
O, xatirə danışırdı, beləcə,
xatirəyə döndü sonra, özü də.

*02.10.2020*

## GÜNƏŞLƏ OYNAYAN QIZ

*Xidmətçi bir qıza*

Günəşlə oynayan qız,
günəşi gətirən qız,
dibçəklərdə gül əkib,
günəşi bitirən qız.
Günəşi paylayan qız,
Günəşi bu tərəfdən
o tərəfə qoyan qız.
Günəşlə oynayan qız!
Yorulmasın o əllər,
şüşələri silən qız,
Günəşi geyinən qız,
Günəşə çevrilən qız…

## DƏRDİŞ

Seyid Həmzə Nigaridən
nigaran qalmışdı vətən.
Dünyaya gəldi yenidən,
nəvən oldu – baban, dərdiş,
böyükdü Yaradan, dərdiş.

Dedin "Quran" ayəsini,
Allah eşitsin səsini.
Seyidlərin türbəsini
ziyarət eylədin, dərdiş,
nə niyyət eylədin, dərdiş?

Sən bir imam nəvəsisən,
bir nəsilin əvəzisən.
Bu eşqi, bu həvəsi sən
Yaşat, dərdiş, yaşa, dərdiş,
yüzü aşa-aşa, dərdiş.

# XƏBƏRSİZ

– Bu qədər yanında gedib-gəlirəm,
bu qədər sözümüz, sirrimiz olur.
Sənin söhbətindən mən zövq alıram,
insanıq,
          dərdimiz-sərimiz olur.

Bəzən yad xanıma “Tanrım!” deyirsən,
“Həyatım!” deyirsən, titrəyir səsin.
Tərif gözləyirsən sonra da məndən,
tərif elədiyin,
          hardadı?
          Desin.

Mənim xanım qədər, ya bir qız qədər
yanında xətrim yoxdu, görünmür.
Haqqımda dediyin tərifli sözlər
niyə sıralanıb
          bir şeirə dönmür?!

– Bir dərviş deyib ki, ey ulu Tanrı,
mənim içimdə də bir başqa “mən” var.
Bəlkə, odur yazan o misraları,
bəlkə, o şeiri də,
          dedizdirən var?!

Mən dost görmüşəm ki,
          dosta əsirdi,
sözümüz olmayıb bizim də yersiz.
Mənim şairliyim, bəlkə, o sirdi –
mən də xəbərsizəm,
          sən də xəbərsiz.

# GÖYDƏ – GÜNƏŞ YERDƏ – NƏFƏS

*Nənəsindən məktub gətirən qıza*

O bizim qızların ən gözəliydi,
“nənə” çağırmağa tələsmə belə.
Onda oğlanların “çoxu” “dəliydi”,
deyəsən,
biri də məniydim, elə.

Asta yeriyərdi, sakit dinərdi,
Həyatda, bir nağıl əfsanəsiydi.
Dönüb kimə baxsa, o əriyərdi,
baxmırdı,
baxışı –göz töhfəsiydi.

Hörüyü varıydı… gah bu çiyində,
gah da o çiyində titrərdi hərdən.
Saçını kəsdirən qızlar içində,
o qıza, – nənənə! –
deyərdik əhsən.

O da sən yaşında bir tələbəydi,
arzuyla doluydu qara gözləri.

Həyata, insana sualı nəydi? –
nə özü bilirdi,
nə özgələri.

Hər kəsin yanında xətri-hörməti,
susurdu qapalı bir məbəd kimi.
Müəllim – tələbə münasibəti
ayırdı o vaxtdan
bizi sədd kimi.

Evə salamımı çatdır sən mənim,
aç söylə, gizləmə, nə sirrin olsa.
Yəqin, istəyib ki, kömək eləyim,
burda
imtahandan kəsirin olsa.

Sənə bir söz deyim, bilməsin nənən,
açma, hələ açma, özün bil öncə.
İndi gətirdiyin bu məktubu mən
o vaxt gözləyirdim,
əlli il öncə.

Həyatda hər anın bir vədəsi var,
demə, gözləyirmiş o an məni də.
Deyirlər, baxtın da tərəzisi var,
çəkəni də odur,
çəkiləni də.

Böyükdür, ucadır, uludur insan,
ürək istəyirsə, hər yaşda gəncdi.
Allahım, bəlkə də, bizi yaşadan
yerdə bir Nəfəsdi,
göydə Günəşdi?!



Rəssam: Ədalət

# Heç nə istəməyən qız...

*(uşaq şeirləri)*

*–Ata, güllü bir corab al,*
*heç nə daha istəmirəm.*
*Sən tülkülü bir kitab al,*
*heç nə daha istəmirəm.*
*Bir plaş al, iki bayraq,*
*bir qara zont, bir ağ papaq...*
*heç nə daha istəmirəm...*

# QIZIM

Xına yaxdıq əllərinə,
lent bağladıq tellərinə.
"Ata!" deyən dillərinə
mən can dedim, ay can, qızım,
umdu-küsdü anan, qızım.

Corabın var alabəzək,
köynəyin var çiçək-çiçək.
Ata qara, bala göyçək,
gəl öpüşək, gözəl qızım,
gəl gülüşək, gözəl qızım.

Qucağına ayın sığmaz,
filin də var, səni yıxmaz.
Sədəf dişin çıxar-çıxmaz,
Hədik asdı anan, qızım,
şeytan balam, şeytan qızım.

Kənd oğlunun şəhər qızı,
dünyanın bəxtəvər qızı.
Yox, artdı bir Azər qızı,
çox şad oldu atan, qızım,
qucağımda yatan qızım.

*1960*

## HAZIRCAVAB

Dondurma al.
Soyuqdu,
donarsan.
Eybi yoxdu.
Dişin göynər.
Udaram.
Üstün batar.
Tutaram.
Soyuq dəyər.
Qaçaram.
Bərk bükülüb.
Açaram.
Buz kimidi.
Qızdıraq.
Harda?
Qazda.
Yeyim, bax.

*1980*

# BİR HƏYƏTDƏ BEŞ UŞAĞIN SÖHBƏTİ

– Mənim cins şalvarım,
– zəncirli ağ paltarım,
biri İtalyadandı,
biri Yaponyadandı.

– Təzə çantam var mənim,
– flamastr qələmim.
Biri Daşkənddən gəlib,
o biri kənddən gəlib.

– Ayrıca mağazamız,
– bizə baxır o yalnız.
Biri Nəsimidədi,
biri Nizamidədi.

– Mənim atam ev tikir,
– ən uca ev –
Bakıda.
– Mənim atam yol çəkir,
– ən uzun yol –
Şəkidə.

*1980*

## XATİRƏ

Düz gecə yarı
qalxdı yuxudan.
Oyuncaqları
istədi şeytan:
– Qazım hardadı?
– Qazın yatıbdı.
– Quzum hardadı?
– Quzun yatıbdı.
– Əlcəyim hanı?
– Əlcək də yatır.
– Pencəyim hanı?
– Pencək də yatır.
Kəsdi sözünü,
yumdu gözünü,
yatdı Xatirə.
Şirin yuxuya
getdi Xatirə.

*1960*

## HEÇ NƏ İSTƏMƏYƏN QIZ

–Ata, güllü bir corab al,
–heç nə daha istəmirəm.
Sən tülkülü bir kitab al,
heç nə daha istəmirəm.
Bir plaş al, iki bayraq,
bir qara zont, bir ağ papaq...
heç nə daha istəmirəm.
–Qızım, özgə nə alım mən?
–Qırmızı lent, yaşıl qələm,
heç nə daha istəmirəm.

*1965*

# DİŞLƏRİ MIRIQ, DÜYMƏSİ QIRIQ, ŞALVARI QISA, QARDAŞIM İSA

Xanım izahat verir,
şəkil çəkib ad verir:
– Bu, qardaşım İsadı,
– şalvarı çox qısadı.
Dişi düşüb, mırıqdı,
düymələri qırıqdı.
Saçlarını daramaz,
bu, kişiyə yaramaz...
“Rəssam” gülür İsaya,
bu şalvarı qısaya.

## UŞAQLAR – BÖYÜKLƏR

Uşaqlar küsüşdü,
uşaqlar söyüşdü,
bir az da döyüşdü.
Böyüklər qarışdı,
ürəklər bulandı.
Uşaqlar barışdı,
böyüklər utandı.

*1967*

## HEYKƏL

Oynayırdı, "atışırdı" iki uşaq,
biri bizdən, biri "faşist":
– Taraq-ta-taq!..
Döyüş yeri – gəbə üstü, xalı idi.
Səngərləri – qapıların dalı idi,
tüfəngləri – xətkeş idi, qələm idi –
qırmızı, ağ,
güllələri – özlərinin səsi idi:
– Taraq-ta-taq!..
"Faşist" vurdu bizimkini,
gizləndi də o, birtəhər.
– Yıxıl! – dedi, yıxılmadı bizim əsgər.
– Faşist vuran heykəl olur,
qəhrəmandı, –
deyib susdu,
heykəl kimi şax dayandı.

*1976*

# YOXA ÇIXAN
# YEDDİ YAYLIQ DASTANI

Yaylıqlar itdi bir-bir,
hardadı bəs, kim bilir?!
Bəzənibdi Gəlincik,
gizlənibdi Gəlincik.
Biri: başında örpək,
biri: əynində köynək,
biri: belində kəmər,
biri: əlində nəmər,
biri: çiynində şarfdı,
ayağında: corafdı,
saçında: lentdi yaylıq.
Tapıldı yeddi yaylıq.

## XANIMIN SƏRGİDƏ İŞTİRAKI

Xanım sərgi düzəldir,
sərgisi nə gözəldir.
Şəkil düzür: birinci –
Leonardo da Vinçi!
Sonra başqa sənətkar:
XANIM,
Tahir və Səttar! –
əsərləri yanaşı.
Təbrik etdim anaşı.

# ŞEYTAN QIZ

Yataqda qardaşıyla
qucaqlaşıb yatan qız,
yuxuda qardaşıyla
söyüşür,
ay şeytan qız!

*1968*

# AY XANIM,
# GƏL OYNAYAQ

– Xa... nım... – deyə sərçələr,
cik-cik edib höccələr.
Göyərçinlər, qumrular,
onu görsə, tanıyar.
Ala pişik xumardı,
işi-gücü tumardı.
Görsə ki, Xanım gəlir,
tez gərnəşib dikəlir.
Bığlarını yalayır,
quyruğunu bulayır.
Deyə bilmirlər ancaq:
ay Xanım, gəl oynayaq.

## “ARI” VƏ “ALI”

Mən deyirəm: Arıdı,
Xanım deyir: Alıdı
Mən deyirəm: “R” de, “R”,
Xanım deyir: “L”, “L”,
Alı – insandı, insan,
Arı da – balqayıran.
Mən deyirəm: Arıdı,
Xanım deyir: Alıdı.

## NAZİM

Nazim anasının
sözünə baxmır.
Anası Nazimin
üzünə baxmır.
Oturub divanda
başıaşağı,
yenə yerlə gedir
qaşı-qabağı.
Nazim, bir söz deyim,
sən mənə inan:
apar zibili at,
barışsın anan.

*1980*

# DÜZ GÖRÜBSƏN, ATACAN

– Ekranda gördüm səni,
sən necə?
Gördün məni?
Divanda?
Harda gördün?
Əlimdə şar da gördün?
Bəs məstan pişiyimiz?
Hardaydıq biz ikimiz?
– Gördüm səni,
hayanda?
Əlində şar, divanda,
yanında pişiyimiz,
baxırdınız ikiniz,
Nazim güldü mehriban:
– Düz görübsən, atacan.

*1980*

## YUXUDA AĞLATDILAR

Nazim getdi yatmağa,
bal yuxuya batmağa,
yuxularda qaçmağa,
nağıllarda uçmağa.
Məlikməmməd dalınca,
Qorxaq Əhməd dalınca.
Tək səfərə çıxmağa,
qılınc, qalxan taxmağa.
Cırtdan ilə görüşə,
divlər ilə döyüşə.

Oyuncaqlar gəldilər,
yuxusuna girdilər.
Dovşanın qulağı yox,
dəvənin ayağı yox.
Ayı çənəsiz gəlib,
xoruz çarəsiz gəlib.
Atın başı itdədi,
itin başı atdadı.
Kosmonavt çılpaq qalıb,
nə o, nə bu sağ qalıb.

Dovşan dedi: qulaq ver!
Dəvə dedi: ayaq ver!
Ayı dedi: çənə tap!
Xoruz dedi: çarə tap!
At başını istədi,
it başını istədi.
Kosmonavt dedi: paltar!
Hamısı dedi: qaytar!!!

Məlikməmməd eşitdi,
Qorxaq Əhməd eşitdi.
Nazimdən küsdü Cırtdan.
Divlər buynuzlu gəldi,
küsdü qılınc və qalxan.
Sonra toppuzlu gəldi,
yuxuda ağlatdılar,
Nazimi oyatdılar.

*1969*

## NƏZRİN GÖR KİM OLACAQ...

Nəzrin üç yaşındadı,
fikri dağ başındadı.
Nəzrin gör kim olacaq,
Nəzrin həkim olacaq.
Ağ xalat geyinəcək,
Nəriman babasını
görəndə deyinəcək:
dərmam iç, – deyəcək,
“Bir”, “iki”, “üç”, deyəcək,
güləcək, güldürəcək.

# HƏMİN SİNİFDƏ

Nazim içdi çayını,
yedi qoğal payını.
Bir o oldu, bir də mən,
özüm tutdum əlindən.
Çantasını götürdüm,
məktəbəcən ötürdüm.
Daha ikinci sinfə
gedirdi o bu dəfə.
Əlində təzə çiçək,
təzə bant, təzə köynək.
Tamam oldu saat bir,
gördük ki, Nazim gəlir,
Gəldi... bir söz demədi,
Nazim çörək yemədi.
Qucaqladı atası.
– Nə olubdu, qadası?
Köyrəldi o bu sözdən:
– Sinifdə qalmışam mən.
Xəbər pis xəbər oldu,
hamı birtəhər oldu.
– Bütün sinif qalıbdı,
hamı “iki” alıbdı,
– Hamı sinifdə qalmaz,
Nazim, belə şey olmaz.
– Axı həmin sinifdə
dərs keçdik bu dəfə də?!

*1972*

## AYSEL, GÜLSEL, İMAMƏT

Aysel, Gülsel, İmamət
üç bacıdı – qiyamət.
Köynəkləri – bəzəkli,
lentləri – kəpənəkli,
corabları qotazlı,
Gülsel – düyməağızlı.
İmamət – Çin gözəli,
Aysel – elin gözəli.
Qaçırlar, oynayırlar,
həyətdə qaynayırlar.

Atası dedi: gedək,
qızları çimizdirək.
Gülsel bir az ağladı,
hamını qabaqladı.
Aysel qaçdı birtəhər,
İmaməti gördülər.
– İmamət, qızım, gedək,
evdə çim-çim eyləyək.
Ayseli də aparaq,
Gülseli də aparaq,
evdə çimin, qayıdaq.
İmamət hönkürdü bərk,
– Ayseli tapın, gedək!

Aysel bağda gizlənib,
lap qıraqda gizlənib.
Guya heç kimi görmür,
Ayseli tapmaq olmur,
Tapıb aparmaq olmur.
Bibi, nənə çağırır,
ata yenə çağırır,
toyuq-cücə çağırır,
pişik, sərçə çağırır,
xoruz da quq-qulu-qu,
Aysel deyir yolboyu.
İmamət hönkürür bərk,
– Ayseli tapın, gedək!

Ayseli axtarırlar,
tapırlar, aparırlar.
Üçü verib əl-ələ,
gedirlər gülə-gülə.
Bir-birini sevirlər,
bacılar sevinirlər.
Aysel, Gülsel, İmamət
üç bacıdı – qiyamət.

*2000*

# QIZIL LƏLƏK NAĞILI

*Kalmık xalq nağılı əsasında*

Keçmişlərin birində;
yaşayıb kənd yerində
iki dost, iki qonşu:
Xoruzla Tovuzquşu.

Xoruz – bərli-bəzəkli,
Xoruz – ipək ləlәkli.
Gün çıxanda lələklər
simuzərdi, simuzər!
Gün batanda lələklər
tutulardı bir qədər.

Ay çıxanda lələklər
görünərdi təzə-tər.
Ay batanda lələklər
parıldardı bir qədər.

Lələyini görənlər,
bəzəyini görənlər
gözəl Xoruz deyərdi,
Qızıl Xoruz deyərdi.

Budaq üstdə budağı,
evə girsə, otağı,
yerdə yeri bəzərdi,
Xoruz rahat gəzərdi.
Tovuzquşu bir axşam
gəldi: – A qonşu, salam!
Ləléklərin təzə-tər,
mat qalıbdı görənlər.
Birgünlüyə ver, geyim,
yoxdu başqa bir şeyim.
Bir qonaqlıq var səhər,
getməsəm, inciyərlər.

Tanıyırsan sən məni,
çağır, geciksəm məni.
Xoruz verdi ləléyi,
verdi bəri-bəzəyi.
Tovuzquşu bəzəndi,
altdan-üstdən düzəndi.
Çıxdı çölə-çəmənə,
baxın, – dedi siz mənə!
Çəmən baxdı vuruldu,
Sular baxdı duruldu.
Yollar axdı, keç dedi,
Sular – məndən iç dedi.
Kölgə saldı budaqlar,
söyüdlər və iydələr...

Xoruz qalxdı bir səhər,
gözlədi: sabah gələr.
Çağırdı: quq-qulu-qu!..
Gəlmədi Tovuzquşu.

Xoruz qalxdı obaşdan,
sökülməmiş hələ dan.
çağırdı: quq-qulu-qu!..
gəlmədi Tovuzquşu.
Xoruz axşam düşəndə,
hay-haray saldı kəndə,
çağırdı: quq-qulu-qu!..
Gəlmədi Tovuzquşu.

Oldu pipiyi al qan,
indiyəcən o vaxtdan
xoruz hər gün üç dəfə,
səs salır hər tərəfə.
Çağırır: quq-qulu-qu!..
Gəlməyir Tovuzquşu.

*1967*

# SOLMAZ

Solmazın bir şarı var,
o şara oxşarı var.
Yeriyəndə yıxılmaz,
yıxılanda ağlamaz,
ağlayanda kiriyər,
durar yenə yeriyər.

Solmazın beşiyi var,
bir ala pişiyi var.
Pişiyin bığları var,
yastı ayaqları var.
Solmaz desə: a məstan,
miyoldar ala məstan.

Solmazın bir donu var,
üstə medalyonu var.
İstəyir gündə geysin,
görənlər tərif desin.
Yatanda da soyunmaz,
bax, belə qızdı Solmaz.

Solmazın nənəsi var,
elin ənənəsi var:
adı itirmək olmaz,
bu Solmazdı, o Solmaz.
Nəvə çatdı bir yaşa,
nənə, səni yüz yaşa.

## RUXSARƏNİN BABASI

Ruxsaradı gül balam!
ayağı yüngül balam.
Nəvəmdi – ağ çiçəyim,
qızımdı – ağbirçəyim.
Donu alabəzəkdi,
lenti qızıl ipəkdi.
Nağıl danış, dinləsin,
sonra sənə söyləsin.
Gülüşü, qəhqəhəsi,
fərəh, sevinc töhfəsi!
Evdə düşsə davası,
öpər Hafiz babası.

Deyər sən qız balasan,
hamıdan ağıllısan.
Hamıdan da mehriban,
incimə, sənə qurban.
Gülüşüb-barışarlar,
oynayıb, danışarlar.
Hafiz baba beləcə,
rahat yatar o gecə.

*05.08.03*

# HİKMƏTLİ İFADƏLƏR

## I Hissə

*“Gəl,*
*susa-susa*
*danışaq...”*

*Qadındı hər evin*
*isti nəfəsi,*
*Qadın anadırsa –*
*yoxdu əvəzi...*

Qızılgüldü, lalədi,
bənövşədi qismətin.
Qadın – möcüzəsidi,
sirridi təbiətin.

* * *

Bəxtini gözüylə
görmək istəyən
baxsın qadınına –
bəxt yanındadı!

* * *

Əsir eləsə də
gözəl qadınlar,
sevəndə
özləri əsir olurlar.

* * *

Adi sığal istəyir
bəzən qadın ürəyi.
Diqqətdi, mərhəmətdi
onun duzu-çörəyi.

* * *

Uşağa ana gərək,
kişininki – qadındı.
Yol getsən – o, qüvvətin
uçsan – o, qanadındı.

* * *

Başında tufan olsa
kişinin, –
qadın duyur.

* * *

Sən demə kişinin eşqi, həyatı
adi bir qadının əlində imiş.

* * *

Arvadın – uşağa, qıza, gəlinə,
kişinin – arvada ehtiyacı var.

* * *

Qadınsız ata da kimsəsiz qalır...

* * *

Qızlar atasının anası olur,
qadınsız qalanda ata dünyada.

* * *

Oğul-qız yanında mən təkəm evdə, –
başqadır həyatda həyat yoldaşı.

* * *

O – üzük, mən evdə üzük qaşıyam,
üzüksüz qaşın da qiyməti olmaz...

* * *

Qalxansız əsgərdi – qadınsız kişi, –
asandı döyüşdə məğlub eləmək.

* * *

Qadın məhəbbəti yoxsa, –
kişinin, –
həyatda bir yükdü yaşaması da.

* * *

Dünyada ən böyük itki qadındı...

* * *

Qadındır kişinin ər ləyaqəti.

* * *

Kişinin ən böyük mədəniyyəti, –
bəlkə də, qadına münasibətdir.

* * *

Qadınsız çətindir həyatı sevmək,
sevgisiz həyat da bir həyat deyil.

* * *

Qadında gördüyün ərkyanalığa
qəbahət söyləmə, duya bilməsən.

* * *

Sevməyi kişidən öyrənmək gərək,
əsl sədaqəti – ancaq qadından.

* * *

Qadın öz evindən əbədi köçmür,
onun nəfəsi var, ruhu var evdə.

* * *

Nə qədər ağırdı qadın yaranmaq,
qayğını gizləyib, ağrını danmaq.

* * *

Vətənsiz yaşa, qardaş,
qadınsız, yox, yaşama.

* * *

Yetim bir uşaqdı kişi qadınsız...

* * *

...dünyada tək qalıb yaşamaq olmur.

* * *

Atası yanında olan körpənin
anası heç zaman diksinə bilməz.

* * *

Eşq üstə hallanır vəfa, etibar,
könülsüz içilən şərbət acıdı.

* * *

Qadınla qürbətdə yaşamaq olar,
qadınsız Vətən də cansıxıcıdı.

* * *

...ana övladına yad ola bilməz.

* * *

Qadın özü – ər evində bir çıraqdı,
ürəyinin istisidi otaq onun.

* * *

Qadınsız ər – evdə yetim bir uşaqdı,
üzü gülür, könlü gülməz heç vaxt onun.

* * *

Ərsiz qadın kimi dünyada hələ,
nə yetim görmüşəm, nə də kimsəsiz.

* * *

Oğul gördüm, anasına biganədir,
ana gördüm – oğul üçün divanədir.

* * *

... Qadındı dünyanın ən şah əsəri.

* * *

Köynəyə adicə ütü çəkirsə,
qadın əllərinin əvəzi yoxdu.

* * *

Qadın nəfəsilə qızınan evi
od salsan, ev yanar, ev qıza bilməz.

* * *

Dünyada ananın südündən əziz,
ən halal sərvəti varmı övladın?!

* * *

Məni anam qədər başa salan kəs,
məni anam qədər duyan olmayıb.

* * *

Anadır, bəlkə də, ilk şairimiz, –
laylanın birinci müəllifidir.

* * *

Qadın ata evində
yetimdi – ərsiz olsa.

* * *

Tək qalır ərsiz qadın,
yüz qohumu olsa da.

* * *

Qadına doğmadı ər,
qardaş yaddı bir qədər.

* * *

Ləkə götürməz heç vaxt
ərli qadın dünyada, –
su kimi pakdır o da.

* * *

Bəlkə də, qadına borcludur vətən,
onun böyütdüyü oğullar üçün.

* * *

Övlada tuşlanan
zərbə, hər nədir, –
ana ürəyinə dəyir o, mütləq.

* * *

"Can" dedikcə, candan kəsib, can payladın, canım anam,
Xanım ikən, bir xanımlıq görmədin sən, xanım anam.

* * *

Günəş, elə bil ki,
qadın əlidir, –
dünyanı bəzəyib göstərir bizə...

* * *

Ən güclü qüvvəsən bu yer üzündə,
bəlkə, heç bilmirsən bunu özün də.

* * *

Qadın zəiflikdən hiyləgər olur, –
yeganə gücü var, göz yaşındadı,
yenə tufanları öz başındadı.

* * *

Ən dərin quyudu qadın qucağı,
düşdünmü, görünməz ucu-bucağı.

* * *

Bir qadın qəlbində ölüb yaşamaq,
qalıb yaşamaqdan üstündür əlbət.

* * *

Bəzən mən görmüşəm:
kişidən deyil,
qadından kişilik gözləyir zaman.

* * *

Aldadıb atmayın, günahdı qızlar,
sabahkı ən əziz anadı qızlar.

* * *

Qızların qız baxtı gözəl olsa da,
gəlinlik baxtları müəyyən olmur.

* * *

Öz ata evinə qızlar yadlaşır,
yad oğlan evinə meyl elədikcə.

* * *

Özgə ocağını qalayar qızlar,
ata ocağına qızınmır onlar.

* * *

Özgə anasına qız ana deyir,
özgə atasına qız olan qızlar.

* * *

Qızlar aldanandı, siz aldatmayın,
aldanıb yananın qanı buz qalar.

* * *

...günah kişidədi, qadında deyil.

* * *

...Oğul ana qarşısında günahkardı.

* * *

Ən böyük sirdaşdı qadın ər üçün,
ən böyük arxa da, bəlkə, qadındı.

* * *

Qadın itirəndə kişi yas tutar,
şərtdi dərd gələndə layiq olmaq da.

* * *

Ata şərəfini qoruyur, oğlum,
ana tərəfində olan oğullar.

* * *

Qadınsız bir evdə kişi hayıfdı...

* * *

Qadını nəzərdə tutmuşam ancaq
səadət deyəndə, həyatım boyu.

* * *

Gəlinlik – ağappaq badam budağı,
bir ömrün zəriflik mərhələsiymiş.

* * *

Qadın üz döndərsə, sönər məhəbbət.

* * *

Qadın xoşbəxt edər, istəsə, əlbət,
dünyada ən bədbəxt kişini belə.

* * *

Qadınsız ev soyuq olar,
donar o evdə can, qızmaz.

* * *

Qalxsam, ailədə ata qürurum,
Yıxılsam, dizimin taqəti sənsən.

* * *

Dünyadan qopanda kişinin əli,
qadın əsa olur, ona əl tutur.

* * *

Qadınsız qalanda vətən neyləsin,
vətənsiz qalanda, vətəndi qadın.

* * *

Qadınsız bir evdə, mən sonra gördüm,
"qadın" deyə-deyə yaşamaq olmur.

* * *

Arvadı itirən kişini duymaz
arvadı yanında olan kişilər.

* * *

Qadınlar müdrikdi, sözə inanmır,
kişilər nə qədər ağıl versə də.

* * *

Ay "Yeddi gözəl"ə bilet alan kəs,
evdə qədrini bil sən bir gözəlin.

* * *

Qadın möcüzədir təbiət kimi,
sirri açıldıqca,
o, sirli qalır.

* * *

Ağırdı qadını ittiham etmək,
ya daim günahı qadında görmək.

* * *

Qadın olan yerdə məhəbbət olur,
Məhəbbət olanda xoşdur əzabı.

* * *

Qadın əzabkeşdi, iztirabkeşdi.
O qəmin yanında bizimki heçdi.

* * *

Qadının birinci zərifliyi – ər!
Zəriflik itirir ər itirənlər.

* * *

Qadının birinci taleyidi ər
Bəxtini itirir ər itirənlər.

* * *

Qadının qadınlıq ləyaqəti – ər!
Qadınlıq itirir ər itirənlər.

* * *

Dul qalmaq – yetimlik nişanəsiymiş
ər – qadın ömrünün kaşanəsiymiş.

* * *

Qızın ürəyində – oğul qeyrəti
bir elin ləyaqət abidəsidi.

* * *

Bir qadın qəlbində olan məhəbbət
yüz qəlbə saçarmış öz şöləsini.

* * *

Qadın qarşısında səcdə eləmək
qadın nəzərində qalxmaqdı fəqət.

* * *

Qılıq da gərəkdi kişiyə, ancaq,
birinci növbədə – dar gündə dayaq.

* * *

...anam ağlayanda, dünyam ağlayır.

* * *

...Ana hönkürür,
torpaq hönkürür.

* * *

Sadə analardan – dahi oğullar!

* * *

İnsan anasıyla, sevdiyi qızla,
qışqıra-qışqıra danışmaz, əsla.

* * *

“Ölüm!” deyə çağırsaydın, ana, sən məni,
mən ölməzdim, – yaşadardın təzədən məni.

* * *

“Ana” çağırdığım dillər olaydı...

* * *

Əkiz bacıdırlar qadınla torpaq...

* * *

Qadın olan yerdə möcüzə nədir!

* * *

Qadınsız bir həyat həyatın deyil.

* * *

Heyranam, İlahi, mən bu xilqətə,
Həm eşqə çağırır, həm xəyanətə!

* * *

...Baş – qadın başıdı, kişi ağlı var.

* * *

...Qadın hikkəsi var, kişi zəhmi var.

* * *

Qızlar, qadınlar da istəsə əgər,
Kişidə bir gücü iki güc eylər.

* * *

Qadın fəlakəti qabaqca duyur,
alına yazılanı qadın oxuyur.

* * *

Çətindi qadının kişi yerişi...

* * *

...üz-üzə gələndə başqadır tamam,
kişi əl gözləyir, qadın ehtiram.

* * *

Qadında sədaqət, kişidə mərdlik,
birində zəriflik, birində sərtlik.

* * *

Tanınsa adidir... tez sınar qadın,
Tanınmaz olanda tanınar qadın.

* * *

Qadınlar əvvəlcə dözən olurlar,
sonra payız vurur, xəzan olurlar.

* * *

Qadına məhəbbət, anaya hörmət,
qədimdən indiyə belədir əlbət.

* * *

Qadın namusuna toxunmaq olmaz,
iti bıçaq olur o dəmdə Qafqaz.

* * *

...qadın vətəndirsə, bətni beşikdi.

* * *

Nə qədər qadın var, o qədər, demək,
Dünyaya qayğılar səpələnibdi.

* * *

Bəlkə, mən dünyanı sevirəm qəlbən,
Qadıntəbiətli olduğu üçün?!

* * *

Yalnız bir qadının təbəssümüylə
yüz ağlayan olsa, kiritmək olur.

* * *

Kişilər önündə cəbrlə deyil,
qadınlar sevəndə təslim olubdu.

* * *

Qadının sərvəti – öz bədənidir,
onu da kişiyə mükafat verir.

* * *

Qadınkən adına “kişi” dedilər,
gör nəylə fəxr etdi bizim analar.

* * *

Göz yaşı qadının öz əlindədi,
ağlayır,
elə ki, peşman olur.

* * *

Oğlanın boyunu tutur gözümüz,
ağıl axtarmağa ağlımız olmur.

* * *

Qadın mürəkkəbdi bir hikmət kimi,
bəzən ovsunlanıb sehrli qalır.

* * *

Ey qadın məhəbbəti,
Sən nitqimi bağladın.
Orda necə əl çalıb,
burda necə ağladın?

* * *

Qürurun bir söz deyir,
ürəkdə başqa maraq.
Səndəki zərifliyə,
səndəki sərtliyə bax.

* * *

Qadında qadınlıq örtülü qalar,
kişi nəfəsini duymasa qadın.

* * *

İnsanın düşməni qəmdi, kədərdi,
qadın fikir çəksə, daha betərdi.

* * *

Əslində, çürüdür qadını nisgil, –
nəm – misi, dəmiri çürüdən kimi.

* * *

Əzaba dözürlər sevda yolunda,
yalnız sədaqətə boyun əyirlər.

* * *

Özü dərk eləmir bəzən özünü,
ürəksizə deyir ürək sözünü.

* * *

Qadın iztirabsız yaşaya bilməz,
taleyi dolaşıq, özü müqəddəs!

* * *

Başqadır mənası qadın eşqinin,
xoşdur küsməsi də, barışması da.

* * *

Qadındı hər evin isti nəfəsi,
Qadın anadırsa – yoxdu əvəzi.

* * *

– Qadın – cəmiyyətin hüsnüdü. Kişinin taleyidi. Ailədə tanrı səsidi. Ədalət carçısıdı.

* * *

– ...mən anaya, qadına müqəddəs varlıq kimi baxıram.

* * *

– Qadın dəyanəti güclü olur. Mən bunu öncə anamın timsalında gördüm. Doğru sözdür, dünyanı kişilər idarə edir, kişiləri də qadınlar. Çünki onların anası da qadındı.

* * *

– ...Ailə müqəddəsdir. Qadın kişinin bəxti, taleyidir. Özünü həyat yoldaşına həsr eləməlisən. Qadın uşaq kimidir. Gərək xətrinə dəyməyəsən. Sən istəsən, qadın da səni istəyəcək.

* * *

– Doğru deyirlər, adam anadan yetim qalır.

* * *

– Qızlar ana əvəzi olurlar.

* * *

– Qadınla bir yastığa baş qoymaq özü bir vətəndaşlıqdı. Qadının dostluğu isə əvəzsizdi.

* * *

– ...Qadınlar ömürlərini kişiyə girov qoyurlar. Şair qadını olmaq əsl girovluqdu.

* * *

– Qadını olmayan kişiləri yetim hesab edirəm.

* * *

– Qadınlar dünyanın ən zərif məxluqudurlar. Həyatda qadınsız yaşamaq olmur. Mən deyərdim ki, qadın yerdəki Allahdı. Qadın olmayan yerdə yaşamaq yoxdu.

* * *

– Gəlin getdiyi evin qızı olmalıdı.

* * *

– Evdə qadın olmayanda divarlar da üşüyür. Kişinin üzünü ağ edən qadındır. O, əvəzsiz bir varlıqdı.

* * *

– Qadın həyatı üçün kişi – arxadı.

* * *

–...Qadınsızlıq fəlakət imiş. ...

* * *

– Qızlara məsləhət görürəm: “Görüşə getməyin, ürək sevməsə...”.

* * *

– Üç saf məxluq var. Bunlardan biri uşaq, biri qadın, biri şairdi. Onlar saf və inanan olduqlarına görə tez aldanırlar.

* * *

– Qadın nəinki anadı, nəinki sevgilidi, nəinki dostdu, yoldaşdı, qadın – ilhamdı.

* * *

– Evin sahibi qadındı, evin ləyaqətini qoruyan isə kişidi.

* * *

– Qadın isti yuvadı...

* * *

– Qadın – ilahi varlıqdı, həyatın gözəlliyidi, yaraşığıdı. Mən həmişə qadınlar haqqında yüksək fikirdəyəm.

* * *

***Qadınsız həyat – həyat deyil. Qadın özü həyatdı.***

*Ya heç məhəbbətin*
*yoxdur izahı,*
*ya bu izahsızın*
*budur izahı...*

* * *

Eşq də sərvətdi – könül sərvəti,
sevmək – mənasıdı bütün həyatın.

* * *

Ürəklə duyulan sözlə deyilməz.

* * *

Gözəl yoxdu dünyada,
qismət var insan üçün.

* * *

Ayrıca məntiqdi məhəbbət özü,
ürək məfhum kimi hallana bilməz.

* * *

Məhəbbət – ürəkdən ürəyə yoldu,
ürək də ürəyə möhtacdı, gülüm.

* * *

Məncə, iztirabın
Özü – həyatdı,
eşqsiz bir həyat –
cəfəngiyyatdı.

* * *

Məhəbbət dünyada yetim qalarsa,
Bir qəlbin ağrısı bir əsrə bəsdi.

* * *

İstər as özünü, öldür özünü,
Ürək bəyənsə də, göz seçir, həkim.

* * *

Hələ evlənmək də,
ailə deyil, –
qalın kitablarda ön sözə bənzər.

* * *

Düzdür ki, həyatda yalandır ad-san,
bir eşqə möhtacdı, məncə, hər insan.

* * *

Sən bütün dünyaya dəyərsən, inan,
dünya yaşamağa dəyər, nə yaxşı!

* * *

Mənə məndən yaxın ikən, necə uzaqsan?!

* * *

İlk eşqin, ilk andın, ilk məhəbbətin
Oduna yanmaq da, bil, yaşamaqdı!

* * *

Məhəbbət olanda –
ağlımız olmur.
Ağıl olanda da –
məhəbbət özü.

* * *

Əsirlikdə sevmək özü
azadlığa bərabərdi.

* * *

Bir qəriblik kölgəsi var
sevənlərin gözlərində.

* * *

Məhəbbət – qisasla həmrəy olanda,
gərdəkdən səngərə bir addım imiş.

* * *

Məhəbbətin, sədaqətin yoxmuş ölçüsü...

* * *

Deyin, ictimai dəyəri olan
hiss varmı dünyada
məhəbbət qədər?!

* * *

...aşiqsiz dünyada məşuq nə lazım...

* * *

Səadət hər kəsin öz əlindəsə,
Bizim çəkdiyimiz iztirab nədir?!

* * *

Gözün tutduğuna
ağıl yox deyir,
ağıl dediyini
göz bəyənməyir.

* * *

Həyatda məhəbbət bəsləyən də var,
Məhəbbət sözünü
əzbərləyən də.

* * *

Özüm odlara yandım,
Adım bəxtəvər oldu.

* * *

Həyatda yenidən yaşamaq olar,
itən səadəti tapmaq olarmı?

* * *

Məhəbbət, bəlkə də, Tanrı səsidi,
ülfətə çağırır pak insanları.

* * *

Məhəbbət, sədaqət olmayan yerdə
uzaqdır bir addım məsafə belə.

* * *

– Mən sənsiz ölərəm! – demişdim sənə, –
hamısı yalanmış, yaşadım sənsiz.

* * *

Yenə səsin gəldi qulaqlarıma,
Həyata, dünyaya minnətdaram mən.
Sən ordan pıçılda, eşidim səni,
Özgəsi çağırsa, ona karam mən.

* * *

De, nədir səadət həyatda, gülüm,
Bir könül xoşluğu, bir az təbəssüm.

* * *

Dünyanı sən mənə, sən bağışladın...

* * *

...həyat – məhəbbətdədir.

* * *

Qız mənə gül verdi,
könül yerinə,
mən könül istədim
o gül yerinə.

* * *

Niyə ömür sualdı,
soruşmursan heç nədən?!
Bir gözəli seçirlər
yüz gözəlin içindən.

* * *

Qələm olsam, varağım ol,
susuz olsam, bulağım ol.
Sən evim ol, otağım ol,
mən yanan çırağın olum.

* * *

Deyilənlər düz imiş, –
dilin tərcüməçisi
indi bildim – göz imiş.

* * *

Qoşa hacıleylək yuvası olur,
heç qaranquşu da tək qoymur həyat.

* * *

Xoşbəxtlik axtarmışıq
xoşbəxt ola-ola biz...

* * *

Gərək ya düşməyəydi
bu görüş heç araya,
Ya sən əvvəl gələydin,
ya mən sonra, dünyaya.

* * *

Sevən adam el içində qəribdi...

* * *

Bir qapıda qıfıl itib, sən açarsan,
bir qapıda mən qıfılam, açar yoxdu.

* * *

Səadət tamda deyil,
Bəlkə, bu, yarıdadı?!

* * *

Qışın buz nəfəsi üşüdə bilməz
bir qəlbin oduna qızınan kəsi.

* * *

Məhəbbət – bəşəri,
nifrət – bəşəri...

* * *

...vermə öz əlindən bir ələ məni,
Tale əzizləsin qoy hələ məni.

* * *

Ağırdı gözündə gördüyüm sual,
dilinlə desəydin, yüngül olardı.

* * *

Sənin nəvazişin mənasız deyil, –
O çatır dadıma xilaskar kimi.

* * *

Biz nə ayrılırıq, nə birləşirik,
ünümüz çatmayır bir yana, gülüm.

* * *

Sığal çəksən, çal saçlarım qaralar,
cavanlaşıb həmyaşına dönərdim.

* * *

Susmaq istəyirəm, "din" deyir yaşım,
dinmək istəyirəm, "sus" deyir könül.

* * *

Ayrılıq qəm verir, görüş səadət.

* * *

Sənlə – əsl insanam,
sənsiz – soyuq bir bədən.

* * *

Çətindi tutduğum yol,
Sən ol yanımda, sən ol!

* * *

Mənim sevincimi apardın ona,
Bəlkə də, ona heç bu gərək deyil.

* * *

Mənim sən verdiyin bir təsəlliyə.
Sən dediyin sözə ehtiyacım var.

* * *

Yüz təqib eləsin qoy məni zülmət,
sən varsan dünyada, dünya işıqdı.

* * *

Birimiz kitabın ilk səhifəsi,
Birimiz sonuncu səhifəsiyik.

* * *

Gözümün önündə itdin sən, düzü,
axırda görmədim, görüşəndə də.

* * *

Qucağımda sən yatırsan bu saat,
ürəyimdə başqası var, oyaqdı.

* * *

Doxsanı da keçir bir ömür yaşı,
Məhəbbət qocalmır yenə dünyada.

* * *

Doğrusu, dünyada mən inanmıram,
kimsə kimin olsun bütünlük ilə.

* * *

Əvvəl arzularla qızınan qəlbi
sonra xatirələr üşüdür, heyhat.

* * *

Gərək gözəlin də büstü qoyulsun,
hüsn də hünərlə yanaşı dursun.

* * *

Məncə, hansı rəssamınsa əsəri sənsən,
sən yeganə şəkilsən ki, öz nəfəsin var.

* * *

Mənim nigahımı pozdu təbiət...

* * *

Məhəbbətdi ruhumuzun mayası,
odu sönmür nə əllidə, nə yüzdə.

* * *

Kaş dünyaya mən təzədən gələydim,
Kaş Allahım mənə səni verəydi...

* * *

Tək yaşamaq azadlığı – ölümdü,
cüt yaşamaq qəfəsini verəydi...

* * *

...bu görüş ilk eşqə son hörmət idi.

* * *

...sənsiz yaşasam da, ömür sürmədim...

* * *

Sənsiz adiləşdim, nağıllaşmadım,
sənsiz həyat nədir, heç baş açmadım.

* * *

Mənə “can” deyirsən, canın ondadı,
kimə həsr elədin canını, canım?!

* * *

Səndə bir yuva qurdum,
səndə bir ünvanım var.

* * *

...həyatın özü ol məndən ötəri.

* * *

Mənmi səni, sənmi məni tapıbsan?
tapdığını saxla barı, itirmə.

* * *

Sevən adam el içində qəribdi,
necə desin qərib sənə sirr sözü?

* * *

Yaşayır dünyada bir ilk məhəbbət,
Atalı-analı yetimlər kimi.

* * *

Demirəm, heç kəsin yoxdu xəbəri,
sevirəm, heç kəsin ağlına gəlmir.

* * *

Ürək yaş artdıqca sevir dünyanı,
ürək mənimkidi, yaş mənim deyil.

* * *

Mənə iztirab ver... çəkə bilərəm,
hissiz yaşamağa qıyma sən məni.

* * *

...yanında darıxdım səndən ötəri....

* * *

Tanrım, ya daş eylə divarda qalaq,
Ya bizi quş eylə, yanına qalxaq.

* * *

Hüsnün qarşısında ağıl neyləsin,
cavan tab gətirmir, ahıl neyləsin?

* * *

Mən təkəm səndən ayrı,
dünya da təkdi sənsiz.

* * *

Eşq, məhəbbət olan yerdə
yaş yox imiş,
fərq yox imiş,
dərd var imiş –
indi bildim.

* * *

Gözümün gözünə dediklərini
üzünə deməyə üzüm gəlməyir.

* * *

Demə daşdı, Nərimana,
yaşdı, qadasın aldığım.

* * *

Sevəndə görmədim cəsarət olsun,
“sevirəm” sözünü deməkdən ötrü.

* * *

Kişilər ağlamazlar,
kimsə deyib bir zaman;
Məhrum olub o yazıq,
məhəbbət duyğusundan.

* * *

Birinci hədiyyəm – nişan üzüyü,
sonuncu hədiyyəm – bu başdaşıydı...

* * *

...sən mənim dünyamsan, dünyama qayıt.

* * *

Sən yerin altında, mən yerin üstə, –
biz ayrı düşmüşük kök-budaq kimi.

* * *

Darıxanda həyanımız, a laylay,
ayrı düşən ünvanımız, a laylay...

* * *

Bir qadın əvvəlcə onu sevməyi,
sonra da ağlamaq öyrətdi mənə.

* * *

...evlə, ailəylə zarafat olmaz.

* * *

Sevənlər həmişə istedadlıdı,
yalnız sevməyənlər bizə dərd verir.

* * *

Eşqin ağrısı var, sevənə verin,
dözər ağrısına... xoş olar ona.

* * *

Eşqin acısı var, sevənə verin,
içər şərbət kimi... nuş olar ona.

* * *

İlahi, bu varlığın
yox özündən xəbəri,
Məndən şeir istəyir
təbiətin əsəri.

* * *

Həyat – həyatda deyil, –
sənin gözlərindədi.

* * *

...sənsən sağ canımda ağrıyan yerim.

* * *

Hamı bu dünyada qocalacaqdı,
amma tək qocalmaq dərd verir hərdən.

* * *

...qayıt, öz gözümdə itirəm sənsiz...

* * *

Susmağın qulağı batırır sənin...

* * *

...iztirab həyatda ömrün mənası,
Xoşbəxtlik ötəri bir əyləncədir.

* * *

...öz oduna yanan qızmaz.

* * *

Şərtdimi hamı "can" desin,
Bir can "can" desə, bəs eylər.

* * *

...dərdi gözündən oxuyan
o dərdi bölsə, bəs eylər.

* * *

...Səni görməliyəm yaşamaq üçün.

* * *

Sənin gözlərində qəm çiçəkləyib,
mənim ürəyimdə o qəmə hörmət.

* * *

Xoşbəxt olmaq ilə – arzuya çatmaq,
mən sizi bilmirəm, məncə, bir deyil.
Bu da sirr deyil.

* * *

Görüşə getməyin ürək sevməsə...

* * *

Gözlərin nə deyir, başa düşürəm,
niyə çaşdırırsan dilinlə məni.

* * *

Məhəbbət! Nə deyim bu ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir.

* * *

...Tək təkin yanına gəlsə, sevinər.

* * *

Deyirlər cəhənnəmi,
cənnəti var aləmin.
Bu – sənsiz və səninlə! –
kimi bir şeydi, yəqin...

* * *

Sinəm doludur, inan, –
yazdığımı yox, gülüm,
yaza bilmədiyimi
oxu bu yazılardan.

* * *

...bir az qəlizdi,
ürəklə oynamaq, gözlə zarafat.

* * *

Mən öz ürəyimdə gətirdim səni,
Mən sənin yanında itirdim səni.

* * *

Məhəbbəti satın alır pul verən
məhəbbətə can verənin əlindən.

* * *

Mən indi bildim ki,
bir eşqdi dünya.
Yalandı, nə varsa,
hamısı yalan.

* * *

Bu dərdin qışqırığı pıçıltıdı...

* * *

...əsir etdiyimə özüm əsirəm.

* * *

...könülsüz içilən şərbət acıdı.

* * *

Bahar gələr,
çiçəklərlə yazar səni.
Payız gələr,
küləklərlə pozar səni.

* * *

Dünya – bir yuxudu, ömür – bir ahdı,
Məcnun ağlayırsa, demə – günahdı.
Səadət istəyir o da Leylidən,
eşqsiz can nədir? –
soyuq bir bədən.

* * *

Ya heç məhəbbətin yoxdur izahı,
ya bu izahsızın budur izahı...

* * *

– Məhəbbət mənim üçün əbədi olaraq, həyatın özü deməkdir. Məhəbbətsiz adam ... Vətənsizdi.

– Məncə, seviləndən daha çox sevən xoşbəxtdi.

– İlk məhəbbət həm də son məhəbbətdi.

– Məhəbbət birdir, iki-üç ola bilməz.

– Hər şey dəyişir, amma məhəbbət qalır.

– Məhəbbət ölmür. Sevdiyin ölür...

– Məncə, xəstəni sevgi ilə müalicə etmək olar, hətta infarktı da...

– Məhəbbət hələ tərifini almamış anlayışlardandı.

– Məhəbbət mövzusu əbədidir mənim üçün. Qadına məhəbbət isə tamam başqadı...

– Sevgi, məhəbbət olmasa, necə övlad, vətəndaş, dost, yoldaş olmaq olar? Qadına, ailəyə də sevgi yoxdursa, o həyat mənasızdır.

Məhəbbət olmasa, cəmiyyət çürüyər. O da var ki zorla sevmək olmaz. Sevgi istedaddır. Allah vergisidi.

– Məncə, sevən adam adamların ən zənginidi...

* * *

"Hər yaşın öz gəncliyi varmış. Hər yaşda insan sevə bilərmiş..."

* * *

"Birinin məhəbbəti, o birinin iztirabı oldu".

* * *

"...hər kim sevirsə, dünyada ən mədəni adamdı. Kitablardan, müəllimlərdən daha çox məhəbbət adama mədəniyyət öyrədir. Məhəbbət adamı məcbur eləyir ki, o, hamıdan yaxşı olsun, üstün olsun, mədəni olsun".

* * *

"Sevmək – sağlamlıqdı".

* * *

"Gəl, susa-susa danışaq...".

*İşığı verdin ki, ey ulu Rəbbim,*
*özümlə qürbətdə mən nur gəzdirim...*

# II Hissə

***"Ömür – yarı sual,***
***yarı imtahan..."***

*Dünyanı əyləncə hesab*
*edənlər,*
*Əylənib baxsınlar bir an*
*dünyaya...*

* * *

Elə qurban olum, el saxlayandı,
Yıxılsan, əlindən tez tutar sənin.
Təkləyib əysələr – qucaqlayandı,
saymasan – el özü unudar səni.

* * *

Qoy daşa bassınlar, o daş arxadı,
zirvənin himnini tufanlar deyir.
Qartal ildırımla əlbəyaxadı,
Yerdə – çəyirtkəni sərçələr yeyir.

* * *

Darda kömək, –
insanın öz inamıdır.

* * *

...O qədər dandılar ki,
axırda gerçək oldum.

* * *

Bu necə hikmətdi, – dünyada qalan
dünyadan gedənin hüzurundadı.

* * *

Yaxşılığın başa qaxmaq üçündüsə,
ya qaşqabaq üçündüsə,
eləmə heç.

* * *

Məsləhətin, ya diləyin
yada salmaq üçündüsə,
diləmə heç.

* * *

Bir xoş sözün sonra minnət üçündüsə,
söz demə heç.
Ya xoş üzün başqa niyyət üçündüsə,
göstərmə heç.

* * *

Bir qəlbin şüşəsini
qırmağa tələsməyin,
bir gülüşü yanaqda,
bir söhbəti dodaqda,
bir yerişi ayaqda
heç yarımçıq kəsməyin.

* * *

Mən bal yedim dadı zəhər,
Gülüş gördüm yarı qəhər.
Mən yas gördüm, gülürdülər,
Mən toy gördüm yas qarışıq.

* * *

Dünyanın heç kəsi yoxdu,
heç kəsə məhrəm olmayıb.

* * *

Daş daşa söykənsə, daş divar olar,
daş şikəst eləyər ayağa düşsə.

* * *

Yol getsən, yol uzaq, dünya dar olar,
keçinin axsağı qabağa düşsə.

* * *

Bu ayrılıq, ayrılıqdı,
istər belə, istər elə.
Nəfəs özü bir qonaqdı,
gələr belə, gedər elə.

* * *

Dalğalar sahilə can atır müdam,
dalğanın biri də sahildə qalmır.

* * *

Pisləri hər yerdə tərifləyirlər,
yaxşılar tərifsiz yaxşıdır elə.

* * *

...Amma bu çarx ki var – əvəz-əvəzdi,
yıxanlar yıxılır o mərtəbədən.

* * *

Bu dünyanın sərt üzünə baxma fərəhsiz,
şimşəklərlə əlbəyaxa gül açdı nərgiz.

* * *

Anasız uşağa bir şillə vurub,
Ağlamaq öyrətmək gecdi, a zalım!

* * *

Özü oyananda, yatıb taleyi...

* * *

Əltutan olsaydı əgər insanlar,
Peyğəmbər yetişər, Nizami olar...

* * *

Hər torpaq dünyada məmləkət olmur,
parça var – yaşayır bayraq olanda.

* * *

Çətindir keçilən ömür yolları,
Yaşamaq özü də istəyir hünər.

* * *

Məni bayraq kimi tutun yuxarı,
sizə lazım olsam... o parça qədər.

* * *

Şirin nəğmələri oxuyan bir dil
acı həqiqətlər söyləyə bilər.

* * *

Tərif eşitdiyin insandan bəzən
hazır ol, yüz təhqir eşitməyə də.

* * *

Həkimlər ilanın düşməni, ancaq
ilan tibb elminə emblem olub.

* * *

Müəllim həyatda tələbəsini,
ana övladını qoy aldatmasın.

* * *

Bəlkə də, qüsuru bağışlamamaq
bağışlamaq qədər hünər istəyir?

* * *

Sözünü kəssələr, sən ona öyrəş,
Çalış, uyğunlaşma amma heç nəyə.

* * *

Bu tale kaş elə
hamının qisməti olaydı, –
gül açıb sonradan solaydıq.

* * *

Yoldaş yolda sınanır,
Qardaş yolda sınanır.
Övlad harda, görəsən?

* * *

Başqadır həyatda duyub yaşamaq,
ürək sevindikcə, insan yüksəlir.

* * *

İnanma, bir azca gözlə, – desələr,
inamı puç olub gözləyənlərin.

* * *

Mən uduzdum bağışlaya-bağışlaya,
sən uduzma...
(Dəvə, susma.)

* * *

Çəkidə yüngüldü, bəlkə də, almaz,
torpağın varıdı, yerin qiyməti.

* * *

Amma ucada dur sən öz boyundan,
şəxsiyyət olmasa,
boy da görünməz.

* * *

İnanma, desələr, boy əsas deyil,
kola-kol deyiblər, çinar çinardı!

* * *

Arxadan vurulur, arxasız olsa,
Cismani boylar yox, mənəvi boylar.

* * *

Düşmənin rastına özü çıxacaq,
Dostdan özün öyrən xəbər-ətəri.

* * *

Ən ağır cəzanı çəkməli olur
Özünü xalqına həsr eləyən kəs.

* * *

Qızdırmaz əlini hər alışan köz,
içməli deyildir hər şəffaf bulaq.

* * *

...Bəli, aldanmaqdı bəzən inanmaq.
Amma inamı da itirmə heç vaxt,
daha dəhşətlidi, şübhəli qalmaq.

* * *

Səs-küylə özünə əl çaldıranlar
Səssiz-küysüz çıxır sonra səhnədən.

* * *

Təbiət hər dərdi çəkənə verər,
bədbəxtlik – ağlayıb, yaş tökəndədi.

* * *

Dərdin yiyəsi var – bu dərd ha deyil,
dərddi ki,
dərdlinin yoxdu yiyəsi.

* * *

Bu qədər qürurlu olmazdı pələng,
O da pişik kimi miyoldasaydı.

* * *

Həqiqət böhtanla gəlir üz-üzə,
Qışqıran BÖHTANDI, susan HƏQİQƏT.

* * *

Təbiət gücsüzdü, hakim köməksiz,
kimin ki yaşamaq həvəsi yoxdu.

* * *

Ömür – imtahandı, danış, ya kəsil,
həyatın heç kəslə qərəzi yoxdu.

* * *

Dünyaya gələnə dünya dar deyil,
dünyadan gedənə günahkar deyil.

* * *

İnsandan savayı dünyada heç nə,
heç nə heyf olmur, heç nə, əzizim

* * *

Torpağa əliylə basdırdığını
həyatda gözüylə axtarır insan.

* * *

Gözləyə-gözləyə qalıbdı bəzən
axtara-axtara yoxa çıxanlar.

* * *

Növbəyə dururuq yaş hesabıyla
onu da hər dəfə pozur təbiət.

* * *

...heyf, ümid ayrı, həyat ayrıdı.

* * *

İli yox, həyatda insan ömrünün
anı da tarixi bir hadisəymiş.

* * *

İnsan dahi olar insan yanında,
dahi adiləşər nadan yanında.

* * *

Bir gəncin taleyi alt-üst olursa,
ağırdı, dağılan ailə qədər.

* * *

...təəssüf – ikinci məğlubiyyətdi.

* * *

Yadın evi soyuq olar,
ocağı var, közü yoxdu.

* * *

Sözü sükutla da anlamaq olar,–
təki söz söz olsun, sükut da sükut.

* * *

Sirri çoxdu bu dünyanın,
vay halına qul olanın.

* * *

Biri gülər, biri ağlar,
bu yazıya pozu yoxdu.

* * *

Qızıl balıq kimi üzür tərsinə,
ürəyi salıblar tora içimdə.

* * *

Dərinə bənzəyir bulanıq sular,
duru su dərindi, dayaz görünür.

* * *

Zarafat eləmə sən bu həyatla...

* * *

Ehtiyat elədim orda ki, bir vaxt,
Cəsarət hər şeyə, məncə, dəyərdi.
Cəsarət göstərdim orda ki, ancaq,
Adi bir ehtiyat bəs eləyərdi.

* * *

Həkimlər bir dəfə yanılır ancaq, –
xalatı kəfənlə əvəz edəndə!

* * *

Bəxti yıxılıbdı kölgəsi kimi,
özü ayaq üstə qalxmaq istəyir.

* * *

Dibçəkdə bəslənən palıdlara yox,
çöldə – ağaclara meşə deyiblər.

* * *

İnsanı həyata qaytarmaq qədər
insanda güc varsa... səadət budur.

* * *

Haqqı tələb eləmək,
Həqiqəti diləmək, silkələmək, ələmək! –
budur əsl həqiqət.

* * *

Yalandı xahiş-filan.
Ya müti ol, ya insan.

* * *

Duyğusuz yanında can qoymaq – hədər...

* * *

İnsan
adicə bir sözlə alışar,
nə bir su söndürər, nə külək onu.

* * *

Ən böyük rəqibin qabaqdadır: yaş!

* * *

...bədən bərk olanda qan olur beyin,
Beyin bərkidikcə bədən kövrəlir...

* * *

Qədri bilinsəydi deyilən sözün,
qədir sahibiydi indi cəmiyyət...

* * *

Niyə belədi, ustad, –
təhqir olur yaradan.
Xoşbəxt sənət yolunda
gərək bədbəxt olasan?

* * *

Dərdsizə dərd desən,
gülüb lağ eylər, dərd verib
həyatı öyrədər sənə.

* * *

Kimsə quyu qazıb düşdü quyuya,
zaman hakim kimi
cəza kəsənmiş.

* * *

Biri son mənzilə gedir bu axşam,
yüzü qayıtmağa gedir hələ ki.

* * *

Bədbəxt o kəsə ki, ikidillidi,
Heyf o kəsə ki, – pis dilə düşüb.

* * *

Gözümüz ən yaxşı sənətşünasdı,
gözdü ən uğurlu tərcüməçim də.

* * *

Utansın şöhrəti ucuz alanlar.

* * *

Dahilər xalqa verdi bütün istedadını.
Adilər xalqdan aldı
şöhrətini, adını.

* * *

...insanam, insana cavabdehəm mən.

* * *

Zəriflik yaşayır, kobudluq ölür,
yaşamaq öyrədir təbiət bizə.

* * *

Gözəlliyi, saflığı,
hüsnü təbiət verir.
Amansızdı təbiət –
elə ki, qiymət verir.

* * *

Dostu başa keçir, ayağa sən düş.

* * *

Təqib olunanlar heykəlləşirlər,
Ölümlə üz-üzə yaranır sənət.

* * *

Səni danlayıram sənin xətrinə,
yandıran deyiləm, yananam, oğul.

* * *

Nadan can bəsləyir, aqil can verir...

* * *

Yox, adı can üçün yox,
canı gərək ad üçün
girov qoyasan hər gün.

* * *

Hələ görməmişəm, kölə adamdan
ya qəhrəman çıxa, ya bir vətəndaş.

* * *

Yarpağı gün döyər, meyvəni külək,
bağban uzaq düşsə bir bağdan ayrı.

* * *

Bu dünya sirrini öyrən, gör nədir!
Niyə hər addımda bir imtahan var?
Niyə novruzgülü qar altda bitir?
Niyə qızılgülün üstdə tikan var?

* * *

Dərk edirəm deyə-deyə,
dərkolunmaz qalıb insan.

* * *

...tələsmə, tələsən arxada qalır.

* * *

Ürək sındı, calaq tutmur sonradan...

* * *

...danlayanım çoxdu,
anlayanım yox.

* * *

Qızıl inək istəyənə
tale qısır öküz verdi.

* * *

...basılıb o kəs ki qoçağam deyib.

* * *

...ocağın bir oda ehtiyacı var.

* * *

Bu dünya bizimlə əl-ələ verdi,
dünya aldadırmış ikimizi də.

* * *

Gərək böyük olasan
böyüyü görmək üçün.

* * *

Yaxşılıq əkirsən, lovğalıq bitir,
lovğalıq yaşayır, yaxşılıq itir.

* * *

Bal kimi şirin ol, həyatda, amma,
çalış ki, bal kimi yapışqan olma.

* * *

Çöllərdə qanqal da yazda gül açır,
amma nə ruh verir, nə könül açır.

* * *

Göz nəyi görürsə, onu da deyir,
qulağa inanma –
eşitdiyidir.

* * *

Yalandı –
daima tərif eşitmək,
yalandı –
daima pislənmək qədər.

* * *

Piyada qalxmışam mərtəbələri,
liftlə qalxanları görə-görə mən.

* * *

Bəlkə də,
ipəkdən zərifliyi, biz
poladdan
sərtliyi öyrənməliyik...

* * *

...naşı əl hörüyə daş düzə bilməz.

* * *

Atı əldən gedib, yəhər istəyir.

* * *

...Hər əkilən yerdən bağça-bağ olmur.

* * *

Zirvənin mənzili birbaşa deyil.

* * *

Sağlamlıq, gözəllik ləyaqətini
alır əlimizdən yaş soruşmadan.

* * *

...hər cür xəbisin
qalib gəlməsi də – məğlubiyyətdi.

* * *

Ölsə də, yaşayır yenə dahilər,
xainlər ölüdür sağlığında da.

* * *

Bəlkə də, yalana möhtacdı insan,
(o sanki hardasa bir dayaq olur.)

* * *

Müəllim – zamandı,
tələbə – insan,
hardasa ya kəsir, ya qiymət verir.

* * *

Görünür,
hələ bəzən –
Hünər istəyir, hünər,
başa sığal çəkmək də
fikir söyləmək qədər.

* * *

Adi görünürük bəzən özümüz
təsadüf deyilən
bir sözə qədər...

* * *

Ayaqlar altında tapdanan torpaq
Yüyürmək istəsən, güc verər sənə.

* * *

...bəzən qələbə var – məğlubiyyətdi.

* * *

Yıxılan bərkiyir, unutma bunu,
uçurum – ehtiyat öyrədir ancaq...

* * *

Çətindi birinci addımı atmaq,
çətindi – məsafə qət eləməkdən.

* * *

Kişi ər olsun gərək.

* * *

Tələsmək olmasa, tərəqqi olmaz,
tərəqqi olmasa, ucalmaz insan.

* * *

...mən sudan quruya, o, tora düşdü.

* * *

Bulağın gözünü bulandırdılar,
gördük su üstünü, su altı qaldı.

* * *

Şübhə nəm kimidi, düşsə çürüdər,
ya dəmir ağacı, ya dəmir olsun.

* * *

Uşaqsız bir otaq, bir ev dünyada
boşdur, o nə qədər zəngin olsa da.

* * *

Yerində susmağı bacarmaq özü,
sonradan gördüm ki, ləyaqət imiş.

* * *

Təəssüf insani bir keyfiyyətdi.

* * *

Ömür müvəqqətidir, –
deyincə
vaxtın bitir.

* * *

Qəm də ləyaqətdi, qoru sən onu
sevinc – gözəlliksə, qəm – ülviyyətdi.

* * *

Həyat – zəhər olur insana bəzən,
zəhər həyat imiş... bu, qəribədir.

* * *

Soruşdum dünyada kim var,
dedilər ölüm-itim var.

* * *

Dünya elədir ki, biri tapırsa,
biri... təbiidir, itirməlidir.

* * *

Vaxt gələni gətirir,
Vaxt gedəni ötürür.

* * *

Sevincin nə tərcüməsi,
... ya dərdin nə tərcüməsi!

* * *

Ayrılıq var, bir də ölüm! –
biri həsrət, biri zülm.

* * *

Bu dünya nərdivandı, –
qalxanda mehribandı,
enəndə nə yamandı...

* * *

Dünyanı əyləncə hesab edənlər,
Əylənib baxsınlar bir an dünyaya...

*"...bu dünya fəlsəfədi, –*
*məntiqi dərk edilməz,*
*sirrini kimsə bilməz".*

* * *

Sözü biz qılıncla deyirik, ancaq
söz də qılıncımız olacaq bir vaxt.

* * *

Düşmənin namərdi min hiylə qurur,
dostun namərdi də arxadan vurur.

* * *

Öz böyük oğlunu itirirsə xalq, –
özü başsız qalır hər şeydən qabaq.

* * *

Cır tutla xar tutun peyvəndi tutmaz,
qartal yuvasından qarğa uçurtmaz.

* * *

Ürəyə şər gəlsə, xeyirə yozmaq
özü də insana bir təsəllidi.

* * *

...İnsan öz nəfsinin qurbanı olur.

* * *

Güc ürəkdə olur biləkdən qabaq,
Şərtdi, biləkdən yox, ürəkdən vurmaq.

* * *

Deyirlər, şirəyə milçək yığılar,
İnsanın milçəyi daha pis olar.

* * *

Bəlkə, ömür üçün kifayət edər,
amma arzu üçün dardı yerimiz.

* * *

Təkrar ola-ola dəyişirik biz,
dəyişə-dəyişə təkrar oluruq.

* * *

Dil də danışmasa, ürəkdən keçən
gah gözdə oxunur, gah qaşda, dostum.

* * *

Ürək öz meylini ürəyə salır,
Ömür azaldıqca, arzu çoxalır.

* * *

Yaş yüzü adlayır, keçir yüz birə,
Ürək cavan qalır hər yaşda, dostum.

* * *

Böyüklük nədənsə yaşla ölçülür,
uşaqlıq hər yaşda yaşayır axı.

* * *

...ölməyi bacarmaq da
hünər istəyir, oğlum.

* * *

İnsana ən yaxın planet – insan,
odur planetin ən uzağı da.

* * *

Yazılan hər yazı, deyilən hər söz
Hələ yazı deyil, hələ söz deyil.

* * *

...quru bir səsdirsə vətənsiz şair,
şairsiz bir vətən şöhrətsiz imiş.

* * *

Hər yaş bir ömürdü... uzun, ya qısa...

* * *

Kiminsə dünyada yerüstü ömrü,
kiminsə yeraltı həyatı vardır.

* * *

Deməyin, yer üstdə bu qədər azıq,
Yox, hələ yer altı hesablanmayıb!

* * *

Biranlıq həyata heyf deyildi,
yüzillik bir ömrə bəzən... təəssüf.

* * *

Dünyada bir təmiz ad,
dünyada bir sağlam can...
Yox, ikisi bir yerdə
çətin olur, doğrudan...

* * *

Mənəm ən müqəddəs, mənəm ən təmiz,
mənəm.., günahkar da mənəm, şübhəsiz.

* * *

Böyük var, kiçikmiş... siz demədiniz,
kiçik var, daha da kiçiltmək gərək.

* * *

...təkcə görüş üçün deyil əl ancaq.
Əl bəzən ətəkdən yapışmaq üçün,
bəzən yumruq üçün gərək olacaq.

* * *

Dost adlı düşmənlər ola bilərmiş,
düşmən adlı dostlar olduğu kimi.

* * *

Dost kimi görünmək iki tərəfə,
iki tərəfə də düşmənlik imiş...

* * *

Rəhm eləmək acizlikdi, həm də pislik.
Cəza vermək – bu da başqa bir acizlik!

* * *

Bəlkə, ən mürəkkəb incəsənətin
əsası ən sadə riyaziyyatdır.

* * *

Kitablar aləmi – ruhi dünyamız!

* * *

...kitabmış dünyada ən dərin ümman.

* * *

Mən elm öyrəndikcə
susmaq öyrəndim...

* * *

Yüz il yaşayıblar... axırda ancaq
həmişə yarımçıq bir gün olubdu.

* * *

Dünən ağaclara bəzək yarpaqlar,
indi budaqlara yaraşmayır heç.

* * *

Deyirlər, kamala yetdikcə insan
şirin acı olur, acılar şirin.

* * *

Niyə könlün gözü doyur dünyadan,
niyə gözün könlü ac qalır, görən?

* * *

Hər şey öz vaxtında dəyişəydi kaş,
hər şey...
təbiətdə olduğu kimi.

* * *

Yanından kim keçsə, ətri məst edər,
arıya bal verir, ilana zəhər.

* * *

Bir dost süfrəsinin yavan çörəyi
Artıqdı ətirli yad xörəyindən.

* * *

Qəzəblə qışqıran şair ürəyi
Zərifdi ən zərif qız ürəyindən.

* * *

Hər nöqtəm bir damcı alın tərimdi.

* * *

Dostum, açmaq üçün başqa bir gözü,
Bəzən kor olmaq da lazım gələcək...

* * *

Min qəlbi oyatdı bir qəlb harayı....

* * *

...Duman dağsız, dağ dumansız olurmu?

* * *

Elindən, günündən ayrılan kəsin
Gözündə yaş olar, ürəyində qəm.

* * *

Onun sözü çox idi,
Onun səsi yox idi.

* * *

Nə ola, bir ömür iki olaydı,
Dünyaya gələydim, köçəydim bir də...

* * *

Uzaq üçün yaxına bax,
yaxın üçün uzağa bax!

* * *

Duyan kəs səssiz də gərək eşitsin.

* * *

Sıxılma, qulağın eşitməsə də,
Ürəyində oxu, ürək eşitsin.

* * *

Bu budaqdan o budağa sərçə uçsa da,
Qəfəsdə də o qartala həsəd çəkirdi.

* * *

Çayın içindədi kökü söyüdün,
Bəs niyə sulardan gözü doymayır?

* * *

Bülbül uçub gedir gül budağından,
Demir ki, yuvamı uçurum gedim.

* * *

Təki qədəh sınsın, ürək sınmasın.

* * *

Qoy sıxmasın səni kədər,
Dağ başında qar görünər.

* * *

Sənətkar əlində sadə bir mala
Yöndəmsiz daşa da yaraşıq verir.

* * *

O qədər qorxmuşam ki,
Xeyir demə, şər gəlir.

* * *

Niyə ölüm xəbəri
ölümdən betər gəlir?!

* * *

Dünyada yaşadıqca,
Dünya birtəhər gəlir.

* * *

Gözün yola dikilir,
at gedir, yəhər gəlir.

* * *

Əsrin övladıdır əsl sənətkar.

* * *

Dost yasa batanda, düşmən şad oldu.

* * *

Elə ki ağardı saçı-saqqalı,
atanın övlada ehtiyacı var.

* * *

Qulağın bir səsə, gözün bir üzə,
ağızın bir dada ehtiyacı var.

* * *

Bir ad çağırışdı bəzən həyata,
ən böyük nemətdir sadəcə ülfət.

* * *

...evləndik, guya ki sahmana düşdük.

* * *

...dünya yaman dünyadı.
Əvvəl duyan, yaşadan,
sonra danan dünyadı.

* * *

Şairin, ustadın xeyir-duası
İtirən kəslərin gözündən gəlir.

* * *

...başqadır qürbətdə vətən nəğməsi.

* * *

Harda yaşayıbdı vətənsiz bəşər,
ya vətən – bəşərsiz bir qərar tutub?!

* * *

Gəzməyə qürbəti deyib babalar,
ölməyə vətəni məsləhət bilib.

* * *

...çətindir inanmaq, bəlkə, duymadan.

* * *

...etiqad hər kəsin ürəyindədi.

* * *

Adət nədir –
hər millətin şanlı tarixi.

* * *

Adlar yolumuza çıraq olurlar.

* * *

...sözün də insan kimi qanı var.

* * *

Susdunmu, haqqını kimsə alacaq,
Haqqı alınanlar bihörmət olub.

* * *

Kişi ki kimsəsiz, ya fəqir olur,
Demək, söz götürüb o təhqir olur.

* * *

...təbiətin sınağıydı bu tufan,
nə veribsə, onların
əvəzində – imtahan!

* * *

...ömür ocaq olsa, yanar əbədi.

* * *

Gah itirik tapa-tapa,
gah tapırıq itə-itə.

* * *

Bu dünya bir sirdi, qıfılı bağlı,
nə bir sahibi var, nə açar düşür.

* * *

Qalan ya sözdü, ya fikir,
yaşayan ad-san deyilmiş.

* * *

...Yaman olur – yaxşı bir gün.
Soyuq olur – isti bir gün.
Dünya özü xoşdu bir gün,
pisdi bir gün.

* * *

İblisi iblislər içində deyil,
insanlar içində kəşf edib insan.

* * *

Ən böyük əsərdi dünyada hünər,
o da övlad kimi doğulsun gərək.

* * *

Gözəllik özü də sərvətimizdi.

* * *

Qızıl basdırılır, çıxarılır da,
insan basdırılır torpağa bir yol.
Bir az ayıq ol.

* * *

Həyat zəiflərin qənimidir, bil,
acizdir könüllü ona can verən.

* * *

...Qədimdən dünyanın vecinə deyil
ağlayan, sızlayan, ya köks ötürən,

* * *

Səbrin böyük olsun, ürəyin geniş,
həyata fəlsəfi bir nəzərlə bax.

* * *

...lakin qəlb dindimi, çətindi susmaq.

* * *

Kiminin əyninə hörmət olubdu,
kiminin beyninə hörmət olubdu.

* * *

Bir xoş sözdən gör ki bəzən
adam necə xoşbəxt olur.

* * *

Ürək duyduğunu hələ dil demir...

* * *

Böhtan deyiləndə qulaq asmaq da
gizli xəyanətdi bu torpaq üçün.

* * *

Mən adi bir daşı müqəddəs bilib
səcdə eləyənin səcdəsindəyəm.

* * *

Evdən, ailədən başlayır vətən...

* * *

...insanda insanı duymayan bir kəs, –
ədalət naminə kömək istəsən,
o hər kim olsa da, rəhm edə bilməz!

* * *

Od varmı dünyada sənət odutək,
od taxta tabuta qoyula bilməz.

* * *

İnsandır yeri də şərəfləndirən,
yer əziz olsa da, insan uludur.

* * *

Daşyonana verərdim
vəzifəni mən hətta, –
ev yıxmaq yox, ev tikmək
dəb düşərdi həyatda.

* * *

Dünya inam üstə tutsaydı qərar,
qəlbi pozğunlardan təmizlənərdi.

* * *

Olsan da, axırda özünə qul ol,
yazıq – qulxasiyyət olana yazıq.

* * *

Bəlkə, doğrudan da, paxıldı həyat,
qurudur, görsə ki, ağac bar verir.

* * *

Gülmək istəyəni ağladır həyat,
namərdin əlinə ixtiyar verir.

* * *

Çətindi düz yolda əyri yerimək,
düşüb əyri yola – düz yerimək də.

* * *

O öz sağlığında köçüb dünyadan...

* * *

Dünya bizi əyləndirir uşaq kimi,
dərk etdikcə dərkedilməz olur, ustad.

* * *

Qəmsiz şair görsən, ona inanma...

* * *

Kimsə evlənməlidi,
kimsə qəmlənməlidi.

* * *

Kimsə gedir dünyadan,
kimsə gəlir bu zaman.

* * *

Kimsə qalxır, ucalır,
kimsə baxır, qocalır...

* * *

Qəmin sonunda gülüş,
gülüşün sonunda qəm.

* * *

Yaranışdan dünya özü xeyir-şərdi...

* * *

...özü heyf oldu "heyf" deyənin.

* * *

O bəxt ki əyildi, düzələn deyil...

* * *

Xəstənin taleyi ilgəkdi pünhan,
həkimin əlləri düymə bağlayan.

* * *

Azadlıq istəyib bir iş görməyən,
küssün özgədən yox, öz taleyindən.

* * *

...qatardan qalanlar piyada qalar.

* * *

...çaylar quruyanda tək ada qalar.

* * *

Qəbiristan hər yerdə qürbətdi, qardaş,
qürbətdi, vətənin özündə belə.

* * *

Analara qurban – oğul doğurlar,
oğullara qurban – şəhid olurlar.

* * *

Xəstə var, dindirsən, yaxşıyam – deyər,
xəstə var, səni də xəstə eləyər.

* * *

Boşalır bir yandan, dolur bir yandan,
hələ qanunların təzəsi yoxdu.

* * *

...dünyada köhnədən təzəsi yoxdu.

* * *

...yaxşı bax, əlindən dünya çıxacaq.

* * *

Ehtiyat eləyib mən uduzmuşam,
Şöhrət ehtiyatsız olana düşüb.

* * *

Ehtiyat eləyən xalqların belə
nə vətəni olub, nə qəhrəmanı.

* * *

Bədənsiz ürək də bir şeyə dəyməz,
hörmət doğursa da, məhəbbət olmaz.

* * *

Baxma bu dünyaya belə könülsüz,
dünyada nə var ki, o xoşa gəlsin.

* * *

Səadət qəm ilə şərikdi, sözsüz,
görmədim – qış ilə yaz qoşa gəlsin.

* * *

Bir ömür nədir ki, onu da belə
qəmə həsr edəsən, sevinci qoyub.

* * *

...barsızlıqmış dünyada
kök üstə əyilməmək.

* * *

Bəzən bu dünyaya min təşəkkürüm,
bəzən bu dünyaya etirazım var.

* * *

Dünyada, bəlkə də, ən ağır yükün
fikir olduğunu sonra bilmişəm.

* * *

Bir xalqın varlığına,
hissinə, ülfətinə,
qəlbinə şübhə, qərəz?!
Şair bunu götürməz...

* * *

Niyə güllər içində
qızılgül şah gül olub?
Oxuyanlar içində
tək biri bülbül olub?!

* * *

Bəzən tarazlığı təbiət əyir,
dəyişir həyatda hər şey qəfildən.
Təbiət insanın xətrinə dəyir, –
insan təbiətə minnətdar ikən.

* * *

Sayma mənə sinəsinə döyəni,
sinə gərən ya bir olar, ya iki.

* * *

Can dediyin axtararsan, yox olar,
Sən ac olsan, o, dar gündə tox olar.

* * *

Sükuta qulaq asmaq
zövq istəyir, bəlkə də.

* * *

Güc nə vəzifədə, nə də yaşdadı,
hörmət qazananın adı başdadı.

* * *

Ömür dünya kimidir,
sərgisi, səhnəsi var.

* * *

Söz – dost kimi seçilir,
təzəsi, köhnəsi var.

* * *

Cavanlıq – nadanlıqdı,
qocalıq – peşmanlıq.

* * *

Köhnə yazını pozana,
təzə yazana qurbanam.

* * *

...su görməsə, ot kökündən saralar.

* * *

...bu dünya ayırıb qovur insanı
özündən özünə çatana kimi.

* * *

Qışqırmaz, ufuldar yara alanlar,
onun ağrısı da ağrısız olar.

* * *

Bəd xəbəri verməyə
tələsməyin dünyada, –
nə yaxına, nə yada.

* * *

Zəriflik – dözümmüş, bir də dəyanət.

* * *

Heyf, şəxsiyyətlər tək qalır bəzən,
millət – arxasında dayana bilmir.

* * *

Ən uzaq yollar var dünya üzündə,
onlardan uzaqmış qəbiristan yolu.

* * *

Sahibsiz vətənin balası olmaq
yetim olmaq kimi bir şeydir ancaq!

* * *

Dostluqda əyrilik, yaköməksizlik
bəzən xəyanətə bərabər olur.

* * *

Dostluğu, ülfəti, mehribanlığı
insana hörmətdə axtar, ey insan!

* * *

Yaxın dostun düşməninlə
Elə ki canhacan olur –
o gün sənlə düşmən olur.

* * *

Aşıq elsiz yaşamayıb,
çoban çölsüz yaşamayıb.

* * *

Lal dursa da bu qayalar,
onların da öz dili var.

* * *

Yaşasan da dağ başında,
Gərək isti yuvan olsun,
doğma elin, oban olsun.

* * *

Bütün təvazökar insanları mən
Bir az zirəkliyə dəvət edirəm.

* * *

Bir ömrün tarixi gör ki, deyirəm,
bir xalqın tarixi ola bilərmiş...

* * *

Sən indi tərifdən gözlə özünü,
təriflə şahlar da yıxıldı taxtdan.

* * *

Nə deyim, ay bulaq...
az-az axarsan,
bir ovuc suyundan el doyub gedər.
Amma dəniz də var...
durub baxarsan,
adamın boğazı quruyub gedər.

* * *

Bəzən sözümüzdə, şeirimizdə də
ayaq hökm eləyir baş əvəzinə.

* * *

Bəzən çəkilirik boğazdan dara,
ilham qurban gedir ilhamsızlara.

* * *

Bir evdə olmasa zarafat,
dağılar o həyat,
uçular o həyat...

* * *

Ürəyimiz yaralanar, pozular
öz sözünü bilməyəndə dil bir az.

* * *

Dedilər, bədəni –
ruhdu yaşadan,
ruhsuz nə həyat var, nə də bir insan.

* * *

...uşaq – yerişindən, quş – dimdiyindən.

* * *

Əkiz doğulsa da, insan anadan.
biri güləyəndi, biri ağlayan.

* * *

Nə qədər doğulmuş, nə qədər ölmüş,
nə eyni göz yaşı, nə eyni gülüş!

* * *

Gülü güldən seçir bal arıları,
orda gül eynidi, gül ətri ayrı.

* * *

Həsrətdən arzuya mənzil uzaqdı,
bəzən birömürlük yol olur azı.
Əvvəli addımla başlanan yolun,
sonu harda bitir?..
eh, kim ölçəcək.

* * *

Bəlkə də, insanın öz ürək sözü,
öz dilindən çıxsa, dillərə düşər.

* * *

Gör dünya axırda necə dar oldu,
nə qədər ağırdı yolları ömrün.

* * *

...beləcə sığal istər
insan da çiçək kimi.

* * *

...ayağı üstəydi, fikrən yıxıldı.

* * *

Sevinən bir qəlbi qəlbən oxşamaq
çıxır yadımızdan nə isə, bəzən.

* * *

...deyirlər, tilsimdi almaz,
Onu gəzdirənə xətər toxunmaz.

* * *

...fikrim toza batdı...

* * *

Deyirlər, torpağın qiyməti budur,
almazı yoxdursa, torpaq yoxsuldur.

* * *

Bəlkə də, son sükutuydu
bu, əbədi bir fəryadın.

* * *

Məsuliyyət özü də bir qabiliyyətdi,
mən dediyim məsuliyyət – səmimiyyətdi.

* * *

Haqdan gələn nə gördümsə, ürəkdən gəlir.

* * *

Məncə,
göz önündə durmaq şərt deyil,
gərək bir an olsun göz görmək üçün.

* * *

Ən böyük hakimlə eynidir şair.

* * *

...şimşəklər sönürdü bulud içində.

* * *

Fikri piyadaydı, özü at üstə.

* * *

Ürəkdən su içir əqidə, məslək.

* * *

Bəzən baş qaldırıb sinədə ürək,
Ağılla, şüurla üz-üzə gəlir.

* * *

İnsanın həyatı müvəqqətidi,
amma bu dünyada söz əbədidi.

* * *

Tarix elə şahdı ki,
nə zülmü var, nə hökmü.
Lakin baş əyməkdədi
bəşər ona qul kimi.

* * *

Tarix elə natiqdi,
nitq eləməz bir kərə.
Sələflərin sözünü
yetirər xələflərə...

* * *

Tarix elə məktəbdi,
orda müəllim olmaq
ilk əlifba oxuyan
şagirdə bənzər ancaq.

* * *

Zəmanənin işindən
baş açmayıb iş görmək, –
Yolsuz, izsiz bir çölə
səfər etməkdi, demək.

* * *

...duyan bir ürəyin günahı nəydi...

* * *

Sözünün çəkisi ağır olardı,
bəlkə də, şairin öz çəkisindən.

* * *

Söz qalır qəlbində yenə hər kəsin,
söz də dustaq olur insanlar kimi.

* * *

Kədəri danışmaq asan deyildi,
təzədən yaşayır insan o dərdi.

* * *

...bu dünya fəlsəfədi, –
məntiqi dərk edilməz,
sirrini kimsə bilməz.

* * *

Ömür – yarı sual,
yarı imtahan...

# III Hissə

***"İnsan yer üzündə***
***bir möcüzəymiş,***
***Bir deyən olmadı***
***möcüzə nəymiş?!."***

*Bilən yoxdu, Tanrım, nəyə*
*can atdığını,*
*pozub heçdən başlayırsan*
*yaratdığını...*

* * *

İstedadın faciəsi nə yamandı,
istedadsız kürsülərdə qəhrəmandı...

* * *

Düşmənin də bu dünyada namərdi var,
mərdi varmış...

* * *

Pis adam – o saat tanınır, oğlum,
yaxşıya – il gərək tanımaq üçün.

* * *

İnsan ömür boyu ömür istəyir.

* * *

Biri yol gözləyir, səfər üstədi,
Biri son mənzilə yəhər üstədi.

* * *

Fəlsəfi məna ver sən adi sözə,
deyirlər çöp düşər qorunan gözə.

* * *

Yeriyən ayağa yolda daş dəyər,
ən müdrik adamlar belə söz deyər.

* * *

Üzünə gülənin gör nədi qəsdi:
üzün – üzü üzdü, astarı üzdü.

* * *

Aşağı deyəndə yuxarı boylan...

* * *

Nəyi dərk edirsən, inkar edən var...

* * *

Öyrən o quşdan ki, yemi dərd olub,
dimdiyi yer eşir, gözü dörd olub.

* * *

Bir səs qulağıma görün nə dedi: –
utanma,
inanma,
ərinmə – dedi.
Həyatın sirləri, bəlkə, bundadı?!
İşığa tuşlanan kölgə bundadı.

* * *

Qovsalar, tələsmə, yüyürsən, əylən,
özünə söykənib qalxmağı öyrən.

* * *

...özü yıxılanı özündən soruş.

* * *

Lakin cavan dağlar zəlzələ istər,
Onlar zəlzələsiz yüksələ bilməz.

* * *

Pula baş əyməyib duyan bir ürək,
Nə qədər ağırmış minnət götürmək.

* * *

Qanunu yazsaydı qabarlı əllər,
Həbs üzü görməzdi, yəqin ki, bəşər.

* * *

Hər sözün sahibi canlı kitabmış.

* * *

...xasiyyət tutanda hər şeyə dəyər.

* * *

Bir damlada – bir ümman var,
bir insanda – bütün bəşər.
Bir günəşdə – bütün rənglər.

* * *

Nifrət də insani bir keyfiyyətdir,
hər hissi yaşadan sözdür, sənətdir.

* * *

Dəyər neçə ömrə sənin bir ömrün.

* * *

Zəlzələlər başlayanda neyləyəsən,
minillik bir abidə də uçur bəzən.

* * *

Biri gülən yerdə, o biri ağlar.

* * *

Dumansız görünən dumanlı dağlar!

* * *

Yerində qoyulan adicə bir daş
Bəzən bir binaya yaraşıq olur.

* * *

...silah düşmənidir mədəniyyətin.

* * *

Qürbət igidin də belini əyir.

* * *

Dar gündə rəhm etmir vətən heç kimə.

* * *

Ürək bağlı qapıdır, açmasan, o açılmaz.
Amma onu həmişə bağlı saxlamaq olmur,
Bəzən özü açılır, örtüb bağlamaq olmur.

* * *

Azadlıq, əslində, mədəniyyətdi,
Azadlıq qazanan cavabdeh olur.

* * *

...bir aqil ağlayır, yüz nadan baxır.

* * *

Kül altda od yatır, ocaq-ocaqdı,
deyin, yanılmasın, kül görən olsa.
Od yenə közərib alışacaqdı
o külü bir bala üfürən olsa.

* * *

Bir səhvin zərbəsi neçə iz qoyur...

* * *

Yaş ötür, can düşür, bədən quruyur,
göz yaşı qurumur bir ömür boyu.

* * *

...fələyin borcuna ödəndi ömür.

* * *

Yazığı gəlincə sənə bir kəsin,
Qoy həsəd aparsın – bu məsləhətdi.

* * *

Kiçik stollarda – böyük neyləsin,
Böyük stollarda – kiçik namərddi.

* * *

Qanmazın qanana Hökm eləməsi –
Həyatın daimi faciəsidi.

* * *

Yaşamaq ölümdən çətindi yüz qat...

* * *

...özündən törəyən özünə qənim.

* * *

İstedad – arxayla gəlir üz-üzə,
yıxılan yenə də istedad olur.

* * *

Atanın atalıq qayğılarına,
ananın analıq hissinə dəymə.

* * *

Ata üz döndərsə,
övlad yazıqdı,
övlad üz döndərsə,
bədbəxtdi ata.

* * *

Atanda qiymətli nə varsa, götür,
zəif bildiyinə sən arxalanma.

* * *

Bulaqlar nə qədər duru olsa da,
güc yenə seldədi,
Sən ondan öyrən.

* * *

Yetişən hər zəka dövrün səsidi.

* * *

Böyüklər böyüklük axtarır hər vaxt,
kiçiklər xırdalıq görürlər ancaq.

* * *

Səadət adlanan evin açarı, –
mən gördüm inaddı, mübarizədi.

* * *

Həyatda ən böyük istedad belə
bir sığal görməsə,
yüksələ bilməz.

* * *

...insan xırdalanır susduqca ürək.

* * *

...kimsə deyibdi ki, məğlub olanda
insanda insanlıq üzə çıxarmış.

* * *

Çöldə qalmaq olmur, evdə yaşamaq,
Nə gedən yerim var, nə qalan yerim.

* * *

...qaya çapılanda, dağ yarılanda
yerdən üzə çıxır yerin sərvəti.

* * *

...həyatda sındıqca, o, insanlaşır,
endikcə,
elə bil o, ucalırdı.

* * *

...hər açıq söhbətin öz mənası var.

* * *

Üz-üzə gələndə – təmiz güzgütək,
insan bir-birini göstərsin gərək.

* * *

Şəxsiyyət istəyir
bütün zamanlar,
yoxsa cəmiyyətdə inkişaf olmur.

* * *

...sözünlə işinə məhəl qoymasan, –
əvvəl ailədə nəzərdən düşüb,
sonra cəmiyyətdə tək qalacaqsan.

* * *

Yuxarı boylanma yoxuşda durub,
ürək töyşüyəndə, zor dizə düşür.

* * *

...söz də köz kimidi, –
qəfil yandırır.

* * *

Bir tarix yoludu bir ömür yolu,
eniş arxadadı,
yoxuş qabaqda.

* * *

Həyatda ilk dəfə aldanan kəsi
sonra inandırmaq çətindi, şəksiz.

* * *

Gün var – ömür boyu olmur unutmaq,
il var – ömür boyu heç yada düşmür.

* * *

Həyatda büdrəyib yıxılan kəsin,
bəlkə də, bir xoş söz qolundan tutar.

* * *

...sular axa-axa gərək durulsun.

* * *

...özümüz itirik bəxti tapanda.

* * *

Bir şeyə inan ki,
ləngiyən kəsin
rəqibi oyaqdı, qabağa düşür.

* * *

İnsan tutduğundan xəbərsiz olur,
xəbər tutanda da gec olur daha.

* * *

...sevinc – gözəlliksə,
qəm – ülviyyətdi.

* * *

Bəlkə,
təzadlardadı
həyatın tarazlığı?!

* * *

Bir layiq olan var,
bir də yer tutan,
Biri – nəzəriyyə, biri – həyatdı.

* * *

Yazan kim olsa da,
pozan həyatdı...

* * *

Səndən xəbər alsalar,
insan həyatı nədir?
Taleyin əleyhinə
de ki, mübarizədir.

* * *

Niyə sadə olur dahi insanlar,
adinin könlündən dahilik keçir?!

* * *

Gör necə misallar yaradıbdı xalq,
Yatanı eyhamla oyadıbdı xalq.

* * *

...gör necə ilişib Günəş buluda.

* * *

...yaxşılar pislərlə qarışıq düşüb.

* * *

...təki biz həmişə bu işə düşək,
axşam vidalaşaq,
səhər görüşək.

* * *

Sanki qoca dünya – bu qoca cəllad
qüruba çatdıqca, fağırlaşırdı.

* * *

Xəzinənin sirri – əslinə baxsan,
ağırdı xəzinə oğurlamaqdan.

* * *

Əlimiz bal dadıyır,
ağzımız ancaq zəhər.

* * *

Ölülər – yaşamağı,
dirilər – öldürməyi
öyrədir, bəlkə, bizə?
(Bu sükutun dediyi
nədir hafizəmizə?!)

* * *

...yüz yaxşı söz desən,
pozar bir xain.

* * *

Yaxşının pislərlə tutmaz söhbəti,
bu – düzlüyü sevər,
o – xəyanəti.

* * *

Pislərin pislərə qahmar çıxması,
Yaxşının yaxşıya ehtiyacı var.

* * *

Ürəyi – söz kimi düz nişan alan
nə nizə görmüşəm, nə tüfəng olub.

* * *

Nadanla
üzbəüz danışmaq qədər
çətin iş göstərin mənə dünyada.

* * *

Ən böyük qismətdi bəzən təsadüf
bizim ömrümüzün salnaməsində.

* * *

Əbədiyyət oldu təsadüf olan...

* * *

Dünyada bir hünər yaşayan deyil,
Şair qələmiylə vəsf edilməsə.

* * *

...əzəldən bu dünya şərdi,
öldürən bəşərdi, ölən bəşərdi.

* * *

Kimi – ilhamıyla dünyada qalır.
kimi – o ilhama daş atdığıyçun.

* * *

...yüz qəlbə nur saçdı bir qəlb atəşi.

* * *

Adətdi, qonağın özü bir evə,
Səsi-sədası da yüz evə düşər.

* * *

...susmaq – yüz suala bir cavab idi.

* * *

Torpağın dili var, daşın nəfəsi.

* * *

Yer üstdə yaşayır söz xəzinəsi,
yer altda gör necə xəzinədar yatır!

* * *

Dirinin dünyada sahibi gərək,
gərək... ölünün də yiyəsi olsun.

* * *

Şairlər düz deyir:
baxt da – yazıymış.

* * *

Dünənə dön,
Bu günü gör,
Sabaha düz bax.

* * *

Adət – bir millətin məişətində
yüz il yaşayırsa,
o, köhnə deyil.

* * *

Dünyada o millət millət olur ki,
gözünə düz baxır hər həqiqətin.

* * *

Dünyada o millət bədbəxt olur ki,
gülür adətinə başqa millətin.

* * *

...qəlbin ağrısını qəlb duya bilər!

* * *

Bəzən
tunc heykəli zaman uçurur,
sözdən tökülürsə o heykəl, durur.

* * *

Şöhrət olan yerdə namərd pusquda –
ya bir böhtan durur,
ya güllə... mütləq.

* * *

Millət – vətənində nabələd olur,
öz böyük oğlunu
tanımayanda.

* * *

Şair çərçivələr küncünə sığmaz,
o böyümək üçün boy atmalıdı.

* * *

İnsanlar içində tək qalıb insan...

* * *

Dünya necə gözəl imiş,
əlvan imiş.
Bu dünyaya lənət demək,
Günah imiş, böhtan imiş...

* * *

...ağı söyləyənə beşik nə lazım.

* * *

Coğrafi iqlim var dünyada, fəqət,
şair də dünyanın söz iqlimidi.

* * *

Bəzən həqiqətmiş, demə, yuxular,
bəzən həqiqətlər yuxuymuş, demə....

* * *

O öldü – torpağa yaraşıq oldu,
demə...qəbirlə də yer bəzənərmiş.

* * *

Bütün əlçatmazlar, bəlkə, nə bilim,
ayağa düşürmüş hardasa, yəqin?!

* * *

O qalib rolunda məğlub olurdu...

* * *

Şairin tabutu – cəmiyyət üçün
şairin özündən qiymətli imiş.

* * *

Böyük bir ölkənin ağlı, zəkası
kiçik bir tabuta sığa bilərmiş.

* * *

Bir gülən gördünmü – yüz məna axtar,
Yüz ağlayan görsən – mənası birdi.

* * *

Ürəyin dərdinə tablamaq çətin,
ürəyi gəzdirmək asanmış... demə.

* * *

Bir xoş sözdən,
gör ki, bəzən
adam necə xoşbəxt olur.

* * *

Aldanan neyləsin, məəttəl qalıb,
aldadan utanıb xəcalət olsun.

* * *

Əsl dostun evinə
getsən, sevinər ancaq;
Dost deməz: niyə gəldin,
xoş gəldin, deyər ancaq.

* * *

...köynək yansa, almaq olar,
ürək yansa, dönər külə.

* * *

Ailə-məişət söhbəti, məncə,
vətən söhbətilə yanaşı durur.

* * *

Gur selin önündəki saman çöpünə bax bir...

* * *

Duman böyük bir dağı
gizləməkmi istəyir?!

* * *

Günəşin işığına
bayquş baxa bilərmi?
Ya qranit qayanı
külək yıxa bilərmi?

* * *

...işğal olan bir torpaqda bağışlanan bağışlanmaz.

* * *

Gülməyi bacararmı,
ağlamağı bilməyən?!

* * *

Hansı gözdə yaş gördüm,
o qəlbdə mərhəmət var.

* * *

Qorx o kəsdən ki, dostum,
nə qəmlənir, nə gülür.

* * *

Ürəyə yad olan şey
üzdə yamaq görünür.

* * *

...bir ata zəhmi var oğul səsində.

* * *

Həyatı məntiqlə yaşamaq olmur...

* * *

...İnsana – ruh doğma, bədəni yaddı.

* * *

Böyüklər yanında böyüyür insan,
kiçiklər yanında yoxa çıxırsan.

* * *

Məncə, yaxşılıqla əkizdi hünər.

* * *

Sözə söykənc olmayanda yıxılır insan...

* * *

...unudulur,
unutmağı adət edənlər.

* * *

Dünyada həmişə salyerilər var,
qoruyun istedad sahiblərini...

* * *

Ağırdı, əlbəttə, inamsız olmaq,
Nə ölmək mümkündü, nə də yaşamaq.

* * *

Ürəyə xal düşür, saça dən düşür,
Nəzərdə tutduğun nəzərdən düşür.

* * *

Qulun,
dəyişsə də min bir adəti,
O quldu, dəyişmir qul təbiəti.

* * *

Nahaq deməyib ki, mömin adamlar:
səhvi özgədə yox, özündə axtar.

* * *

Sözün sonrasını soruşma, nədir,
əvvəli
arifə bir işarədir.

* * *

Ona qəsd eləmək qəsdinə durma,
o qəsd də görübdü, – üstünü vurma.

* * *

Dünyaya qayıtdı dünyadan gedən,
yerin altı vətən, üstü də vətən.

* * *

...söz də – Haqdan gələn bir əbədiyyət!

* * *

Dağda dəyə qurub yaşamaq olar,
dağda dağı görmək, hünər istəyir.

* * *

Beşiyi,
məzarı atıb gedəndən,
oğlum, yarımayıb hələ bir vətən.

* * *

...Deyirlər, daşlanan daş heykəl olur.

* * *

Dünyada bir od var, o da Günəşdi...

* * *

İNSAN öz boyundan ucadır, oğlum,
nə görmək mümkündür, nə ölçmək olur.

* * *

Bəşərin ən böyük kəşfidi, məncə,
dostluq dediyimiz bu ülfət hissi.

* * *

Dost kimdi?
Nəçidi?
İkinci bir can!
Bir ürək döyünür bu iki canda.

* * *

Dost özü gəlir ki, mənə arxalan,
dost tapmaq çətindi
dost axtaranda.

* * *

Sən dosta arxalan, sən dostu gözlə,
dost da arxalanar, sən arxalansan.

* * *

Qolu hər çalınan havaya qalxmaz,
doğru deyiblər ki, sel arxa sığmaz.

* * *

Özündən deyənə baxar, söz deməz,
sözdə yıxılanı yıxmaq istəməz.

* * *

Ən güclü, ən qəddar çıxsa baxtına,
yüksəkdə durar ki, görünsün ona.

* * *

Görünür, ağırdı sözlə döyülmək,
Yəqin, bərk incidir onun ağrısı.

* * *

Ad var məhəbbətlə yada salırlar.
Ad da var, nifrətlə yada salırlar.

* * *

Ad var, sahibiylə dünyadan köçür,
Ad da var, nəsildən-nəsilə keçir.

* * *

Bir budaq üstündə tumurcuqlayan
min budaq üstündə bitməli idi.

* * *

Xalqın gözü kimi tərəzi yoxdu,
özü çəkdiyini çəkir təzədən.

* * *

...Qalxdı o kəslər ki, yıxılmışdılar.

* * *

İstedad,
bilirəm,
şərtdi, şübhəsiz,
Şərtdi, istedadı görmək özü də.

* * *

Siz daşlara yazdınız
tarixi – yəhər üstə.
Biz daşlardan köçürdük
Tarixi – dəftər üstə.
Tarixi təzələdik
tarixi əsər üstə.

* * *

Qalib ordulara qələbə çaldıq,
ordular iz saldı,
biz oba saldıq.

* * *

...hər sönən ocağın bir közü qaldı.

* * *

Arxan yoxsa,
arxan üstə
yıxacaqlar.

* * *

...ürək duyduğunu hələ dil demir.

* * *

Hamıya pis desən heç işin aşmaz...

* * *

Ata-ana olmasa,
yetim sayılır insan.
Bəs tay-tuşsuz qalanda
buna nə ad qoyasan?!

* * *

Bir hünəri görürsənsə, bacar kəşf elə,
qıfıl əgər açılmırsa, açar kəşf elə.

* * *

Yer üzünün qanunları göylərdən gəlir,
Gedən gedir, gələn nəsə, o gələn gəlir!

* * *

...evsizlərin evi dünya, eşiyi dünya.

* * *

Mən dünəni öyrəndim ki, sabahı görüm...

* * *

Gül əkirsən, alaq bitir, bağban neyləsin?

* * *

Can nigaran, “can” dediyin ürək – yaralı.

* * *

Bir əsrə bəs eyləyər bir insan ağlı.

* * *

...təsadüflər dünyasıdır amma dünyamız,
bir təsadüf üstündədir hər ayağımız.

* * *

Bir millətə qəsd eləmək istəsən əgər,
adətini əlindən al, yox olub gedər.

* * *

Bilən də o, bilməyənə tabe olan da...

* * *

Bir ömürün son sözünü bircə an deyir,
kim ki deyir mən qorxmuram, o yalan deyir.

* * *

Möcüzədir həyatımız, həyat tərzimiz,
nə biçəcək, nə tikəcək hələ "Dərzimiz?!"

* * *

Mənim sənə dediyimi – mənə deyən var,
sözü sözdən seçməliyəm söz demək üçün...

* * *

...hər gələn bir ağıl verir dünyada bizə,
amma dünya əsa verir bir əlimizə.

* * *

Bu dünya borc dünyasıdı,
əvəz-əvəzdi.

* * *

Yer üstündən yer altına dünya daşınır...

* * *

Bir xatirə deməyəmi qalırıq yalnız,
"Əvəz-əvəz" oyunudur, nədir dünyamız?!

* * *

Dərk etdikcə dərkedilməz olur kainat,
Bu insandan o insana verilir həyat.

* * *

...ruh – körpələr doğulanda qayıdır ancaq,

* * *

“Böyük-kiçik” adətimiz unudulmasın,
kirpik elə uzansın ki, göz tutulmasın.

* * *

O yerdə ki daş üstünə daş qoyur əllər,
o torpaqda vətən himni oxuyur əllər.

* * *

...sərkərdəni bada verər bəzən bir qərəz.

* * *

Qapaz ilə, yumruq ilə dahi yetişməz.

* * *

...ögeylərə, doğmalara bölünsə vətən, –
o millətin sabahını unut bu gündən.

* * *

Dilim – ucaltdı məni,
Dilim – qocaltdı məni.

* * *

Yara göynəyəndə “giley” deyilməz,
Dağın Quzeyinə Güney deyilməz.

* * *

Şairlik qədimdən asan olmayıb,
Yeri də qazıblar xəzinə üçün.

* * *

Özü oyananda, yatıb taleyi...

* * *

Namərd qabağına mərd ürəklə çıx,
Dönsən də torpağa, daşa dünyada.

* * *

Bayquş ulayanda – duz-çörəklə çıx,
Bülbül oxuyanda – yaşa dünyada.

* * *

Özünə doğmadı hər quşun səsi,
qarın – sükutu var, yağışın – səsi.

* * *

Şirin əlindədi bütün meşələr,
gözüaçıq yatar amma gecələr.

* * *

Azad doğulubsa insan anadan,
şahdı, –
cəmiyyətdə o, qul olsa da.
Şah – qul doğulubsa əgər, ey insan,
o quldu,
şah kimi qəbul olsa da.

* * *

Zaman –
yıxılanı itələyirdi,
Tarix –
o zamanı hədələyirdi...

* * *

Adam var, yarpaqtək
quruyub düşür,
üzündən üzünə
amma nur düşür.

* * *

...müdriklər sözünü kəlamla dedi.

* * *

Mələk – xeyir deyib,
şeytan – şər deyib,
İnsan möcüzədir, –
Peyğəmbər deyib.

* * *

Özgə süfrəsində
yeyən doymayıb,
yalandı,
doymuşam, – deyən,
doymayıb.

* * *

Bəlkə də,
əbədi beşikdi dünya,
təzədən doğulur
hər yaşda İnsan.

* * *

...yaş ötdü,
yaşı yox,
vaxtı saxladım.

* * *

Heyf...sağlığında adi görünür,
sonra gözümüzdə dahiləşən kəs.

* * *

Dərinə getdikcə
haqq üzə çıxır,
yerdən yaqut çıxır,
füruzə çıxır.

* * *

Tabut sükut içindəydi,
sükut tabut içində...

* * *

Dillər “gəlmədi” dedi,
ürəklər “gələr” dedi.

* * *

Bilən yoxdu, Tanrım, nəyə can atdığını,
pozub heçdən başlayırsan yaratdığını...

* * *

İnsan yer üzündə bir möcüzəymiş,
bir deyən olmadı möcüzə nəymiş?!

*Xalqın böyüklüyü silahlarla*
*yox,*
*atalar sözüylə ölçülməlidi...*

* * *

Gedən yaradandı... qalan yaranan.

* * *

Tikilən qalacaq... bu həqiqətdi,
Tikmək özü belə bir təriqətdi.

* * *

Əcəmi... Nizami... dövrün məşəli!
Sən quran əlisən, o yazan əli.

* * *

Lakin bir ürək var, bir də namus, ar,
Namusa səsləyib bizi babalar.

* * *

Amma qonşularla gərək dil tapaq.
Nifaq yox, ittifaq –
hər şeydən qabaq.

* * *

Övlada atayıq, vətənə – övlad.

* * *

İnsan daşa dönür... daş əziz olur.

* * *

Dünya sehrkardı... öz təcrübəm var,
Harada sevinc gördüm, orada da qəm var.

* * *

Sərkərdə yıxılsa, ordu dağılar.

* * *

Bir toy paltarı var, bir yas paltarı, –
İnsanın həyatı, bir də məzarı.

* * *

Bu dünya əzəldən bir quru səsdir,
Onu dindirməsən, qaradinməzdir.

* * *

Yaddan gözləyirik zərbəni, hər vaxt
Ən yaxın adamdan alırıq ancaq.

* * *

Köçdü o dünyaya bu dünya oğlu,
Yer altı yer üstdən şöhrətli oldu.

* * *

Qəlbində tufan var, üzdə rahatdır.

* * *

Aqil adamların fəhmi, diqqəti
Qabaqca hiss edir hər fəlakəti.

* * *

Ürək gözdən çəkir, göz gördüyündən.

* * *

Qılıncda güc olur, qələmdə hikmət,
Birləşsə, basılmaz bu iki qüvvət.
Hökmdarda qılınc, şairdə qələm...

* * *

Yaramaz kişiyə ağciyər olmaq,
Tərəddüd fəlakət gətirir ancaq.

* * *

Bu dünya hərəyə bir əcəl verir,
Zəhəri, şərbəti eyni əl verir.

* * *

Şübhə doğurursa, bədbəxtdir insan.

* * *

Siyasət ağıldı, bir də ehtiyat,
Bunu bilməyəni məhv edir həyat.

* * *

Ya nifrət etməyi bacar dünyada,
Ya əzil, tapdalan ayaqlar altda!

* * *

Bu həyatda hər kəsin öz həyatı var,
Hər dildə bir bayatı var...

* * *

Bu həyatdı, sərtdi üzü,
Sınaqlardan keçiririk ömrümüzü.

* * *

Bir adı düz min il yaşatmaq olar.

* * *

Açıq xəyanətdi gizli ittifaq.

* * *

Hər şeyi bu həyat öyrədir bizə,
Təqiblər ehtiyat öyrədir bizə.

* * *

Səfərə çıxana ehtiyat gərək,
Götür ehtiyatı bir azuqətək.

* * *

...susan aparar...

* * *

Söz var, o, dillərə ağızdan düşür,
Ağız var, söz orda nüfuzdan düşür.

* * *

...Harda günəş doğur, orda bulud var.

* * *

Gəlirəm deyə-deyə,
Gedər-gəlməzə getdi.

* * *

Ölünü öldürmək hünər sayılmaz.

* * *

Cəbhədə tərəddüd şübhə doğurur.

* * *

Xalqın tarixi var, tarixçisi yox,
bu qədər yol gəlib, yolda izi yox.

* * *

Namərdlər mərdlərə həyatda hər gün
Ehtiyat öyrədir yaşamaq üçün.

* * *

Tədbirlə baş işlət, ağıllı tərpən,
Yoxsa birdəfəlik bada gedərsən.

* * *

Aldanır aldatmaq istəyən hər kəs!

* * *

Güclü kişilərdə qərəz, kin olmaz.

* * *

Qaranlıq işıqdan görünmür heç vaxt,
İşıq qaranlıqdan görünür ancaq.

* * *

Dünyanın qəribə təzadları var, –
Kim kimdən qaçarsa, ona tuş olar.

* * *

Hikmətlə uyuşmur heç vaxt ədavət.

* * *

Tarixə hörmət var həyatda, bir də
Hörmətə tarixi bir münasibət.

* * *

Qayada şimşək var, buludda tufan.

* * *

İnsanın çiynində baş özü tacdı,
Niyə o xəbisdi, o gözüacdı?!

* * *

İtaət eləyib insan həmişə,
batan günəşə yox, –
Çıxan günəşə.

* * *

Dərk edə bilsəydi özünü bəşər,
nə hiylə qalardı insanda, nə şər.

* * *

...göy ruzi paylayır, yer nemət verir.

* * *

...şər gəlir həmişə gözlənilmədən.

* * *

Yüz hiylə qurulur bir niyyət üstə.

* * *

Bizdə bir misal var: böyük adamlar
bələdçi axtarmaz, bələdçi olar.

* * *

Böyüklük göstərsin gərək böyüklər.

* * *

Hünəri qılıncsız göstəribdilər.

* * *

...sözdən yaralanan söz qanan olur.

* * *

Niyə heyvanların dili yox ikən
Dil tapıb yaşayır belə qədimdən?

* * *

İnsan öz əslinə oxşaya bilmir,
dili var, dil tapıb yaşaya bilmir?

* * *

...ölüdən diriyə xata toxunmaz.

* * *

Əqrəblər sancanda karıxır insan,
gülür, ağlamağı çıxır yadından.

* * *

...taxt-tacda oturan heç kəs,
Sonuncu fikrini əvvəlcə deməz.

* * *

Tələsmə, tədbirlə görülən işdən
insan iki dəfə sevinir hökmən:
Əvvəl biləndə ki, yanılmayıbdı,
sonra bəhrəsini gördüyü zaman.

* * *

Əl işdə görünüb, daş hörgü üstə,
yüz budaq doğranıb bir kötük üstə.

* * *

Ağırlıq eləməz bir baş heç kəsə,
bir baş ikibaşlı söz işlətməsə.

* * *

Qürurla açılmaz bağlı qapılar,
Səbirlə axtarsan, itən tapılar.

* * *

Ağız tərəzidi, dil orda pərsəng,
söz əvvəl ağızda çəkilsin gərək.
Ağırı, yüngülü onda bilinər.

* * *

Döyüş meydanıdı bir başın içi,
qulaqlar – keşikçi, gözlər xəbərçi.
Baş – zireh, fikirlər qoşun kimidir,
zirehli qoşundur, əslində, fikir.

* * *

...bir qaçan vardısa, bir də qovan var.
Qovan da, qaçan da kömək istəyir.

* * *

Şərqin təfəkkürü başqadır tamam,
Əxlaqla ölçülür hətta ehtiram...

* * *

Qonaq qarşılamaq adətimizdi,
xalqın niyyəti pak, ruhu təmizdi.

* * *

Səbir – ləyaqətdi, daim ayıq ol,
qəm gəlsə üstünə, qəmə layiq ol.

* * *

Səadət – daş altda dustaqdı, qızım,
Fəlakət – yol üstə oyaqdı, qızım.

* * *

...insanın qəsdini heyvanlar duyur.

* * *

Göz yolda olanda ağırdı dözmək,
ürəyə şər gəlsə, xeyirə yozmaq
özü də insana bir təsəllidir.

* * *

Bizdə də göz yaşı, gülüş, qəm, fikir –
insan ürəyi də dördfəsillidir.

* * *

İçindən yeməsə qurd bir ağacı,
min il ömür eləyər dəmirağacı.

* * *

Keçib ehtiyatla dağdan, qayadan,
düz yola çıxanda yıxılır insan.

* * *

Beşikdən səngərə bir addım imiş,
Övladlar necə də tez böyüyərmiş.

* * *

Bu xeyir-dualar – ruhi dayağım,
yolda – azuqəmdi, çöldə – yarağım.

* * *

...bu dünya yuxulu rəfiqəmizdi.
O elə divdi ki, oyatmaq olmaz,
verdiyi zəhərə bal qatmaq olmaz.
Hamıyla rəftarı xoşdur əzəldən,
əvvəlcə dost olur, axırda düşmən.

* * *

Kirpiklər nədir bəs? – gözün nəbzidir,
Tanrı, darıxanı özü hifz edir.

* * *

Bu dünya əvvəldən əvəz-əvəzdi,
insanı yaşadan bir doğma səsdi.

* * *

Taledi, üz-üzə gətirdi bizi,
sınaqdan keçirdi hər ikimizi.

* * *

Yıxılan görmüşəm, ayaq üstədi...

* * *

Təbiət şeytandı, insan oyuncaq,
bizi şirnikdirib o, aldadacaq.

* * *

Günün biri şərbət, o biri zəhər,
Sonra zəhər qusur şərbət içənlər.

* * *

...başqadır dünyada daxili aləm.

* * *

...teatrı yoxdursa – yuxuludur xalq.
Pərdələr gözlərdən çəkir pərdəni,
Maskalar oyadır səni... və məni.

* * *

...ən böyük acizlik hökm eləməkdir.

* * *

...Saraylarda doğulmaq ilə
sarayda yaşamaq bir deyil hələ.

* * *

...baş kiçikdi, bədən böyükdü,
baş böyük olanda bədənə yükdü.

* * *

Bəlkə, bir müğənni, bir nəğmə deyən
Xoşbəxtdi fikirli ömür eləyəndən...

* * *

...bir sakitlik olur tufandan qabaq.

* * *

Od sönür, kül altda qalır istisi.
Pələngin yolu var, ilanın izi.

* * *

Göydə ulduzların dəyişməsindən
yerdə də dəyişir vəziyyət hökmən.

* * *

Xoşbəxtlik gələndə ləngiyir hökmən,
bədbəxtlik gələndə gəlir qəfildən.

* * *

Mən öz taleyimlə əlbəyaxayam...

* * *

Ağlasaq, gizlədək göz yaşımızı,
Yıxılsaq, dik tutaq biz başımızı.

* * *

Ağıl danışanda tələsmə bir az,
ürək danışanda ona qulaq as.

* * *

Xalqın böyüklüyü silahlarla yox,
atalar sözüylə ölçülməlidi...

*Ağ saçın hər başda*
*yoxdu qiymәti,*
*saça da qiymәti*
*baş qazandırır...*

* * *

"Şairlə bir görüş, ya adi söhbət
Allaha xidmətdi, bəndəyə hörmət..."

* * *

Şairin dilindən şeir eşitmək
əvəzsiz bir nemət sayılsın gərək.

* * *

Şairə ehtiram adətimizdi,
Hər sözü – sözümüz, söhbətimizdi.

* * *

Şairsiz millətin əlacı yoxdur,
Demək, o millətin dilmancı yoxdur.

* * *

Sözün qiymətini verə bilməyən
Baş varsa, o başı rədd edirəm mən.

* * *

Şairdi dilmancı hissin, duyğunun...

* * *

Şair azad yazıb-yaratmalıdı,
şair ilhamını oyatmalıdı.

* * *

Yatıram şimşək kimi
Mən buludun içində...

* * *

Sevir şairi bu xalq, –
xalqın ənənəsi var.

* * *

Mən elə torpağam – mənim başımda
Fəlakət əksələr, səadət bitər.

* * *

Danışdır, danışım, oxut, oxuyum...

* * *

Ağ saçlar içində ağsaqqal olmaq! –
İnsan sərgisinin fərqi bundadır.

* * *

İstəyirəm, bir az yatıb dincələm,
silkələyib “oyan” deyir taleyim.

* * *

İnanmıram, deyilənlər yalandı,
yalanlara “inan” – deyir taleyim.

* * *

Xoşbəxtdir o sənətkar, –
Söz dolu sinəsi var.

* * *

Tale məni əzizləyir
sığalı qapaz qarışıq.

* * *

Tale mənə bata bilmir,
qovur hələ, tuta bilmir.

* * *

Aman, ürək, hara getsəm –
sən mənimlə gedəcəksən.

* * *

Mən bölünmüş bir millətin şairiyəm...

* * *

Nə bilim, dünyada mən öz əlimdən,
bəlkə də, birinci şikayətçiyəm.

* * *

Elin arxası var – şairdi o da,
Şair yas tutanda el dözə bilmir.

* * *

...Qar yağanda
günü də gör, bacar, məndə.

* * *

Zarafat eləmə sən bu həyatla...

* * *

Büllur şüşə kimi qəlbim bərk olar,
amma büllur kimi qırılıram da.

* * *

Ellərdən təzə bir söz eşitməsəm,
Sözüm paltar kimi köhnələr mənim.

* * *

...ürəyim ürək istər.

* * *

Sən dayaq oldun mənə,
mən səni yıxdım, ürək.

* * *

...şairlər ölmürlər, həlak olurlar.

* * *

Mən öz taleyimlə əlbəyaxayam...

* * *

İkinci sırada şairlər gələr,
birinci sırada Peyğəmbər olsa.

* * *

Şöhrətin sevinci, yaşın kədəri,
tərs kimi ikisi bir vaxta düşür.

* * *

Bu dünya sərgidi, sərgiyə gəldim...

* * *

O qədər susdum ki, fəryada gəldim...

* * *

Ey mənim sinəmdə məni yaşadan,
ey mənim əlimdə ölən ürəyim...

* * *

Düşmənəm həyatda təsəlliyə mən,
getmir təsəllinin vurduğu yara.

* * *

Nümunə göstərmək asandı bir az,
nümunə olmaqdı çətin olanı.

* * *

Nə ayaq üstəyəm, nə yıxılmışam,
özüm öz yolumda hasaram daha...

* * *

Bəzən hisslərimə əsir oluram,
özüm özüm üçün bir sirr oluram.

* * *

...duyan bir ürəyin günahı nəydi...

* * *

Şirin bir yuxuymuş, demək, yaşamaq...

* * *

Bir yol ayrıcına bənzəyir həyat,
yaramaz həyatın üstündə əsmək.
Cəsarət istəyir, bir də ehtiyat,
nə ləngimək olar, nə də tələsmək.

* * *

Almaz da nadirdi, şair də nadir.

* * *

Əvəz olunuruq, əvəzsiz ikən.

* * *

Şairsiz bir ölkə, ya bir məmləkət
ocağı soyumuş bir ev kimidi.

* * *

Ürəyim əvvəlki sevdasındadı,
dünya qayğılara aparır məni.

* * *

İndi tufan olub mən əsməliyəm,
İndi hamıdan çox tələsməliyəm...

* * *

Kim deyirsə bir romandı
tərcümeyi-halım mənim,
yalan deyil.

* * *

Hardasa iblislər çıxıb qarşıma,
hardasa insanlar tutub əlimdən.

* * *

Dünyada, bəlkə də, ən ağır yükün
fikir olduğunu sonra bilmişəm.

* * *

Dedilər,
çox getmə dərinə,
qayıt,
əksinə,
mən dedim –
yatanı ayılt.

* * *

Şairə qəsd – millətə qəsd!

* * *

Yaşaya-yaşaya başa düşürsən,
başa düşəndə də işə düşürsən.

* * *

Mən öz taleyimlə döyüşməliyəm,
taleyim namərddi, vurur arxadan.

* * *

Bir şair beyninin fikir şimşəyi
yüz qəlbə nur saçır çilçıraq kimi.

* * *

Nə vaxt doğulubsa əsl sənətkar,
Hər xalqın şöhrəti o vaxta düşüb.

* * *

Bəzən sayılmırıq sağlığımızda.
Tərif qəbrimizə deyilir, heyf!

* * *

İşıq payla, şairim,
zehni kor olmuşlara.

* * *

Şair azad yazıb-yaratmalıdı,
şair ilhamını oyatmalıdı.

* * *

Şair ara vurub çıxmaz aradan,
şair ədavəti təbliğ eləməz!

* * *

Özgəsinin süfrəsində gözüm olmayıb,
sözüm olub, söz deməyə üzüm olmayıb.

* * *

Son nəfəsdə mən yaşamaq istədim...

* * *

Təkləri Tək Tanrım tək qoymayıbdı,
dünyadan can doyub, göz doymayıbdı.

* * *

Şair – xalqın ürəyindən qopur səs kimi.

* * *

...tarix,
şair ölər,
kəlamı ölməz.
Şairin istiqlal
məramı ölməz.

* * *

Qalsam – kimliyimə cavabdehəm mən,
Getsəm – kimliyimi vətəndən soruş.

* * *

...Oxu məni,
Yerişimdən,
duruşumdan oxu məni.
Mən təpədən dırnağacan
əlifbayam, oxu məni.

* * *

Ey ilham pərisi,
ey ulu Rəbbim,
ilhamsız yanında
qoyma təklənim.

* * *

Hər yaşda deyirəm ayıldım tamam,
hər yaşda görürəm yanılmışam mən.

* * *

Müdrik olmağın da öz ağrısı var,
hər şeyi görənin göz ağrısı var.
Hər başa düşənin baş ağrısı var,
Bir də bu dünyada yaş ağrısı var.

* * *

Bir insan ömrünü girov qoymuşam
bir şair ömrünü yaşatmaq üçün.

* * *

Şairlə hər görüş bir səadətdi,
amma səadətə özü həsrətdi.

* * *

Ağ saçın hər başda yoxdu qiyməti,
saça da qiyməti baş qazandırır...

*“Səhv – məktəbdi, –*
*öyrənmək məktəbi...”*

* * *

“Bəlkə bütün təbiiliklər, bütün bu qeyri-adiliklərdədir?”

* * *

“...bəzən susmaqla deyilən söz, dillə deyilən sözdən çox güclü olur”.

* * *

“Axtardığını tapanda özü itdi”.

* * *

“O yox olmurdu, yox, əksinə, səni itməyə qoymurdu”.

* * *

“...bir yarımçıqlarla, bir də üzlülərlə mübarizə hələ uzun müddət qalacaq”.

* * *

“Bəlkə də, hər kəsin qərəzsiz istehzaya ehtiyacı var. Qoldan tutan istehzaya”.

* * *

“...yaza bilmək hələ yazıçılıq deyil. Ağıldan, şüurdan, qələmdən qabaq ürək lazımdı, ürək”.

* * *

“Adam yaşa dolduqca, qocaldıqca sümüyü də kövrəlir, ürəyi də”.

* * *

“...oxumuş adamla oxumamışın sövdəsi – ayıq adamla sərxoşun sövdələşməsinə bənzər. Onlarınkı heç vaxt tutmaz...”.

* * *

“Kişi ürəyi qılıq istəyir”.

* * *

“Görünür, gözəllik özü də bəzənməlidi. Ona da diqqət, xidmət olmalıdı. Gözəllik görünməlidi”.

* * *

“Ədəbiyyat – millətin bədii simasıdır”.

* * *

“Balaca xalqıq, böyük hərbi tariximiz var...”

* * *

“Yazıçını gərək zaman yetişdirsin”.

* * *

“Taxta kimi, daş kimi soyuq olanlar qorxuludurlar”.

* * *

“...ömür – dünya yoludu. Bu yolu tək getmək olmur. Dolaşıq yoldu. Gərək bir ürək sirdaşın olsun”.

* * *

“Dostluq hər oğulun, hər qızın işi deyil”.

* * *

“Qəzetçi namuslu olmalıdı... hər adamdan qəzetçi çıxmaz”.

* * *

“Ah, xoşbəxt illərim!.. Analı olmaq xoşbəxtlik imiş. – Adam anasız olanda başa düşür”.

* * *

“Səhv – məktəbdi, öyrənmək məktəbi...”

# IV Hissə

***“Yaxşı adamları daim***
***qoruyun,***
***yaxşı adamlara halaldı***
***hörmət.***
***Yaxşı adamlara keşikçi***
***qoyun,***
***dağılar, çürüyər yoxsa***
***cəmiyyət”.***

*Mən yuxulu gəlib-getdim*
*dünyaya, Tanrım,*
*mən bir ayıq görmədim ki,*
*ayılda məni...*

* * *

Heç kəsə oxşamayın,
deyə-deyə
sonradan,
özünü tələb etdi
o, axırda hamıdan.

* * *

Gərək aldatmasın rənglər heç kəsi,
seçilsin çaqqalın rəngilə səsi...

* * *

Başlar ayağa keçdi,
ayaqlar başa, dünya.

* * *

Gələn "qonaq gəlir", sahibkar gəlir,
bazar onunkudu, ocaq onunku.

* * *

Hasarlar yanında hasar tikilir,
bayraq bizimkidi, torpaq onunku.

* * *

Mənə mədh eləmə "Teksun"u, yetər,
kərə yağ onsuz da düşməyir ələ.

* * *

Rusdan ingilisə keçir dilimiz,
azadlıq deyənlər kölə deyilmi?!

* * *

Qələm dəyənəklə üz-üzə gəlir...

* * *

Qələm – dəyənəyə xidmət eləsə,
"İstiqlal" sözünü o yaza bilməz.

* * *

Vay sənin halına, ay qızıl öküz,
öldürdü bu qədər işləmək səni.
Çaqqallar xəbərçi, tülkülər üzsüz,
ya şir dağıdacaq, ya pələng səni.

* * *

Qarğanı bülbülə bərabər tutub,
sən də yanılırsan, ey ulu Tanrı!

* * *

Pişiyə ad günü keçirirdilər,
araqdan, konyakdan içirirdilər...
...Təzə dil açanlar azadlığıydı,
pişiklər, siçanlar azadlığıydı.

* * *

Müğənni oxuyur, rəqqasə gəlir,
bu yarımvəhşidi, o yarıçılpaq.

* * *

Toyda "yallı" gedən həvəsə gəlir,
xarici ritminə rəqs edir əxlaq.

* * *

Pişiyin dilini başa düşənlər
millətin dilini anlaya bilmir.

* * *

Vətəni böldülər pisə, yaxşıya,
bezdik yabıların kişnəməsindən.

* * *

Vətən siz tərəfdən kiçikdi bəlkə,
çadırdan baxanda böyük görünür.

* * *

Ərköyün doğulub bəzi adamlar,
vətən tərifləsin gərək onları.

* * *

Ulamaq azaddı, hürmək də azad,
İtin it mərəzi dəyişmir, Ustad!
İti qısqıranlar dəyişir, Ustad!..

* * *

Niyə istedadlı istedadsıza,
ya qanan qanmaza hesabat verir?!

* * *

Niyə sağlığında susur cəmiyyət,
şairi itlərdən qoruya bilmir?!

* * *

Hakim dövlətlərin təcrübəsi var, –
üzr istəyirlər əvvəlcə onlar.
Deyirlər, köməyik, yardım əliyik...
sonra, tələbini ödəməliyik.

* * *

Bir başı saxlaya bilməyən quldur
ölkəni saxlamaq qəsdinə durur.

* * *

Xəzinə aparır quldur şairlər,
təşbeh oğruları, söz oğruları.

* * *

Məhəbbət hardasa istehsal olmur,
üstündə keyfiyyət nişanı olsun.

* * *

Baxır istedadsız biri-birinə,
Bu ona, o buna – Mərhaba! – deyir.

* * *

...hərə bir cür dilənirmiş:
vəzifəni dilənənlər,
fəxri adı, elmi adı dilənənlər...

* * *

Bazar alverçisidi
siyasət alverçisi.

* * *

Dünya, bəlkə, it-pişiyin dünyasıdı?..
...İnsana it, itə insan qayğısıdı...

* * *

Ədalət istəyir şair Zamandan,
o da əvəzində fəxri ad verir.

* * *

Korlara – işığı, karlara – səsi,
lallara – kürsülər bağışlayırlar.

* * *

Şairlər fillərtək bir ömür sürür.
Sümüyü gərəkdi, özündən qabaq.

* * *

...içimizdə qoruyurlar naşıları
Qızılgülü cır gül ilə solduranlar, –
Nadanlara qata-qata öldürürlər yaxşıları.

* * *

Şairlər tabutda böyük görünür,
təriflər tabuta deyilir ancaq.

* * *

Çıxardın lüğətdən "vəfa" sözünü,
insanın insana vəfası getdi.

* * *

...arxasız mərdlərin arxası getdi.

* * *

Vəzifə üstündə didhadid gedir,
biri yıxıldımı, yüz şahid gedir.

* * *

Varlı öz adını "Prezident" qoyub,
Kimi dindirirsən, cangüdəni var.

* * *

Azadlıq olalı sən qul olmusan,
dövlətin varlıdı, yoxsul olmusan.

* * *

Kremlin daşına da qızıl dedilər,
daşa əl çaldırdı daşa dönmüşlər.

* * *

Dövranla şairin tutmur söhbəti,
o, yalanı sevir, bu – həqiqəti.

* * *

Ayağı öpürlər üz əvəzinə,
külü üfürürlər köz əvəzinə.

* * *

Bir yandan Quranı dandı hökumət,
bir yandan Qurana and içdi millət.

* * *

Bir yandan dinimiz lağa qoyuldu,
bir yandan adımız Məhəmməd oldu.

* * *

Bir yandan MK-ya getdik iclasa,
bir yandan mollanı çağırdıq yasa.

* * *

Bir yandan sürüldü şair oğullar,
bir yandan Kremlə and içdi qullar.

* * *

Peyğəmbər adından hədis deyənlər
nəzir-niyaz yığır cibinə, Şeyxim.

* * *

Yerdən daş qaldırıb
insanı yıxdı,
bir dövran o biri dövranı yıxdı.

* * *

...axı it dilində yazmıram, ay it.

* * *

Mənə nə verdinsə, sən verdin, Allah,
niyə bəndələrin bəs itə dönür?!

* * *

Sökülür, tikilir Bakı yenidən;
onu ictimai bir mülkiyyətdən
şəxsi mülkiyyətə keçirir Zaman...

* * *

Satıcı danışmır, qiymət üstədi,
milləti soymaqda millət ustadı.

* * *

Ali məclislərdə ali bir nəfəs,
adını demirlər, "Hacı filankəs!"

* * *

...Qoltuqağacını satan zavallım,
qalxsan, indi nəyə söykənəcəksən?!

* * *

Mühacirin vətəni,
şairin arxası yox!

* * *

Cəmiyyətdə üşüyüb
şairlər,
həyatda yox!

* * *

Ariflər duya bilir
şairləri,
gəda yox!

* * *

Əsgəri sağaldıb yaşadan vətən,
şairi öldürüb yaşadır, şair.

* * *

Üstünə gözlüklü gürzələr gəlir, –
əldən qılınc verib, əsa götürmə.

* * *

Boyun – bir qurulu dar ağacıdı,
as məni çiynindən, bir şəhid artsın.

* * *

Fikirdən, infarktdan həlak olanın
açılmır üstündə yaylım atəşi.

* * *

Bizə zaman-zaman qəm-qübar verib,
mədəni millətlər nitq eləməsin.
Əllərə qırmızı bayraqlar verib,
əynimizə qara geyindirməsin.

* * *

...həmin o heykəldi, həmin o başdı,
Allah eləmişdik, adicə daşdı...

* * *

Xainlər kiminsə himayəsində
həmişə arxadan əl qaldırırlar.

* * *

İlahi, nə yaman o göylə gedir,
göydən qopanları görməyibdimi?

* * *

Bulaqlar var, səsi çıxıb, suyununsa dadı yoxdu,
Əsl bulaq burda qalıb, hələ onun adı yoxdu.

* * *

Torpaq – qarışqaya, meşə – bülbülə.
çöl – hacıleyləyə verilməliydi.

* * *

Yer qazıram, qum çıxır,
Bal yeyirəm, mum çıxır.
Şeytandan danışırlar,
erməni qohum çıxır.

* * *

İblisləri – hörmət, izzət sahibi,
mələkləri – daş daşıyan görmüşəm.

* * *

Kimlər bostanına daş atır sənin,
səbir eylə, daşın da o vaxtı deyil.

* * *

Görsə ki, sadəsən,
alicənabsan,
təhqir eləməyə
hazırdı nadan.

* * *

Kasıbın nə dostu, nə qohumu var,
dostu ağız büzər, qohumu danar.

* * *

Əyriyə əl çalıb, düzə gülən var,
bir çömçə tutana yüz bükülən var.

* * *

Ürək milyonerdi, cib pensioner,
ürək "xərclə" deyir, cib "qazan" deyir.

* * *

Şair var tanımır öz torpağını,
Könlündən Londona səyahət keçir.

* * *

Demaqoq, xudpəsənd, özündən deyən
Gərək təmizlənsin xalqın içindən!

* * *

Kimsə karlığını sübut etməsin,
yanımda qışqırıb danışmaq ilə.

* * *

Tulalar fillərə qorxub hürürlər,
tula cəsarəti qorxudan imiş.

* * *

Tulalar xarici səyahətdədi,
fillər vətənində əsir saxlanır.

* * *

Tulalar sonradan şəkil çəkdirir,
fillərin yanında görünsün deyə.

* * *

Demaqoq, şarlatan nüfuz qazanır,
əlbəttə, şarlatan nəzərlərində.

* * *

...ismin hər halında o hallanardı.

* * *

Sərçələr oxuyur qartal yerinə...

* * *

Hardasa namərddi, o, hardasa lal,
yaxşını vurmaqda hazırdı dərhal.

* * *

Başqa xalqın tarixinə boyun əyər,
boynu sınmış öz xalqından xəbərsizdi!

* * *

Millətlə gizlənpaç oynamaq olmaz...

* * *

Ağıllıyam deyənləri
ağılsızlar yola salır.

* * *

Özgə bizə söz deməz,
Özümüzə mərhaba!

* * *

Oğul əl qaldırır öz anasına,
lənət bu dünyanın bu vəfasına.

* * *

İstedadı boğmaqda
Şərqin təcrübəsi var.
İstedadsız olanın
hardasa yiyəsi var.

* * *

İstedadın yolunda
təqib, təhlükə gördüm,
üstündə ləkə gördüm.

* * *

İstedadın kütlərə,
allahlara, bütlərə
sitayişi fəlakət!
Qorxuludur bu adət.

* * *

Bir baş düşünürsə ölkədə yalnız,
bəs nəyə lazımdı bizim başımız?!

* * *

Bizə yalvarmağı öyrədirsiniz,
tələb eləyəndə rədd edirsiniz.

* * *

Ceyranlar ovlanır düzə çıxanda,
istedad qovulur üzə çıxanda.

* * *

Dahilər təqib oldu,
adilər təltif oldu.

* * *

Biri "Mercedes"ə hissə axtarır,
o biri çörəyi nisyə axtarır...

* * *

Aşağı axtarır, yuxarı "yoxdu",
aşağı ac gəzir, yuxarı toxdu...

* * *

Azadlıq istəyib, müstəqil olduq,
gəlmələr müstəqil, biz fəqir olduq...

* * *

Xarici maşınlar dalbadal keçir,
lallar dil açıbdı, natiq lal keçir...

* * *

Vətəndə hər kəsin öz vətəni var,
Hər kəs közü çəkir öz qabağına...

* * *

Tarixə biz danışdıq
tarixi həqiqəti.
Novator estetlərin
çatmadı cəsarəti!

* * *

Qorquddan, Babəkdən misal çəkirsən,
Qorquddan, Babəkdən özündə nə var?!

* * *

Baxıb deməyin ki, dəniz duzludur,
balıqlar içdiyi tərtəmiz sudur.

* * *

Mığmığa səsinə həssas olanlar
şahin naləsini eşidə bilmir.

* * *

Yaşda – kötükcəsiydi,
başda – özünə həmyaş.

* * *

Yetmiş il planlar doldu ölkədə,
Axırda nə gördük! – Ac qalıb ölkə.

* * *

Əlin qabarından zövq alırdılar
alının tərini tərifləyənlər.

* * *

Qızıl ulduzlara bürünürdülər,
amma ayaqlarda sürünürdülər.

* * *

Əsl həqiqəti elə danırlar,
düzə yox, yalana inanır insan.

* * *

Yerdə, natəmizlik içində insan
təmizlik istəyir ulu Tanrıdan.

* * *

Hərə öz bağına aparır suyu,
Hər təzə məhlədə təzə bir quyu.

* * *

Vətəndə hər kəsin ayrı vətəni,
biri dilənçidi, biri "mədəni".

* * *

Biri vətənini qoruyur, fəqət
o biri vətəndən qorunur əlbət.

* * *

Birini dindirsən, görərsən gülər,
birini dinləsən, yanıb tökülər.

* * *

Gərək daş olasan, dəmir olasan,
daş-dəmir içində xəmir olasan.

* * *

Bir dahinin taleyinə necə qıydı Zaman belə?
nə divanlar tutdu getdi, çarxı dönmüş dövran belə?!

* * *

Namusuna yüz and içən,
Vətən üçün candan keçən,
vətənini satan da var,
bir sırada oturublar.

* * *

Zaman elə yaman qarışıbdı ki,
natiqlər içində itibdi millət.

* * *

Millət ac qarına nifrət eləyir
tərif etdiyiniz tox qarınlara.

* * *

Bir xalqın dilini ağzından almaq...
Bilmirəm, bu necə mədəniyyətdir?

* * *

Sözlər yəhər kimi gəzir at üstə,
şüurlar toqquşur siyasət üstə.

* * *

Qanunlar qaldırır bizi ayağa,
qanunlar sonra da çırpır torpağa.

* * *

Bəlkə, su çıxsaydı yerin dibindən,
ayaqlar altında qalmazdı vətən.

* * *

Neft mənim ölkəmə fəlakət oldu,
nə xeyir, nə də ki bərəkət oldu.

* * *

Qulaq gətirdilər, kar olmaq üçün,
göz təklif etdilər, kor olmaq üçün.
Ağız gətirdilər yumulmaq üçün,
Ağız içində dil, lal olmaq üçün.

* * *

Vədələr verdiniz bu kürsülərdən,
sizi doyurduqca, ac qaldı vətən.

* * *

Müstəqil, suveren bir məmləkətə
millət səs vermirsə, vay o millətə.

* * *

Toyuq nəzərilə baxsalar, yəqin,
arpa bazarında bizimki tutmaz.

* * *

Nazir stolundan yıxılan kəsi
fəhlə çarpayısı qaldıracaqmı?..

* * *

İndi torpaq sevinir,
yadlar çıxıb ölkədən.
Necə dar görünürdü,
necə gen olub vətən.

* * *

Namusu, qeyrəti alıb satdınız,
mənsəbə-şöhrətə gəlib çatdınız.

* * *

Bir də ki, heç zaman yandım-öldümdən
xeyir görməyibdi dünyada vətən.

* * *

Heykəl var, məzara gömülsün gərək,
məzar var – heykəli qoyulmalıydı...

* * *

Cibləri doyanın gözü doymayır...

* * *

Baxıb quruyuram heyrət içində,
millət axtarıram millət içində.

* * *

BAZAR sizinkidir, VƏTƏN mənimki!

* * *

Bəlkə, qanımızda naqislik olub,
Mənəvi çürüyür, bəlkə, cəmiyyət?!

* * *

Yaşlı nəsilinki mənəviyyatdı, –
o da bizim kimi köhnəlir əlbət.

* * *

Vətəndə istedad gözdən düşürsə,
gülən məddah olur, ağlayan vətən.

* * *

...infarktdan yatırmış cəmiyyət özü.

* * *

Kimsə deyibdi ki, kişi ağlamaz,
hanı gülə-gülə ölən kişilər?

* * *

Fəxrimiz olanı dövlət qoymadı,
fəxrimiz olmayan fəxri ad aldı.

* * *

Sətiraltı yazdıq düz sözümüzü,
özgəyə dedirtdik öz sözümüzü.

* * *

“Kimin sualı var?” yazmışdım o vaxt,
cavabı özümdən istəyirdilər.

* * *

Sizə kiçik olsun, bizə də rəhbər,
Aldığı arvada ərə gedənlər.

* * *

Şamın işığıyla
günün şöləsi,
dərənin dibiylə
dağın zirvəsi,
yaxud qabarlı əl,
boyalı dırnaq,
yəqin, müqayisə olmayıb heç vaxt.

* * *

Bərkə düşə-düşə bərkiyər çənə,
gündə sıyıq yesə,
diş də tökülər.

* * *

Niyə istedadlının
üzündə həyası var?
Niyə istedadsızın
hardasa arxası var?
Üstündə etiketi
böyründə markası var.

* * *

Niyə istedadlıda?
istedadı danırlar.
Niyə istedadsızla
daim maraqlanırlar?

* * *

Niyə istedadsızı
tərifləyir həriflər?
Niyə istedadlıya
Deyilmir o tariflər?..

* * *

Bəzi tənqidçilər
sağlıq deyirlər,
qədəhi çatışmır yalnız əlində.

* * *

Kəlamlar yaradan millətə əhsən! –
dilini xərcləyən natiqə yazıq.

* * *

Düz söz eşidəndə – həyasız olur,
Həqiqət deyəndə – böhtan sayırlar.

* * *

Qabağa çəkirlər
tələm-tələsik
bəxti özündən tez doğulanları.

* * *

Budur taleyimiz,
son mənzilimiz, –
tabutda gör necə əziz oluruq.

* * *

Acı söz deməyə həvəskarıq biz,
vaxtında – xoş sözə xəsis oluruq...

* * *

Kasıbla varlının tutmaz söhbəti,
millət bir olsa da, maraq bir deyil.

* * *

Şair vətənində təqib olursa,
o xalqın başında xata var demək.

* * *

Eşqin pedaqoji qanunlarından
heyf, institutda dərs keçilməyir.

* * *

Sabir olmaq çətindi, şair olmağa nə var...

* * *

Məhəbbəti satın alır pul verən
məhəbbətə can verənin əlindən.

* * *

Harınların
qarnı toxdu, gözü ac.

* * *

Can satılır, – oyaq satır, yatan satır,
Satan alır, alan satır, satan satılır.

* * *

Əzan gedir... – aşağıda Quran satılır.

* * *

...dilimizi əyə-əyə bir söz düzəldən
özünü də, milləti də salmasın əldən.

* * *

Bakı nefti Moskvanın qan damarıydı,
Neft çıxaran Azərbaycan oğullarıydı.

* * *

“Vurğun bağı” mən gördüyüm o bağ ki deyil,
Baxan baxır, görən görür – uşaq ki deyil?

* * *

Kim deyir ki, filankəsi yola ver,
yedəyini, demək, başqa ələ ver!

* * *

Şahin hökmdara xidmət eləyir,
odur ki, həmişə təzə ət yeyir.
Bülbülün səsidi bizi mat qoyan,
yemi çəyirtkədi, ya da soxulcan.

* * *

Aman, tələbəlik...
röya kimisən,
kasıblıq sözünün sinonimisən.

* * *

Şöhrət!
sən elə bir nemət olursan,
çıxırsan kiminin güzarı üstə;
kiminin özünə qismət olursan,
qonursan kiminin məzarı üstə.

* * *

Bir insan naxoşsa, sağaltmaq olar,
cəmiyyət naxoşsa, həkimlik azdı.

* * *

Vəzifə hərisi qalxsa kürsüyə,
"əlvida" deyəsən gərək hər şeyə.

* * *

Bəzən sözümüzdə də, şeirimizdə də
ayaq hökm eləyir baş əvəzinə.

* * *

Bəzən çəkilirik boğazdan dara,
ilham qurban gedir ilhamsızlara.

* * *

Bəzən küt başına bir yekəpərin
sığal da vururlar daş əvəzinə.

* * *

Yerin alt qatını axtardım, ancaq
yerin üst qatını itirdim, heyhat...

* * *

Qərb odlu silahlar icad edəndə
Şərq muğamat üstə fikirləşirdi.

* * *

Yenə rüşvət əleyhinə rüşvət alan var,
mənim doğru dediyimdə yoxsa yalan var?!

* * *

Millət – baş meydanda möhür əvəzi,
Torpaq – suverenlik vərəqəsiydi.

* * *

Namərd bəs eləmir, “bəsdi!” – deməklə,
toyuq da getmir heç “kiş” – eləməklə.

* * *

Bir hacı on dəfə gedir Məkkəyə,
bir hacı dalınca neçə ac gəzir.

* * *

Vəzifə üstündə didişhadidiş, –
yaralı yerimiz, demə, bu imiş.

* * *

Bilmirsən səfirdi maşında keçən,
yoxsa alverçidi, Dubaydan gəlir.

* * *

...vətəndə doğulub, vətəndən deyil.

* * *

...ərsəyə çatsan da, ayılmamısan.

* * *

Ən yaxın mənzili qoltuq cibidi,
ən uzaq qohumu doğma anası.

* * *

Dilə bal bələyib biz bal qoxuduq,
xalqlar dostluğuna xalça toxuduq.

* * *

Bu axmaq dünyanı yola salmışam,
Mən çox bildiyimdən tez qocalmışam.

* * *

Mən nə qədər qalstuklu nadan görmüşəm,
"şeytanlara" mən daş atan şeytan görmüşəm.

* * *

Yüz yerə yozmayın fikrimi, ancaq
Siz də mənim kimi düşünün barı.

* * *

Adamların yaxşısını zay eləyirlər,
Deyən yoxdu kimi kimə tay eləyirlər?!

* * *

Bilən də o, bilməyənə tabe olan da...

* * *

Mən yuxulu gəlib-getdim
dünyaya, Tanrım,
mən bir ayıq görmədim ki,
ayılda məni...

*Dünyanın işləri*
*tərsinə dönür,*
*Dünya –*
*"riyaziyyat"*
*dərsinə dönür...*

* * *

Özgələr torpağında
düşməni, yadı döydü,
Bizimkilər, əksinə, –
evdə arvadı döydü.

* * *

Özgələrin alimi,
Şairi, dühası çox.
Ancaq bizimkilərin
Hacısı, mollası çox.

* * *

Elə ki qalxdı biri,
artdı qulluq və şöhrət.
Vəzifə stolundan
axmaq göründü millət.

* * *

Özgələr bizə baxır
dünyanın yazığıtək.
Özümüz özümüzə
baxırıq bir yağıtək.

* * *

Qoltuqda böyüdün, qoltuq şairi,
düş yeri, desələr, sən yıxılarsan.

* * *

Biri vəzifəni dondurub gedir,
biri vəzifəni özəlləşdirir.

* * *

Biri də, nə bilim, əvəz eləyir,
bir “kadr” tapınca, o bəs eləyir.

* * *

Adam axtarırlar adam yerinə,
adamı qoyurlar avam yerinə.

* * *

Vəzifə bölümü, məmur seçimi
“həyat sevdası”dı, “ömür” seçimi.

* * *

Dövran sənətkarla yola getməyir,
Füzuli deyəndə mən inanmadım.

* * *

Ucaldım, kürsüdən kürsüyə çıxdım,
Heç sətir altından çıxa bilmədim...

* * *

Rəiyyətin bəyi çoxdu,
xanı çoxdu, –
– Xaqanı yox.

* * *

Neft – xarici şirkətlərin,
Yer – millətin.
Göz dağıdı neft, Allahım,
əsiriyik bu sərvətin.

* * *

Tükəndimi yer üzündən –
Haqqa ruhani bir ülfət,
Ülfətdə gördüyüm vəhdət?!

* * *

Allah, Allah, var olanlar yoxuydumu?
Oyaq dünya yuxuydumu?!

* * *

Artır var hərisi, dövlət hərisi,
tarixə ləkədi, torpağa yamaq.

* * *

Erməni dığalar qırırdı bizi,
Müsəlman dığalar qoymur yaşayaq.

* * *

Bir tikə çörəyi tapmaq asandı,
azadlıq tapmırıq azad olalı.

* * *

Mənim taleyimə uzandı əllər,
kimiydi? – toxların ac mafiyası.

* * *

Üstümə hürdülər günortaüstü
qulağı kəsilmiş əl tulaları.

* * *

Gedin, tərifləyin bir-birinizi,
mən bir ömür sürdüm, siz sürün iki.

* * *

...taraz yerisə də, o natarazdı,
özündən özünə bir etirazdı.

* * *

Oxuyur Qaratoyuq
bülbülün ləhcəsilə,
mat qoyur cəh-cəhilə.

* * *

Dünyanın əzəlki axar-baxarı
gör necə dəyişdi bir an içində.

* * *

Sətiraltı yazdıq düz sözümüzü,
özgəyə dedirtdik öz sözümüzü.

* * *

Kimsə karlığını sübut etməsin
yanımda qışqırıb danışmaq ilə.

* * *

Camaat özü də bir haya düşdü,
ortabab şairlər ortaya düşdü.

* * *

Müəllim – həyətdə gözətçi olub,
dünənki qəssabı qoruyur polis.

* * *

Məktəb direktoru xidmətçi olub,
fatihə oxuyur çadırda artist.

* * *

...çürüyüb ağızda söz boyat olur.

* * *

Millət unudulur, millət dedikcə
arxaik sözlərə nəqərat olur.

* * *

Rusdan ingilisə keçir uşaqlar,
dəyməyin, başları “salamat” olur.

* * *

Yəqin, dərsimizi düz veribdilər,
cəsarət olmamış, ehtiyat olur.

* * *

Vətəni veriblər, bağ istəyirlər
Bağbanın üstünə düşən kişilər.

* * *

Vətən oldu, məhbəs oldu Qafqaz mənə,
Mən azadlıq istəyəndə, qəfəs oldu Qafqaz mənə.

* * *

Qafqaz boyda daşıdılar, Qafqaz, səni,
Xəzər, səni, Kürüm, səni, Araz, səni.

* * *

Qərbə, Şərqə saray qurub, ev tikməyi öyrədənlər,
Sonra gedib qaranquşdan yuva tikmək öyrəndilər.

* * *

Əsir Qafqaz evdə Novruz bayramını qeyd elədi,
Dağda-daşda pencər yığıb, yemlik yedi.

* * *

Qanlı yanvar qaniçəndən yadigardı,
ona – ləkə, bizə – vətən yadigardı.

* * *

Biz Allaha yalvarırıq, xatırlayıb uluları,
kölgə kimi ayaqlanır yerdə insan hüquqları.

* * *

Mənim azadlığım sanma çörəkdir,
AZƏRBAYCAN AZADLIĞI gərəkdir.

* * *

Düşdü fəryadımla ahım dağlara,
sədam yetişmədi kar qulaqlara.

* * *

Nə şeirə, nə sözə hörmət etdilər,
bir şair görəndə nifrət etdilər.

* * *

Ölü ürəklərdə həvəs görmədim,
Bir isti, bir doğma nəfəs görmədim.

* * *

...həvəsdən, ilhamdan salanlar səni
böyük stollardan salınacaqdır,
xalqların qisası alınacaqdır.

* * *

Böyük bir şairin taleyinə bax,
pozmuşdur pozulmuş cəmiyyət onu.

* * *

Şeiri döyüşlərə gedən şairin
özü yol üstündə qalıb pərişan...

* * *

Deyirlər ki, tora düşər quş dimdiyindən,
düşdüm mən öz dilimdən yox, şeir dilimdən.

* * *

Vətən,
tarixçidən ya tarix istə,
ya şairə tapşır, ya jurnalistə.

* * *

Bu heykəl qoyanın əli qırılsın,
qaldı torpağımız, daşımız üstə.

* * *

Heykəl – müstəmləkə embleması,
nadzordu, əfəndim, başımız üstə.

* * *

Ancaq yüz illərlə yad bayrağını
asdıq bayramlarda öz qapımızdan.

* * *

Mənim hər sözümdən şübhəliydilər,
ya lap kütüydülər, ya dəliydilər.

* * *

Mənə "yazmaq" öyrədirdi bəzi cənablar,
onda belə qarışıbdı buğdama – çovdar.

* * *

...məhv etməyi öyrədiblər bizdə hər kəsə,
fəxr etməyi öyrətməyib millət, nədənsə?!

* * *

Tərcümə dilində dərs oxudular,
təmizi təzədən "təmiz" yudular.

* * *

...təzyiqə təzyiq var içimdə, həkim.

* * *

İlahi, dahilər adi görünür,
yanır sağlığında odlar içində.

* * *

Gördüm ki, yasda da ayrıseçkilik,
Toyda, iclasda da ayrıseçkilik!

* * *

Çadırda millətin soyuq nəfəsi,
sərhəddə erməni müharibəsi.

* * *

O boyda savadlı bir ailədən
sən boyda oxumuş bir nadan çıxıb.

* * *

Axtardığım itibdi,
mən gəzmişəm o ki, var.
Sonra özüm itmişəm,
özümü axtarıblar.

* * *

Rus dəyişmədimi əlifbamızı?
Fars ayırmadımı el-obamızı?
Erməni məscidi yandırmadımı?
Bu bizi ayıldıb qandırmadımı?

* * *

Elmin qapısına – tapşırılan kəs
elmdən büsbütün xəbərsiz gəlib.

* * *

Təmkin əvəzinə xalis təkəbbür,
Stol arxasında "müsbət" bir obraz.

* * *

Mən öz hesabıma qalxdım həyatda,
mənim hesabıma ucaldı o da.

* * *

Mən indi bildim ki, mənim sığala,
onun da təhqirə ehtiyacı var.

* * *

Kişidən maaşı, qadından yaşı
soruşan, nə bilim, nə qulbeçədi?!

* * *

Gözüaclıq deyilmi
hər şeyə nail olmaq? -

* * *

Dəyişib əvvəlki etika, filan,
Millət o millətdi, tələbat ayrı!

* * *

Susan da özüydü, ufuldanan da,
əvvəl təsdiq edib, sonra danan da.

* * *

Onun ilk məhəbbəti
bunun əyləncəsiydi.

* * *

Unu ələyirlər, bir kəpək qalır,
unu yox,
kəpəyi tərifləyirlər.

* * *

Qızlara "Cip" bağışlayır kişilər,
kişiliyi – görün nədə görürlər?!

* * *

Çalğıçılar qəlbi yox,
cibi tərpədirdilər.

* * *

Azərbaycan toyunda
cəngəlliklər havası...

* * *

Barmağında üzüyü
dəbdi, niyyətdi bu da.
Əynində qız köynəyi –
mədəniyyətdi bu da.

* * *

...Ziyalının mütisi
susur, –
zillətdi bu da.

* * *

Hər şeyə tərif demək,
əl çalıb mədh eləmək –
qadağan olsun gərək.

* * *

Qiymətli sözümüz, qələm dostlarım,
bəzən ucuz olub nadan yanında.

* * *

Hər kəs öz "ədəbi" şöhrətindədi,
doğma ədəbiyyat kənarda qalır.

* * *

Adam var, özünü təmkinli tutur, –
satır ucuzunu baha qiymətə.

* * *

Gərək təriflənən
qızarsın bir az,
Tərif deyənin də
həyası olsun.

* * *

...dili dandığını gözü görürdü.

* * *

Ovcu qabar bağlayan
əllərin,
Boş ciblərin,
sağ canın sağlığına!

* * *

Maaşı zəhmətindən
aşağı olanların
sağlığına!

* * *

Haqqını tələb edən
bütün arxasızların,
bütün atasızların
sağlığına!

* * *

Nemət sayılsa da təvazökarlıq,
daim istedadı dala salıbdı.

* * *

Sadağa istəmə,
tələb et ancaq,
yadında saxla ki, şöhrət verilməz.

* * *

Biri – "qaç" deyəndə, biri "dur!" – deyir.
Birinin səhvinə o biri yanır,
Oyanan yatanda yatan oyanır.

* * *

Birinin üzündə
soyuq təbəssüm,
birinin alnında
tər oda döndü.

* * *

Bir roman yazırlar, bir kəlam qalır,
o da hər yazının olmur qisməti.

* * *

Mən indi bildim ki, vəzifə yükdü.
yük altda daimi bir imtahan var.

* * *

Çoxu qohumbazdı, yerlipərəstdi,
amma millət deyir, millətə qəsddi.

* * *

İndi hər kafedra bir xanlıq olub,
Hər alim –
ayrıca dekanlıq olub.

* * *

Birinin qoluna toxunsan əgər,
bütün sitatları əzbərdən deyər.

* * *

Nadan arifanə deyir sözünü,
bilikli yerinə qoyur özünü.

* * *

Dəstələr düzəlib, söz demək olmur,
Həqiqət deyirsən, həqiqət budur.

* * *

Deməyəndə –
deyirlər ki, avamdılar.
Deyəndə də
deyirlər, yox, tamamdılar.

* * *

Yeni yazarlar çıxıb.
yeni ədəbiyyatdı.
Yazırlar ki, təzədi,

Oxuyuram,
boyatdı.

* * *

Şekspirin baxan yoxdu pyesinə,
tamaşa var, təriflənir
“bəh-bəh” ilə.

* * *

...xırda tayfalara bölünüb millət.
Hərə özününkünü çəkir qabağa,
kimsə başa keçir, biz də ayağa.

* * *

Kitab deyil,
elə bil
başmaq tərifləyirlər.

* * *

Ədib deyil, elə bil
pustalçı tərif olur,
oxucu hərif olur?!

* * *

Bir yandan filankəsin
artır xətri-hörməti;
bir yandan ucuzlaşır
kitabının qiyməti.

* * *

Azalır oxucular,
satıcılar dərd çəkir.
Müəllifin yerinə
millət xəcalət çəkir.

* * *

Bir qəlbə iki hiss necə giribdi,
necə dostluq edib hörmət, xəyanət?!.

* * *

Amma tərifləri zaman çox pozub,
bədgüman olmasın xain özündən.

* * *

Pislər yaxşı bilir nədir haqları,
hər sözü üfürüb söz eləyirlər.

* * *

Pislər yaxşıları pis eləyirlər,
o zaman qoruyun siz yaxşıları.

* * *

Hardasa namərddi, o, hardasa lal,
yaxşını vurmaqda hazırdı dərhal.

* * *

Mənfilər, müsbətlər dünyasıdır bu,
Bəlkə də, dünyanın mənasıdır bu?!

* * *

Yaxşılar yüz olsa,
azdı bu – mütləq,
pislər iki olsa, qalib gələcək.

* * *

Amma insan da var, gönü qalındı,
fikri xəyanətdi, niyyəti qərəz.
Onun ayağı yox, başı yalındı,
əlbəttə, söz ona təsir eləməz.

* * *

Yaşaya bilməzmi başqa ölkələr,
niyə bir başçıya baş əysin bəşər?

* * *

Bizim də uçmağa qanadımız var,
səmamız yoxdu ki, cövlan eləyək.

* * *

Sözün sultanlığı, bakirəliyi
Şeyx Nizamiylə qurtardı, yəqin.

* * *

İndi zəkalılar şübhəli olub,
yalnız rütbəliyə hörmət görürəm.

* * *

Hələ bir səfirdən, bir şahzadədən
xeyir görməyibdi bu torpaq, oğul.

* * *

...ölü ikən diri odur,
diri ikən ölü bizik.

* * *

Füzulidən sonra ucuzlaşdı söz...

* * *

Şeir qışqırırdı "qisas!" deyərək,
şeiri köçürənlər susurdu hələ.

* * *

Gəlsə ilham pərisi,
icazə almalıydım,
ya cəza almalıydım.

* * *

...sərçə ilə qartal kimi,
ya şam ilə tonqal kimi
görünürdü bəziləri.

* * *

Qarğa kəklik yerişini yeriyirdi...

* * *

Meşədə qarğalar qarıldaşırlar,
bülbüllər qısılıb kənardan baxır.

* * *

...sözdən-sözə yamaq salan pinəçilər
gedib meşin qapılarda yallanırdı.

* * *

Kürsüyə qalxanda "atışırdılar",
kürsüdən düşəndə "yatışırdılar".

* * *

Fikrin odu söndü, sözün kəsəri,
Nə Sabir yetişdi, nə Mirzə Cəlil.

* * *

Ovcunun dalıyla sildi gözünü,
orda yaş yox idi bir damcı belə.

* * *

Xalqlar yurdlarından köçürülürlər,
xalqlar qıl körpüdən keçirilirlər.

* * *

İtir torpaqların müqəddəsliyi,
kim nə cür istəyir, yazır dərsliyi.

* * *

Neçə sənətkara böhtan yazıblar,
boyun əyməyənə “boyun” asıblar.

* * *

Ölüm şərbətini içirdibdilər,
sonradan yubiley keçirdibdilər.

* * *

Əvvəl öldürüblər bir qəhrəmanı,
sonra da adına küçə qoyublar.

* * *

...tale axtaranın həyatı qaldı.

* * *

Siyasətə qurban gedən
siyasətdən uzaq idi,
və... siyasi dustaq idi.

* * *

Birində ürək sözü,
birində böhtan özü!
Biri insan gözüdür,
o biri bayquş gözü.

* * *

Biri ya üzlüdü, ya tərbiyəsiz,
ona da deyirik: əsl mübariz.

* * *

Biz də xalqlar sırasında ya yetişək bir xalq olaq,
Ya əzilək nəsil-nəsil, ayaq altda tapdaq olaq.

* * *

Görkəmini dəyişibdi indi şəhər, –
köhnə geyən ziyalıdı, təzə geyən – alverçilər.

* * *

Nəslin bir xalı da keçir nəsilə,
ömrün dərkolunmaz qanunu budur.

* * *

...zəkalar qul oldu bisavadlara,
Taxtdan kölə düşdü və kölə keçdi.

* * *

Yazanda inandıq, yoxuydu danan,
indi də pozanda bizik inanan.

* * *

Namusun, qeyrətin, ismətin gedir,
Bunların dalınca getmədin, gedir.

* * *

Şairə inandıq şeir deyəndə,
artistə inandıq o baş əyəndə.

* * *

Müğənni səhnədə muğam oxuyur,
o da qışqırmasa, əl çalan olmur.

* * *

Dondurulmuş ət yeyirdik onda biz,
indikindən sağlam idi mədəmiz.

* * *

Məddahlar yetişir, təmizləyən yox,
təmiz adamlar var, təmiz deyən yox.

* * *

Məddah bir ev tiksə, ev mafraq olar,
onu da yel yıxar, üstündən əssə.

* * *

Bir məddah görmədim mən vəzifəsiz,
məmur da görmədim, məddah olmasın.

* * *

Nə qədər şair var indi dünyada,
Şeyxim, sən atlısan, onlar piyada.

* * *

Əzəli hökmüdür bu, cəmiyyətin,
Kimə "danış" deyir, kimə "sus", – deyir.

* * *

Toy tutulur təmizliyə, düzlüyə,
pis qabağa, yaxşı yana çəkilir.

* * *

Oğru durub doğruluqdan dəm vurur,
nanəciblər nəciblərə tor qurur.

* * *

Dünyanın işləri
tərsinə dönür,
Dünya –
"riyaziyyat"
dərsinə dönür...

# V Hissə

***... "Can,***
***Azərbaycan..."***

*Qılınc götürməsə tarixdə*
*bir xalq,*
*Ayaqlar altında*
*itib-batacaq!*

* * *

Azadlıq hər xalqın ilk nəğməsidir.

* * *

Hünərsiz insan da,
ölkə də,
xalq da
tarixsiz, şərəfsiz bir quru səsdir.

* * *

...doğma torpağında vuruşan bir xalq
beşiyi başında vəhşi olarmı?!

* * *

Yüz il ehtiyatla dərd eləyiblər
bir gün hünər üçün vaxt tapmayanlar.

* * *

Azadlıq istəyən ehtiyat etməz,
səngərdə, unutma, ehtiyat olmur.

* * *

Xəbərdarlıq deməkdi
hər xalqa öz tarixi,
təkcə məlumat deyil.

* * *

Torpaqda hər xalqın yadigar izi
öz xətti, öz adı, öz ünvanı var.

* * *

Dünyada mən həsəd çəkirəm ona, –
o kəs ki
birliyə qol çəkəcəkdi.

* * *

Beşiyimiz orda qaldı,
Məzarımız harda qaldı?!
Qaçma, millət!
millət quru yerdə qaldı.

* * *

Ölən qaldı, itən qaldı.
Necə yerdə vətən qaldı.
Qaçma, millət!

* * *

Götürüb qaçdıqca biz başımızı,
qaçırda bilmədik başdaşımızı.

* * *

Səngərindən qaçanın
vətəni qurban gedər.

* * *

Məğrur millət döyüşər,
məzlum millət əzilər.

* * *

Qonşu qonşusuna xəyanət etməz,
sən öz torpağını mənə ver! – deməz.

* * *

Sən pələngsən, Azərbaycan,
tülkülərdi yanın-yörən...

* * *

...vuruşsun millət gərək,
yoxsa yox olar, oğlum.

* * *

...vətəni olana "yazıq" deməzlər.

* * *

...babası dünyada yazıq olanın
yoxmuş vətən haqqı, ya torpaq haqqı,
yoxmuş yer üzündə yaşamaq haqqı.

* * *

Millət – vətənində nabələd olur,
öz böyük oğlunu
tanımayanda.

* * *

Boyunu uca gördüm
mən qısa boyluların.
Boyu da uzanırmış
Vuruşan oğulların.

* * *

Uçan başdaşlarının
hərəsində bir iz var.
Əski əlifbalarda
əski tariximiz var.

* * *

Torpaq insan kimi danışa bilər,
danışdıra bilsək, biz ehtiyatla.

* * *

Xalqın torpaq kimi – salnaməçisi,
torpağın xalq kimi yaradanı var.

* * *

Torpağından gen düşənlər
özündən də gen düşürmüş.

* * *

Yaşayaq, yaşadaq gərək tarixi,
tapmaca deyil ki! –
tarix yozulmaz.

* * *

El deyəni pozan olmaz,
eldən yaxşı yozan olmaz.

* * *

Müdriklər seçiblər ağı qaradan,
süddən sələm olmaz, torpaqdan əvəz.

* * *

Vətən – oddan keçib,
alovdan keçib,
dönmə, vətən oğlu,
bu yoldan,
and iç!

* * *

Vətən torpağının öz istisi var.

* * *

İgid ölümdən yox, qorxsun ləkədən,
Sağlığında ölür ləkə götürən.

* * *

Baş kəsən kimdirsə, əslinə baxsan,
O dost olsa belə, düşməndir, inan.

* * *

...müharibə görən kəs
Müharibə sözündən
indi qorxmaya bilməz!

* * *

Qafqazda baş əyən, diz çökən bir kəs
heç zaman qafqazlı sayıla bilməz.

* * *

...andı pozmaq xəyanət olur,
Şəhid – hökmdarla bərabər durur.

* * *

Tarixi – şahların istədiyitək
Tarixçilər yazır – belədi gerçək.

* * *

...alın yazısıdır hünər və namus.

* * *

...tülkü yuvasından şahmar çıxıbdı.

* * *

Ağaclar kəsilib çıxır dibindən,
Deyirlər, bizimdi yüz ilə bitən.

* * *

Qonşu bələdçidir, düşmən qəsbkar,
belə ittifaqda cəbhə yaradar.

* * *

Bir yerdə olarsa, hünər, sədaqət, –
basılmaz meydanda bu iki qüvvət.

* * *

Tələsmə, tələssən, düşmənin duyar,
gecikmə, geciksən, əlin soyuyar.

* * *

Oğlum, kölgəndən də hələ şübhələn,
sənin yox, düşmənin olar o birdən?!

* * *

...sonuncu arxadı oğullar, oğlum.

* * *

Yıxıldın, ayağa qalxmağı bacar.

* * *

Düşmən yarasının bir qəmi yoxdu,
vətən yaralansa, məlhəmi yoxdu.

* * *

Gərək soyumasın isti yuvalar,
namus davasıdı bütün davalar.

* * *

Hünərə çatdırmaq azdı milləti,
Hünər göstərməkdi şahın xidməti.

* * *

Hərbi yürüşlərdə tərəddüd olmur.

* * *

...latın hərfi ilə söz yazan əllər,
daşda donub qalıb daş qəbilələr.

* * *

Şəhidlər ölmürlər dünyada heç vaxt,
Zamanla yenidən doğulur ancaq.

Bayraqlar qalxanda doğulur onlar,
qılınclar çıxanda doğulur onlar.

* * *

Biz öz yaramıza duz basmalıyıq,
ağrımız artdıqca, biz susmalıyıq.

* * *

İşğalçı ordudan, namərd qoşundan
bir gün qisasını alacaq zaman.

* * *

And için, bir anda möhtacdı Qafqaz,
qartal and içməsə, zirvəyə qalxmaz.

* * *

Güzəştə getməsin igid oğullar,
Güzəştin sonunda məğlubiyyət var.

* * *

O vətən ki tapdalanır ayaq altda, vətən deyil...

* * *

...millət də bəzən tək qalır,
onu da tək görüb hərifləyirlər.

* * *

Tarix bizim olubdu,
tarix yazan özgələr.
Tarixə düşməyibdi
bizim tarixi hünər,
bizim tarixi kədər.

* * *

Yandı odlar yurdu odlar içində.

* * *

Meydan görməyənlər meydan oxuyur...

* * *

Azadlıq qan üstə qurulur, Allah!..

* * *

Torpağı zəbt etmək dərsi keçmədik,
qonşunu öldürmək dərsi keçmədik...

* * *

...bizim qanunlarda bu, yasaq oldu,
xalqı talamaqdan xalq uzaq oldu.

* * *

...vətəndə vətənsiz yaşamaq olmaz.

* * *

Dünya elədir ki, qanı tökülən
heç vaxt qan tökənə oxşaya bilməz.

* * *

Tarixdən imtahan götürənlərin
tarix imtahana çəkir özünü.

* * *

Böyük millətlərin qorxusu çoxdu,
Kiçik millətlərin yuxusu yoxdu.

* * *

Qazın bu torpağı, hər qatı qandı,
Hər uçuq baş daşı bir qəhrəmandı.

* * *

Torpaqda sürünən kərtənkələlər
hər fəsil dəyişib bir rəngə girər.

Amma xəyanətin yoxdur əsası,
insanda qalmayır insan qisası.

* * *

Dağ-dağa söykənsə, sel yuya bilməz,
ayrılsa, el-eli qoruya bilməz.

* * *

Milyon əl qalxmasa, bir bayraq olmaz...

* * *

Yer altda şəhidlər danışacaqlar,
yer üstdə şahidlər susdurulsa da.

* * *

Şəhidlər yıxıldı bir-bir torpağa,
millət milyon-milyon qalxdı ayağa.

* * *

Hünərsiz bir ölkə məhkumdu, sözsüz.

* * *

Düşməni – mərdlərin qılıncı ilə,
Dostu – at belində yapıncı ilə.

* * *

Yaşayaq, yaşadaq gərək tarixi,
tapmaca deyil ki! –
tarix yozulmaz.

* * *

Bizə düşmən çıxıb dost dediyimiz...

* * *

Qaçqın – bir millətin gözündə yaşdı,
Zəmanə ən böyük heykəltəraşdı.

* * *

Tarix avam deyil, torpaq səbirsiz...

* * *

Gələcək ölçüdü, mizan-tərəzi,
Misqalla çəkəcək qəsdi-qərəzi.

* * *

Qılınc qurşayana qanun kar etməz.

* * *

Vətəndaş paltarında
əsgərik hər birimiz!

* * *

Əyilib gül qoyaq Xiyaban boyu
biz belə əyilək əyiləndə də...

* * *

Yetər, arxalandın doğma vətənə,
Vətən arxalansın qoy indi sənə.

* * *

...biz "əlvida" deməmişik, –
"Salam!" Qarabağ!

* * *

Bir səngərə sığar Qafqaz,
bir tabuta fəqət sığmaz!

* * *

Qoy heç kəs deməsin zaman unudur,
hələ imtahanı çoxdur zamanın.

* * *

Dostundan ayrılan – yeddi il ağlar,
vətəndən ayrılan – bir ömür boyu.

* * *

El eldən ayrıldı, yüz elə düşdü.

* * *

Bayraq vətənsiz olanda
itir –
ayaqlar altında.

* * *

Göz yaşı – qan yaddaşıdı bu torpağın.

* * *

Tarixçilər tarix deyir,
tarix özü
sual yazır.

* * *

Türk qılıncı parlayanda
tarixə istiqlal yazır.

* * *

Türk qaçanı nişan almaz kürəyindən.

* * *

Tələsmək bir ordunu bəzən güdaza verər,
Ləngimək də yaramaz...

* * *

Zəmanə yaxşını yamandan seçir.

* * *

Vətən deməyəydi bəziləri kaş,
vətəndaş olaydı....

* * *

İstiqlal qazanan ölkədə yenə
İstiqlal uğrunda vuruşmaq gərək.

* * *

Qəsbkar – torpağın sahibi olmur,
O keşikçi olur bu dərd içində.

* * *

Bizə babalardan qalıb bu torpaq,
biz də... ölənəcən gərək qoruyaq.

* * *

Qılınc götürməsə tarixdə bir xalq,
Ayaqlar altında itib-batacaq!

*Düşmənin*
*avtoqrafı*
*eynidi...*

* * *

İnsan cildində olan vəhşi erməni quldurlarının seçmə oğullarımızı, namuslu qız və gəlinlərimizi qətlə yetirməsi müasir tariximizin ən qanlı səhifələri kimi içimizdə dövr edir. Düşmən məkrlidir, arxalıdır... Azərbaycan türklərinin qanına susamışdır.

* * *

Rusiyada olan bütün erməni əsgər və zabitlər Ermənistana gətirilib, Rusiya həbsxanalarında yatan bütün erməni dustaqları buraxılıb və onların hamısı erməni ordusunun sıralarında Qarabağ cəbhəsində ən yeni silahlarla (rus və xarici) bizə qarşı vuruşurlar.

* * *

Ermənilər daimi gizli düşmənlərimiz olublar; çörəyimizi yeyib, üzümüzə gülməklə yerlərini şirin salıblar. Əslində isə, çoxları içimizdə böyük imperiyanın casusları olublar. Bunu təkzibolunmaz sənədlər sübut edir. Balaca imkan olan kimi, türklərin soyqırımını təşkil ediblər. ... bizi qırırlar və dünyaya özlərinin qırılması barədə yalan məlumat yayırlar. Budur həyasız erməni şovinizminin iç üzü.

* * *

Sovet hakimiyyəti illərində Azərbaycan xalqının başına açılan qanlı oyunlarda erməni millətçilərinin dəst-xəti tarixi sənədlərdə indi çox aydın görünür və arxiv mənbələri elə bu şəkildə, yəni olduğu kimi – daşnak Mikoyandan tutmuş, daşnak Balayana qədər mətbuatda dərc edilməlidir; yeraltı zəhərli suların haradan başlayıb haraya axdığı, sonra da harada üzə çıxdığı, heç olmasa, bəlli olsun.

* * *

...millətçi erməni alimləri və yazıçıları xalqımıza böhtan atır, tariximizi saxtalaşdırıb dünyanın müxtəlif yerlərində və dillərində dərc etdirir, bizə məxsus olan hər şeyi öz adlarına çıxmaq istəyirlər, ictimai fikri çaşdırmağa çalışırlar, əksər hallarda buna nail olurlar da.

* * *

Xalqı ittiham etmək nəinki düzgün deyil, mən deyərdim ki, uçuruma yuvarlatmaqdı.

* * *

Biz nöqsanı özümüzdə yox, özgəsində axtarmaq kimi yanlış xasiyyətə adət etdiyimizdən, hələ əsl həqiqəti danmaq inteqrasiyasından xilas ola bilməmişik.

* * *

Olmazın əzab-əziyyətlərə düçar olan xalq, ağıl, öyüd verən, hirslənib tribunalarda özündən çıxan, sinəsinə döyən və özünü müdrik göstərməyə çalışan natiqlərə daha inana bilmir. Görə-görə gəlib, görə-görə də gedir.

* * *

...Bəs deyilmi, cənab vəzifə sahibləri?! Bu qədər həyat dərsləri sizə aid deyilmi?! Niyə axırınızı əvvəlcədən görə bilmirsiniz; telefon zənglərimizə əhəmiyyət vermirsiniz, salamımızı almırsınız, özünüz gəlib xalqın vəziyyətindən xəbər tutmursunuz...

* * *

Zaman bizim hər birimizdən daha ağıllı, daha təmkinli olmağı tələb edir. Daha səhv etməyə ixtiyarımız yoxdu, bir-birimizə təsəlli verməyə sözümüz də yoxdu. Şəhidlər Xiyabanı bizi yetkinliyə çağırır.

* * *

Народ, который стремится захватить чужую землю, никогда не имеет свою культуру, и не может принадлежать к числу древних народов, потому что он страдает внутренной пустотой, и чужд простым человеческим чувствам.

* * *

Культура в жизни, и культура в декларациях – вот что волнует меня…

* * *

Культура общества – это прежде всего, ответственность каждого человека перед самим собой, перед историей своего народа. Зто то, что мы унаследовали от предков, и что мы, к сожалению, не всегда можем отстоять и достойно представить в нужное время.

* * *

Культура, конечно, это и благородство, если можно так выразиться – человечност человека. В народе говорят: ученым ты можешь стать, а человеком быть трудно. Так и есть.

* * *

Во времена советской власти… у нас выработалась рабская натура… Наше счастье, наша свобода, равенство народов и тому подобные лозунги были ложью…

* * *

Интеллигентный человек, если он цивилизованный, творчески мыслящий, видя… несправедливости, не должен молчать.

* * *

У нас есть интеллигентные, культурные, справедливые люди, надо их поддерживать, надо их беречь. Сегодня мы, как никогда должны сплотиться в единый кулак! Это – требование времени…

* * *

Мы больше не оплакиваем наших погибших. Мы живых поднимаем на смертельную борьбу. Месть сильнее всех страшных орудий…

* * *

Азербайджанцы испытывают чувство уважения ко всем народам. Мы никогда никому не угрожапи, мы хотим только сеять и собирать урожай на своей земле, спокойно растить детей.

* * *

…Как все цивилизованные народы мира, имеющие древнюю историю, азербайджанский народ вел и ведет неустанную борьбу за свободу, суверенитет. По своей природе наш народ является гуманным, гостеприимным, чистым, сочувствует бедам других народов.

* * *

...Yalan məlumat, etinasızlıq, hadisələrin gedişində gecikmək, yaxud tələsmək milli faciələrə gətirib çıxara bilər, çıxarır da.

* * *

Biz hər dəfə “erməni ekstremizmi”, yaxud “erməni mafiyası” deməklə bu məsələyə yenə sadəlövhcəsinə yanaşsaq, onun üstündən ötüb keçsək, yenə də böyük və tarixi səhvə yol verəcəyik, necə ki indiyə kimi yol vermişik.

* * *

Tariximiz olduqca maraqlıdır. Ermənilərin bugünkü xəyanətinin tarixi qədimlərə gedib çıxır. Onlara inanmaq – aldanmaqdı, həmişə güclülərin tərəfində olurlar.

* * *

Mən bir həqiqətə inanıram: bir erməni müsibəti deyilən gün də gələcək. Gərək təcavüzkar bunu unutmasın. Cinayət, cinayətkarlar unudulmur və cavabsız qalmır.

* * *

Müstəqil dövləti olmayanın sərhədi yoxdur. Sərhəd suverenlikdir, ayrıca milli əsgəri geyim formasıdır, latın qrafikalı Azərbaycan əlifbasıdır, nəhayət, millətin mənəviyyatıdır, millətin ləyaqət hissidir. Buna görə də sərhədin qəsdən pozulması vətənin namusuna, qeyrətinə təcavüz sayılır.

* * *

Torpaq bizim olub, sərhəd – özgənin...

* * *

Bizi məhv eləyənlərə heykəllər ucaldıblar.

* * *

Milləti məhv etməyin birinci şərti, sən demə, adət-ənənələri lağa qoymaq imiş.

* * *

Uşağa vəhşilər də dəymir, uşağı it də tutmur, ilan da çalmır. Erməni tutur və yandırır.

* * *

Tariximiz sabaha işıqlı gözlə baxmağı tövsiyə edir.

* * *

Mərdlər ölmür, analar nəsil-nəsil onların adlarını yaşadır.

* * *

Düşmənin avtoqrafı eynidi.

* * *

...Can, Azərbaycan...

# VI Hissə

***“Bəlkə, dünyaya gəlməyin özü təsadüfdü?***
***Bəs niyə dünyadan getmək zərurətdi?!”***

*Əsl şairlər ölmürlər,*
*qeyb olurlar...*

* * *

Bəlkə də, şair vətən sözünün sinonimi kimi yaşayır. Elə buna görə də şairin tərcümeyi-halı vətənin tərcümeyi-halıdı.

* * *

Şairin gülüşü dünyaya etirazdı. Şairin sualı təsdiqdi.

* * *

Şair yazıb-yaratdıqca ayılır və onu oxuyanları ayıldır. Onun qeyri-adiliyi də bundadı.

* * *

Torpaq – ocaqdı.

* * *

Şeir ancaq poetik gözəllik, sənətkarlıq, ideya və məzmun kəsb etdiyi zaman ürəklərə köçürülə bilər. Ağıllarda yaşaya bilər.

* * *

Xalqları bir-birinə ədəbiyyat və mədəniyyət qədər heç bir qüvvə bağlaya bilməz.

* * *

Yazıçıya cəmiyyətin, xalqın tarixini yazmaq, onların adından danışmaq hüququ verilmişdir.

* * *

Vətənin adından danışan oğulun böyüyü, kiçiyi yoxdu.

* * *

Hər bir ədəbi janra o vaxt maraq oyanır və o, ədəbi prosesin diqqət mərkəzində durur ki, həmin janrda işləyən sənətkarın özü istedad sahibi olur.

* * *

Torpaq dünyada öz sərvəti ilə tanındığı kimi, xalq da yetişdirdiyi məşhur şəxsiyyətlərlə tanınır.

* * *

Yazıçının tarixi eyni ilə köçürməyə, yaxud əksinə, onun üstündən xətt çəkməyə haqqı yoxdu.

* * *

...xalqlar da, insanlar kimi bir-birinə oxşayır.

* * *

...bütün xalqı terrorçu adlandırmaq cinayətdi.

* * *

...ədəbiyyat tarixə nisbətən daha geniş, daha fəlsəfi məna kəsb edir.

* * *

Yazıçı bilməlidir ki, dünəndən yazmaq – bu günü göstərməkdir. Tarixi əsərlərin üstünlüyü və çətinliyi bir də bundadı.

* * *

...yalnız çörəklə yaşamaq azdır, mənəvi tələbat daha böyük, özünü daha çox hiss etdirən əbədi daxili ehtiyacdı.

* * *

...poeziyadan danışmaq vətəndən, xalqdan danışmağa bərabər tutulmalıdı.

* * *

Azərbaycan ədəbiyyatı zəngin poeziya məktəbidir. Bu poeziyanı müxtəlif nəslə mənsub şairlər yaradırlar.

* * *

Mənə elə gəlir ki, uşaqlar üçün yazmağın özü də saflıq deməkdir. Mən deyərdim, uşaq qəlbi meyardı.

* * *

Uşaq şeirlərinin tərbiyəvi əhəmiyyəti o zaman təsirli ola bilər ki, onlar, eyni zamanda bilik versin.

* * *

Həyatın dediyini heç bir kitab bütünlüklə deyə bilməz. Axı kitabların özü həyatın bədii inikasıdı.

* * *

Böyük adamlar özlərinə layiq böyük fikirlər deyirlər.

* * *

Şəxsiyyətlərin həyatı – bir ölkənin, respublikanın tərcümeyi-halı kimi adama örnək olur.

* * *

...ən yaxşı əsərlər xalqın ensiklopedik həyatı sayılır, müəllifinə və vətən torpağına şöhrət gətirir.

* * *

Susduqca elə bil adam ağırlaşır, öz içində batır, əlli-ayaqlı itir.

* * *

Təbiətin qanunları necə amansızdı. Bu qanunlarda humanizm deyilən şey yoxdu. Humanizm insanın özünə aiddir, həm də böyük insanlara.

* * *

Mənə elə gəlir ki, hər böyük sənətkarın qəbri onun sonuncu əsəridir. Sonuncu cildi, sonuncu avtoqrafıdır. Amma bu sonuncu əsərin müəllifi daha yazıçı yox, xalq olur. Əvvəl o, müəllif idi, xalq – qəhrəman. Bu dəfə o, qəhrəman olur, xalq – müəllif.

* * *

Tədqiqatçı yaxşı mənada inadkar, səbirli, dözümlü olmalıdı.

* * *

"Novruz" əbədi bir abidədir. Yaxşılıq, xeyirxahlıq, ədalət abidəsi, insandakı insanlıq şərəfinə qoyulmuş himnin abidəsi.

* * *

İsgəndərdən üzü bəri dəfələrlə belə soyqırımına məruz qalan Odlar diyarı Azərbaycan – oda, atəşə, günəşə məhəbbətini yaşada bilmiş və özü də yaşamışdır.

* * *

Bütün dövrlərdə ictimai mühit, cəmiyyət – meyardı.

* * *

Əlinə qələm aldığı ilk gündən xalqın, vətənin adından danışmağı özünə borc bilən şair öz ədəbi taleyi ilə üz-üzə gəlir.

* * *

Ömrünü ömürlərə həsr edən şəxs tək deyil.

* * *

...bir həqiqət var ki, böyük sənətkarlar heç vaxt, heç bir əsrdə vətənə mükafat naminə xidmət etməmişlər.

* * *

Əlbəttə, iztirab özü də insan ləyaqəti olduğu üçün onu ancaq zərif duyğulu adamlar, ancaq yaxşı insanlar çəkə bilərlər.

* * *

Şair doğulduğu torpağın səsidi.

* * *

Tənqid ədəbi sərvətə özününkü kimi baxmalıdı. ...Böyük ədəbiyyatdan o vaxt böyük söhbət gedə bilər ki, zövqlər tərəzisini meyar tərəzisi əvəz etsin.

* * *

Öz şərəfini qoruyan xalqlar həmişə sənətkarı qiymətləndirməyi bacarmış, ona heykəl ucaltmaqla, əslində, özünə abidə qoymuşdur.

* * *

...insan hardasa, arxaya da dönüb baxır – bu, bəlkə də, onun özünüdərki, xatirələrə və həyatın özünə bağlılığıdır, dünyadan doymamaq hissidir. Yaşamaq eşqi!

* * *

Səmimiyyət özü səmimi hisslər doğurur.

* * *

...böyük yazıçı qələmindəki həyat – həyatın özündən də qiymətli olur.

* * *

Sevinməyi bacarmaq da yüksək insani keyfiyyətdi.

* * *

...sırf tarixçi "nöqteyi-nəzəri"ni bədii ədəbiyyata zorla pərçim etmək olmaz. Ədəbiyyatda əmr keçmir.

* * *

Hüseyn Hüseynzadə (H.Arif) təbiəti dərindən duymaq və öz poetik istedadı ilə göstərmək qabiliyyətinə malik sənətkarlarımızdandır. Şeirlərində yarpaq öz rəngində, çiçək öz ətrindədi. Bu, təbiilikdi...

* * *

Mənə elə gəlir ki,... şairi daxilən görənlər onun səviyyəsinə qalxa bilər və dostluqları tutar.

* * *

Millət çaşdırılır, əksər hallarda tərif çinarlara yox, yosunlara deyilir.

* * *

Millət əsl şairini onun sağlığında tanıya bilmir, öləndən sonra adına küçələr qoyur.

* * *

...istedadlı yazıçı və şairlərin faciəsini təkcə ictimai quruluşla izah etmək birtərəfli olardı. Bu, şair taleyidi.

* * *

Böyük söz demək üçün, yəqin, böyük olmaq lazımdı.

* * *

Yazıçının ədəbi taleyi mütilikdən dar ağacına gedən şərəfli və müsibətli yolda formalaşır.

* * *

Tariximizi saxta yazanlar və bizim hamımızı aldadanlar tarixə və millətə nə cavab verəcəklər? Azərbaycan torpağı üstdə necə gəzəcək, Şəhidlər xiyabanına necə gedəcəklər, göz yaşı axıdan ana-bacılarla bir sırada necə dayanacaqlar?

* * *

Talesiz, hamar həyat yolu keçən insan ədəbiyyatın tədqiqat obyekti ola bilmədiyi kimi, öz taleyi olmayan yazıçı da ədəbiyyat yaratmaq iddiasına düşməməlidi.

* * *

...şair özü təbiətdi. Onun da günəşli günləri, buludlu, yağışlı vaxtları olur. Göylər kimi açılıb-tutulur. Çaylara qarışıb axır, küləklərə qovuşub əsir, buz kimi donur, şam kimi əriyir. Buradan da hər şeirin öz taleyi, öz tərcümeyi-halı yaranır. O da insan kimi doğulur, nüfuz qazanır, sonra ölənləri də olur, əbədi yaşayanı da. Bir nəsillə dünyaya gəlirlər, bütün nəsillərlə həmyaşıd olurlar.

* * *

...şairin, yazıçının ədəbi taleyi elədir ki, görmədiyi, tanımadığı oxucusunu o, ən yaxın adam hesab edir, elə ilk görüşdə ürəyini açıb tökür, məhəbbətini bildirir. Bu inam münasibət yaradır.

* * *

Sənətkar tarixi əsər yazanda yaşadığı günlə, nəfəs aldığı mühitlə səsləşən məsələlərə toxunmursa, üzünü gələcəyə tutmursa, tarix köçürməyin nə mənası!

* * *

Azərbaycan dilində danışmaq – hər bir azərbaycanlı üçün azadlıq dilində danışmaqdı, bu heç vaxt yaddan çıxmamalıdı, çünki bizi əsir edənlər bunu unutmayıblar.

* * *

...bir ata-anadan doğulanlar həyatda heç də həmişə doğma ola bilməyiblər. Həyatda bir tale qohumluğu da var.

* * *

Cabir bəşəri hisslər, duyğular şairiydi.

* * *

Cabir Novruz böyük ədəbiyyatın, böyük poeziyanın varisiydi.

* * *

...dolan bulud boşalmalıdı.

* * *

Oğul atanın varisi olsa, nə yaxşı olar. ...Oğullar görkəmli atalarının yolunu davam etdirirsə, bu, milli-mənəvi dəyərlərimizin yaşaması deməkdi.

* * *

Milli-əxlaqi keyfiyyətləri, təkrarsız insani hissləri və duyğuları övlad öz övladına, yaxud bir nəsil o biri nəslə ötürə bilirsə, o övlad da, o millət də heç vaxt manqurtlaşa bilməz. Əksinə, ümumbəşər mədəniyyəti sərgisinə kulturoloji sərvətimizi əlavə edər. Və bu – onun mənəvi borcu sayılır.

* * *

Şairi duymaq – mədəniyyətdi.

* * *

Əlinə qələm aldığı gündən millətə, vətənə, insana xidmət etmək vəzifəsinə şairi göylər təyin edir.

* * *

Aldanan yox, aldadan cinayətkar sayılmalıdı.

* * *

Sənətkara zaman qiymət verir.

* * *

Tərcüməçilik – ədəbi yaradıcılıqdı.

* * *

Milli ədəbiyyata milli münasibət olmalıdı.

* * *

Dərdin də poetikası var, sevincin də.

* * *

Qabiliyyət – istedaddı.

* * *

Bəzən mənə elə gəlir ki, insan yüz yaşında dünyadan köçsə belə, yenə vaxtsız ölür: arzuları, istəkləri yarımçıq qalır.

* * *

Zaman və ömür bəzən bir göz qırpımında keçir. İnsanın özünü dərk etməyə imkanı olmur.

* * *

Rəfibəylilər torpağa taxıl kimi səpildilər, torpaqdan zəmi kimi çəkicli oraqla biçildilər.

* * *

İnsanın yaşamaq eşqi – insanların ölümə qarşı daimi etirazıdı.

* * *

Tədqiqatla məşğul olmayan böyük yazıçı təsəvvür etmirəm.

* * *

İstedad – vəhy deməkdi, həm də fəhmdi.

* * *

Unudulmamaq – yaşamaqdı.

* * *

Bir ədəbi meyarı başqa bir sənətkarın yaradıcılığına tətbiq etmək, onda da həmin şeyi tələb etmək yanlışdı.

* * *

Bu da həqiqətdir ki, xalqın, zamanın müəyyən tarixi mərhələsində yetişən hər bir böyük sənətkar ədəbi meyarlar çərçivəsinə sığışmır. Özü ayrıca ədəbi meyar olur.

* * *

Milli olan ədəbi meyar, həm də bəşəridi. Əksinə heç vaxt olmur.

* * *

...Azərbaycan poeziyası varissiz qala bilməz.

* * *

...ağır zehni işlə məşğul olan ziyalıların bir çoxu... öz ziyasını istədikləri kimi yaya bilmir; onların işığı ən uzaq ulduzlarda olduğu kimi, çox gec gəlib yerə çatır.

* * *

Bəzən uzaq oxucular yaxın olur, yaxındakılar – uzaq.

* * *

Bir atalar sözü – bir zamandı, bir epoxadı, xalqın tərcümeyi-halıdı. Reallıqdan uzaq didaktika deyil, bəlkə fəaliyyət üçün kodlaşmış proqramdır. (Bu necə hikmətdi ki, şifahi deyilən bir kəlam, yazanda bir dəftərə sığışmır. Bu necə fikirdi ki, eradan qabaq deyilsə də, müasirdi, nəsil-nəsil oxunur; bir xalqın dilindən çıxır, bir neçə xalqın taleyinə aid olur...).

* * *

Atalar sözlərinin təsnifatı – müdrikliyin poetikasıdı.

* * *

Bu gün biz "elitar", "qeyri-elitar" təbəqələrə bölünməklə yox, birləşməklə nəyəsə nail ola bilərik. Gəlin birlikdə düşünək.

* * *

...tədqiqatçı, araşdırıcı ürəyinə yaxın, doğma olan mövzular üzərində işləyəndə, mühakimələrində də düzgün elmi nəticələrə gəlir.

* * *

...bəzən adi bir detal insanın ürəyində xeyirxahlıq dediyimiz işığın, nurun olduğunu açıb göstərmirmi?

* * *

Ləyaqət sahibinin ruhi sıxıntıları da ləyaqətli olmalıdı. Bu, insani keyfiyyyətdi. Təbiidir ki, iztirabın özünə də layiq olmaq lazımdı.

* * *

Düz deyirlər ki, dünya dərkedilməzdi. Yəni dərk edildikcə, dərkedilməzliyə gedib çıxır.

* * *

...iztirab da müqəddəsləşə bilər.

* * *

Hər kəsin öz taleyi, hər kəsin öz yeri olur.

* * *

Yaxşı insanlar özlərini yaxşı olduqlarından artıq göstərməyə çalışmırlar, amma sonra görürsən ki, onlar sənin düşündüyündən də artıq imişlər. Cəmiyyət belə insanların hesabına yaşayır. Onlar, əslində insanları müalicə edəndilər, stresdən qoruyurlar.

* * *

Unutsaq, unudularıq...

* * *

Bəlkə, yaxşılıq – insanlıq sözünün sinonimidi?

* * *

Şairin yatdığı torpaq müqəddəsdi.

* * *

Əsl şairlər ölmürlər, qeyb olurlar...

* * *

Bəlkə, dünyaya gəlməyin özü təsadüfdü? Bəs niyə dünyadan getmək zərurətdi?!

*Elm ilə tikilən hörgü*
*heç vaxt uçmaz...*

* * *

Əlbəttə, ədəbiyyat başdan-ayağa, yəni bütünlüklə siyasi deklarasiya ola bilməz və buna heç ehtiyac da yoxdur. Amma onu siyasətdən kənar düşünmək də birtərəfli, bəlkə də, yanlış olardı.

* * *

Məncə, kitaba, əsərə ad tapmaq özü də şərtdir, elə bu da yaradıcılıqdır. Doğma övlada ad qoymaq kimi zövq tələb edir. Əsər də, uşaq da adıyla çağırılır.

* * *

Peyğəmbər təbiətli insanlar dünyaya insanlara gərək olmaq üçün gəlirlər. Torpaqdan çinar kimi, palıd kimi, vələs kimi qalxıb ucalırlar. Dünyasını dəyişəndə ürəklərə köçürlər. Onların ünvanları sağlığından sonra beləcə dəyişir. Mənəvi həyatlarını yaşayırlar.

* * *

Böyük yazıçı və ictimai xadim kimi tanıdığımız və sevdiyimiz İsmayıl Şıxlı haqqında yazmaq öz yerində, düşünmək özü belə insanı paklaşdırır. Nizami Gəncəvi demiş, insandakı insanlığın nə olduğunu dərk edirsən.

* * *

İsmayıl Şıxlı ədəbiyyatımızın, mədəniyyətimizin bütöv bir mərhələsiydi. Onun nəinki ədəbi yaradıcılığı, yazıçı şəxsiyyəti də tədqiq olunmalıdı.

* * *

...indi ali məktəblərdə alimlər azdı, professorların sayı isə çoxalıb. Diplomu var, savadı, biliyi (hələ mədəniyyətini demirəm) yoxdu.

* * *

Görkəmli ziyalılarımıza elm ocaqlarında edilən qəsd – millətimizə, mənəviyyatımıza edilən qəsddən savayı bir şey deyil.

* * *

Tarixin ən böyük haqsızlığıdır ki, dahilər, böyük təbiətlər, adətən, həmişə məğlub olur (sonradan haqlarını alsalar da!), beyinləri ancaq fitnə-fəsadla dolu olan nadanlar isə qalib gəlirlər (sonradan faş olsalar da).

* * *

İstedad xalqın mənəvi sərvəti olduğu kimi, xalq da onun yeganə sahibi sayılır.

* * *

Təsəllim budur ki, şəhid gedənlərimiz sonradan milli tariximizə və milli ədəbiyyatımıza Şahid kimi qayıdacaqlar. Onları yer üstdə, döyüşdükləri səngərlərdə susdursalar da, kitabların səhifələrində susdura bilməyəcəklər...

* * *

...təxəyyülün məhsulu ilə reallıq heç vaxt eyniyyət təşkil edə bilməz.

* * *

Biz görməyə bilərik, eşitməyə və dinməyə də bilərik, amma qanmaya bilmərik. Böyük Sabir düz deyirdi.

* * *

Sovet rejimi Oktyabrın birinci günündən ziyalıların əleyhinə olmuş və onların ən qabaqcıllarını öz ölkələrindən didərgin salmışdı.

* * *

Qabaqcıl ziyalı tutuquşu kimi təkrar etmir, öz fikrini demək istəyir.

* * *

Açıqlıq işin xeyrinədi.

* * *

Heyf, xalqımızın gözəl ənənələri elə bil ki, unudulur. Böyüklər "kiçiklik" edə bilmir deyə, kiçiklər "böyüklük" edirlər.

* * *

Danışanı axıra qədər dinləmək lazımdır ki, o, sözünü deyə bilsin.

* * *

Adamlar ayaq üstə yox, tabutda gözümüzə böyük görünür, nüfuzlu olurlar.

* * *

Mənəviyyatımızı tərəziyə qoymaq nə dərəcədə düzgündü?!

* * *

Dil fikrimizin ifadəçisi olduğu kimi, əlifba da dilimizin ifadə tərzidir: onu təkcə işarə kimi qəbul etmək düzgün olmazdı.

* * *

Bizim xalqımızın həyatında əlifba problemi siyasi məsələ kimi ortaya çıxıb və yuxarıdakılar xalqı manqurtlaşdırma niyyəti güdüb.

* * *

Sosializm realizmindən – insana, ideyalardan – insan mənəviyyatına qayıtmalıyıq. Patetikadan – pıçıltıya, proletar ədəbiyyatın-

dan – xalq dünyasına, Qızıl qələmdən – Yaşıl qələmlərə, milli özünüdərkə, türklüyümüzə, soykökümüzə!

* * *

Uzun-uzadı təsvirçilik yox, təfəkkür süzgəci, elmi məntiq lazımdı, “dedim-dedi” yox.

* * *

Aşıq Ələsgər yaradıcılığı aşıq poeziyasının bütöv bir dövrü kimi, xalq həyatının, məişətinin bədii salnaməsi kimi daim təravətli qalacaq, öz qiymətini saxlayacaqdır.

Ələsgər xalqdan hər nə alırdısa, yenə onun özünə qaytarırdı.

* * *

...Məncə, Ələsgərdən müşahidə, sözü seçə-seçə işlətmək və sənətkarlığın bir çox sirlərini öyrənmək lazımdır. Həm də bir dəfə yox, daim.

* * *

Üzeyir Hacıbəyov Azərbaycanda peşəkar musiqi hərəkatının qüdrətli başlanğıcı, bir növ, musiqi akademiyamız oldu.

...hər dəfə “Sənsiz”i dinləyəndə elə bil epik poema dinləyirəm. Nizaminin sözü, Üzeyirin musiqisi, Bülbülün səsi. Üç dühanın yaratdığı bir romans xalqımızın dilinin əzbəri, mənəvi sərvətimiz olmuşdur.

* * *

Üzeyir Hacıbəyov ona görə böyükdür ki, sadədir, ona görə də sadədir ki, böyükdür.

* * *

Üzeyir Hacıbəyov Azərbaycanın himnini yazmışdır. ...Himn çalınanda ayağa qalxırıq, ürəyimizdə isə bütün dünya ayağa qalxır,

nizami ordular yeriyir, farağat dayanırıq. Bəli, bu, Üzeyir musiqisinin sərbəst diapazonu, heyrətamiz bədii təsiridir.

* * *

Mən Üzeyir yaradıcılığının özünü həyat haqqında, insan haqqında himn adlandırardım.

* * *

Ən qədim ədəbiyyat tarixindən bəri məlumdur ki, böyük despotlar elə bil qəsdən böyük sənətkarların müasirləri olur və onlara divan tutmaqla güclərini sınamaq, bu yolla da nüfuz qazanmaq iddiasına düşürlər. Bu, Zamanın anomaliyasıdı. Vaxt onların gücsüz və nüfuzsuz olduğunu sübuta yetirir.

* * *

Cavidin taleyi təkcə özünün yox, Azərbaycanın fəciəvi taleyiydi.

* * *

Təbiidir ki, xalq sərvət mənbəyidir.

* * *

...Səməd Vurğun diyarımızın yazan əli, eşidilən səsiydi.

* * *

...bir şeirin taleyi – bir şairin, bir ədəbiyyatın taleyidir. Şeir yaşayırsa, deməli, şair sağdır.

* * *

...əsl şair yüz il sonra da təzədir.

* * *

...Müşfiq poeziyası çağdaş dövr ədəbiyyatımızın bütöv mərhələsi kimi onun dayaq sütunlarından birini təşkil edir. Bu poeziya bəşəridir.

* * *

...Müşfiq xoşbəxt şairdi.

* * *

Şeir mənim aləmimdə bütöv bir kainatdır, müxtəlif səslərilə, rənglərilə birlikdə təbiətin özüdür, əslidir, surəti deyil. O da canlı orqanizmdir, təbiət qədər doğma və amansızdır.

* * *

Heç bir institut adamı şair eləyə bilməz.

* * *

Şairlik – söz sənətidi.

* * *

Kitabda çıxandan sonra şeirlər daha şairin olmur, oxucunun olur.

* * *

...ədəbiyyat vətənsiz ola bilməz.

* * *

Tərcüməçilik – yaradıcılıqdı, ikinci müəlliflik haqqıdı.

* * *

İlahi, nə vaxtacan biz layiqli insanlarımızı layiqincə qiymətləndirməyi bacarmayacağıq?!

* * *

Vətənpərvərlik, millət təəssübü çəkmək, xalqını sevməkdir, torpağa bağlılıq isə heç vaxt başqa məsələ ilə qarışdırılmamalıdı.

* * *

Yazıçının yaratdığı hər bir tale kitabı sonradan bir xalqın, bir əsrin tədqiqi zamanı bir çox tarix kitablarından daha çox qiymətli olmurmu?!

* * *

Görünür, bu dünya sirrdi, insan həm dünyadan köçür, həm də dünyada qalır. Bunların hər ikisi rəmzi məna daşıyır.

* * *

Hikmət Ziya qüdrətli, əvəzsiz təmsil ustasıydı. Ədəbiyyat tariximizdə bu janr onu, o da bu janrı tapmışdı, bir ədəbi zirvə yaratmışdılar.

* * *

Ədəbiyyatın bütün növləri gözəldi. Gərək onun istedadlı sahibi yetişsin.

* * *

Ədəbiyyat milli mənəviyyatdır, burada təcavüz olmamalıdı.

* * *

...lazımsız olanda canlı insan da daşa bənzəyir. Lakin o daş istifadə olunduqda, divara, hörgüyə qoyulduqda – xidmət edir.

* * *

Hər şairin, sənətkarın öz oxucusu olmalıdır.

* * *

Bir əsrdə bir şairin ürəyindən qopan səs, bəzən onun pıçıltı ilə dediyi bir söz başqa bir əsrdə də eşidilir.

* * *

Hər şeir öz rəngi, öz boyası, çaları ilə diqqəti cəlb etməlidir.

* * *

Yaradıcılıq planları ilə mətbuatda çıxış etmək – oxucuya vəd verməkdir. ... Yaradıcılıqla vəd tutmur.

* * *

...rüşeym halında da olsa, ürəkdə nə isə daim bir uçuş qüvvəsi, qanadlanmaq həvəsi, gizli bir dağ qaldırmaq qüdrəti, gizli bir günəş işığı da olur. Bəlkə yaradıcılıq deyilən şey elə bu duyğu, bu hissdi.

* * *

Şairliklə yanaşı – şair təbiəti! Bəli, bu şərtdir.

* * *

Millət, millət! – deyən natiqdən az deyil. Təəssüf ki, milləti yaşadanlar azdı. Bəlkə də bu elə belə olmalıdı?!

* * *

Akademik Arif Paşayev – içində intibah gəzdirən insandı. Onda Mir Cəlal nəfəsinin hənirtisi var.

* * *

Arif Paşayev... sadədi, amma adi deyil. Yüksək mövqedədi, amma yanındakını görür. Rəsmi və fəxri adları çoxdu, amma rəsmi deyil, həssasdı. ...Arif müəllim cəmiyyət adamıdı. O, istedadı tez görür və ürəkdən sevinməyi bacarır. Kömək etmək, qolundan tutub ayağa qaldırmaq üçün dayaq olur.... Görürəm ki, Mir Cəlaldı.

* * *

Birlik – andımızdı.

* * *

Akademik Arif Paşayev böyük təhsil islahatçısı, böyük yaradıcı qüvvədir. Belə insanlar mənalı ömürlərini xalqına, vətəninə həsr etməklə keçdikləri yolun yolçularına nümunə olurlar. Onların işığı heç vaxt sönmür.

* * *

Академик Ариф Пашаев – человек возрожденческого склада.

* * *

Ариф муаллим – человек, социально деятельный. Он умеет разглядеть талант и порадоваться от души за него, и помочь, и поддержать.

* * *

Академик – как большая семья. Не только школа профессионального служения государству, но и школа жизни, становления личности.

* * *

Великие люди… хорошо различают тонкости деталей.

* * *

Şəxsiyyətlər – insanpərvər olurlar, şəxsiyyət olmayanlar isə – kinpərvər! (Mən elələrini də görmüşəm, belələrini də!)

* * *

Mən Atatürk Türkiyəsində bir Azərbaycan Türkiyəsi də gördüm. (Bu, ilk təəssüratım idi).

* * *

Əlbəttə, təzyiq – zorakılıqdı. İstər mənəvi təzyiq olsun, istərsə də fiziki – insan şəxsiyyətini alçaldır.

* * *

Həqiqətən zaman, tarix başqa şəkildə təkrar olur.

* * *

...ədəbiyyatımızın bir baş mövzusu vardır: azadlıq, suverenlik. Bu mövzuya həsr edilən ömür itmir...

* * *

Hafiz müəllim çox az, amma mənalı, təmkinli danışan adamdı... Hafiz – Mir Cəlalın prototipidi.... O güləndə də söz deyir, susanda da.

* * *

İnsandan nə qalır? – İnsanlıq.

* * *

...İsrafil ağa və Qaçaq Kərəm elə nadir şəxsiyyətlərdən olmuşlar ki, onların haqqında yazmaq nəinki təkcə mənəvi zövq verir, həm də bu mövzu elə böyük tərbiyə məktəbidir ki, yazıçının özünü belə tərbiyə edir, dəyişdirir, yetişdirir.

* * *

Sadəlik və təvazökarlıq bizim cəmiyyətdə istedadı bədbəxt edir. Bu, tamamilə belədir.

* * *

Kitabxana mənim akademiyam idi.

* * *

Kitablar tarixi yaşadır, nəsilləri bir-birinə qovuşdurur, insanın şəxsiyyət kimi formalaşmasında, onun əqli, zehni, əxlaqi və estetik zövqünün inkişafında əvəzsiz rol oynayır.

* * *

İstiqlal yolunda vuruşanların qisməti – bəzən istiqlalı kənardan seyr etmək olur.

* * *

...şairi nişan vermək – vətəni nişan verməkdi.

* * *

Hakim ilə müttəhimin yeri dəyişik düşür... (ittiham eləyənə şübhələnirsən ki, özü müttəhimdir).

* * *

Yaxşıya yaxşı deyəndə yaxşı olur.

* * *

Şeirin dili iztirabdı, hissdi, duyğudu.

* * *

...iztirablar – insanları, epoxaları birləşdirir, yaxınlaşdırır.

* * *

Bədii yaradıcılıqda yazıçının bir özünü ifadə vasitəsi, bir də dünyanı, obyektiv varlığı inikasetmə qaydası vardır ki, hər iki vəziyyətdə o, cəmiyyət qarşısında hesabat verməli olur.

* * *

...şeir də insan kimi torpağın sakinidir, onun da insan kimi pasportu olmalıdır. Onun da vətəni, el-obası, doğulduğu və yaşadığı yer, insan kimi öz tərcümeyi-halı olur. Təcrid olunmuş nə bir şeir, nə bir misra olmamalıdı.

* * *

İnsan beşik dünyasından məzar dünyasına köçür, varlıqla qeyri-varlıq arasındakı bir aləmdə qeyb olur.

* * *

Yüz il qabağı görə bilən insan bir saat sonra başına nə gələcəyini bilmir. Beyin, təfəkkür burada aciz olur. Bəlkə, bu da həyatın təbiiliyi, qanunauyğunluğudur.

* * *

Şair ürəyi hansı yaşda olur-olsun, həmişə xoş sözə möhtacdı.

* * *

Yaxşı insanın dünyadan getməyi böyük boşluq yaradır. İrs zənciri qırılır, ahəng pozulur.

* * *

Mən indiyə qədər nə çəkmişəmsə, şeirdən çəkmişəm. Bu, ağrılardan doğan sevincim olub. Mən bu əzabı həyatda heç bir əyləncəyə dəyişmərəm. Mənim səadətim də bundadır.

* * *

Yazıçıya, adətən, təkcə onun ədəbi yaradıcılığına görə deyil, həm də cəmiyyətdəki mövqeyinə, ictimai-siyasi mühitdəki fəaliyyətinə görə qiymət verilir, müasir ədəbi hərəkatda yeri müəyyənləşdirilir.

* * *

Alimlik – böyük rütbədi.

* * *

Elm ilə tikilən hörgü heç vaxt uçmaz...

# MÜSAHİBƏLƏRDƏN

*Xeyir də, şər də*

*insanın öz içindədi...*

– Əlbəttə, bu bir həqiqətdir ki, böyük insanlar ən böyük dərdi belə ürəklərində çəkirlər. Yıxılanda da palıd kimi yıxılırlar.

– ...mübarizəsiz nəinki elmi axtarışlar, hətta bədii yaradıcılıq da uzun sürə bilməz. Alim köhnə biliklə danışacaq, yazıçı yerində saymalı olacaqdı...

– Biz Vurğunu mənəvi atamız sayırıq.

– ...ziyalısız bir millətin sabahı yoxdur ...ziyalılıq – aydınlıqdı.

– Orta məktəbdən başlanan tərbiyə əsas şərtdi.

– Müəllim qazanc dalınca qaçanda – millətin məhvi qanuniləşir.

– Müharibə gedən məmləkətdə sənətkar ömrü yaşamaq mənim üçün sarsıntı içində keçirdiyim dözümdü. Bu vəziyyətdə bəlkə bir-birinə zidd iki faciə qəhrəmanının rolunu eyni vaxtda oynayan aktyora bənzəyirəm. Amma nə belə daimi sarsıntı içində yaşamaq olar, nə də belə daimi dözmək mümkündü.

– Müharibə ab-havası mənim içimdədi.

– Səfərbərlik zamanı sənətkar xalqı ilə birlikdə döyüşə getməlidi.

– Zaman – hadisələrə aydınlıq gətirmək üçün lazımdı.

– Müharibə zamanı insanda insanlıq əvəzinə, təəssüf ki, bir sıra hallarda onun bioloji tərəfi üzə çıxır, cəmiyyət pozulur. Bunun sənətkara aidiyyəti yoxdur.

– Müharibədə adam öldürmürlər, düşmən əsgərini öldürürlər. Buna görə müharibədə qatil yox, qəhrəman və fərari olur. Lakin dinc əhalinin milli mənsubiyyətinə görə elliklə qırılması qatillikdi. Ermənilərin müharibə “avtoqrafı” hər yerdə və bütün zamanlarda seçilir.

– Adam yox, adamdakı iblisi öldürmək üçün mübarizə aparıram.

– Mən ədəbi taleyimizə qətiyyən ümidsiz baxmıram.

– Ədəbiyyat var (az olsun, yaxşı olsun), lakin ədəbiyyatın əvvəlki şan-şöhrəti yoxdu.

– Bazar münasibətləri üstündə yenidən qurulan cəmiyyətdə istər-istəməz ədəbiyyat da iqtisadiyyatın tərkib hissəsinə çevrilir.

Hətta müsəlmanların müqəddəs dini kitabı Quran da satılır, özü də müsəlmanlara satılır. Biznes!

– Zəmanə mənəvi ehtiyacı iqtisadi ehtiyacla üz-üzə qoydu.

– İstedad istedadsıza tabe olur.

– İndi ədəbiyyat müstəqillik yoluna qədəm qoyan qədim və mübariz bir xalqın mənəvi gözəlliyini göstərməlidi. Onun insan ağrıları, iztirabları, çaşqınlığı və yenilməzliyi açılmalıdı. Ümumilikdə qaranlıq olan yerdə işığı, böhtan olan yerdə düzlüyü axtarmalıyıq.

– Şair özü oxucu olsa da, poeziyadan təkcə həzz almır. Poeziya onun ağrılarla, əzablarla dolu mənəvi həyatıdı.

– Küçələrdən keçmək olmur, hamı pul sayır.

– Millətdəki bu hərisliyi dərk edə bilmirəm...

– Nə elə acam ki, toxlara əl açım, nə elə toxam ki, aclara əl tutum.

– Mən düzlüyü heç vaxt heç nəyə dəyişməmişəm. Amma bəzən baha başa gəlib...

– ...böyük ədəbiyyat heç vaxt sandıqlara sığışa bilməz.

– İLHAM təqvimlə düz gəlmir. Bəzən dinmək lazım gələndə o susur, bəzən də, əksinə.

– ...yazıçı tarixi hadisələrdən yazanda da yaşadığı dünyanı, öz dövrünü göstərir. Ona görə deyirlər ki, tarixdən külü yox, odu götürmək lazımdı.

– Böyük sənətkarlar hadisələrin axarını gözləyirsə, buna təbii baxmaq lazımdı. Yazıçı tarixçinin səhvini təkrar etməməlidi.

– Ədəbiyyat narahatlıqdı. Rahatlıq olan yerdə ədəbiyyat yoxdu.

– Gərək pis yaxşını üstələməsin.

– ...başqa bir gözəlin hüsn-camalı səni ilhama gətiribsə, ona şeir həsr eləmək hüququn var. Bu ixtiyarı şairdən almaq qəbahətdi.

– Aldadanlara pis baxıram. Aldanan isə pak və təmiz olduğuna görə aldanır. Bic adamı aldatmaq olmaz.

– Övladın ailə qurmasına atanın biganə qalmağa haqqı yoxdu.

– İndi elə bir zəmanədir ki, başı çıxan da, çıxmayan da siyasətlə məşğul olur və siyasi söhbətlər aparmağa cəhd edir.

– Şöhrəti məşhurluqla qarışdırmayın.

– Ədəbi hərəkat ümumxalq hərəkatına biganə qala bilməz, əksinə, onu yetişdirməlidi.

– Azərbaycan inqilabını Azərbaycan ədəbiyyatı yetişdirdi. Bu cür də demək olar.

– Cəmiyyət də öz ziyalısını qorumağı bacarmalıdı.

– Heç bir şair, yaxud yazıçı millətin qütbləşməsini istəməz. Bu, təhlükəli bir sonluğun başlanğıcı ola bilər. Çünki şairin səsi eşidilir.

– İddiası səviyyəsindən artıq olan ziyalı, əlbəttə, ittiham olunacaq.

– Ziyalı əldə alətə çevriləndə 37-ci il olur...

– Gərək ədəbi meyar itməsin.

– Mən şeirlərimdə, poemalarımda, pyeslərimdə şair ömrümü Azərbaycan istiqlalına həsr etmişəm. Haqsızlığa, təqiblərə məruz qalmışam. Yandırıblar, "Yandım" deyə bağırmamışam...

– Zaman hamını ələyindən keçirir. Şekspiri belə!

– Məni müəyyən müddətə müəyyən qüvvələr unuda bilər. Lakin unutdura bilməzlər. Mən xalqımın şairiyəm. "Bir insan ömrünü girov qoymuşam, bir şair ömrünü yaşatmaq üçün".

– Əsgərlikdən buraxılan gün ən bədbəxt adam idim. Getməyə yerim yox idi. O gün axşama qədər ağladım...

– ...yaradıcı adamların maliyyə böhranı qarşısında qalması ədəbiyyatımıza ağır zərbədi.

– Poeziya insan mənəviyyatını dəyişə bilər. Dəyişməlidir.

– Poetik əsər bütün əsrlərdə oxunur.

– Böyük şəxsiyyətlərdə İnsanlıq da yüksək olur.

– İnsanlığı uca tutmayan adam ləyaqətli vətəndaş ola bilməz. Mən buna inanmıram.

– Cəmiyyətdə xalqın taleyini qanunlar həll edir.

– ...mənim səsim çıxır. O səsi eşitmək lazımdı.

– ...poeziyaya sahib çıxmaq lazımdı.

– Şairin gənci, qocası yoxdu.

– Bizim poeziya çox güclüdü.

– Şair – şairliyini bilməyəndir. Şair pak, təmiz, inanan bir adamdı.

– Şeirin təsiri nəsrin təsirindən güclüdü.

– ...yazıçı həmişə narahatdı.

– ...Hər nəsil özü bilir onun məhəbbəti nədir, diqqəti nə.

– ...indi xeyirxah insanların sayı yaman azalıb. Hazırda yaxşı nitq eləyənlər əmələ gəlib, yaxşı danışanlar əmələ gəlib, yaxşı biznesmenlər əmələ gəlib... indi mərhəmət hissi azalır.

– ...indiki əxlaqdan razı deyiləm. Əxlaq pozulub.

– Maddi şəraitin ağırlığı son nəticədə məhəbbətə öz mənfi təsirini göstərir...

– Yalan insanın ən naqis cəhətidir. Çox pis baxıram. Yalan olan yerdə heç bir şey ola bilməz. Yalnız diplomatiyada yalan var. Yalan danışmaq ləkədir. Müqəddəs yalanı isə müdafiə edirəm.

– ...biz xaricin zövqü ilə oturub-durmamalıyıq.

– Vurğun anadan şair doğulmuşdu. Vurğunu görəndə adam şeir yazmaq istəyirdi.

– Səməd Vurğunun dövründə yaşamaq özü böyük səadət idi.

– Cəmiyyət cırlaşdıqca pis adamlar yetişir. Mühit olmasa, cəmiyyətin yaxşı adamları yetişə bilməz.

– Şairlik anadangəlmə istedaddı.

– Şair həbsxanada da şairdi. Yüz yaşında olsa da, şairdi.

– Şairin yazdığı həm iqtidar üçün, həm də müxalifət üçün mənəvi sərvət olmalıdır. Çünki millət birdi.

– Qarabağ ürəyimizin yaralı yeridi. Ermənilər tarixən bizə sığınıblar...

– ...diplomatiya dalana dirənəndə onu silah əvəz edir.

– ...yaxşı gənclik yetişir. Ədəbiyyatda da, siyasətdə də.

– Yaşlı nəsillə gənc nəsil arasında varislik məsələsi var.

– ...latın qrafikasını biz türklərdən də qabaq qəbul etmişik. İndi biz yenə öz əlifbamıza qayıtmışıq, yəni latının Azərbaycan variantına...

– Yaxşı bir elmi-ədəbi söhbət olanda mən mübahisə etməyə adam axtarıram. Bu, mənim üçün böyük zövq mənbəyidir.

– Münasibət həmişə olub. Antipatiya, simpatiya mütləq olur. Kim deyirsə ki, yoxdur, bu, yalandır. Eyni zamanda meyar da var.

– Böyük şairlər həmişə müasirdi.

– İtirdiyimiz ... insanlardakı mərhəmət hissidi. Qazandığımız – müstəqilliyimizdi.

– Sovet ədəbiyyatı bərk ələndi, bundan sonra da ələnəcək. ... "Ələkdən" keçənləri isə nəinki kənara atmaq, əksinə, yenidən nəşr etmək, ədəbi irsimizə sahib olmaq lazımdı.

– Gözəl ədəbi gənclik gəlir: ithaflardan, "aktuallıq"dan, "siyasi lirika"dan, hay-küyçü pafosdan, epiqonçuluqdan, qışqırıqdan uzaq, öz səsi-nəfəsi olan gənclik. Daha imperiya tələbləri yoxdur. İndi ədəbi tənqidə daha çox ehtiyac var.

– Bütün imperiyalar dövründə tabe xalqların tarixi, bir qayda olaraq, təhrif olunub. Bu da ədəbiyyata böyük zərbə vurub. Tarix bizim olubdu, tarix yazan özgələr. Tarixi yazıçılar yazmalıdı.

– Adam var ki, görürsən, müalicə olunursan. Görürsən, sevinirsən, yenə görmək istəyirsən, ayrılmaq istəmirsən. Adam var ki, sənə heç bir pislik eləməyib, ancaq hey ondan kənar qaçmaq istəyirsən. Niyə? Nə bilim...

– Şair hansı mövzuda yazır-yazsın, gərək hissi yaşayaraqdan, duyaraqdan yazsın. Yoxsa, saxta olar, süni olar, heç kimə xoş gəlməz.

– Xarici əxlaq gəlir Azərbaycana, Azərbaycanı pozur. Ona görə bütün ziyalıların ayağa qalxmağı lazımdır.

– Mən harda işləmişəmsə, vicdanla işləmişəm, ...düz işləmişəm. Bunun da ağrısını görmüşəm. İfrat dərəcədə düz olmuşam. Əyri ola bilmirəm.

– "Mübariz olmaq lazımdır. Bizim hələ torpaqlarımız qalır". O qədər deyirik ki, şablonlaşır. Az deyək və çox iş görək. Qədim Sparta dövlətində az danışırdılar, çox iş görürdülər. Danışanda az danışmalıyıq və elə danışmalıyıq ki, o söz eşidilsin.

– Artıq kitab da əmtəəyə çevrilib, həm tənqidçilərin sayı azalıb, həm də insanlar fərdiləşiblər. ...indi insanları pul idarə edir.

– Bu gün H.Cavid, Müşfiq çap olunmalıdır. Çünki onlar həbs olunanda əsərlərinə sərhədlər qoyulmuşdu. Oxucusa həmin əsərdən xəbərsizdi.

– Vaxtında tariximiz çox təhrif olunub. İndi-indi N.Tusidən söhbət düşəndə tezcə o, Amerikanın yerini "Kolumbdan öncə göstərib!" – deyirik. Bunları dünya miqyasına çıxara bilmirdik. "Atabəylər" mövzusuna toxunanda tariximizdən nələrin yazılmadığının şahidi oldum. Qızıl Arslan böyük şah olub. Nizami ilə onun nə qədər görüşləri, münasibətləri olub... Niyə hər ikisinin heykəlini yanaşı qoymurlar? Axı Qızıl Arslan Azərbaycana xidmət edib.

– Bəzən günahkar yazıçı, dramaturq yox, tarixçilər olur. İndi araşdırıram görüm, islamdan öncə Azərbaycan necə olub. XI əsrdə Mahmud Kaşğari "Divani-lüğəti-türk" əsərində oğuz tayfalarının şeirlərindən, atalar sözlərindən misallar gətiribsə, ərəb dili ilə müqayisə edibsə, bu, çox böyük hadisədir. Eləcə də Əmir Teymur Əlincə qalasını 14 il müharibədə saxlayıb. Yüzlərlə insan 14 il qalanın başında necə yaşayıb? Bunu Şekspir düşünüb yazmalıdır ki, dünya miqyasına çıxsın? Biz yenə də soykökümüzə qayıtmalıyıq. Belə başa düşürəm ki, ədəbiyyatımızın qarşısında çox böyük vəzifələr durur.

– Məlumdur ki, vətənpərvərlik hissləri heç də milli heysiyyət hisslərindən ayrı olmamış, bəlkə də, bir-birini tamamlamışdır. Qədim görkəmli sərkərdələrin, yazıçı, alim və ictimai xadimlərin yaşadıqları mənalı həyat dediklərimə nümunə ola bilər.

– Xeyir də, şər də insanın öz içindədi...

*Ürək – insanın içində*
*başqa bir insandı...*

– Kür qırağında yerləşən kiçik qəsəbədir Poylu... Mənim nəzərimdə isə ora dünyanın mərkəzidir. Mənim üçün beşikdir ora...

– Mənim atam da, anam da Poyluya bir kilometr aralı Qıraq Kəsəmən kəndindən gəliblər. Bu mənada o kənd də mənə Poylu qədər doğmadır. Atam Əliməmməd dəmir yolunda işlədiyinə görə anamı götürüb, Poyluya köçüb.

– Onunla şərikəm ki, həyatın öz qanunları var. Bizimki də belə yazıldı... Anamın ana tərəfi məşhur, imkanlı adamlar olub. Onların başıpapaqlılarını həbs ediblər. Məsmalılar qızı – anam kimsəsiz qalıb.

– Orta məktəbin dördüncü sinfinədək Poyluda oxudum. Burdan beləsi çətiniydi. Poylu məktəbindən sonra bir il Kəsəmən, iki il Pirli, sonra Ağstafa, daha sonra Kirovkənd deyilən kənddə oxudum. O yolları piyada gedib-gəlirdim.

– Uşaqlıqda çox dəcəl olmuşam. Mənim bürcüm sutökəndi.

– Yağışlı havaları çox sevirdim. İndi də yağış yağanda tanıyanlar zəng edib təbrik edirlər ki, Nəriman, yağış yağır. İstəyirəm, yağış kəsməsin. Kənd yerində daha gözəldir. Şəhərdə külək yağışı, qarı çırpır, onların estetikası, poetikası itir. Nə isə...

– Uşaqlıqda dalaşdığım az olmayıb. Alnımdakı bu iz də o vaxtlardan qalıb. Sonradan – institut illərində güləşlə, ağırlıqqaldırma ilə məşğul oldum. Gəncədə birinci yeri, sonra Bakıda üçüncü yeri tutdum. Məni xaricə mötəbər yarışa göndərəcəkdilər. Bir görüşdə ağırlıq qaldıranda, necə oldusa, yıxıldım. Onda həkimlər müayinədən keçirəndə gördülər anadangəlmə bir böyrəyim var. Mənə dedilər ki, daha ağırlıq qaldırmayım.

– Bizim Qazaxda belədir: şeir yazırsansa, səni tərifləyirlər.

– Adamın ürəyini sığallasan, dahi yetişər, başına qapaz vursan, istedadı da məhv olar.

– Orta məktəbdə soyadım Həsənov idi. Şeir yazandan sonra elədim Həsənzadə.

– Anamın dəfninə icazəsiz, həm də avtomatı götürüb getdiyim üçün məni hərbi tribunala verdilər. Tale elə gətirdi ki, Rəsul Rza, Nigar Rəfibəyli, Nəbi Xəzri bizim hərbi hissəyə görüşə gəldilər. Nigar xanımla Rəsul Rza diviziya komandiri general Piriyevdən xahiş etdilər, vəziyyətimi başa saldılar. Məni xilas etdilər.

– Mənim göz yaşlarım şeirlərimdə də var. Ancaq onlar göz yaşları gətirmir, sevinc verir. Həyat burdan gəlir. Sevinc burdan doğur. Göz yaşı tökən adam adi bir sevincin də qədrini bilir. Həssas olur.

– Sara qəribə qadın idi. Beş-altı il qabaq evdə Nekrasovun seçilmiş əsərlərinə baxırdım. Gördüm Sara öz xətti ilə yazıb: "Mən Nekrasovu çox sevirdim. Tale elə gətirdi ki, mənim həyat yoldaşım da şair oldu. Fəxr edirəm onunla". Ancaq bir dəfə mənə demişdi, qızıma şair elçi gəlsə, verməræm, sən öz aləmindəsən. Başa düşürəm onu. Şairin həyat yoldaşı olmaq çətindi. Rəssam bir portretimi çəkib, şeirimi misal gətirib:

– *...Bir insan ömrünü girov qoymuşam,*
*Bir şair ömrünü yaşatmaq üçün.*

Bir gün İsmayıl Şıxlı gəlmişdi bizə. Dedi ki, Nəriman, nə yaxşı düzəlişdi. Baxdım ki, Sara şeirə "düzəliş" edib:

*...Bir qadın ömrünü girov qoymuşam,*
*Bir şair ömrünü yaşatmaq üçün.*

– Sara cavan getdi. Son anlarına qədər məni düşündü: "Necə yaşayacaqsan? – deyirdi: Hamıya inanırsan".

– Mənim romantikamla həyatın reallığı arasında kolliziya yaranıb.

– Tale məni idarə edir, ona necə inanmayım? Hər şey bizim əlimizdə deyil, bizi idarə edən qüvvənin əlindədi.

– Görünür, tale mənə şairliyi könül dostu verib. ...Mənə töhfə olan belə bir ömrü məmmuniyyətlə xalqıma həsr edirəm.

– Qızla görüşə gedən oğlan, əslində, taleyi ilə görüşə çıxır. Lakin o bundan hələ xəbərsizdi...

– Nə edəsən ki, bir günün içində insanı xoşbəxt edən taleyin üzüdönüklüyü də olurmuş.

– Hamı əsərlərimin qəmli olduğunu deyir. Həyatım boyu qəmkədər mənim yoldaşım olub. Bu kədər mənim bütün əsərlərimə çöküb.

– Elə vaxt olur, dünyadan küsürsən. Heç kim sənə heç nə edə bilmir. Heç kəslə görüşmək istəmirsən. Ancaq şeir yazdığın gün xoşbəxt olursan.

– ...yaş yaşdı, istər-istəməz təsiri var. Əlbəttə, çətindi. Yaşın çox olmasının pis tərəfi odu ki, bir sıra dostlar, qohumlar dünyasını dəyişir, onlar itir, onlar gedir.

– Böyük türk şairi Nazim Hikmət isə deyir ki, insan hər yaşda gəncdir. Gərək özünü elə saxlayasan, yaradıcılıqdan, mütaliədən qalmayasan.

– Zaman bəzən dar ağacı olur, yazıçı müttəhim...

– Ən yaxın dostum da, düşmənim də özüməm.

– Mənim ağrılarım-iztirablarım içimdədir. Hər kəs bir cürə doğulur. Mən sakit axıram.

– Şairlik xoşbəxtlik deyil.

– Şair ürəyi də göylər kimidi. Dolduqca boşalır, boşaldıqca dolur.

– ...Şairin ən gözəl əsəri yazmadığı əsərdir.

– Əsl şöhrəti yalnız yaradıcılıqla qazanmaq olar.

– Poeziya – bəlkə, həyatın görünməyən tərəfidi? – şairin yaşadığı dünya. Bəlkə, Yunus Əmrənin “Məndə bir mən də var, məndən içəri” dediyi ilahi qüvvədir?!

– Müqəddəslik – körpə gülüşüdü. Məhəbbətdi, insanlıqdı. Yaxşını görməkdi.

– Şairin şəxsi hissi də ictimaidi, əslində.

– …şair həyatı normal həyat deyil. ...Şairlik, – deyirəm, bədbəxtlikdi, xoşbəxtlik deyil.

– Nabat xalanın çörəyini xatırlamaq? Bəli! Onu xatırlamaq azdır... Bu çörək mənim həyatımdı. O çörəkdən əziz mənə heç bir şey yoxdur. Anamın çörəyidi.

– Mənim bütöv sevindiyim yadıma gəlmir. Bəlkə bu, taledi, alın yazısıdı?!

– Təklik fəlakətdi! Təklik yaradıcılıq vaxtı yaxşıdı. Xoşbəxtlik saymıram tək yaşamağı.

– Gərək mühitin olsun. Kim nə deyir desin, tənhalıq faciədir, fəlakətdir... Bu, yaradıcılığa da böyük təsir edir.

– Sevincli anlarım az olub... Şübhəsiz, dərdli adamam, mən qəmi üstün tuturam.

– İstədiyin adam yanında olanda, qürbət də vətəndir.

– Anamı, həyat yoldaşımı itirmək dünyada tək qalmağım idi. Oğlun, qızın da yanında bəzən tək qalır insan.

– Hər kəs fərddir, tək doğulur.

– Gözəlliyi və zərifliyi insanın təmizliyində axtarıram.

– Dərdimi Allahla bölüşürəm. Şeirlər yazıram.

– Şair biganəlikdən dünyasını dəyişir, diqqətsizlikdən ölür.

– İnanın, mənim ən zəif damarım inanmaqdı.

– Görünür, tale var. Alın yazısını danmaq olmaz. Dünya bəzən dərkedilməz olur.

– Özün ağlaya bilərsən, ancaq istədiyin adamı ağlatma!

– Çox vaxt kişilər məclislərə tək gedir. Əgər qadın kişinin sağlığında gün görmürsə, nə vaxt görəcək?

– Yaxşı deyilmişdir, qadınlar xoşbəxtdirlər ki, ağlayırlar. Ağlamaq qəmin müalicəsidir.

– Kişilər də ağlayır. Kişinin göz yaşı içəriyə axır.

– ...günü-gündən yetkinləşirəm...bəlkə də, bu mənim faciəmdir.

– Düz deyirlər ki, insan insana isinişir. Bəlkə də, bu, izah olunmayan insani bir hissdir.

Ürək – insanın içində başqa bir insandı...

# VII Hissə

## *“Mənim Ədəbi Taleyim...”.*

*Millətin*

*böyük*

*oğlu...*

* * *

Adını milli iftixar hissilə çəkdiyim Heydər Əliyevlə tanış olanda heç ağlıma gəlməzdi ki, bu böyük şəxsiyyət sonralar mənim tərcümeyi-halımın ən parlaq səhifələrinin yazılmasında arxamdayağım olacaq və mənəvi bir enerjiyə çevrilib ruhumda yaşayacaqdı.

Mən öz ədəbi taleyimlə – əslində, tarixlə, zamanla görüşə gedirdim...

* * *

Ucaboylu, şax yerişli, möhkəm bədənli, təbəssümlü, eyni zamanda da çox ciddi bir insanla görüşdüm.

* * *

Heydər Əliyevin şəxsində mən Nəriman Nərimanovun prototipini görürdüm. "Nəriman" poeması mənim ədəbi taleyim idi.

...İlk dəfə 1968-ci ildə ayrıca kitab şəklində "Azərnəşr" çap etmişdi. 1400 misra ixtisar olunmuşdu. Qlavlit əsərin içindən əsər götürmüşdü.

* * *

Azərbaycan KP MK-da, Büro iclaslarının birində... mən də ordaydım. Arada söz alıb "Nəriman" poemasının qlavlit tərəfindən ixtisar edildiyini dedim.

Gördüm ki, narahat oldu. Çıxışı zamam göstəriş verdi ki, poema necə yazılıbsa, eləcə də çap olunsun.

Mən yerdən təşəkkürümü bildirdim. Ancaq ixtisarlar qlavlitdə "itmişdi...".

* * *

Heydər Əliyev nəinki şeirimizi oxuyur, həm də şairi – şairdən, yazıçını – yazıçıdan, alimi alimdən qoruyurdu.

* * *

Azərbaycanda sənətin bütün növləri onun vaxtında çiçəkləndi. Onun vaxtında yaşayan hər bir sənətkarın yaradıcılıq taleyində Heydər Əliyevin pak ruhu yaşayır.

* * *

Heydər Əliyev Akademik teatrda, "Hamlet" tamaşasının fasiləsi zamanı çay süfrəsi arxasında səmimi söhbət əsnasında dedi ki, – "Atabəylər" əsəri hər gün göstərilməlidir".

* * *

Heydər Əliyev mənə qəzet barədə, qəzetçilik işi barədə qiymətli tapşırıqlarını, tövsiyələrini verdi.

Bu tövsiyələr uzunmüddətli iş planım, yaradıcılıq proqramım oldu.

* * *

Ədəbiyyatımızı, yazıçılarımızı, mətbuatımızı, eləcə də mətbuat işçilərini qiymətləndirir, onların əməyinə, şəxsiyyətinə hörmət edirdi. Onun yanından insan böyüyüb çıxırdı.

* * *

Heydər Əliyev "Ədəbiyyat və incəsənət" qəzetinin ideya müəllifiydi. ...qəzetin birinci abunəçisi və oxucusuydu.

* * *

Heydər Əliyev "Ədəbiyyat və incəsənət" qəzetinin Baş redaktorundan tutmuş, redaksiya heyətinə, əməkdaşlarına qədər hamısını tanıyan və hörmət edən Azərbaycan Respublikasının birinci şəxsiyyətiydi.

Belə şeylər heç vaxt unudulmur və təbii ki, zaman-zaman yada düşür.

* * *

O, millətini "KQB" xofundan, "Xan və dehqan", Novruzəli kimi qul təbiətindən tamam xilas etmək istəyirdi.

* * *

"Ədəbiyyat və incəsənətdə Baş redaktor işlədiyim müddətdə biz Heydər Əliyevin çıxışlarını qəzet səhifələrində verirdik. Onun elə çıxışı, söhbəti, müsahibəsi olmazdı ki, orada millətin tarixinə, taleyinə toxunmasın, Respublikanın mövcud həyatının canlı mənzərəsi olmasın, ədəbiyyat, mədəniyyət və incəsənət məsələlərindən danışmasın.

* * *

Özüylə Respublikanın həyatına yeni ab-hava, yaradıcılıq əhvali-ruhiyyəsi gətirmişdi.

* * *

Biz onun yanında özümüzə oxşayırdıq.

Biz əvvəllər Azərbaycanda millətə bu qədər yaxın olan nə belə siyasi rəhbər, nə belə Mərkəzi Komitənin Birinci katibi, nə də ziyalıları belə duyan, başa düşən, qoruyan "KQB" rəhbəri görmüşdük.

* * *

Onun gəlişiylə klassik yazıçılarımız, böyük adamlarımız da bir-bir görünməyə başlayır, pyedestallara qalxır, heykəlləşirdilər.

* * *

Heydər Əliyev istedadları seçib irəli çəkir, yaxşıları qoruyur, qiymətləndirir, ədaləti müdafiə edirdi.

* * *

Heydər Əliyev sonralar, yazıçılarla görüşlərinin birində demişdi ki, mən Moskvada işlədiyim vaxtlarda (Sov.İKP MK Siyasi

Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyirdi) Bakıdan ancaq "Ədəbiyyat və incəsənət" qəzetini alıb oxuyurdum.

* * *

Bizim qəzetin müzakirəsində ədalət zəfər çaldı. Çünki Heydər Əliyev ordaydı. O olan yerdə də ədalət olurdu.

* * *

"Ədəbiyyat və incəsənət" qəzetində işlədiyim cəmi altı ay idi ki, qəzetin üçillik fəaliyyətini Azərbaycan KP MK-nın Bürosuna müzakirəyə çıxardılar. Büro iclası nə deməkdisə, indikilər təsəvvür edə bilməz. Yalnız Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev qəzetimizi müntəzəm oxuduğunu və yaxşı çıxdığını dedi.

* * *

Taleyimə minnətdaram ki, məni "Ədəbiyyat və incəsənət" qəzetinin Baş redaktoru vəzifəsinə Ulu Öndərin özü təyin etmişdi.

* * *

Heydər Əliyev istər yüksək dövlət səviyyəli tədbirlər olsun, istərsə də ədəbi görüşlər – həmişə insanların yanındaydı.

* * *

O olan məclislərə bizi dəvət edirdilər. Əslində özü yaradıcı adamlarla görüşmək, danışmaq, vəziyyətini öyrənmək, kömək etmək istəyirdi.

* * *

Respublika Dövlət Mətbuat Komitəsinin sədr müavini işlədiyim zaman... Azərbaycanda ilk dəfə Tehran mətbəəsilə müştərək şəkildə Heydər Əliyevin "Səsli kitab"ını nəşr etdim və onun bir neçə nüsxəsini özünə də göndərdim. Dünya azərbaycanlıları üçün

nəzərdə tutulan lent yazıları bir neçə kasetdə təqdim olunurdu. Hər kəs Ulu Öndərin öz səsilə çıxışlarına qulaq asa bilərdi.

* * *

...öyrəndim ki, "Səsli kitab" çox xoş təsir bağışlayıb.

* * *

Heydər Əliyevin məhəbbəti də nümunəydi.

* * *

Moskvada mənim Zərifə xanım Əliyevanın xatirəsinə "Əbədiyyət" adlı şeirimin əlyazmasını ilahi məhəbbət xatirinə düz on bir il saxlamış və sonra "Azərbaycan qadını" jurnalına çapa vermişdi.

* * *

Zərifə xanımın xatirəsinə həsr etdiyim ikinci şeirimin (şeir prezident Heydər Əliyevin başqa ölkə prezidentlərilə görüşlərinə həsr olunmuşdu) əlyazmasını da alıb qoltuq cibinə qoydu. Təşəkkür etdi.

* * *

Qələm yoldaşlarım zarafatla dedilər ki, yəqin, bu şeiri də cənab Prezident müəllifdən xəbərsiz çap etdirəcək.

Amma çap etdirə bilmədi...

* * *

Saranın Moskvada xəstəxanada yatdığını eşidəndə baş həkimə zəng vurub onun vəziyyətilə maraqlanmışdı.

Sara deyirdi, qalxan kimi özüm gedib Heydər Əliyevə minnətdarlıq edəcəyəm. Ona dualar edirdi...

* * *

Heydər Əliyevin adı və soyadı – ovaxtkı SSRİ məkanında və bütün dünyada azərbaycançılığa çağırış idi. Qədim tarixi, yüksək

mədəniyyəti olan milləti millətin özünə və dünyaya tanıtmaq vasitələrindən biriydi.

* * *

Heydər Əliyev Prometey kimi insanlara işıq paylasa da, özü işıq kimi yanır, nurunu heç kəsdən əsirgəmirdi. Biz onun işıqlandırdığı yolun yolçularıyıq.

* * *

Mənim yaşıdım olan ziyalıların həyatında və ədəbi taleyində Heydər Əliyevin əvəzsiz rolu olmuşdur; çünki bu ziyalılar onun yorulmadan və əzmkarlıqla gördüyü dövlətçilik işlərinin canlı şahidləriydilər.

* * *

Yadımdadır, mənim də iştirakçısı olduğum ölkə üzrə keçirdiyi referendumda, demək olar ki, hər bir vətəndaş ilə məsləhətləşəndən, razılaşandan sonra qəbul edilən Konstitusiyamızda Azərbaycan dilinin dövlət dili olması barədə tarixi qanun imzaladı.

* * *

Yazıçılarla, alimlərlə görüşlərində tariximizin elə məqamlarına toxunur, elə yazılmamış, lakin millət üçün çox vacib olan qatlarını qaldırırdı ki, onun genişmiqyaslı mütaliəsinə heyran olmamaq mümkün deyildi.

* * *

Tövsiyələri bizim könül tarlamıza yaradıcılıq toxumu səpir, sonra da onlar bitirdi.

* * *

Mənim başım çox çəkib. “Nəriman”, “Kimin sualı var?”, “Zümrüd quşu” əsərlərimin üzə çıxmasına, uğur qazanmasına mane olan çətinliklərin qarşısının alınmasında Ümummilli lider Heydər

Əliyevin böyük təsiri olmuşdur. “Zümrüd quşu” poemasından sonra o mənə Əməkdar incəsənət xadimi adı verdi.

* * *

“Qoy ədalət zəfər çalsın” – Heydər Əliyevin iş prinsipi, yaradıcılıq üslubuydu.

* * *

*“Kimin sualı var yazmışdım o vaxt,*
*Cavabı özümdən istəyirdilər”...*

“Kimin sualı var?” adlı irihəcmli poemamdan sonra da məni ittiham etdilər. Guya əsər Birincinin əleyhinə yazılıb. O zaman mərhum akademik Həsən Əliyev redaksiyada mənim yanımdan Yazıçılar İttifaqının Birinci katibinə zəng vurdu, əsərin çap olunan parçalarını oxuduğunu dedi. “Əsərin parçalarını Birinci (Heydər Əliyevi nəzərdə tuturdu) oxuyub və xoşu gəlib”, – dedi.

Bununla da mərəkə bitdi. Birinci yenə də şairi – şairdən, yazıçını – yazıçıdan qorudu.

* * *

Heydər Əliyevin “Kimin sualı var?” poemasında oxuduğu misraların bir neçəsi onun özünün dediyi yanıqlı sözləriydi. ...Mən onun ürəyinin naləsinə biganə qala bilmədiyimdən, əsərə də daxil etmişdim. Bundan çoxlarının xəbəri yox idi... Heydər Əliyev bu misraları oxuyub gəncliyinin ən ağır illərini yenidən xatırlamışdı...

* * *

Kimlərsə ayağımızdan çəkir, Heydər Əliyev əlimizdən tuturdu...

* * *

O, ədəbi mühitə milli ruh təlqin edir və cəsarətli əsərlərin həmişə tərəfini saxlayırdı.

* * *

Heydər Əliyevi tanıyan yaşlı nəsil nümayəndələri yaxşı bilirlər ki, o, diqqətcil, möhkəm yaddaşa malik bir insan idi. ...Tanrı vergisiydi.

Həmişə müasirimiz olan klassiklərin həyatına, yaradıcılığına hədsiz həssaslıqla yanaşır və bunu tabeliyində olanlardan da tələb edirdi.

* * *

O təkcə sevmirdi, həm də sevdirirdi.

Keçirdiyi ədəbi tədbirlər sonradan ədəbi ənənəyə çevrilirdi.

Dəryalara daş atmaqla heç vaxt suyu bulandırmaq olmaz. O əsl dərya idi...

* * *

O, böyük ideallarla yaşayan, xalqının sabahını düşünən və onunla fəxr edən şəxsiyyət idi.

* * *

Mən hardasa oxumuşdum ki, dövlət başçısının nəzərində kiçik bir hadisə yoxdu və olmamalıdı. Onlar zahirən xırda görünən hadisələrə böyük məna verirlər və verməlidirlər.

Heydər Əliyev də məhz belə dövlət başçısı idi.

* * *

Müstəqil Azərbaycanın banisi və yaradıcısı siyasi rəhbərliyə gəldiyi birinci gündən "Qoy ədalət zəfər çalsın" şüarı ilə yüksək tribunaya qalxdı. Və zəfər çaldı. Axırda da üç dəfə "Mən azərbaycanlıyam və bununla da fəxr etdiyimi demişəm, indi də fəxr edirəm" – dedi. Bu qiymətli sözləri, müstəqil Azərbaycanı və öz ləyaqətli varisi cənab İlham Əliyevi bizə yadigar qoyub getdi.

O, millətin və mürəkkəb epoxanın böyük oğluydu, həmişə də böyük olaraq qalacaq...

*Həyatım –*

*müəllimimə*

*minnətdarlıqdı...*

* * *

Bir gəncin manifesti – Mir Cəlalın öz manifestiydi.

* * *

Kiçik hekayələrin böyük ustası olan Mir Cəlal zamanın rənglərini sözə köçürürdü.

* * *

Məni idarə edən tale ağır anlarımda imdadıma yetib. Yoluma yaxşı insanlar çıxarıb. Onda da yazıçı, alim Mir Cəlal Paşayevə rast oldum. Mir Cəlal müəllim soruşdu:

– Nə axtarırsan?

– İş axtarıram.

– İş axtarma, adam axtar. Adam da mən!

Məni apardı Azərbaycan Dövlət Universitetinə, aspiranturaya.

* * *

Mir Cəlalın zəkası, ürəyi, ailəsi bir harmoniya təşkil edirdi.

* * *

Mir Cəlal müəllim qeyri-adi adam idi. Seyid övladıydı. İşi-peşəsi yaxşılıq etmək idi.

Özü də heç vaxt yaxşılıqlarını yada salmazdı. ...Püstə xanım da belə idi:

*Ən saf duyğuları mən ONDA gördüm,*
*Mənim qayğılarım dərdi-səriymiş.*
*Rəngli yuxuları mən orda gördüm,*
*Dünya bir rəssamın şah əsəriymiş!*

* * *

Mir Cəlal – əbədiyaşardı, fəxri addı, tituldu.

* * *

Ərəb, fars və rus dillərini mükəmməl bilən bu görkəmli şəxsiyyətin Azərbaycanın ictimai fikir tarixində özünəməxsus yeri və qiyməti var.

* * *

Mir Cəlal inqilabçı deyildi, lakin inqilabi iztirablar içində yaşayırdı.

* * *

O təkcə əsər yazmırdı, həm də yenitipli oxucu yetişdirirdi, istəyirdi ki, yalnız yazılanları deyil, sətirlərarası və sətiraltı deyilən fikirləri də oxusun. Bu – böyük ədibin estetik-fəlsəfi duyumu və insan konsepsiyası idi.

* * *

Şərq və Qərb ədəbiyyatlarını və ədəbi məktəblərini gözəl bilən və ədəbiyyatşünaslığın fəlsəfi əsaslarından universitetdə mühazirələr oxuyan bir şəxsiyyət heç vaxt ədəbi çərçivələrə sığışa bilmirdi. Mir Cəlal özü – bütöv bir ədəbi məktəb idi. Onun zəngin və çoxşaxəli yaradıcılığı bu fikri söyləməyə imkan verir. O, ədəbi, elmi və pedaqoji təfəkkürü sayəsində qiymətli irs qoyub getmişdir.

* * *

Mir Cəlalın ədiblik, alimlik, müəllimlik fəaliyyəti insanın taleyində əsas rol oynamaq, onu şər qüvvələrin əlindən almaq prinsipi əsasında qurulmuş, bir çox mövcud ədəbi cərəyanların təlimlərindən güclü olmuşdur.

* * *

Klassiklər dünyaya gələn hər təzə nəsillə yaşıd olurlar, yeni fikrin, yeni dünyagörüşün formalaşmasında – humanizm, insan, xeyir və şər kimi anlayışların dərkində təkcə tarixi yaddaş kimi yox, həm də cəmiyyətin istiqamətverici dəyərləri kimi yaşayırlar.

* * *

Mir Cəlal müəllim ədəbi prosesdən danışanda da, ədəbi gənclik haqqında yazanda da xeyihxah tövsiyələrini verir, ədəbiyyatın yüksək qayəsindən söhbət açır, yazı və yazıçı mədəniyyətindən bəhs edirdi.

* * *

Mir Cəlalın bir neçə nəsil ədəbi gəncliyin yetişməsində böyük xidməti olmuşdur. Nüfuzlu bir yazıçı kimi gənc qələm dostlarının əsərlərinin çapına da köməklik göstərirdi.

* * *

Mir Cəlal müəllim əyani aspiranturaya daxil olmağıma köməklik göstərdi, "Azərbaycan-Ukrayna ədəbi əlaqələri" mövzusunda elmi işimi təsdiq etdirdi və elmi rəhbərim oldu. Arifin adına aldığı evi mənə bağışlamışdı.

* * *

Mir Cəlal ömrünün axırına qədər indiki Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləmişdir. Mən başqa bir yazımda bu kafedranı "universitet içində universitet" adlandırmışam. Bu gün filologiya sahəsində fəaliyyət göstərən alimlərin əksəriyyətinin elmi rəhbəri xeyirxah insan Mir Cəlal Paşayev olmuşdur.

* * *

Mir Cəlal incə yumoru, qüvvətli satirik qələmi olan yazıçıdır.

* * *

Mir Cəlal müəllim insanpərvər idi. İstedadlı insanların qədrini bilirdi.

* * *

Mir Cəlalın yanından insan dahiləşib gedirdi, cırlaşıb getmirdi. Adamı böyüdürdü...

* * *

Mir Cəlal mənim üçün tarixi bir simadı, yaxud tarixdi. Universitetdə "Azərbaycan ədəbiyyatı" kafedrasının müdiriydi, yaxud bütöv bir universitet idi. Mənim yazıçı dostum idi, yaxud ayrıca bir Yazıçılar İttifaqıydı.

* * *

*İstedadın köməyinə istedad çatır.*
*Dahilərin fəryadına insan lal olur.*
*O insan ki, insan olur – Mir Cəlal olur.*

* * *

Mir Cəlal müəllim, həqiqətən, peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canındaydı, qanındaydı.

* * *

"Həyatım müəllimimə minnətdarlıqdı..."

MÜNDƏRİCAT

Ay haray ........................................................................................5
Sirr deyil ........................................................................................7
29 güllənin yiyəsi...........................................................................8
Tale...............................................................................................11
Mir Cəlal misal çəkərdi ...............................................................13
Tələbəlik .......................................................................................14
Məndən yaman rahatdılar ............................................................16
Daim göz önündə..........................................................................17
Dünya yaşamaq yeriymiş..............................................................18
Əli bala .........................................................................................19
Bu da bir “nərdivan”dı...................................................................20
Ayaqqabılar...................................................................................23
Gül ...............................................................................................24
İkimiz...........................................................................................25
İkinci addım..................................................................................26
Görəsən.........................................................................................27
İmtahan .........................................................................................28
Sevincim üçün ..............................................................................29
Qorxuram “anama” mən ana deyim .............................................30
Yazıq fil.........................................................................................32
Tüfəng...........................................................................................33
Payız etüdləri ................................................................................34
Sərhəd ...........................................................................................36
Uşaq ..............................................................................................37
Deyilmiş........................................................................................38
Xalq artisti Əminə Yusifqızına .....................................................39
Doğmalıqla üz-üzə.........................................................................40
Vyetnamlı yaşıdıma .......................................................................41
İsa Muğanna .................................................................................43
Camal müəllim ..............................................................................44
Qaratoyuq .....................................................................................45
Gəncə dəftəri..................................................................................46
Eşq də qan ağlayır yetimlər kimi ..................................................49
Uçun, uçun.....................................................................................51
Darıxma ........................................................................................53
Ay Tapdıq qağa .............................................................................54
Sözgəlişi.........................................................................................56
Gündüzlər olsam da harda, harda mən ........................................60
Mənim göllər kimi bulanmağım var .............................................61

Mənə oxşasan ....62
Həyat....64
Yaşa, kirpi ....65
Mən gücsüz oldum....66
Dərd ....67
Oğluma ....68
Həyat....69
Sazi Zəlimxan köklədi ....71
Görəydim sizi ....73
Salam ....74
Qadın əlləri ....75
Bir təsəllim qalırdı ....76
Dünya....77
Xəbər yoxdu ....78
***"Nazim Hikmətlə söhbət" silsiləsindən....85***
Nazim Hikmət....85
Sabah gələsiydi ....86
Siz xoşbəxtsiniz ....88
Nazim şeir deyirdi ....91
Mən bilsəydim ....92
Türk misrası ....95
Qara dəniz sahili, Nazim Hikmət hekayəti ....96
Ankarada Məmməd Əmin Rəsulzadənin məzarı ....97
Türk qardaşım....99
***"Yuxularda yanan şəhər"....103***
Məndə bir belorus qışqırır indi....103
Xatın harayı ....104
Doqquz milyon və yaralı ağaclar....106
Yuxularda yanan şəhər....108
Yerin tarixi ....109
Şair....110
Rəşid Brüsseldə....111
Nizami Avropada ....113
Anamın toxuduğu xalı ....114
Mehr-Ülfət ....116
Aynur....118
Reklam.... 121
Bir qoca tər tökürdü ....122
Ağcaqayın ağacları ....125
Bakı, Sarayevo....126
Fələstin nəğmələri....127
Təbrik, qardaş!....129

"Varadero kurortdu" ........................................................................130
"Hava nəmdi, hava nəm"....................................................................131
"Nazik bir xətt uzanır"......................................................................132
Pikassonun göyərçini.........................................................................133
***Hindistan. Yadigar günlərim........................................................134***
1.Təyyarədə ........................................................................................134
2.Göyərçin ..........................................................................................136
3.Fillər və tulalar.................................................................................138
4.Gəzməyə qürbət...............................................................................140
5.Gözlər, talelər..................................................................................142
6.Rənglər, odlar...................................................................................144
7.Minarə...............................................................................................146
8.Yeddi yüz milyon və iki nəfər..........................................................147
9.Tacmahal...........................................................................................150
10.Ziyafət.............................................................................................151
Berlin yolu ..........................................................................................153
Almaniya ............................................................................................154
Lalə ....................................................................................................155
Rəhim..................................................................................................156
Pəncərə önündə...................................................................................157
Qusta ...................................................................................................158
İnkvizisiya qəhrəmanı.........................................................................160
Yada düşdü..........................................................................................161
Berlin ..................................................................................................162
Alman əsgərinə...................................................................................163
Komendant arvadı...............................................................................166
Alman qızı Renate ..............................................................................169
Məftillər, misralar ...............................................................................172
Buhenvald sükutu ...............................................................................173
Danış, Elba..........................................................................................174
Roma...................................................................................................179
Brut ....................................................................................................181
Etna ....................................................................................................183
Qədim avtoqraf....................................................................................184
***Odessa, Qara dəniz ...........................................................................186***
1.Mavilik.............................................................................................186
2.Uçan ləpələr......................................................................................187
3. "Admiral Naximov" gəmisi..............................................................188
4.Həmid ...............................................................................................189
5.Dnepr prospektləri ...........................................................................191
Ukraynalı qız .....................................................................................193
Aqava..................................................................................................196

Mehmanxanada söhbət ....................197
Taqanroq ağrısı ....................199
1.Gürcüstan çiçəyi maka....................201
2.Asəf idi, Püstə idi, bir də mən ....................202
3.Ən yaxşı qadın....................203
4.Himn ....................204
5.Məhəbbət ....................205
Abxaziya....................206
Yelena Andreyevna....................208
Sağlıq ....................210
Dərbənd yolu ....................212
Jeleznovodskda “gözəllik” bulağı ....................213
Yenə yavaş-yavaş havalar düşür....................214
Əziz....................217
Nikolay ....................219
Xaricilər ....................220
Bəxtiyar Vahabzadə ilə Daşkənddə qonaq evində söhbət....................222
Kərkük yaylığı ....................224
Sən sevdin məndən betər ....................226
Yeri gəlmişkən ....................228
Bayatı....................230
Azərbaycan ....................231
Bilmədim ....................233
Hüseyn Cavid ....................234
Şəhidlər Xiyabanı ....................236
Mənim tarixim ....................237
Ləyaqət ....................238
Mənə yetim deməyin ....................239
Qədim dünya xalqlarının biri də biz ....................240
O vaxt yaşıd idik....................242
Sənin ad günün ....................244
Yaşayır ....................246
Yerdə Yer həsrəti....................247
Gəncəli qızı, yaxud bir şəhər itdi....................249
Keçdi belə ....................250
Çöllərəmi tapşırdın məni? ....................251
Bizim şeir gecəmiz ....................252
Tarix tökür tuncdan məni....................253
Mənim muğamatım....................254
Hardadı ....................255
Kimi dindirirəm, “qıfılbənd” deyir....................257
Yanar ürək....................260

Ey vətən ....................................................................................262
Gözünə mərd baxan gözdən "utanır"..................................................263
Biz orda görüşdük..........................................................................265
Çinarlı .......................................................................................267
Rəvayət ......................................................................................269
Lenin "baba" ...............................................................................270
Doqquz ölkə abidəsi .....................................................................273
Sən mənə zəng eləyəndə................................................................275
Fikir eləmə ..................................................................................276
Mənə "can" deyibsən.....................................................................277
Pandemiya ..................................................................................278
Budaq müəllim .............................................................................279
Son söhbət...................................................................................280
Günəşlə oynayan qız.......................................................................282
Dərdiş.........................................................................................283
Xəbərsiz .....................................................................................284
Göydə-Günəş, yerdə-nəfəs ..............................................................285
***Heç nə istəməyən qız (uşaq şeirləri)...*** ...........................................287
Qızım .........................................................................................289
Hazır cavab .................................................................................290
Bir həyətdə beş uşağın söhbəti .........................................................291
Xatirə .........................................................................................292
Heç nə istəməyən qız......................................................................293
Dişləri mırıq, düyməsi qırıq, şalvarı qısa, qardaşım İsa ..............................294
Uşaqlar – böyüklər.........................................................................295
Heykəl .......................................................................................296
Yoxa çıxan yeddi yaylıq dastanı........................................................297
Xanımın sərgidə iştirakı..................................................................298
Şeytan qız ...................................................................................299
Ay Xanım, gəl oynayaq ..................................................................300
"Arı" və "Alı".................................................................................301
Nazim.........................................................................................302
Düz görübsən, atacan......................................................................303
Yuxuda ağlatdılar...........................................................................304
Nəzrin gör kim olacaq ....................................................................306
Həmin sinifdə ..............................................................................307
Aysel, Gülsel, İmamət.....................................................................308
Qızıl lələk nağılı ............................................................................310
Solmaz ........................................................................................313
Ruxsarənin babası...........................................................................314

***Hikmətli ifadələr***

*I Hissə*...315
"Qadındı hər evin isti nəfəsi..." ...316
"Ya heç məhəbbətin yoxdur izahı..." ...334
*II Hissə* ...353
"Dünyanı əyləncə hesab edənlər..." ...354
"...bu dünya fəlsəfədi..." ...373
*III Hissə* ...397
"Bilən yoxdu, Tanrım, nəyə can atdığını..." ...398
"Xalqın böyüklüyü silahlarla yox..." ...425
"Ağ saçın hər başda yoxdu qiyməti..." ...437
"Səhv – məktəbdi..." ...446
*IV Hissə* ...449
"Mən yuxulu gəlib-getdim dünyaya bəlkə..." ...450
"Dünyanın işləri tərsinə dönür..." ...475
*V Hissə* ...495
"Qılınc götürməsə tarixdə bir xalq..." ...496
"Düşmənin avtoqrafı eynidi..." ...509
*VI Hissə* ...515
"Əsl şairlər ölmürlər, qeyb olurlar..." ...516
"Elm ilə tikilən hörgü heç vaxt uçmaz..." ...528

***Müsahibələrdən***

"Xeyir də, şər də insanın öz içindədi..." ...542
"Ürək – insanın içində başqa bir insandı..." ...549
*VII Hissə* ...555
"Millətin böyük oğlu..." ...556
"Həyatım – müəllimimə minnətdarlıqdı..." ...564

**Nəriman Həsənzadə**
**Seçilmiş əsərləri**

**III cild**

Bakı, ″Aspoliqraf″, 2022

**Tərtibçi**

Gülxani Pənah
*filologiya üzrə elmlər doktoru, dosent*

**Naşir**
Elşən Məmmədov

**Koordinator**
Ruslan Ələkbərov

**Redaktor**
Məlahət Qənbərova

**Rəssam**

Ədalət Həsən

**Dizayner**

Səbinə Məmmədova

**Üzqabığının dizaynı**

Təhmasib Mehdiyev

**Korrektor**

Günel Məmmədova

Çapa imzalanmışdır 18.11.2022.
Format 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 36,0.
Sifariş 123. Tiraj 500.

**“Aspoliqraf LTD” MMC-nin mətbəəsində**
**çap olunmuşdur.**

Bakı, AZ1052, F.Xoyski küç.,151
e-mail: aspoligraf.ltd@gmail.com
Tel.: (+994 12) 567-81-28/29

*"Bir insan ömrünü girov qoymuşam,*
*bir şair ömrünü yaşatmaq üçün..."*

ASPOLİQRAF

ISBN 978-9952-564-54-9
9 789952 564549